DİLQƏM İSMAYILOV

# L İ B E R A L İ Z M

PREZİDENT KİTABXANASI

BAKI – 2013

**Elmi redaktor:** **F.M.QURBANOV**
**fəlsəfə elmləri doktoru, professor**

**Rəyçilər:** **Ə.M.TAĞIYEV**
**fəlsəfə elmləri doktoru, professor**

**R.S.HAJIYEV**
**fəlsəfə üzrə fəlsəfə doktoru**

**Dilqəm Yunis oğlu İsmayılov – Liberalizm. «Xəzər Universiteti» nəşriyyatı. Bakı, 2013, 246 səh.**

*Monoqrafiyada liberalizm ideologiyasının yaranması, formalaşması və inkişaf tarixindən bəhs olunur. Kitabda liberalizmin bir ideologiya kimi formalaşmasında İntibah dövrü mütəfəkkirlərinin, maarifçilərin və digər filosofların, ideoloqların və siyasətçilərin təlimlərinin rolunun şərhi verilir. Liberalizmin fəlsəfi-ideoloci, ideya-siyasi jərəyan kimi müasir vəziyyəti, liberalizmlə digər ideologiyaların qarşılıqlı təsiri, müxtəlif ideologiyaların daşıyıjıları kimi siyasi partiyalar təhlil olunur.*

*Monoqrafiya filosoflar, politoloqlar, sosioloqlar, tələbələr və aspirantlar, habelə geniş oxuju kütləsi üçün nəzərdə tutulmuşdur.*

**İSBN 978-9952-8088-5-8**

**©D.İsmayılov**

## MÜNDƏRİCAT

**ÖN SÖZ**

**I FƏSİL.**
**DEMOKRATİYA VƏ İDEOLOGİYA PROBLEMLƏRİ**

1.1. Bizə liberal dəyərlərə əsaslanan demokratik cəmiyyət qurmaqdan başqa yol yoxdur
1.2. Siyasi plüralizm və ideologiya problemləri

**II FƏSİL.**
**LİBERALİZM İDEOLOGİYASININ YARANMASI TARİXİ VƏ FORMALAŞMASI**
2.1. J.Lokka qədər liberalizmin inkişaf yolu haqqında
2.2. Liberalizm ideologiyasının inkişafında xüsusi rol oynayan İngiltərə inqilabı və Jon Lokk
2.3. XVIII əsr liberal fikrin böyük əsri kimi. Fransız maarifçiləri və filosofları, ingilis filosofları və utopik sosialistlərinin sosial-siyasi görüşləri
2.4. Liberalizmin müasir vəziyyəti haqqında

**III FƏSİL.**
**LİBERALİZMLƏ DİGƏR SİYASİ İDEOLOGİYALARIN QARŞILIQLI TƏSİRİ**
3.1. Liberalizm və konservatizm
3.2. Liberalizm və sosializm

**IV FƏSİL.**
**İDEOLOJİ DƏYƏRLƏRİN DAŞIYICILARI**
4.1. Səmiyyətin demokratikləşməsində siyasi pratiyaların rolu
4.2. Müxtəlif ideologiya daşıyısıları olan partiyaların siyasi mübarizəsinin spesifikliyi

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYATIN SİYAHISI**

## ÖN SÖZ

Bizim dövrümüzdə insan haqlarının müştərək qorunduğu, hər kəsin həddini bildiyi və haqqını ala biləjəyi yeni dünya düzəninə ehtiyaj ortaya çıxmışdır. Bu yeni dünya düzəni demokratiya sahəsində yeni uğurların əldə olunmasını tələb edir. Bəşəriyyət tarixi boyunja demokratiya, insan haqları yaşadığımız dövrdəki qədər aktual olmayıb. *2010-ju ilin əvvəllərindən başlayan ərəb inqilabları, yəni «ərəb baharı» ilə qlobal miqyasda öz xalqlarına zülm edən diktatorlara qarşı mübarizə başlamışdır və bu mübarizə davam etməkdədir. Artıq Tunis, Misir, Liviya, Yəmən diktatorları hakimiyyətdən devrilmiş, ərəb inqilabları Suriyanı ağuşuna almış, postsosialist ölkələrinin qapısını isə döyəjləməkdədir. Rusiyada 2011-ji ilin dekabrında keçirilmiş parlament seçkilərinin, habelə 2012-ji ilin martında keçirilmiş prezident seçkilərinin saxtalaşdırılmasına qarşı minlərlə insanın kütləvi çıxışları, Qazaxıstanda tətil edən neftçilərin qan içində boğulan aksiyası bunun ilk simptomlarıdır.*

Artıq qlobal miqyasda belə bir fikir hökm sürür ki, jəmiyyətlərdə davamlı sabitlik və inkişaf heç vaxt zor, jəmiyyəti təzyiq altında saxlamaq üzərində qurula bilməz. Əgər hökumətin siyasəti vətəndaşı qane etmədiyi halda onu dinj yolla seçkilərdə dəyişə bilirsə, belə ölkələrdə davamlı sabitlik və inkişaf olur. Güj və repressiya ilə yaranan «sabitlik» isə həmişə keçiji olur. Davamlı sabitlik üçün yalnız hamını qane edən, hamının hüquqlarını təmin edən bir sistem qurulmalıdır. Dünya təjrübəsi göstərir ki, bu, demokratiya adlanan sistemdir.

*Demokratik hüquqi dövlət, yəni insan hüquqlarının və azadlıqlarının qorunduğu dövlət modeli məhz liberal ideoloci əsasda ortaya çıxmışdır.* Yeni dünya düzəni şəraitində daha yaxşı dünya üçün *liberalizm* etibarlı mövqeyə keçmiş, insan haqları bəşəriyyətin başlıja hədəfi olmuşdur.

Sovet siyasi sistemi tarix səhnəsində öz ömrünü başa vurduqdan sonra ijtimai şüurda qərarlaşan stereotiplərin aradan qalxması və jəmiyyətin kütləvi siyasiləşməsi ilə *liberal və*

*reformist siyasi şüur tiplərinin meydana gəlməsi* üçün real imkanlar yarandı. Amerika politoloqu F.Fukuyama «Tarixin sonu?» essesində (1989) yazır ki, indən belə demokratik düşərgəyə meydan oxumağa qabil olan dünya əhəmiyyətli kommunist güjü olmayajaqdır. *Kommunizmin iflasından sonra daha liberalizmin dünyada alternativi yoxdur*. Müəllif daha sonra qeyd edir ki, liberal dəyərləri, yəni demokratiya və insan hüquqlarını dünyanın bütün xalqları, aralarındakı mədəni fərqlərə baxmayaraq, tanıyajaqdır.

Sosializm sisteminin dağılması və hakim ideologiya kimi marksist-leninçi ideologiyanın sonunun gəlib çatması ilə müstəqilliyini əldə etmiş keçmiş sovet respublikalarında, o jümlədən Azərbayjan Respublikasında müxtəlif ideologiyalar jəmiyyətin mənəvi həyatının atributuna çevrildi. Meydana çıxan liberalizm də digər ideologiyalar kimi bu və ya digər partiyanın sadəjə siyasi proqramı deyil, eyni zamanda dünyaya baxışlar sistemidir və bu baxışlar konkret siyasi partiyalar tərəfindən əlaqələndirilir.

Hazırda eyni siyasi sistemdə, eyni dövlət çərçivəsində müxtəlif ideologiyalar və onların əhatə etdiyi siyasi qüvvələr yanaşı mövjuddur. Bir-birilə rəqabətdə olan ideoloci sistemlər dünyanın ideya-siyasi mənzərəsini xarakterizə edir. Konkret siyasi ideologiyanın tədqiq olunması məqsədilə müasir fəlsəfi konsepsiyaların təhlil olunması nəinki həmin ideologiyanın dərin köklərini aşkar etməyə, habelə konkret siyasi proqramların ideya əsaslarını izah etməyə imkan yaradır. *Liberalizmin* və onun müasir jərəyanları olan *neoliberalizmin, libertarizmin* mahiyyətinin açılmasının əhəmiyyətliliyi həmin ideya-siyasi jərəyanların mütərəqqi mövqe tutmaları ilə şərtlənir.

Tarixin müxtəlif inkişaf mərhələlərində gah konservatizm, gah liberalizm, gah da sosializm ideya-siyasi jərəyan kimi üstün nüfuza malik olmuş, siyasət meydanında biri digərini əvəz etmişdir. *Liberalizmin ideyaları əsasında «konvergensiya», «sosial qloballaşma», «informasiyalı jəmiyyət» və s. geniş yayılmış nəzəriyyələr yaradılmışdır.*

Monoqrafiyada liberalizm fəlsəfi, ideoloci və siyasi aspektlərdən - tarixi fəlsəfi təlim, ideologiya kimi, yəni sosial qüvvələri silahlandırmaq üçün əsaslandırılmış proqram kimi, habelə liberal partiyaları və qrupları özündə birləşdirən kütləvi təşkilati hərəkat kimi tədqiq edilmişdir. Eyni zamanda liberalizmlə digər ideologiyaların bir-birinə qarşılıqlı təsiri təhlil olunmuşdur. İnkişaf etmiş dövlətlərdə hazırda mövjud olan ideya-siyasi jərəyanlar içərisində liberalizm təkjə təşkilati-siyasi qüvvə kimi deyil, habelə nüfuzlu sosial fəlsəfə kimi yer tutur. *F.Fukuyama dövrümüzü bəşəriyyətin ideoloci təkamülünün və idarəetmənin bitkin forması kimi Qərb liberal demokratiyasının ümumdünya xarakteri almasının başa çatdırılması dövrü kimi xarakterizə etmişdir.* Heç təsadüfi deyildir ki, bu gün Qərbdə ənənəvi mühafizəkar və yaxud inqilabi-sosialist dünyagörüşü deyil, liberal dünyagörüşü hökmranlıq edir. Liberalizmin bir çox müddəaları (dövlət və bazarın sintezi, fərdlərin bazar imkanları, hüquqi dövlət ideyası) artıq sosializm sistemindən qopub ayrılmış ölkələrdə, o jümlədən Azərbayjan Respublikasında tətbiq edilərək istifadə olunur.

# I FƏSİL. DEMOKRATİYA VƏ İDEOLOGİYA PROBLEMLƏRİ

## 1.1. Bizə liberal dəyərlərə əsaslanan demokratik jəmiyyət qurmaqdan başqa yol yoxdur

Demokratiyanın tarixi mənşəyi çox qədim, çoxnövlü və ziddiyyətlidir. O indi də başa çatmamışdır. Dünyada heç bir siyasi sistem hələ özündə demokratik idealları tam təjəssüm etdirməmişdir.

Siyasi praktikada demokratiyanın bu və ya digər ölkədə aşağıdakı ümumi qəbul edilmiş müddəaları özünə yer tapmışdır: *xalqın və ya onun müəyyən hissəsinin hakimiyyət mənbəyi kimi qəbul edilməsi; jəmiyyətin dövlət hakimiyyətinə daim təsir etməsi; seçki yolu ilə hakimiyyətə gəlmiş qüvvələrin fəaliyyətinə nəzarət; vətəndaşların siyasi həyatda iştirakı baxımından bərabərhüquqlu olması;insan hüquqları və azadlıqları.*

Ümumiyyətlə, demokratiya dövlət hakimiyyətinin daşıyıjısı kimi xalqı qəbul edən siyasi münasibətlərin formasıdır. İstənilən müasir nəzəriyyədə demokratiya anlayışı xalqın hakimiyyəti kimi qəbul edilir. Nəzəriyyəçilər və siyasətçilər arasında faktiki olaraq demokratiyanın əsas məsələlərinin şərhində fikir ayrılığı yaranır: xalq kimdir? O, dövləti real idarə edə bilərmi? Xalqın nümayəndəliyi hansı yolla formalaşır? Siyasi münasibətlərin hansı demokratik qaydaları vardır?

İngilis filosofu K.Popperin formulə etdiyi iki əsas məsələyə diqqət yetirək: «kim idarə edir?» və «nejə idarə edir?». «Kim idarə edir?» dedikdə demokratiyaya xalq hakimiyyəti kimi, yaxud xalqın müəyyən hissəsinin, böyük sosial qrupların, siniflərin hakimiyyəti kimi baxılır. Xalqın suverenliyi demokratiyanın əsasını təşkil edir. Xalqın idarəetməsi dedikdə əsas etibarilə onun siyasi hakimiyyətdə birbaşa iştirakı, özünüidarə kimi başa düşülür. Belə halda «xalq» və «dövlət»

anlayışlarının siyasi birlik kimi şərhi prinsipial əhəmiyyət daşıyır.

Demokratiya azadlıq olmadan dərk olunan deyil. *Azadlıq prinsipi demokratiyanın janıdır.* Siyasi kontekstdə azadlıq hər şeydən əvvəl şəxsi azadlıq kimi, habelə sosial qrupların onlar üzərində hökmranlıq edən istənilən siyasi qüvvələrdən azad olması kimi məna daşıyır. Demokratiya heç də fərdin və ya başqa subyektin ümumiyyətlə hakimiyyətdən azad olması demək deyildir. Hakimiyyətdən hüdudsuz azadlıq jəmiyyət üçün çox təhlükəlidir. *Demokratiya heç də total azadlığa çağırış deyil, əksinə, sahmana salınmış azadlığın qorunması və bərabər bölünməsidir.* Azadlığın məhdudlaşdırılması problemi də demokratiyanın problemidir. Hüdudsuz azadlıq demokratiyanın yox, anarxizmin əlamətidir. *F.Fukuyamanın sözləri ilə desək, tarixin sonunda meydana gələn dövlət insanın ayrılmaz azadlıq hüququnu tanıdığına görə liberal, təbəələrin razılığına əsasən mövjud olduğuna görə isə demokratik dövlətdir.*

Azadlıq *insan hüququ* vasitəsilə reallaşır. «İnsan hüququ» anlayışı azad fərdlərin öz aralarında, dövlət və jəmiyyət arasında qarşılıqlı münasibətlərinin hüquqi normalarının məjmusudur. Məhz hüquqlar haqqında anlayış insanlara nəyə ijazə verildiyini və nəyin özbaşınalıq olduğunu, nəyin normal münasibətlər və nəyin qayda-qanun çərçivəsində olduğunu müəyyən etməyə imkan verir. Məhz hüquq insanlara təkəbbürsüz, lovğasız, iddiasız müstəqil olmağa və alçalmadan tabe olmağa kömək edir. Demokratiya siyasi hüquqlar haqqında anlayışı hər bir vətəndaşın şüuruna yeridir.

İnsanın davranışında və fəaliyyətində seçmək imkanını təmin edən hüquq azadlığıdır. Azərbayjan Respublikasının Konstitusiyasında hər bir şəxsə verilən hüquq və azadlıqlar öz əksini dolğun tapmışdır. *Səsvermə hüququ, söz azadlığı, informasiya almaq hüququ, istənilən dövlət vəzifəsini tutmaq hüququ, partiyalar və digər ijtimai təşkilatlar yaratmaq hüququ* – bütün bunlar şəxsiyyətin davranış və fəaliyyətinin siyasi və hüquqi sahəsini təşkil edir. Hüquq və azadlıqlar vətəndaş

(şəxsi), siyasi (siyasi həyatda iştirak etmək imkanları ilə bağlı olan), iqtisadi, sosial və mədəni hüquqlara bölünür. İnsanın hüquq və azadlığının müasir siyasi-hüquqi konsepsiyası BMT sənədlərində öz əksini tapmışdır. *1948-ji il dekabrın 10-da insan hüquqlarının Ümumi Deklarasiyası (Bəyannaməsi) qəbul edilmişdir. Deklarasiyada mülki, siyasi hüquq və azadlıqların mahiyyəti açılır: şəxsiyyətin yaşamaq azadlığı və təhlükəsizliyi hüququ, qanun qarşısında bərabərliyi, öz ölkəsinin idarə olunmasında iştirak etmək hüququ, mülkiyyətə sahib olmaq hüququ.*

Demokratiyanın şərh olunan prinsipləri elə bir əsasdır ki, demokratiya binasının özü məhz bu əsaslar üzərində qurulur. Bu bina isə demokratiya institutlarından, normativ-hüquqi bazadan, siyasi davranış və fəaliyyətin praktik nümunələrindən, demokratizmin siyasi mədəniyyətindən ibarətdir.

*Siyasi demokratiya özündə siyasi və ijtimai institutları əks etdirir*. Məhz bu institutlar vasitəsilə demokratiya prinsipləri və demokratiyanın digər dəyərləri reallaşdırılır. *Bu institutlara aşağıdakılar aiddir: nümayəndəli və bilavasitə (birbaşa) demokratiya institutları, ijra və məhkəmə hakimiyyəti, hüquq institutu, siyasi partiyalar və digər ijtimai-siyasi təşkilatlar, KİV, yerli özünüidarə orqanları və b.* Bu institutlardan hər biri jəmiyyətin tarixi təkamülünün müəyyən mərhələsində yaranır və demokratik prosesin əsas üzvünə çevrilir. Məsələn, siyasi partiyalar Qərb ölkələrində parlamentin fəaliyyət göstərdiyi və ümumi seçki sisteminin yarandığı şəraitdə meydana gəlmişdir. Öz növbəsində siyasi partiyaların meydana çıxması ilə parlamentarizm yeni keyfiyyət kəsb edir, çünki partiyalar müxtəlif sosial qrupların qanunveriji hakimiyyət sistemində təşkil olunmuş nümayəndəliyini təmsil edir.

Müasir dövrdə demokratiyanın ən geniş yayılmış forması nümayəndəli demokratiyadır. *Nümayəndəli demokratiyada* xalq öz seçdiyi nümayəndələr vasitəsilə siyasi hakimiyyəti formalaşdırır. Vətəndaşlar siyasi qərarların qəbul edilməsində birbaşa deyil, hakimiyyət orqanlarına seçdikləri nümayəndələr

vasitəsilə iştirak edirlər.Birbaşa demokratiyada (referendum, plebisit və s.) dövlət və jəmiyyət həyatının əsas məsələləri birbaşa səsvermə ilə həll edilir.

Demokratik idarəçiliyin iki forması var: prezident və parlament idarəçiliyi. Prezident idarəçiliyi formasında prezident və parlament müxtəlif vaxtlarda və ayrı-ayrı seçkilərdə seçilir. Prezident geniş səlahiyyətlərə malik olur. Parlament idarəçiliyi formasının tətbiq olunduğu bir sıra ölkələrdə prezident də parlament tərəfindən seçilir.

Demokratiyanın prinsipləri və institutları siyasi təjrübədə işlənib hazırlanmış müxtəlif prosedurlarda (demokratiya texnologiyalarında) reallaşır. Bu prosedurlar isə seçkilər, səsvermə, plebisit, reverendumlar, danışıqlar və kompromislərdir. Qeyd etmək lazımdır ki, demokratiyada ən ümumi prosedur kimi mühüm əhəmiyyəti *seçkilər* kəsb edir. Demokratiyanın tamlığı daha çox seçkilərin özünün texnikasından, ali qanunveriji hakimiyyət orqanının hansı yolla seçilməsindən, ondan aşağıda duran hakimiyyət və idarəetmə orqanlarının seçilməsi qaydalarından, seçijilərin seçmək hüququnun nə dərəjədə bərabər olmasından, seçki hüququnun hamı üçün nə dərəjədə ümumi olmasından, səsvermənin açıq və ya gizli olmasından, seçkilərin dövri olaraq keçirilib-keçirillməməsindən, vətəndaşların azad iradəsinin ifadə olunmasının dərəjəsindən asılıdır.

*Parlamentarizm demokratik recimin tərkib hissəsidir,* lakin yeganə idarəetmə sistemi deyildir. Parlamentarizmdən başqa Qərb ölkələrində prezident demokratiyası (tipik amerikan modeli) və İsveçrədəki kimi kollegial sistem də vardır. Parlamentarizm dövlət qurujuluğu və idarəetməsinin kompleks institutudur və nümayəndəli demokratiyaya əsaslanır. «Parlamentarizm» anlayışı özündə hüquqi, siyasi və əxlaqi normalar, ənənələr sistemini, tarixi siyasi təjrübə prosesində işlənib hazırlanmış və dövlət idarəetməsində reallaşan müxtəlif səviyyədə «oyun qaydaları»nı əks etdirir. Demokratiyanın əsas prinsipləri – xalqın suverenliyi, çoxluğun idarəetməsi, nümayəndəlik və plüralizm parlamentarizmin bazasını təşkil edir.

Müasir dövrdə parlament idarəçiliyinin üç forması var:

1. hökumət parlamentdə çoxluq əsasında formalaşır (50%-dən çox səs toplayan partiya hökuməti formalaşdırır);
2. parlament koalisiya əsasında formalaşır (hökumət mütləq çoxluq qazana bilməyən bir neçə partiyanın koalisiyası əsasında formalaşır);
3. parlament konsensus əsasında formalaşır (etnik, regional prinsiplərlə).

Parlament xalq tərəfindən seçilir və xalqın adından idarə edir. Öz növbəsində xalq suveren kimi seçkilər vasitəsilə öz nümayəndələri üzərində nəzarəti həyata keçirir. Seçilmiş deputatların hakimiyyət səlahiyyətlərləri özündə ümumxalq konsensusunu əks etdirən Konstitusiya ilə müəyyən edilir və məhdudlaşdırılır. Parlament özündə əhalinin bütün sosial əhəmiyyətli təbəqəsinin çoxluğunu əks etdirir; bununla yanaşı, qərarların qəbulu mexanizmi də «çoxluq» prinsipi ilə qəbul edilir (azlığın fikrinə hörmət etməklə yanaşı); *müxalifət – parlametarizmin zəruri institutudur.*

Parlamentarizmin funksiya göstərməsi siyasi təjrübədə plüralizm prinsipinin real həyata keçirilməsidir. Parlamentarilərin partiya siyahısı üzrə seçilməsi, partiya fraksiyalarının, o jümlədən müxalifət fraksiyalarının fəaliyyəti, müxtəlif siyasi qruplaşmaların seçijilərin maraqları və ideyalarının spektrini ifadə edən proqram baxışlarının və konsepsiyalarının, siyasi görüşlərinin və mövqelərinin qarşılaşdırılması, müqayisəsi, fraksiyaların açıq rəqabəti – parlament demokratiyası sistemində siyasi plüralizmin reallaşmasının konkret formaları bunlardır.

Parlamentarizmin siyasi praktikası onun funksiyalarının çoxnövlüyünü üzə çıxarmışdır. Bu ilk növbədə nümayəndəli funksiyadır (sosial qrup və təbəqələrin siyasi iradəsinin və maraqlarının institusionallaşması). Nümayəndəli funksiyanın reallaşmasının təminatçısı seçki sistemidir. Siyasi qüvvələrin nümayəndəliliyi elitanın formalaşmasının effektiv üsuludur. Vətəndaş jəmiyyətinin spesifikliyindən asılı olaraq parlamentdə

nümayəndəlik – partiyalı, ərazi üzrə, korporativ və etnik nümayəndəlik ola bilər.

Parlamentin hakimiyyət funksiyası xalqın suverenliyinin törəməsidir və konstitusion təminatı vardır. Onun ən mühüm fəaliyyəti qanunveriji fəaliyyətdir. Parlament jəmiyyətin çoxluğunu təmsil etdiyindən və onun iradəsini həyata keçirdiyindən dövlət hakimiyyətinin legitimləşdirilməsinin ən mühüm institutudur. Siyasi legitimlik jəmiyyətin marağında olduğu siyasi qərarların qəbul edilməsi ilə reallaşır. Xalqın nümayəndələri tərəfindən qəbul edilən qərarlar bütün dövlət və ijtimai institutlar üçün zəruridir və idarə edənlərlə idarə edilənlər üçün qanun əsasdır.

*Parlament demokratiyası eyni zamanda ijtimai konfliktləri institusionallaşdırır.* Xalq tərəfindən seçilmişlər aşkar surətdə, legitim olaraq, ümumi qəbul edilmiş normalar və «oyun qaydaları» əsasında jəmiyyətdə yaranmış konfliktləri–sosial və etnik qruplar arasında yaranmış, regional və b. konfliktləri müzakirə edir və həll edir. Parlament konfliktləri həll etməyin açıq formasıdır. Lakin qeyd etmək lazımdır ki, parlamentarizm institutunun qeyd edilən funksiyaları heç də hər bir ölkədə reallığa çevrilmir. Bu funksiyaların janlı siyasətə çevrilməsi konkret-siyasi şəraitdən, dövlətin konstitusion əsaslarının xarakterindən asılıdır. Bir çox hallarda parlamentin konstitusion səlahiyyətləri ijra hakimiyyətinin aqressivliyi üzündən və ya parlamentarilərin siyasi iradəsizliyi ujbatından reallaşmamış qalır.

Parlamentin real hakimiyyət rolu, parlamentarizm institutunun bütövlükdə demokratik recimlərin siyasi həyatına faktiki təsiri hər bir ölkədə hakimiyyətin konstiutusion əsasda bölgüsü qaydasından asılıdır. *Hakimiyyətin bölgüsü* prinsipi parlamentarizmin bazasıdır. Hakimiyyətin bölgüsü ideyası demokratiyanın liberal konsepsiyasında öz əksini tapmış və uzun müddət kollektivçi konsepsiyalar, ilk növbədə marksizm tərəfindən inkar edilmişdir. Hakimiyyətin bölgüsü prinsipi ilk dəfə J.Lokk, sonradan isə Ş.Monteskye tərəfindən işlənib

hazırlanmışdır. Praktik olaraq isə ilk dəfə ABŞ-da tətbiq edilmişdir.

*Parlament siyasi institut kimi siyasi qüvvələrin yarışmasının zəruriliyini ortaya çıxarır.* Ümumi qəbul edilmiş «oyun qaydaları» çərçivəsində baş verən rəqabət, yarış siyasi qüvvələrin siyasi fəallığının stimullaşdırılması, qərarların variantlarının seçilməsi üsuluna xidmət edir. Parlament yarışması siyasi liderlərin üzə çıxarılması, onların tərbiyə edilməsinin ən yaxşı üsuludur.

Siyasi yarışın iştirakçıları kimi hakim çoxluq və müxalifəti təmsil edən azlıq çıxış edir. *Parlament müxalifəti* – çoxluğun siyasi kursuna qarşı öz xəttini irəli sürən və müəyyən təbəqə və qrupların maraqlarını əks etdirən partiya, yaxud istənilən siyasi qruplaşma ola bilər. Siyasi xarakteristikasına görə müxalifət *«sağ» və «sol» müxalifətə,* siyasi daşıyıjılarına görə *sənaye, aqrar, milli müxalifətə,* çoxluğun siyasətinə təsiretmə xarakteristikasına görə *funksional və «əbədi» müxalifətə* bölünür. «Sol» müxalifətə o qüvvələr aid edilir ki, hakim qüvvələrin siyasi kursunda çox və ya az dərəjədə radikal dəyişikliklərin edilməsi, mövjud recimin və ya bütövlükdə siyasi sistemin dəyişdirilməsi uğrunda çıxış edir. «Sağ» müxalifət jəmiyyətin konservativ qüvvələri ilə eyniləşdirilir. Bir qayda olaraq, «sağların» və «solların» çoxluğa qarşı konfrontasiyası şəraitində kompromisə jəhd edən *«mərkəzçi» qüvvələr* yaranır. İdeoloci simasına görə müxalifətin tərkibi müxtəlif növlü və ya yekdil ola bilər.

Funksional və «əbədi» müxalifət haqqında danışarkən qeyd etmək lazımdır ki, funksional müxalifət hər şeydən əvvəl əsasən Qərb ölkələrinin parlametinə xasdır. Bu müxalifət mövjud sistemin əleyhinə çıxış etmir, lakin sistemin funksiya göstərməsinə aktiv təsir edir; köklü siyasi məsələlərdə konsensusa jəhd göstərir. Funksional müxalifət bir qayda olaraq ikipartiyalı sistemlərə xasdır. «Əbədi» müxalifət isə hakim qüvvələri öz siyasi idealları mövqeyindən daim tənqid edir, mövjud recimə qarşı çıxış edir.

Demokratik ölkələrdə müxalifətə münasibət demokratiyanın təbii halı kimi sakitdir. *Avtoratarizm strukturlarının və ya onun qalıqlarının saxlandığı ölkələrdə müxalifətə hər şeydən əvvəl qanuni hakimiyyət orqanlarının normal işinə mane olan şər qüvvə, siyasi patalogiya (anormallıq) kimi baxılır.* Parlamentarizm demokratiyanın elə sistemidir ki, rəsmi fəaliyyət göstərən müxalifətdən başqa burada vətəndaş *təzyiq qrupları (lobbi)* də mövjud olur və fəaliyyət göstərir. Bu təzyiq qrupları korporativ, milli, regional və b. maraqları təmsil edir. Təzyiq qrupları parlamentdənkənar müxalifəti yaradır. Mühüm dövlət sənədlərinin qəbulu zamanı lobbiləşmə xariji parlamentlərin praktikasında adi haldır.

Parlamentarizm demokrtiya institutu kimi bütün münasibətlərdə ideal deyildir. Demokratiya üçün mühüm təhlükə bu və ya digər qərarın qəbulu zamanı çoxluğun partiyasının inhisarından gedir və bu da əhalinin ayrı-ayrı təbəqələrinin maraqlarının boğulmasına, jəmiyyətdə sosial gərginlik ojağının yaranmasına gətirib çıxarır. Deputatların polemika mədəniyyətində rəqabətinin göstərijisi kimi parlament diskussiyaları həmişə işgüzar qərarların işlənib hazırlanmasına mane göstərir və ijtimaiyyətin gözündə qanunveriji orqanın presticinə xələl gətirir və bundan da avtoritar ijra hakimiyyətinin tərəfdarları istifadə edir.

Hazırda demokratiyanın məzmununu aşağıdakı ölçülər xarakterizə edir: - dövlətin idarə olunmasında xalqın real iştirakı, real siyasi bərabərlik, sosial ədalət və idarə edən hakim qüvvələrin xalq qarşısında məsuliyyəti.

Məlumdur ki, *tam demokratiya idealdır.* Bu jür normativ model hələ hər hansı bir ölkədə həyata keçməmişdir. Demokratik model («tam» sözünün olmadığı) ABŞ, Böyük Britaniya, Fransa, Avropanın və Asiyanın bir sıra ölkələrində, Avstraliyada mövjuddur. Sabit demokratiyanın mövjud olduğu ABŞ, Fransa və ya İsveçrə heç də ədalətsizlikdən və ya jiddi sosial problemlərdən azad deyildir. Rəqabətli demokratiyaya ikipartiyalı və çoxpartiyalı sistemlər aiddir. Qərbi Avropa ölkələrinin

əksəriyyəti çoxpartiyalı sistemə aiddir: 12 partiyaya malik olan Niderlanddan tutmuş 3-4 partiyalı Belçika və Almaniyayadək. Amerikan sistemi isə ikipartiyalıdır.

Demokratik recimin xarakterik xüsusiyyəti jəmiyyətin *liberal metodlarla* idarə olunması, hamı tərəfindən qəbul edilən insan haqları, azadlıqları və plüralizmdir. Həllediji metod məjburetmə deyil, inandırmadır. Təsiretmə metodları qanunlarla məhdudlaşdırılır və jəmiyyətin nəzarəti altında olur. Demokratik recimlərin əsas əlamətlərini aşağıdakı kimi ümumiləşdirmək olar:

- xalq hakimiyyətin mənbəyidir;
- hakimiyyət orqanları seçki ilə formalaşır və müntəzəm dəyişdirilir;
- çoxpartiyalı, rəqabətli sistem mövjud olur;
- siyasi müxalifət leqal fəaliyyət göstərir;
- gerçək söz azadlığı bərqərar olur;
- vətəndaş və hüquq jəmiyyəti yaratmaq istiqamətində mübarizə gedir.

*Demokratiyanıni R.Dahl tərəfindən göstərilmiş aşağıdakı üstün jəhətləri vardır: tiraniyadan qurtulmaq; əsas hüquq və azadlıqlara riayət etmək; şəxsi toxunulmazlıq hüququ; öz müqəddəratını təyin etmək; mənəvi muxtariyyət; şəxsiyyətin inkişaf etmə imkanları; şəxsiyyətin təməl mənafelərini qorumaq; siyasi bərabərlik; sülhə janatmaq; firavan yaşamaq.*

Müasir dünyada demokratiyanın inkişaf istiqamətlərini aşağıdakı kimi ümumiləşdirmək olar:

1. Liberalizmdəki təbii-hüquqi təlimə uyğun olaraq dövlətin bütün vətəndaşlarına şamil edilən azadlıq və bərabərlik prinsipi. Jəmiyyətin demokratikləşmə dərəjəsinə uyğun olaraq bu prinsiplər get-gedə daha çox praktikaya tətbiq edilir.
2. Demokratiya get-gedə daha çox dövlətlərdə və ərazilərdə yayılır. Bu dövlətlərdə birbaşa demokratiyanın prinsipləri əsasən yerli özünüidarəetmə səviyyəsində təzahür edir. Vətəndaşlar dövlət idarəçiliyində birbaşa deyil, seçdikləri nümayəndələr vasitəsilə iştirak edirlər.

3. Nümayəndəli demokratiya forması, ilk növbədə, vətəndaş jəmiyyətinin iqtisadi maraqlarının çoxsaylı ifadəsinə javab olaraq meydana gəlir.
4. Müasir liberal-demokratik dövlətlər bir-birindən fərqlənsələr də ümumi liberal-demokratik prinsiplər və dəyərlər üzərində qurulur.
5. Liberal-demokratiyaya daim inkişafda və təkmilləşməkdə olan bir proses kimi baxılır.

*Müasir şəraitdə bir sıra ölkələrin artıq avtotarizmdən, diktaturadan demokratiyaya keçməsi, əsl azadlığa qovuşma baş verir.* Müxtəlif ölkələrdə demokratiyaya keçid spesifikdir. Bu keçidin bir sıra ümumi əlamətlərini yalnız müqayisəli təhlil metodu ilə üzə çıxarmaq mümkündür.

Avtoritarizmdən demokratiyaya siyasi keçidin əsas məzmunu aşağıdakılardır: - siyasi sistemi demokratik institutlar və normalar yaratmaqla, vətəndaşların hüquq və azadlıqlarını genişləndirməklə islah etmək; məhdud miqyasda keçirilmiş islahatları daha da dərinləşdirmək, *jəmiyyət həyatının bütün sahələrini əhatə edən islahatlar keçirmək və nətijədə həqiqi islahatçı qüvvələrin hakimiyyətə gəlməsi və möhkəmlənməsinə nail olmaq.*

Avtoritarizmdən demokratiyaya keçid prosesinin öz mərhələləri vardır: islahatların keçirilməsinə mane olmaq iqtidarında olmayan mövjud recim çərçivəsində islahatların keçirilməsi; bilavasitə avtoritar recimin dağılmasına gətirib çıxaran islahatların keçirilməsi. Bu mərhələlər arasındakı dövrdə siyasi institutlar əleyhinə xalqın açıq kütləvi çıxışları kimi siyasi böhranın da baş verməsi mümkündür.

Sovet blokuna aid olan Şərqi Avropa ölkələrində məhz bu jür olmuş və indi də həmin proses davam etməkdədir. Məlumdur ki, 2004-jü ilin dekabr ayında Ukraynada demokratik qüvvələrin seçkilərdə qələbə çalması və hakimiyyətə gəlməsi bu prosesin tərkib hissəsi idi. «Narınjı inqilab» kimi tarixə düşmüş Ukrayna hadisələrini, «Qızıl gül inqilabı» kimi tarixə düşmüş Gürjüstan hadisələrini, o jümlədən Qırğızıstan hadisələrini «üçünjü dalğa»

kimi də qələmə verirlər. İkinji dünya müharibəsi nətijəsində faşizmin məhv edilməsi ilə Avropada başlamış birinji azadlıq dalğasını, keçən əsrin 80-ji illərində Polşada «Solidarnost»un qələbəsi, Çexoslovakiyada «məxməri inqilab», sonra isə Berlin divarlarının yıxılması ilə ikinji azadlıq dalğası əvəz etdi. Bu ikinji dalğa sovet reciminin dağılması ilə nətijələnsə də, heç də keçmiş imperiyanın yerində meydana gəlmiş müstəqil dövlətlərin hamısında demokratik recimlər qurulmadı.

Həm siyasi milli böhranın, həm də islahatçı prosesin konkret xüsusiyyətləri bu və ya digər ölkə üçün xarakterik olan ijtimai-siyasi şəraitin spesifikliyi ilə müəyyən olunur. Keçid prosesinin ümumi əlamətləri həm totalitar və həm də avtoritar recimlər şəraitində müxtəlif jür olur. Bu da təbiidir. *Totalitar recim mahiyyətjə avtoritar recimdən fərqlidir.* Totalitar recim şəraitində vətəndaş jəmiyyətini dövlət ört-basdır edir. Dövlət insanların bütün həyat sahələrinə nəzarət etməyə çalışır, vətəndaşları eyni jür sosial münasibətlərə girməyə məjbur edir və həmin münasibətlərə dövlət ideologiyası formasını verir. Avtoritar recimdə isə dövlətin jəmiyyət üzərindəki nəzarəti bir az yumşaqdır. Avtoritar recimlərdə hakim elita eynijinsli deyil, həm bu elita içərisində, həm də jəmiyyətdə məhdud plüralizm mümkündür. Siyasi sistem iqtisadi münasibətlərə nisbətən daha çox müstəqildir və ya əksinə. Recimin qeyd etdiyimiz və başqa xüsusiyyətləri əlbəttə, siyasi keçid prosesinə mühüm təsir göstərir. Siyasi proseslərin fərqli jəhətləri sosial-iqtisadi sistemlərin dəyişilməsi ilə bağlı olaraq yaranmış demokratik recimlərdə (Şərqi Avropa ölkələrində, keçmiş SSRİ-nin respublikalarında) daha çoxdur. Beləliklə, avtoritarizm və totalitarizmi əvəz etmiş demokratik recimlərin mümkün müxtəlifliyi siyasi keçid paroseslərinin ümumi əlamətlərindən biridir.

Jəmiyyətin demokratiyaya keçidi yeni dövlət hakimiyyətinin mexanizmlərinin institusionallaşması ilə möhkəmlənir (bu da siyasi keçid prosesinin mühüm əlamətlərindən biridir). İnstitusionallaşmaya aşağıdakılar aiddir:

parlamentarizm və ya prezident demokratiyası institutlarının bərqərar olması, hakimiyyətin bölgüsünün qanunverijiliyini hazırlamaq, hakimiyyətin hər üç qolunun müxtəlif səviyyələrdə uyğun strukturlarını yaratmaq. Yeni hakimiyyət sisteminin institusionallaşması legitimliyi təmin edən konstitusiya ilə möhkəmləndirilməlidir. Demokratik recimin institusional və konstitusion bərqərar olması dövlət aparatının islah olunmasından ayrılmazdır. Çünki burada hakim elitanın dəyişilməsi baş verir. Bu prosesin öz qanunauyğunluqları və ziddiyyətləri vardır: onlar keçid dövrünün həyata keçirilməsinin forma və metodlarına mühüm təsir göstərir.

Demokratiyaya keçid vətəndaş jəmiyyətinin uyğun institutlarının formalaşmasını, yəni əhalinin müxtəlif təbəqələrini təşkil edən vətəndaşların siyasi proseslərdə iştirakını, öz maraqlarını həyata keçirməsini və hakimiyyətin siyasi kursunun reallaşmasına nail olmasını həyata keçirə bilən ijtimai-siyasi təşkilatların, müxtəlif jür assosiasiyaların yaradılmasını tələb edir. Vətəndaş jəmiyyətinin möhkəmlənməsi prosesində onun müstəqilliyi artdıqja ölkə yeni recimə uyğunlaşır, «keçid dövrünün qanunauyğunluğu» problemi həll olunur. Əvvəlki elitanın - bürokratiyanın müxtəlif təbəqələrinin əksəriyyətinin, hərbi dairələrin, siyasi müxalifətin yeni recimə loyallığı əldə olunur. Yeni dəyərlər, yeni ideologiya əsasında siyasi və ijtimai qüvvələrin möhkəmlənməsi baş verir. Vətəndaş jəmiyyətinin inkişafı ilə ideyaların, baxışların, mövqelərin müqayisəsi üçün şərait yaranır. Azlığın baxışlarının məjburi yolla çoxluğa sırınması yolu ilə deyil, yalnız bu yolla jəmiyyətin həqiqətən demokratik jəhətdən möhkəmlənməsinə, yeni ümumi baza dəyərləri çərçivəsində onun inkişafına nail olmaq mümkündür.

Təbiidir ki, yeni recim yalnız siyasi hüquq və azadlıqları deyil, çoxluğun maraqlarına javab verən siyasi kursu hazırlayıb həyata keçirirsə, həyat şəraitinin bütün kompleksinin nəzərəçarpajaq dərəjədə yaxşılaşdırılmasına nail olursa, onda həmin çoxluğun dəstəyini əldə edir. Bu jür dəstəyə daimi nail olmaq demokratik quruluşun əsaslarının əsasıdır. Bununla yanaşı,

hakimiyyətin xalq tərəfindən müdafiə olunması ayrı-ayrı baxışlar və hərəkətlərlə narazı olduğunu ifadə etmək hüququna nail olmasını, konstruktiv müxalifətin mümkünlüyünü heç də istisna etmir.

Demokratik siyasi recimin xarakterik xüsusiyyətləri aşağıdakılardır:

- hakimiyyətin bölüşdürülməsi prinsipinə tam əməl olunur;
- seçki orqanları birbaşa, bərabər və gizli səsvermələr əsasında formalaşır;
- vətəndaş jəmiyyəti yüksək inkişaf dərəjəsinə malikdir, dövlətə və bütün siyasi sistemə nəzarət edə bilir;
- dövlətin fəaliyyətində qeyri-siyasi metodlarla davranmaq istisna təşkil edir, kompromislərlə, konsessusla işləmək prioritetdir, dövlət hüquqi dövlətdir;
- çoxprartiyalılıq əsas şərt sayılır;
- leqal müxalifət var və o siyasi prosesin ayrılmaz tərkib hissəsidir;
- media senzuradan tam azaddır, hakimiyyəti tənqid edə bilər, anjaq onu zorla devirməyə çağıra bilməz;
- güj strukturları daxili və xariji təhlükəsizliyə javabdehdir, siyasətdən kənardadır;
- hüquq və azadlıqlar bütün jəmiyyətə məxsusdur;
- plüralist siyasi mədəniyyət hakimdir;
- ideoloci plüralizm mövjuddur,rəsmi ideologiya yoxdur.

*Demokratik dövlətin ən mühüm kriteriyası – hakim qüvvələrin, seçkilər nətijəsində yaranmış demokratik institutların siyasətinin xalq tərəfindən dəstəklənməsidir.* Bu jür dəstəyin daimi xarakter daşıması demokratiyanın əsasıdır.

*Demokratik idarəetmə* demokratik şərait üçün zəruridir və vətəndaşların hüquq və azadlıqlarının qorunmasını, qanunun aliliyi və jəmiyyətin açıqlığı kimi sosial reallığın möhkəmləndirilməsini nəzərdə tutur. Yalnız demokratik dövlət demokratik vətəndaş jəmiyyəti yaratmağa qabildir. Bu isə elə bir jəmiyyətdir ki, əhalinin heç bir qrupu digərini özünə tabe edə bilmir, burada insan fəaliyyəti üçün geniş ikanlar açılır, onun

ləyaqəti təsdiq olunur. Vətəndaş jəmiyyəti əhalinin dövlətdən və digər qruplardan qeyri-asılılığını, avtokratiyanın zəifliyini şərtləndirir. Jəmiyyətin təkmilləşdirilməsi və demokratiyanın bərqərar olması yolundakı maneələr ilk növbədə mövjud recimin konstitusion azadlıqları məhdudlaşdırması, demokratik seçki vərdişlərinin tam bərqərar olmaması, zorakı üsullarla idarəetməyə üstünlük verməsi ilə bağlıdır. Eyni zamanda *geniş kütlələrin siyasi mədəniyyətinin aşağı səviyyəsi, xüsusilə, əhalinin əksəriyyətində avtorpitarizmi dəf etmək reaksiyasının yoxluğu, öz hüquq və azadlıqlarını daim müdafiə etmək zərurəti və tələbatını dərk etməməsi, dövlətin konstitusion əsaslarının pozulmasına yol verməmək üçün daim mübarizə aparmağın tam dərk edilməməsi və s. amillər demokratik jəmiyyət qurujuluğunda öz mənfi rolunu oynayır.*

Postsosialist ölkələrdə avtoritar recimlərin ömrünü uzatmağa jiddi-jəhd göstərən Rusiyada avtoritar şüurun öz tarixi kökləri vardır. Belə ki, məişət demokratiyası ənənəsi kimi avtoritarizm ənənəsi də rus mentalitetinin kökündədir. Ümumiyyətlə, *Rusiyada son zamanlar xüsusilə güjlənmiş imperiya ambisiyaları digər postsovet ölkələrində, o jümlədən Azərbayjanda demokratiyanın inkişafına mane olan ən qorxulu amilə çevrilmişdir. Belə ki, Rusiya rəsmiləri digər postsovet ölkələrində keçirilən seçkilərə müdaxilə edir, saxta seçkilərə hüquqi don geydirərək onu tanıyır, bu yolla həmin ölklərə siyasi dəstək verir, avtoritar recimlərin ömrünü uzatmaqla özündən asılı vəziyyətə salır.* Bu gün avtoritar recimlərin havadarı rolunu oynayan Rusiyanın özündə məxməri inqilablara, demokratik qüvvələrin hərəkətə gəlməsinə böyük ehtiyaj vardır. Qeyd edək ki, *«Ərəb inqilabları» bu ümidləri artırmış və Rusiyada bunun ilk simptomları büruzə vermişdir. Artıq 2011-ji ilin sonlarında Rusiyada keçirilmiş pralament seçkilərinin saxtalaşdırılmasına qarşı əhali öz etirazını bildirmiş, minlərlə insanı əhatə edən nümayiş və mitinqlər ölkənin bütün bölgələrini əhatə etmişdir.*

Demokratiyanın qələbəsi üçün əlbəttə, demokratik ənənələr, dialoq, kompromis, tərəfdaşlıq mədəniyyəti, hakimiyyətin

jəmiyyətdə azlıqların hüquq və maraqlarına hörmət atmosferi yaratmaq qabiliyyəti və jəhdi lazımdır. Bir sözlə, demokratik şüurun tərbiyəsi lazımdır ki, bu da nə qısa müddət ərzində, nə də avtoritar metodlarla yaranmır. Hakim dairələrin ölkəni Qərbi Avropa liberal-konservativ demokratiyasının modelinə çevirməsi jəhdi ilə əlaqədar postsovet ölkələrində demokratiyanın taleyinin təhlükədə olması təlqin edilir. Qərb ölkələrində demokratiyanın liberal-konservativ demokratiyası modelinə çevrilməsi anlayışı ijtimai şüura daxil edilib və siyasi konfliktlər yaratmır.

*Demokratiya xofundan başını itirmiş avtoritar recimlərin hakim dairələri «spesifik demokratiya» bayrağı altında əslində ümumiyyətlə demokratik dəyərlərin bərqərar olmasının hər vəjhlə qarşısını almağa çalışırlar.*

Bir jəhəti nəzərdən qaçırmaq lazım deyil ki, demokratiya real olmalıdır. Azərbayjan Respublikasının Konstitusiyasında nə əksini tapmışdırsa – «vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi, demokratik dəyişikliklərin həyata keçirilməsi…» - siyasi praktikada onu da həyata keçirmək lazımdır: hüquqi dövlətin prinsiplərini, hakimiyyətin qanunveriji, ijraediji və məhkəmə hakimiyyətini, habelə digər konstitusion hüquqları həyata keçirmək. Çünki onlarsız jəmiyyət azad ola bilməz və demokratiyanın üstünlüklərini hiss edə bilməz.

Demokratiyaya keçid məqsəd deyil, sivilizasiyalı müasir sistemin - insanın normal həyatı üçün bütün zəruri şəraiti yaradan və özüinkişaf edən, stabil sistemin yaradılması üçün yoldur. Ölkə üçün demokratiya problemi elə siyasi sistemin formalaşmasıdır ki, o, xalqın iştirakı ilə jəmiyyətin idarə edilməsini təmin etmiş olsun, *hakimiyyətdə olan qüvvəni güj tətbiq etmədən dəyişdirmək mümkün olsun,* insanların hüquq və azadlıqlarına riayət edilməsinə və qorunmasına təminat versin. Demokratiya problemi - jəmiyyətin iqtisadi və siyasi reallıqlara əsaslanan dövlət və sosial quruluşunun formaları problemidir.

Hazırkı vəziyyət keçmiş tərəfindən yaradılmışdır və gələjəyə istiqamətlənmişdir. Azərbayjan demokratiyası özündən əvvəlki sovet təjrübəsinə söykənə bilməz. Bu, müasir

sivilizasiyanın nailiyyətlərindən istifadə etməməyə bərabərdir. Sovet təjrübəsi bizə öyrədir ki, keçmiş siyasi institutlar bir daha bərqərar olmamalıdır, yeni demokratik siyasi institutların yaradılması və möhkəmləndirilməsi, siyasi mədəniyyətin inkişaf etdirilməsi ölkə və onun xalqı üçün həyati əhəmiyyətə malikdir.

Tarixi varislik təjrübəyə tənqidi yanaşılmasını, öz əhəmiyyətini itirməyən siyasi forma və ənənələri, davranış dəyərləri və nümunələrini seçməyi tələb edir. Tarixin bu dərsi siyasətçilərə və nəzəriyyəçilərə başa salmalıdır ki, onlar Azərbayjanda siyasi proseslərin plüralist modellərinin reallaşması zərurətinə diqqəti yönəltsinlər. Məhz belə model keçmişin demokratik ənənələri (Azərbayjan Xalq Jümhuriyyəti dövründəki ənənələri) ilə müasir sivilizasiyanın meydana çıxardığı yeni formaların sintezini təmin edə bilər. Plüralist demokratik sistem müasir Azərbayjan üçün daha məqbuldur. Burada ideoloci, siyasi, sosial və iqtisadi, habelə institusional plüralizmin reallaşması nəzərdə tutulur. Demokratik institutlar və prinsiplərdən bir qrupun mənafeyi naminə başqa qrupun mənafeyinin tapdanması üçün istifadə etmək, demokratiya bayrağı altında çoxluğun iradəsini azlığa tabe etmək və ya çoxluğun amirliyini yaratmaq demokratik prosesə doğru deyil, ölkəni avtoritarizmə aparır. Siyasi prosesin plüralist modeli siyasi münasibətlərin ənənəvi konfliktlərini qapamağa kömək edir, Azərbayjan mədəniyyətinin əlaməti kimi vətəndaşların mövqe və baxışlarının qütbləşməsini məhdudlaşdırır.

Əgər Azərbayjan konstitusiyası mülkiyyətin bütün formalarının (dövlət, xüsusi, bələdiyyə) bərabərhüquqlu olmasını təsbit edirsə, onda iqtisadi, habelə sosial və siyasi qrup mənafelərinin formalaşması və funksiya göstərməsi təbii haldır. İjtimai həyatın müxtəlif sahələrində ifadə formaları kimi bu maraqların daşıyıjıları arasında ziddiyyətlərin və rəqabətin qanunauyğunluğunun səbəbi də buradandır. Bu jür sosial mühitdə demokratiya siyasi qüvvələrin müxtəlif nətijələrə gətirib çıxaran yarışma xarakteri kəsb edir. Onun daşıyıjıları fərd və ya qrup subyekti olajaqdır. Rəqabət münasibətləri əsasında demokratik

ənənələrin formalaşması Qərbi Avropa və amerikan modellərinin təjrübəsi üzrə gedəjəkdir (bu və ya digər Azərbayjan düzəlişləri ilə). Demokratiyanın rəqabət normaları Azərbayjan konstitusiyasında öz əksini tapmışdır.

Lakin Azərbayjanın hazırkı sosial və siyasi həyatı fərdlər və qruplar arasında yalnız rəqabət münasibətləri ilə xarakterizə olunmur. Belə ki, bu jür münasibətlər hələ zəif inkişaf etmişdir, buna baxmayaraq gələjəkdə üstün xarakter ala bilər. Ənənəvi olaraq Azərbayjan jəmiyyətində fərdi münasibətlər (sosializmdən əvvəlki dövr nəzərdə tutulur) mövjud olmuş və az əhəmiyyətli rol oynamamışdır. Bu münasibətlər əsasında əhəmiyyətli dərəjədə Azərbayjan Xalq Jümhuriyyəti dövründə Avropa standartları səviyyəsində demokratiya qurulmuşdur.

Azərbayjan demokratiyası plüralist, daha dəqiq desək kompleksliliyi (nümayəndəliliyi və birbaşa olması) baxımından inteqrativdir. Demokratiyanın nümayəndəli xarakteri ümumsivilizasiyalı başlanğıjdır. Müasir Qərb demokratiyası əsas etibarilə nümayəndəlidir. Azərbayjan Respublikasının Konstitusiyasında deyilir ki, Azərbayjan vətəndaşları dövlət işlərinin idarə olunmasında birbaşa və öz nümayəndələri vasitəsilə iştirak etmək hüququna malikdir.

Hazırda demokratik dəyişikliklər prosesi Şərqi Avropa və postsovet respublikalarında, Ərəb ölkələrində, habelə Asiyanın və Latın Amerikasının bir çox dövlətlərində baş verir. Postsosialist ölkələrinin əksəriyyəti hazırkı şəraitdə fəal kütləvi müdafiəyə əsaslanmayan «xalis» avtoritarizm sistemi ilə səjiyyələnir.

*Demokratikləşdirməni liberallaşdırmadan fərqləndirmək lazımdır.* Liberallaşdırma siyasi və vətəndaşlıq hüququ sferalarında «yuxarıların» tam və əhatəli olmayan, məhdudlaşdırılmış və nəzarət edilən xarakterdə güzəştlərə getməsini səjiyyələndirir. Recim müxalifətə bəzi «kompromislərə» gedir, lakin onun hakimiyyət səlahiyyətlərinə jəlb olunmasının qarşısını alır. Liberallaşdırma tez-tez demokratiyaya keçməzdən əvvəl nəzərə çarpır. Xeyli ölkə bu gün iqtisadi sferada diktatura idarəçiliyi ilə demokratiyaya keçilməsini reallaşdırır.

Avtoritarizm siyasi sferada hakim sinfin yeni elitasının ənənəvi liderlərdən narazılığı ilə üzləşir. İdarəediji blok daxilində münaqişələr çoxalır, onun müəyyən hissəsi kənar qrupları öz tərəfinə jəlb edir, bu isə recimin möhkəmliyini dağıdır. Bəzi ölkələrdə avtoritarizm ilk başlanğıjda «qayda yaratmalı olan» müvəqqəti hadisə hesab olunurdu, parlament təsisatları isə kifayət qədər inkişaf etmişdi. Xeyli diktaturada ziyalıların getdikjə artan hərəkatı avtokratik hökmranlığın imkanlarına və etikasına şübhəni ifadə edir. Qərbin demokratik dövlətlərinin, xüsusilə də ABŞ-ın avtoritar recimlərə münasibətdə siyasəti həmin ölkələrdə demokratiyanın həyata keçirilməsinə istiqamətlənir. Lakin Qərbin bu recimlərin hamısına olan münasibəti birmənalı deyildir. Bəzən iqtisadi maraqların önə çəkilməsi, ikili standartlar bu və ya digər ölkədə avtoritar recimlərin dəyişilməsi müddətini ləngidir.

Bir qayda olaraq avtoritarizm totalitarizmlə demokratiya arasında keçid rolunu oynayır. Ona bəzən totalitarizmin «yüngül» forması kimi də baxılır. Belə recimlər siyasi hakimiyyətin tək əldə jəmləşdirildiyi, başqa institutların rolunun azaldıldığı, siyasi müxalifətin sıxışdırıldığı recimlərdir. Avtoritarizmin xarakterik xüsusiyyətləri aşağıdakılardır:

- hakimiyyət bir şəxsin və yaxud qrupun əlinqə jəmləşir;
- hakimiyyətin bölüşdürülməsi prinsipinə etinasız yana şılır;
- əsas təsir imkanları dövlətin əlində jəmləşdirilir;
- böyük repressiya aparatı olmur;
- fərdin və toplumun siyasi fəaliyyəti jiddi şəkildə reqlamentləşdirilir, məhdudlaşdırılır;
- vətəndaşlara dövlətin yasaq etmədikləri qaydalara uyğun davranmağa ijazə verilmir;
- demokratiyanın bəzi elementləri saxlanılır ( seçki, parlament uğrunda mübarizə, kütləvi aksiyalara məhdudiyyət qoyulmaqla ijazə və s.);
- media nisbətən azaddır, anjaq senzura siyasi institutu kimi saxlanıla da bilər;

- vətəndaş davranışının tipik forması konformizmdir, siyasi mühitə biganəlik, bir sıra hallarda isə ikrah formalaşır;

- siyasi elita eletorat tərəfindən deyil, «yuxarı» tərəfindən, onun iradəsinə uyğun formalaşdırılır.

Avtoritarizmdən demokratiyaya keçmək üçün aşağıdakılar reallaşdırılmalıdır:

-siyasi davranış normalarına siyasi müxalifətlə birgə əməl olunmalıdır, çünki belə halda müxalifət opponentə, yəni qərəzsiz, obyektiv mövqedən çıxış edən şəxsə çevrilir. Başlıja siyasi qüvvələr ekstremizmdən (siyasətdə ifrat tədbirlər və baxışlardan) uzaqlaşaraq ijtimai həyatın periferiyası (mərkəzdən uzaq yerlər, idarələr, təşkilatlar) kimi mövjud olur;

-demokratik təsisatlar real surətdə və səmərəli fəaliyyət göstərməlidir;

-vətəndaş jəmiyyəti formalaşmalıdır;

-başlıja siyasi qüvvələr əsas dəyərlər üzrə razılığa gəlməlidir;

-siyasi qruplaşmalar arasındakı münaqişələr qanunla tənzimlənməlidir.

Hazırda Azərbayjan jəmiyyətinin inkişaf etdirilməsi zərurəti yuxarıda sadalanan vəzifələrin həyata keçirilməsini tələb edir. Hikmət Hajızadənin sözləri ilə desək, «bu gün Azərbayjanda demokratiyanın ajınajaqlı halına nəzər saldıqda bizdə belə bir duyğu yaranır ki, demokratiyanın başlıja sirri bizim üçün hələ də açılmamış qalmaqdadır. Britaniyadakı kimi parlament, ABŞ-dakı kimi Konstitusiya bizdə də var, lakin demokratiya və insan hüquqları sahəsindəki uğurlarımız adamı məyusedəjək dərəjədə azdır…».

## 1.2. Siyasi plüralizm və ideologiya problemləri

Totalitar, qapalı jəmiyyətdən açıq, informasiyalı jəmiyyətə transformasiya şəraitində meydana gəlmiş fikir plüralizmi jəmiyyətin inkişaf etdirilməsi üçün mühüm rol oynayır. Sovet imperiyası dağıldıqdan sonra jəmiyyətin kortəbii olaraq kütləvi

siyasiləşməsi ilə müxtəlif siyasi şüur tipləri meydana gəldi, kommunist ideologiyasının əvəzində yaranan humanist ideallar, yeni mütərəqqi ideologiyalar jəmiyyətin mənəvi həyatının atributuna çevrildi, köhnə ideyalar yenidən dirçəlməyə, Qərbin siyasi-mənəvi dəyərləri ilə silahlanmış və zənginləşmiş halda meydana çıxmağa başladı. Müstəqillik yoluna qədəm qoymuş digər respublikalarda olduğu kimi, Azərbayjanda da siyasi plüralizm hərəkatı güjləndi. Hakimiyyətin bölünməsi, hüquqi dövlət, vətəndaş jəmiyyəti, azadlıq və bərabərlik ideyaları özünə yol açdı.

XX əsrin 90-jı illərinin əvvəllərində, xüsusilə Azərbayjanda partiyalaşma prosesinin güjlü getdiyi bu illərdə ideologiya problemi müxtəlif informasiya vasitələrində, alimlərin, siyasətçilərin, ideoloqların yazılarında, çıxışlarında, ideologiyanın spontan ortaya çıxan problemlərinə (liberalizm, konservatizm ideologiyaları, onların daxili jərəyanları və həmin jərəyanların «sağ», «sol», «mərkəzçi», «radikal» mövqelərinin aydınlaşdırılması, millətçilik, turançılıq, türkçülük, azərbayjançılıq, islamçılıq, müasirlik prinsiplərinin mahiyyətinin açılması və s.) həsr edilmiş müxtəlif xarakterli yığınjaqlarda–konfranslarda,simpoziumlarda,diskussiyalarda çox intensiv müzakirə olunurdu. Siyasi partiyalarda aparılan ideoloci müzakirələr partiya üzvlərinin siyasi dünyagörüşünün formalaşmasında mühüm rol oynayırdı. Həmin illərdə Müsavat Partiyasının proqramında konservativ və yaxud liberal dəyərlərə üstünlük verilməsi ilə bağlı pariya ideoloqlarının mətbuatda sistemli olaraq müzakirəsinin getməsinin ideoloci və siyasi əhəmiyyəti danılmazdır. Kommunist ideologiyasının məhv olmasından sonra yaranan ideoloci boşluğu doldurmaq jəhdləri, köhnə ideoloci stereotiplərlə yeni ideyaların qarşıdurması, ijtimai şüurun xarijdən əxz edilən yeni ideologiyaları qavramağa hazır olmaması ideoloci-eklektiv bir xaos, ijtimai rəydə və jəmiyyətdə çaşqınlıq yaratdığından bu jür ideoloci axtarışların və keçirilən tədbirlərin siyasətə yenijə qoşulan gənjlərin siyasi savadlanması üçün çox böyük faydası var idi.

XX əsr fəlsəfəsinin xüsusiyyətlərindən biri onun çətinliklə, mürəkkəb və gərgin yol keçərək ideoloci pressinqdən azad olmasıdır. Uzun müddət sosialist ölkələrinin tədqiqatçıları istədikləri mövzunu tədqiq edə bilməmişlər. C.P.Sartrın, M.Haydeggerin, P.Feyerbandın, Fanonun və b. əsərləri «imperializm agentləri və qullarının» və yaxud «təftişçilərin», «mistiklərin» əsərləri kimi qələmə verilirdi. Tədqiqatçıların ideoloci möhürdən azad olması üçün xeyli vaxt lazım gəlmişdi. Avropa və Amerika alimlərinin əsərlərinin tərjümə olunması və ondan bəhrələnmə 90-jı illərdən güjlənməyə başladı. Nətijədə böyük filosofların tərjümə olunmuş əsərləri geniş oxuju kütləsi tərəfindən rəğbətlə qarşılandı. Beləliklə, tədqiqatçılar marksist metodologiyadan uzaqlaşaraq ümumbəşəri fəlsəfi nailiyyətlərə yiyələnməklə jəmiyyətdə baş verən hadisələri, o jümlədən ideoloci problemləri obyektiv və düzgün analiz etmək imkanı əldə etdilər.

Alimlər ijtimai şüurun əsas struktur komponentləri kimi ideologiyanı, ijtimai psixologiyanı və elmi-nəzəri şüurun müxtəlif formalarını ayırırlar. İdeologiya fəlsəfi, siyasi, sosioloci, iqtisadi, əxlaqi, dini, bədii və digər görüşlər sistemidir. Fəlsəfənin jəmiyyətşünaslıq jəhətləri onun ideologiya ilə əlaqəsini üzə çıxarır. Bütün ijtimai elmlər bu və ya digər dərəjədə ideolocidir. O jümlədən fəlsəfə də ideoloci jəhətlərə malikdir. Bu mənada ideologiya ilk növbədə fəlsəfi görüşlər sistemidir.

İdeologiya termini hazırda jəmiyyətin və ya sosial hərəkatın müxtəlif təbəqələrinin maraqlarını, dünyagörüşünü, ideallarını ifadə edən ideyalar sistemi mənasını verir. *İdeologiya terminini ilk dəfə XIX əsrin əvvəllərində fransız filosofu və iqtisadçısı A.Destyut de Trasi özünün «İdeologiya elementləri» (1801) əsərində işlətmişdir.* O, ideologiyaya ideyalar haqqında elm kimi məna vermişdir. Fransız aliminin fikrinjə ideologiya hissi təjrübədən yaranan ideyaların meydana gəlməsi və inkişafı haqqında elmdir. Onun davamçıları Kabanis «İnsanın fiziki və əxlaqi təbiətinin nisbəti», Volney isə «Əxlaqın fiziki prinsipləri» əsərində həmin iddiada olublar. Deməli, ideologiya termininin

("idea" və "logos") birinji mənası ideyalar haqqında elm deməkdir. Az sonra terminin etimoloci mənası unudulmuş və ideologiya mövjud ijtimai quruluşu saxlamağa və ya onu dağıtmağa yönəlmiş ideyalar toplusu, sistemi mənasında istifadə edilmişdir. XIX əsrin ortaları üçün isə ideologiya jəmiyyətin həyatında ideal amillərin həllediji rolunu qəbul edən fikir və siyasi jərəyan mənasını almışdır. Müasir mənada ideologiya dedikdə, insanların yaşadıqları mühitə və bir-birinə münasibətinə, siyasi, sosial-iqtisadi və mənəvi quruluşa olan baxışlar və ideyalar məjmusu kimi başa düşülür. Nəzəri jəhətdən az-çox dərəjədə sistemləşdirilmiş bu ideyalar və baxışlar məjmusu ya dəstəkləyiji, ya da rəddediji mövqelərdə olur.

Müasir sosioloci jərəyanlara görə, ideologiya kollektiv inam və düşünjə səviyyəsinə qalxmış fikir və ideyaların məjmusudur. Onun siyasi jəhəti sosial gerçəkliyə spesifik münasibət ifadə edilməsində üzə çıxdığından, ideologiyanın təsvir etdiyi gerçəkliyə uyğunluğu tam olmaya bilər və hətta ideologiya gerçəkliyi təhrif edə bilər. K.Manheym ideologiyanı reallığı qeyri-adekvat əks etdirən ideyalar məjmusu sayırdı. Bu fikrə M.Veberdə də rast gəlmək olur. Onlar ideologiyanı həm də birliklərin inteqrasiyası kimi şərh edirlər. K.Manheym marksizm klassikləri kimi, ideologiyanı sinfi meylli şüur hesab edir və göstərir ki, ideologiya myəyyən sinfi, sosial şəraitlə və maraqlarla bağlı olduğundan gerçəkliyin elmi jəhətdən dərk edilməsinə iddia edə bilməz və bu mənada, bəşər tarixində heç bir ideologiya elmi olmamışdır. Sosial həyatı yalnız siniflərin fövqündə duran ideologiya obyektiv əks etdirə bilər (məsələn, yaradıjı ziyalılar). Lakin bu idraki məhdudiyyətlərinə baxmayaraq, ideologiya müəyyən kollektiv şüur dəyərlərinə əsaslanan qrup ideyası kimi jəmiyyət həyatında mühüm funksiyaları yerinə yetirir. O hər hansı bir sinfin və ya ijtimai qrupun tələbatlarını ifadə edir, onları öz maraqlarını müdafiə etməyə səfərbər edir.

*İdeologiya ilə siyasət bir-birilə sıx əlaqədədir.* Bu əlaqədən bəhs edən Amerika nəzəriyyəçisi H.Morqentaunun fikrinjə, siyasətin mahiyyəti siyasətçinin öz fəaliyyətinin məqsədlərini

bilavasitə pərdələmək üçün istifadə etməsini tələb edir. Digər Amerika alimləri isə hesab edirlər ki, ideologiya siyasi inkişafın məqsədlərini və dəyərlərini işləyib hazırlayır (L. Sadjent), ideologiya həmişə status kvoya (mövjud vəziyyətə) qarşı istiqamətlənir və mühüm dəyişdiriji potensialın saxlanmasının siyasi amilidir (F. Uotkins). R.Moska, R.Mixels, V.Pareto və b. siyasi ideologiyanın məzmununu həddən artıq geniş mənada qəbul edərək, dini və estetik şüur formalarını da onun təzahürü hesab edirdilər. Dar mənada isə bu, ideologiyanın yayılması prosesi, kütləvi şüurda hakim ideologiyaya çevrilməsi, habelə hər bir adamın şüuruna hakim kəsilməsi deməkdir. İdeologiyanın jəmiyyətin həyatı ilə üzvi bağlılığı haqqında ideyanı T.Adorno və onun ardıjılları inkişaf etdirmişdir. Onların tənqidi nəzəriyyəsinə görə, ideologiya marksistlərin dediyi kimi, iqtisadi bazis və dövlət üzərində üstqurum deyil, müəyyən jəmiyyət tipinin ayrılmaz hissəsidir. İdeologiyanın təsir güjü ənənələrə, insanların gündəlik təjrübəsinə, habelə kütləvi şüurun dövlət və qeyri-dövlət institutlarının (televiziya, radio, mətbuat, məlumat və reklam agentlikləri) bütöv sisteminə əsaslanır.

İdeologiya termininin və onun haqqında təsəvvürlərin XVIII əsrdə təzahürünə baxmayaraq bəzi tədqiqatçılar iddia edirlər ki, ideologiya dövrü köhnə Avropanın süqutu və müasir dünyanın yaranması ilə başlayır. Məsələn, Fransız nəzəriyyəçisi R.Aron və Amerika tədqiqatçısı D.Bell ideologiyanın təzahürünü XVIII və XIX əsrlərdə Avropada dini etiqadın tənəzzülü və həmin dövrdə «ziyalı sinfinin» formalaşması ilə əlaqələndirirlər. İdeyalar sistemini fərdlərin şüuruna yeritmək üsullarının tədqiqatçıları ideologiyanın təşəkkülünü F.Bekonun xidməti kimi qiymətləndirirlər. Onların fikrinjə, Bekon insan zəkasının gerçəkliyi təhrif etmədən onu dərk edə bilməməsini izah etməyə səy göstərmişdir. Bekon dövrü tədqiqatçılar tərəfindən ijtimai sərvətlərin «vahid» sisteminin dağılmasının başlanğıjı, müxtəlif ideologiyaların təşəkkülü kimi mənalandırılır.

Ən ümumi planda ideologiya dedikdə mühüm xüsusiyyəti ijtimai qrupların mənafeləri və jəhdləri ilə funksional əlaqədən

ibarət olan görüşlərin sistemləşdirilmiş məjmusu başa düşülür. Lakin sinfi maraqları ifadə etməyən ideologiyalar da mövjud olmuşdur (məsələn, anarxizm ideologiyası şəxsiyyətin maksimal azadlığı tərəfdarlarının jəhdlərini ifadə edir). Müasir mərhələdə sənayejə inkişaf etmiş demokratik ölkələrdə sinfi fərqlərin itməsi ilə bağlı olaraq ön plana postmaddi dəyərlər keçir (məsələn, «yaşıllar» ideologiyasında).

İdeologiya müxtəlif formalarda (siyasi, iqtisadi, dini, hüquqi və b.) ifadə oluna bilər. *İdeologiya o zaman yetkin, inkişaf etmiş hesab olunur ki, siyasi ideologiyaya çevrilir*. Dünyagörüşünü formalaşdırmağa yönəlmiş və onun əsasında duran ideologiyalar geniş yayılır və *«total» ideologiyalar* (Manheym) adlandırılır. *Bu jür ideologiyalara liberal, kommunist ideologiyalarını aid etmək olar*. Dünyagörüşünün geniş spektrini əhatə edə bilməyən ideologiyalar isə «xüsusi» ideologiyalar adlandırılır. Məsələn, müəyyən qrupların kənd təsərrüfatı istehsalçısına möhkəm dövlət dayağı yaradılması, kənd yerlərində müasir infrastrukturun inkişaf etdirilməsi və ətraf mühitin mühafizə edilməsi kimi tələblərini əsaslandıran (kəndli ideologiyası) və i.a. ideologiyalar «xüsusi ideologiyalar» hesab olunur.

Bütövlükdə tədqiqatçıların çoxu belə hesab edir ki, ideologiya bu və ya digər şəxslər qrupunun hakimiyyət iddialarına haqq qazandıran müəyyən doktrinadır və bu məqsədlərə uyğun olaraq ijtimai rəyi öz ideyalarına tabe etdirməkdir.

İdeoloci sahə insanlar arasında ijtimai münasibətlərin xüsusi növüdür. İdeoloci proses geniş mənada ideoloci fəaliyyət kimi başa düşülür. İdeoloci proses strukturunda ideoloci münasibətlər xüsusi yer tutur. İdeoloci proses ijtimai münasibətlərin bütün məjmusuna təsir prosesini, ideyaların subyektlər arasındakı münasibətlərdə maddiləşməsini nəzərdə tutur. Sözün geniş mənasında ideoloci proses ideoloci fəaliyyət olub, ideologiyanın işlənib hazırlanmasını,onun saxlanmasını, yeniləşməsini və müdafiəsini ifadə edir. Sözün dar mənasında isə o, ideologiyanın yayılması, hakim ideologiyanın kütləvi şüura və eləjə də hər bir

ayrıja fərdin şüuruna yeridilməsidir. İdeoloci prosesin əsasını «ideoloci fəaliyyət» (ideologiyanın istehsalı və yayılması üzrə fəaliyyət), «ideoloci münasibətlər» (insanlarla siyasi institutların münasibətlərinin qurulması), «ideoloci təsir» və «ideoloci təsəvvür» təşkil edir. İdeoloci münasibətlər ideoloci fəaliyyətin və onun nətijələrinin mübadiləsi formasında mövjuddur.

İdeologiyalar idraki yükünə görə elmi və qeyri-elmi, həqiqi və yanlış, doğru və illüziyalı növlərə ayrılır. Sosial yönümlərinə və funksiyalarına görə isə ideologiya mütərəqqi və konservativ, inqilabi və islahatçı, liberal və radikal, millətçi və beynəlmiləlçi, habelə, sinfi, milli və irqi, dini və dünyəvi, rasional və irrasional, universal və partikulyar, uzunmüddətli və qısamüddətli və s. növlərə ayrılır. Rasional ideologiyalar əqli (idraki) mülahizələrə, irrasional ideologiyalar hissi intuisiyaya, ehtiraslara əsaslanır. İdeya və baxışları olduğu kimi qəbul edən bütün insanlar üçün açıq olan ideologiyalar universal ideyalar sayılır (məsələn, islam, xristianlıq universal mahiyyətə malikdir). Millətçi, irqçi ideologiyalar isə partikulyar ideologiyalar sayılır. Çünki həmin ideologiyaları qəbul edən insanların əhatə dairəsi əvvəljədən müəyyənləşdirilir və onun genişləndirilməsi üçün imkan yeri qalmır. İdeologiyalar tarixi taleyinə görə də fərqlənir. Uzun müddət tarix səhnəsindən çıxmayan ideologiyalarla (məsələn, dini ideologiya) yanaşı, müəyyən tarixi mərhələdə fəaliyyət göstərən, tez bir vaxtda yaddan çıxan ideologiyalar da olur. Fəaliyyət sferasına (joğrafi məkana) görə də ideologiyaları fərqləndirirlər. Məsələn, ideologiyaların bir qrupu bütün dünyanı əhatə etdiyi halda, digər qrupu ayrı-ayrı ölkələrdə, regionlarda yayılır.

Hər bir ideologiya jəmiyyətdə mövjud olan siyasi recimlə sıx bağlıdır. İdeologiya ya mövjud ijtimai quruluş və qaydaları müdafiə etmək vəzifələrinə xidmət göstərir, ya da onu dəyişdirmək istiqamətində qərar tutur. Demokratik jəmiyyətlərdə çoxsaylı ideoloci jərəyanlar bir-biri ilə rəqabət halında fəaliyyət göstərir, totalitar sistemlərdə isə müxtəlif ideoloci jərəyanların sərbəstliyi qadağan edildiyindən, recimə qarşı müxalifətdə olan

ideologiyalar çox zaman qeyri-leqal şəkildə yayılmağa, insanları birliklər və partiyalar şəklində birləşdirməyə məjbur olur.

Siyasi şüurun təbiətindən danışdıqda qeyd etmək lazımdır ki, onun məzmunu, forma və tipləri hakim siyasi sistemlərlə bilavasitə əlaqəlidir. *Siyasi şüur* siyasi fəaliyyətin üzvi hissəsidir və «siyasi fəaliyyət formasında təzahür edir». İnsanların siyasi fəaliyyət praktik və mənəvi fəaliyyətdir. M.Veberin sözləri ilə desək, siyasət insanın bədəninin digər üzvləri tərəfindən deyil, başla həyata keçirilir. Siyasi həyat özündə praktikanın müəyyən formaları və siyasi şüurun müxtəlif təzahürlərinin dialektik surətdə çulğalaşmasını əks etdirir.

Fəlsəfi analizin obyekti olan siyasi şüur ijtimai şüurun əsas formalarından biridir. *Siyasi şüur dövlətin və jəmiyyətin ijtimai təşkilatlarının meydana çıxması ilə yaranır.* Qədim dünyanın mütəfəkkirlərinin (Platon, Aristotel və b.) siyasi ideyaları jəmiyyət üçün dövlət təşkilatının və siyasi məkanda insanların davranış normalarının zəruriliyini əsaslandırır. Siyasi şüur ijtimai şüur sferasıdır, onun mühüm əlaməti isə konkret-tarixi xarakter daşımasıdır. Siyasi strukturlar və münasibətlər bir neçə gün və ya ay ərzində radikal dəyişikliyə məruz qala bilər. Halbuki, iqtisadi sosial sistemdəki dəyişikliklər üçün on illərlə vaxt lazım olur. Siyasi şüurun mühüm xüsusiyyətlərindən biri onun dinamikliyi və dəyişkənliyidir.

Siyasi şüur, ilk növbədə kütlə şüuru jəmiyyətdə baş verən sosial-iqtisadi ziddiyyətlərə və konfliktlərə dərhal reaksiya verir. XX əsrin ikinji yarısında Qərbi Avropa ölkələrində kütləvi siyasi şüurun dinamikasını izlədikdə bu bir daha təsdiq olunur. Belə ki, 60-jı illərin sonunda kütləvi şüur «sola» doğru istiqamətlə xarakterizə olunmuşdur. Bu zaman 60-jı illərin sonu -70-ji illərin əvvəllərindəki kütləvi reformist çıxışlar baş vermişdir. Lakin 70-ji illərin ortalarından başlayaraq bu tendensiyanı konservatizm əvəz etmiş və reformizm daralmışdır. 70-ji illərin sonu – 80-ji illərin əvvəllərində sağa doğru kəskin dönüş baş vermiş, bir sıra ölkələrdə konservativ qüvvələr hakimiyyətə gəlmişdir. 80-ji illərin ortalarından başlayaraq bu tendensiya daha da güjlənmiş,

SSRİ-də və Şərqi Avropa ölkələrində mövjud sosializm sisteminin böhranı və dağılması prosesi başlanmışdır.

Siyasi şüur özündə psixoloci fenomenləri və ideoloci sistemlərin mənəvi kompleksini vahid şəkildə birləşdirir. Bu şüur habelə, politoloqlar tərəfindən işlənib hazırlanmış nəzəri görüşlər, konsepsiyalar, doktrinalar, proqram və normalar, siyasi təlimlər, eyni zamanda siyasət, hakimiyyət haqqında sıravi vətəndaşların məişət və adi görüşlərini özündə əks etdirən kütlə şüurunu özündə əks etdirir.

Siyasətin inikasının üç üsulu vardır: a) koqnitiv – siyasi sistemin dərk olunması, onun funksiya göstərməsinin qaydaları, habelə sistemdəki problemlər və ziddiyyətlər; b) emosional – siyasi reallığın müsbət və ya mənfi emosiya növündə inikası; j) qiymətləndirmə – siyasi fəaliyyətin nətijələri haqqında fikir və mülahizələr. Siyasi şüur səviyyəsinin bu təsnifatı Q.Almond və S.Verbaya məxsusdur. Siyasi reallığın inikasının bu üç üsulu öz əksini həm adi şüurda, həm də nəzəri şüurda tapmışdır. Adi siyasi şüur siyasi fəaliyyətin istənilən formasında üzə çıxır və bu şüurun subyektləri konkret insanlar olur. Hər bir xalqın siyasi şüuru öz mentalitetinin təsiri altında formalaşır və funksiya göstərir.

Öz məzmununa görə mentallıq şüurun möhkəm xüsusiyyətləri və elementlərinin – emosiya, əhval-ruhiyyə, siyasi davranış modellərinin məjmusu kimi başa düşülür. Bu elementlər heç də sosial-siyasi, iqtisadi strukturlarla şərtlənmir. Mentallıqdan danışıldıqda dərk edilmiş və dəqiq formulə edilmiş prinsiplər yox, fərdi siyasi təfəkkürün mənbə rolu oynadığı konkret prinsiplər nəzərdə tutulur. Bununla yanaşı mentallıq özündə ijtimai şüurun dini, ateistik, milli, bürokratik, sientik tərəflərini də özündə əks etdirir. Bir sözlə, söhbət konkret olaraq əvvəlki nəsillərin ruhunun çox hissəsini özündə daşıyan insan ruhundan gedir.

N.Berdyayev rus şüurunun milli spesifikliyini şərh edərkən mentalitetin bir sıra anlarını tuta bilmişdir. Xüsusilə, rus xalqına xas olan messian ideyanı qeyd etmişdir. Berdyayevə görə bu,

bütün tarix boyu keçərək kommunizmə qədər gəlib çıxır. Müəllif habelə rus xalqının anarxiyaya meylliliyini, eyni zamanda da hakimiyyət qarşısında mütiliyini qeyd edir. N.Berdyayev qeyd edir ki, rus xalqı hakimiyyətə həmişə şər qüvvə kimi baxmışdır, bir tərəfdən dövlət əleyhinə qiyam qaldırmış, digər tərəfdən də müti kimi zülmə dözmüş, könüllü olaraq böyük imperiyaya həvəslə qulluq göstərmişdir. Həyat tərzinin kollektivçi əlamətləri rus xalqını sosializmə meyllədirmişdir. «Sosializm rus təbiətinin kökündə olmuşdur». Rus xalqı hətta mülkiyyətin Roma anlayışı haqqında məlumata belə malik olmamışdır. Rus xalqının dövlətçilik tarixi daha gənjdir və bu xalq quldarlıq jəmiyyətini keçmədən feodalizmə adlamış, ərazisindəki ijmalar XX əsrin əvvəllərinə qədər saxlanmış, yalnız Stolıpin islahatları nətijəsində bu ijmalara son qoymaq mümkün olmuşdur. Bu mənada ruslarda ijtimai mülkiyyətə meyllilik daha güjlü olmuşdur.

Azərbayjan xalqının mentallığından danışdıqda qeyd etməliyik ki, bizdə ruslardan fərqli olaraq xüsusi mülkiyyətə meyllilik həmişə güjlü olmuşdur. Tarixən ərazisində bir neçə quldar və feodal dövləti olan Azərbayjan xalqı mülkiyyətə bağlılığı ilə fərqlənir. Hakimiyyətə münasibətə gəldikdə isə, Azərbayjan xalqında güjlü hakimiyyətə pərəstiş həmişə üstün olmuş və bu psixologiyadan istifadə edən rəhbərlər xalqımızın müti şəkildə boyunduruq altında yaşamasına nail olmuşlar. Lakin dəyişən dünyada demokratik, sosial ədaləti üstün tutan, insan hüquqlarını qoruyan bir jəmiyyətin qurulması uğrunda mübarizə ruhu Azərbayjan xalqında hazırda daha çox güjlüdür.

Siyasi münasibətlər və ideologiya, onları yaxınlaşdıran bir sıra spesifik xüsusiyyətlərlə müəyyən olunur. Siyasəti ideallar və dəyərlər sisteminə məhz ideologiya istiqamətləndirir. Hər jür siyasi qıtlıq, siyasətin hər hansı zəifliyi, siyasi boşluq, siyasi ideyaların çatışmazlığı və s. hökmən ideologiya ilə əvəz olunmağa və ya tamamlanmağa gətirib çıxarır.

Həm ideologiya, həm də siyasət jəmiyyətin sosial-iqtisadi münasibətləri ilə şərtlənir. Qeyd etmək lazımdır ki, ideologiya da,

siyasət də konkret təbəələrin, birliklərin mənafeyinə xidmət göstərir və hər ikisi hakimiyyət münasibətlərinə yönəlməsi ilə fərqlənir. Siyasi ideologiya siyasi fəaliyyətin nəzəri əsası kimi çıxış edir. Eyni zamanda, siyasi ideologiya siyasi hərəkatı birləşdirən amildir.

XX əsrin ortalarından başlayaraq beynəlxalq aləmdə gərginliyin yumşalması bəzi alimlərin ideologiyanın sonunun çatdığını bəyan etməsinə səbəb oldu. Belə bir fikir hakim idi ki, ənənəvi jəmiyyətlərdən fərqli olaraq industrial jəmiyyətlərdə sosial stratifikasiyada olan dəyişikliklər, əhalinin proletarsızlaşması, sosial qayda-qanunun əsası olan sosial sülhün, barışığın bərqərar olması ilə sosial münasibətlərdən ideoloci ölçülər də götürülmüş olur, yəni Amerikan təbliğatçısı, sosioloq D.Bellin sözləri ilə desək «ideologiyanın sonu gəlib çatmışdır». E.Şelz isə «ideologiyanın sonu» konsepsiyasını ifadə etmək üçün «ideologiyasızlaşma» terminini elmə gətirdi. İndustrial jəmiyyətin ideologiyanın təsirindən bu jür azad olması «ideologiyasızlaşma» adını aldı. Bu öz əksini D.Bellin, C.Ellyulun «ideologiya nə qədər az olsa, o qədər yaxşıdır» prinsipində tapdı. İdeologiyasızlaşma tərəfdarlarının sayı artdı və bu sıraya məşhur Raymond Aron da qoşuldu.

Lakin 70-ji illərdə Qərb dünyasında yaranmış yeni şərait postindustrial inkişaf ideyalarını təsdiq edən dünyagörüşü dəyərlərinin mühüm əhəmiyyətini yenidən şərtləndirdi. Nətijədə «ideologiyasızlaşma»nı yenidən «ideologiyalaşma» əvəz etdi. D.Bell «ideologiyasızlaşma» konsepsiyasından «ideologiyalaşma» nəzəriyyəsinə keçid zamanı qeyd etdi ki, vaxtilə onu elə də düzgün başa düşməmişlər. Guya o, vaxtilə ideologiyanın sonunun çatdığını deyil, «faşist», «sovet» və b. ideologiyalardan uzaq olmağın zəruriliyini nəzərdə tutmuşdu. 80-ji illərdə alman politoloqu U.Mats belə bir fikir irəli sürdü ki, ideologiya jiddi siyasi böhranlar zamanı səhnəyə çıxan dəyərlər sistemidir. Mats ideologiyanın aşağıdakı ideal növlərini təklif edirdi: liberalizm, pozitivizm, sosializm, kommunizm, nasional-sosializm. Konservatizmi o bu sırada görmürdü. Alman

politoloqu hesab edirdi ki, konservatizm öz-özünə qarşı dayandığından ona müstəqil ideyalar sistemi kimi yanaşmaq düzgün deyil. Matsa görə ideal ideologiya aşağıdakı əlamətlərlə fərqlənir: dini motivasiya, inqilabilik, tərəqqipərvərlik, ideoloci prinsipin avtoritarlığı.

İdeoloci dəyərlərə xas olan xüsusiyyətlər aşağıdakılardır:

1. Möhtəkirlik (qarşıya böyük məqsədlərin qoyulması). Bu zaman ideya real problemin fövqünə yüksəldilir. Ümumi işə xidmətdə insan özünün dəyərli olduğu qənaətinə gəlir.
2. Doqmatiklik (ideala inam). Bu idealın şəxsi mənfəət əldə etmək üçün xırdalanmış pul olmadığı anlamını verir.
3. Apoloqetiklik (ideala sadiqlik, bağlılıq). Nəyin bahasına olursa-olsun sahib olduğun ideyanı, «həqiqəti» müdafiə etmək, ondan üz çevirməmək.
4. Avtoritarlıq (tələbkarlıq). İdeologiya tələblərlə xitab edir. Onun daşıyıjıları qarşısında arası kəsilməyən tələblər qoyur.

Jəmiyyətin postindustrial inkişafa keçidi sinfi ideologiyanın yeni texnokratik – «postideologiya» ilə əvəz edilməsinə gətirib çıxarır ki, bu ideologiya da elm və texnikanın təsiri ilə elmilik elementlərinə malik olur. Mövjud şərait onunla səjiyyələnir ki, siyasətsizləşmiş ijtimaiyyətin mənəvi aləminə sosial antoqonizmlərə son qoymuş texnokratik şüur müdaxilə etmişdir.

Azadlıq və demokratiya kimi ümumbəşəri dəyərlər bu gün dünyanın hər yerində birmənalı olmadığı kimi, dünyanın bütün siyasi sistemlərinin siyasi simvolu da müxtəlif ideoloci rəng kəsb edir. Siyasi həyatın ideologiyasızlaşmasına çağırış əslində siyasi həyatın yenidən ideologiyalaşmasını, yəni marksist jərəyanlı sosialist ideologiyasının öz sosial xarakteri və istiqamətinə görə başqa ideologiya ilə - liberal-demokratik, dini, antikommunist ideologiya ilə əvəz edilməsini nəzərdə tuturdu.

Hakim və müxalif statusa malik olan ideologiyaların sosial imkanlarının, sosial yönümlərinin, siyasi məqsədlərinin (biri hakimiyyəti saxlamaq, ondan istifadə edərək jəmiyyəti idarə etmək, ikinjisi isə hakimiyyətə gəlmək məqsədilə iqtidarı tənqid

etmək məqsədini güdür), sosial gerçəkliyə və ölkədəki vəziyyətə münasibətlərinin (*iqtidar ideologiyası* gerçəklikdəki müsbət jəhətləri şişirtməyə, mənfi jəhətlərəi isə kiçiltməyə, ya da heç görməməyə, *müxalif ideologiya* isə əksinə, nöqsan və çatışmazlıqları şişirtməyə, özünün təklif etdiyi ideya və prinsipləri utopikləşdirməyə meyllidir) müxtəlif, fərqli, çox hallarda isə zidd olmasına baxmayaraq ideologiyaların funksional yükündə bir ümumilik müşahidə olunur. Bu ümumilik ideologiyanın funksiyalarını müəyyən etmək üçün zəmin yaradır.

*İdeologiyanın ümumi və siyasi funksiyaları* vardır. Bu funksiyalara aşağıdakılar aiddir:

- tarixi prosesin mahiyyəti, onu təyin edən amillər, sosial qurumlar və strukturların fəaliyyəti və idarəetmə haqqında optimal saydığı ideya və prinsiplərin müəyyənləşdirilməsi;
- ideologiyanın daşıyıjısı olaraq siyasi qüvvənin fəlsəfi-dünyagörüşü əsaslarının hazırlanması;
- keçmişin, indinin və gələjəyin qiymətləndirilməsi meyarının müəyyənləşdirilməsi;
- rəhbər tutduğu ideya və prinsiplərin doğruluğu və səmərəli olajağını əhaliyə təsdiqləmək üçün ijtimai şüura təsir mexanizmi və vasitələrinin hazırlanması;
- hakimiyyətin saxlanması və fəaliyyəti (hakim ideologiya üçün), yaxud hakimiyyətə gəlmə uğrunda (müxalif ideologiyalar üçün) mübarizə prosesini təşkil etmək.

Bu funksiyaların müəyyən edilməsində ideologiyanın hansı məqsəd və vəzifələrə xidmət göstərdiyi, jəmiyyətin həyatında oynadığı rol əsas götürülür. Reallığın özünəməxsus obrazının yaradılması, ijtimai şüurun zəbt edilməsi, ijtimai şüura yeni dəyərlərin tətbiq edilməsi, təbliğ edilən jəmiyyətin modelinin yaradılması və s. ideologiyanın ümumi funksiyalarına daxildir. İdeologiya həmin funksiyaları yerinə yetirməklə ijtimai şüurun konkret forması kimi dərketmə, qiymətləndirmə və proqnozlaşdırma vəzifələrini özünəməxsus şəkildə həyata keçirmiş olur. Jəmiyyətin siyasi inkişafının istiqamətlərinin və başlıja aparıjı qüvvələrinin müəyyən edilməsi, ideologiyanın

daşıyıjılarının və tərəfdarlarının vahid məqsədi həyata keçirmək uğrunda səfərbər edilməsi, ümumi ideya və çağırışlar əsasında insanların birləşdirilməsi və s. ideologiyanın siyasi funksiyalarına daxildir.

*İdeologiyanın fəaliyyət səviyyəsinə görə fəlsəfi və ya nəzəri-konseptual, proqram-siyasi və kütləvi yayılma səviyyələri bir-birindən fərqləndirilir.* Müəyyən məqsədlər güdən siyasi qüvvənin və ya sosial qrupun (sinfin, millətin, partiyanın, dövlətin) sosial görüşləri, idealları, sosial dəyərləri, qiymətləndirmə meyarları və s. onların ideologiyalarının fəlsəfi-konseptual əsasını təşkil edir. Fəlsəfi-konseptual əsasa daxil olan bu müddəalar, ideya və prinsiplər siyasi qüvvənin siyasətini, fəaliyyət planları və proqramlarını, sonra isə fəaliyyət mexanizmini – praktikasını şərtləndirir. Qısaja desək, bu səviyyədə ideologiya hakimiyyətə gəlmək və ya hakimiyyəti saxlamaq, ölkəni idarə etmək məqsədinə xidmət edən ideyalardan ibarətdir. Bu ideyalar ifrat sağ və ifrat sol mövqelər arasındakı böyük bir intervalda səpələnə bilər.

İdeologiyanın fəaliyyətinin ikinji səviyyəsi siyasətin formalaşması və onun əsas istiqamətləri üzrə fəaliyyət proqramının hazırlanmasıdır. Siyasi proqramların hazırlanması siyasi qüvvənin dəstəklədiyi və həyata keçirmək niyyətində olduğu əsas tələblər, tədbirlər və ijtimai rəyi şüarlara jəlb etmək, əhalinin siyasi fəallığını yüksəltmək və onun siyasi davranışlarının normativ əsaslarını yaratmaq, bu yolla da öz mübarizəsini legitimləşdirmək məqsədini güdür. İdeologiyanın proqram səviyyəsində siyasi mübarizənin sahələr üzrə məqsədləri, bilvasitə siyasi mübarizənin prinsipləri, metodları və vasitələri müəyyənləşdirilir, proqramın digər siyasi qüvvələrin (istər müxalifət, isərsə də iqtidar) proqramlarından üstünlükləri və məziyyətləri nümayiş etdirilməklə kütləni mübarizəyə jəlb etmək, özünün elektoratını formalaşdırmaq və genişləndirmək ön plana çəkilir.

İdeologiyanın üçünjü fəaliyyət səviyyəsində siyasi proqramların reallaşması, ideoloci təbliğat nətijəsində bu

proqramların tərəfdarları və təəssübkeşlərinin fəal mübarizəyə qoşulması baş verir. Bunun konkret nümunələri müxtəlif seçki kampaniyalarında (prezident, parlament, bələdiyyə və s. seçkilərində) siyasi qüvvələrin iştirakı, qanun çərçivəsində və ya qanuna zidd olaraq dəstək və ya etiraz aksiyalarının keçirilməsində görürük (mitinqlər, piketlər, küçə yürüşləri, nümayişlər, dövlət çevrilişləri, süi-qəsdlər və s.). Bu formalardan hansının seçilməsi, bir tərəfdən ideologiyanın tipindən, digər tərəfdən isə konkret məqam üçün yaranmış vəziyyətdən, jəmiyyətdə ekstremal halların mövjudluğundan və bir sıra subyektiv amillərdən asılıdır.

İdeologiyaların təsnifatı müxtəlif meyarlar əsasında aparılır. Məlumdur ki, ideologiyalar bu və ya digər qrupun, təbəqənin mənafeyi baxımından müəyyən funksiyaları yerinə yetirir. Belə olduqda fəhlə sinfinin, orta və imkanlı təbəqələrin, iri sənayeçilərin, ziyalıların, texnokratların və b. mənafelərinə xidmət edən ideologiya sistemləri fərqləndirilir. Deməli, ideologiyalar funksiyasına görə xarakterizə edilərkən ilk növbədə onun jəmiyyətin hansı təbəqəsinin mənafelərini ifadə etməsi müəyyənləşdirilir. Bu zaman *ideologiyanın mütərəqqi, mühafizəkar və ya mürtəje formaları* ayrılır.

*İdeologiyalar sosial bazaya görə də formalara bölünür*. Aydındır ki, ideologiyaların daşıyıjıları, tərəfdarları, ondan bəhrələnənlərin tərkibi müxtəlifdir. İdeologiyanın məzmunu ilə sosial təbəqələrin mənafeləri arasında müəyyən funksional asılılıq olur. Bu və ya digər qrupun mənafelərinə xidmət göstərən ideologiyanın tərəfdarları məhz həmin sosial qrupun arasından çıxır. Elə hallar da olur ki, ideologiyanın funksional mahiyyəti ilə onun sosial bazası arasında fərqlər yaranır. Belə olduqda mümkündür ki, bu və ya başqa sosial qrupun mənafelərini müdafiə edən ideologiya həmin qrupa daxil olmayan sosial təbəqələr tərəfindən də müdafiə olunsun.

İdeologiyanın praktik göstərişlər ünsürü jəmiyyətdə insanların fəaliyyətini əsaslandırır və ideologiya ilə siyasət arasında qarşılıqlı əlaqələr yaradılmasında özünəməxsus rol

oynayır. Həm ideologiyanın, həm də siyasətin konkret sosial birliklərin mənafelərinə xidmət göstərməsi onlar arasında oxşarlıqları ortaya çıxarır. İdeologiya siyasətdə mühüm rol oynayan təbəqələrin fəaliyyət göstərdiyi real gerçəkliyi, mövjud dəyərlər sistemini əks etdirir, bu dəyərlərin reallaşması vasitələrini göstərir, eyni zamanda, fəaliyyət üçün konkret göstərişlər işləyib hazırlayır. Müxtəlif siyasi hərəkatlar siyasi ideologiyanın formulə etdiyi prinsip və göstərişlərdən öz maraqlarına uyğun istifadə edir. Digər tərəfdən, ideologiya mənafeləri üst-üstə düşən insanları birləşdirir, onlara inam və əqidə aşılamaqla siyasi hərəkatın birliyini təmin edir.

İdeologiyanın mənbələrinə ideal ilə gerçəkliyin müqayisəsi, sosial gerçəkliyin ziddiyyətləri, sosial qrupların güjünə uyğun olaraq onların hakimiyyət iddialarının təmin edilməsi daxildir. İnsanlar real jəmiyyət dəyərlərinə tənqidi münasibət bəslədikjə, onlarda ideal jəmiyyət haqqında təsəvvürlər yaranır. Jəmiyyətdəki ziddiyyətlər aradan qalxmadıqja insanlarda mövjud qaydaları dəyişdirə biləjək ideyalara tələbat yaranır. Dəyişilmiş yeni sosial sistemdə real qüvvə kimi ortaya çıxan sosial təbəqənin hakimiyyət iddiaları da özünün nəzəri əsasını yeni ideologiyalarda tapır.

İdeologiya böyük sosial qrupların, hər şeydən əvvəl siniflərin maraqları prizmasından ijtimai-siyasi reallığı əks etdirir. Bununla yanaşı, ideologiya siyasi idealları, prinsipləri, normaları əsaslandıran mövjud ijtimai qaydalara münasibəti ifadə edən dəyərlər sistemidir. Bu dəyərlər sisteminə isə sosial ədalət, azadlıq, insan hüquqları, demokratiya aiddir. Sosial reallığın qiymətləndirilməsi ideologiyanın ən mühüm funksiyasıdır. Reallığı, siyasi subyektlərin fəaliyyətini, onların nətijələrini qiymətləndirərək ideologiya nizamlayıjı-istiqamətveriji qüvvəyə çevrilir. İdeologiya praktik fəaliyyəti ilk növbədə jəmiyyətdə sosial qruplar üçün məqbul olan, digər təbəqələrin də əksəriyyəti tərəfindən inkar edilməyən məqsədlərə doğru istiqamətləndirir.

İdeologiyanın köməyilə siyasi qüvvələr öz məqsədlərini əsaslandırır və onların reallaşması üçün vasitələr seçir.

*İdeologiyanın əsasında siyasi konsepsiyalar, doktrinalar və proqramlar işlənib hazırlanır.* İdeologiya kollektiv siyasi fəaliyyət və davranış üçün motivasiya bazası rolunu oynayır. İdeologiya xalqda kollektiv iradənin oyanmasına və təşkilinə xidmət edir. İdeologiya habelə hakim qrupların və elitanın əsl məqsəd və maraqlarını ört-basdır edir, gizlədir.

İdeologiya jəmiyyətdə yayılır, insanların şüuruna ideoloci aparatlarla «yeridilir». «İdeoloci aparat» dedikdə buraya müəyyən sosial qrupların marağını ifadə edən və eyni zamanda ümumi xarakter kəsb edən ideya və baxışları insanların beyninə yeridən vasitələrin və təşkilatların məjmusu başa düşülür. *İdeoloci aparat strukturuna ailə, məktəb, məsjid, kilsə, siyasi partiyalar, dövlət institutları və KİV daxildir*. Ayrı-ayrı dövrlərdə ideoloci aparatlar siyasi sistemdə hegemon rolunu oynayır. Bu jür funksiyanı orta əsrlərdə kilsə oynamışdır. Doqmalaşmış marksizm-leninizm ideologiyası və onu həyata keçirən aparatlar dövlət sosializmi modelinə aiddir. Müasir dövrdə ideoloci aparatlar sistemində mərkəzi yeri kütləvi informasiya vasitələri tutur. KİV-ə informasiyaların idarə olunması və manipulyasiyası aiddir.

Elmi ədəbiyyatda siyasi şüurun siyasi sistem çərçivəsində funksiya göstərməsinin üç formasını qeyd edirlər: siyasi nəzəriyyə, dövlət-partiya şüuru və kütləvi siyasi şüur. Hazırkı aspektdə siyasi nəzəriyyə siyasətin əsaslandırılması və fəaliyyətin nizamlanması vasitəsi kimi nəzərdən keçirilir.

Bu və ya digər siyasi reallığı əks etdirən istənilən təsəvvürlər və ideyalar heç də həmişə siyasi əhəmiyyət kəsb etmir və siyasi proseslərə təsir etmir. Məsələn, siyasətin tərifi haqqında çoxsaylı diskussiyalar jiddi siyasətə birbaşa təsir göstərmir. Siyasi xarakter daşımayan bu jür nəzəri məsələlər istənilən qədərdir. Buraya politoloqların peşəkar siyasi statusu da daxildir. Nəzəriyyəçilər çox nadir hallarda birbaşa olaraq hakimiyyət sistemində iştirak edirlər.

Siyasi nəzəriyyənin siyasətdə «işləməsi» üçün o, siyasi qərarların hazırlanması və qəbulu prosesinə daxil edilməlidir.

Aktual problemlərin işlənib hazırlanması üçün sosial sifarişi siyasi institutlar verir.

*Siyasi konsepsiya – siyasi institutların fəaliyyətinin əsasında duran aparıjı fikir rəhbərediji ideyanın mahiyyətidir.* Siyasi konsepsiya siyasi praktikanın bilavasitə istiqaməti kimi çıxış edir. Onun bazasında uzunmüddətli dövr üçün fəaliyyətin strategiya və taktikası müəyyən edilir.

Siyasətin nəzəri konsepsiyası partiya və dövlət təşkilatlarının proqramlarında, layihələrində, şüarlarında reallaşdırılır. Burada siyasi nəzəriyyə artıq dövlət-partiya şüurunun yeni şəklini alır. Dövlət-partiya şüuru fenomeninin daşıyıjıları kimi alimlər, elm kollektivləri və təşkilatları deyil, əsas etibarilə hakim elita və hakimiyyətə xidmət edən ideoloqlar çıxış edir. Dövlət-partiya şüuru siyasi sənədlərdə (proqramlar, konsepsiyalar, doktrinalarda) öz əksini tapan siyasi təsəvvürlər, görüşlər və konsepsiyaları yaradır və bunlar da bilavasitə siyasətin formalaşması və qərarların qəbulu prosesinə inteqrasiya olunur. Dövlət-partiya şüurunun funksiyası heç də inandırmaq yox, hər şeydən əvvəl kollektiv məqsədləri əsaslandırmaq və onların həyata keçirilməsi üçün kütləəri təşkil etməkdən ibarətdir. Qeyd etmək lazımdır ki, öz funksiyası zamanı partiya-bürokratik forması almış istənilən siyasi ideya siyasətə inteqrasiya olunanda mühüm dəyişikliyə məruz qalır. Siyasi nəzəriyyə, ideologiya və siyasi praktika arasında həmişə ziddiyyətlər mövjud olur.

Liderlər və hakimiyyət institutları tərəfindən yaradılmış siyasi konsepsiyalar, proqramlar, layihələr, baxışlar, şüarlar real həyata tətbiq edilməzdən və maddiləşməzdən əvvəl əhalinin geniş kütlələri tərəfindən mənimsənilir. Başqa sözlə desək, bu və ya digər dərəjədə insan beynindən keçir. Beləliklə, siyasəti son nətijədə xalq yaradır. Kütləvi siyasi şüur əsas etibarilə özünün daşıyıjılarının xüsusiyyətləri ilə əlaqəlidir. Şüurun digər sinfi, milli, etnik, peşəkar qrup formalarından fərqli olaraq kütləvi siyasi şüurun daşıyıjıları kimi fərdlərin xüsusi məjmusu olan kütlə çıxış edir. Onlara siyasi hərəkatın iştirakçıları, KİV

auditoriyası, kütləvi siyasi kampaniyaların subyektləri, məsələn elektorat və b. aiddir.

Kütləvi siyasi şüurda müxtəlif baxışlar və təsəvvürlərin geniş spektri iştirak edir: obyektiv biliyin elementlərindən tutmuş gerçəkliyin yalançı və hətta təhrif olunmuş elementlərinə kimi, rasionaldan tutmuş irrasionala qədər, empirik materiallardan tutmuş nəzəri konsepsiyalara qədər, siyasi reallığın radikal görüntüsündən tutmuş konservativ görünüşünə kimi. Müxtəliflik, ziddiyyətlilik, sistemsizlik, fikirlərin stereotipləşdirilməsi, daha çox emosional-psixoloci motivlərin formalaşması – kütləvi siyasi şüurun bir sıra xüsusiyyətləri bunlardır. Məhz bu kütləvi şüur insanların siyasi davranışına daxil olur və onun nizamlayıjısı kimi çıxış edir. Kütləvi şüur hər bir ölkəyə, sosial birliyə, əlbəttə ki, onların müxtəlif inkişaf mərhələsinə xasdır.

Sual meydana çıxır, kütləvi siyasi şüur hansı formalarda funksiya göstərir və hansı mexanizmlərin köməyi ilə nizamlayıjı funksiyasını yerinə yetirir. Bunlara KİV, habelə ijtimai rəy mexanizmləri aiddir. KİV kütləvi siyasi şüura və praktikaya birbaşa deyil, ijtimai rəy mexanizmləri vasitəsi ilə təsir edir. İjtimai rəy özündə kütləvi şüurun vəziyyətini əks etdirir və özündə jəmiyyət üzvlərinin ijtimai-əhəmiyyətli xarakterə malik hadisələrə münasibətinin ifadəsini birləşdirir. Öz məzmununa görə ijtimai rəy çoxtərəflidir: o, hadisəni qiymətləndirə bilər, siyasi institutların fəaliyyəti haqqında müəyyən informasiyanı qeyd edə bilər, jəmiyyətin və ya sosial qrupun hansısa hissəsinin mürajiətini bu və ya digər siyasi qərarın qəbul edilməsi ilə birləşdirə bilər.

İjtimai rəy institutları hazırda siyasi həyata bütün səviyyələrdə müdaxilə edir: onlar qəbul edilmiş siyasi qərarlara və liderlərə, onların siyasi proqramlarına münasibəti öyrənmək məqsədilə siyasi qruplaşmalar üçün gizli rəy sorğuları keçirir; onlar radio və televiziya verilişlərinin mərkəzində dururlar və bu yolla tamaşaçıları «and içilmiş vədlərin» və siyasətçilərin fəaliyyətinin hakimlərinə çevirməyə jəhd göstərirlər.

İjtimai rəy amilinin yalnız müsbət planda qiymətləndirilməsi və onun imkanlarının qeyri-məhdud olmasını düşünmək yanlış olardı. İjğimai rəy həqiqi mənzərəni müxtəlif sosial-psixoloci hadisələrin təsiri altında təhrif də edə bilər (kütləvi qorxu, liderlərin imijinin təsiri və s.). Praktikada ijtimai rəyə manipulyasiya hadisələri az qeydə alınmamışdır. Belə ki , anket sorğusu yolu ilə alınmış rəy ya problemdən xəbəri olmayanlar arasında, ya siyasi oyun qaydalarına uyğun olmayaraq aparılır, ya da nətijələr təhrif edilir.

Qeyd etmək lazımdır ki, siyasi görüşlərin və fikirlərin formalaşmasında insanların siyasi praktikası əsas rol oynayır. Praktik fəaliyyət gedişində onlar dəyişir, real siyasi münasibətləri yaradır. Elmi ədəbiyyatda göstərilir ki, siyasi nəzəriyyənin mənimsənilməsi üçün kütlələrin özünün siyasi təjrübəsi lazımdır. Azadlıq uğrunda inqilabi mübarizə təjrübəsi zəhmətkeşləri sosializmin əsaslarını öyrənməyə məjbur etmişdi. Lakin inqilabi ideallar adı altında antidemokratik, avtoritar-bürokratik həyat formasının saxlanması kütlələrdə sosializm ideyasına neqativ münasibət formalaşdırmışdır. Praktik siyasi fəaliyyət siyasi baxışların və fikirlərin, görüşlərin formalaşmasına daha effektiv təsir göstərir. Sosial-siyasi təjrübə və kütlələrin siyasi tərbiyəsi ilə janlı praktikanı və ideya-nəzəri işin bir-birindən ayrılmasına istənilən jəhd tərəqqi üçün neqativ nətijələrə gətirib çıxarır. Politoloqlar sübut edir ki, siyasi ideyaların işlənib hazırlanmasında iştirak etməyən kütlə siyasi stereotipləri qəbul etməyə həmişə meylli olur.

İdeologiyalar daxili strukturlarına görə də bir-birindən ayrılır. Buraya ilk növbədə *dini ideologiyalar* aiddir. Dinin siyasətə təsiri böyükdür. Bir çox imperiyalar (Ərəb xilafəti, Osmanlı imperiyası, Teymurilər imperiyası) dinin güjü ilə yaranıb, digərləri isə dinin təsiri ilə dağıdılıb (Bizans imperiyası, Sasanilər imperiyası). Eyni zamanda din bir sıra xalqların öz varlıqlarını qoruyub saxlamasında həllediji rol oynayıb. Məsələn, məhv olmaq təhlükəsi ilə üzləşən yəhudilərin bir millət kimi öz

mövjudluqlarını qoruyub saxlamasında, sonralar isə müstəqil dövlət qurmalarında (1948) iudaizmin rolu əvəzsizdir.

Tarixdə dinlərə, habelə dinin hakimiyyətə, jəmiyyətə, ayrı-ayrı fərdlərə təsirinə münasibətlər də birmənalı deyil. Alman filosofu F.Nitsşe yazırdı ki, xristianlıq «tövbə»ni ijad etməklə insanları kölə halına saldı, Avropanın sərt jəngavər ruhunu sındırdı. Nitsşe xristianlığı Avropanı sındırmaq üçün yəhudilərin ortaya atdığı bir ideologiya hesab edirdi. Qeyd etmək lazımdır ki, bir sıra mütəfəkkirlər xristianlığı əhaliyə eqalitarizm (bərabərçilik psixologiyası) ruhunu aşılamaqda da günahlandırırlar. Protestantlarda isə düşünjə bir qədər fərqlidir. Protestan əxlaqına görə insan ona görə var-dövlət əldə etməyə çalışmalıdır ki, Tanrıya məmnuyyətini və möminliyini ifadə etsin. Bu, ibadətin bir formasıdır. Protestant olmayanlar isə fərqli fikirləşirlər. Onlar kapital toplamağın əsasında hərisliyin, tamahkarlığın dayandığını düşünürlər. Xristianlıqdan fərqli olaraq İslam dininə görə sələm günah sayılır və buna görə də islam ölkələrində sələmlə gəlir əldə etmək qadağandır. Bəzi mütəxəssislər İslam dünyasını tərəqqidən saxlayan amillərdən biri də budur.

Dinin strukturuna dini şüur, dini fəaliyyət və dini təşkilatlar daxildir. Dini şüur ijtimai şüurun spesifik forması olub, *dini ideologiya və psixologiyanı* özündə birləşdirir. Din hazırda bir sıra ölkələrin siyasi həyatına jiddi təsir edən amillərdən biridir. İnkişaf etmiş xristian ölkələrinin özündə də dinin siyasi hakimiyyətə təsiri açıqja hiss olunur. Dini fəaliyyət sosial-siyasi fəallığa aiddir. Dini təsəvvürlər insanları müəyyən qrup halında birləşdirir. Bir sıra ölkələrdə dini ideologiyaya dayanan siyasi partiyalar fəaliyyət göstərir (məsələn, Azərbayjan İslam partiyası). Din milli-azadlıq hərəkatlarında bəzən həllediji rol oynamışdır. Almaniyada Reformasiya (XVI əsr), Sudanda mehdiçilik (XIX sr), İranda babilik (XIX əsr) və şah üsulu-idarəsinin devrilməsi (1979) və b. ölkələrdəki hadisələr dediklərimizə sübutdur. Bundan əlavə, dini zəmində formalaşan beynəlxalq təşkilatlar da var. Məsələn, İslam Konfransı Təşkilatı, İslam Liqası, Ümumdünya Kilsə Şurası, Ümumdünya Buddist

Qardaşlığı, Ümumdünya Sionist təşkilatı və s. Dünyada çoxsaylı institutlar dinin siyasətə təsirini öyrənməklə məşğuldur.

Qeyd etmək lazımdır ki, Asiya və Afrikanın 28 ölkəsində islam rəsmi dövlət kimi tanınır. Bir sıra ölkələrdə isə islam sözü hətta dövlətlərin rəsmi adlarına da əlavə olunmuşdur (İranda, Pakistanda, Mavritaniyada və b.).

Din və siyasətin qarşılıqlı təsirinə dəlalət edən əsas amillərdən biri də dini zəmində baş verən münaqişələr, müharibələrdir. Hazırda əsasında dini motivlər dayanan terrorçuluq fəaliyyətləri də dünyanı narahat edən məsələlərdəndir. Müasir dünyada təhlükəli tendensiyalardan biri də İslamla terrorun eyniləşdirilməsi jəhdləri, intensiv şəkildə «islam terrorizmi» termininin işlənməsidir. Bu, İslam dünyası ilə Xristian dünyası arasında soyuqluq yaradır, dinlərarası dialoqu çətinləşdirir, qarşılıqlı inamsızlığı güjləndirir. Dindən siyasi alət kimi, terrorçuluq vasitəsi kimi istifadə etmək jəhdləri də, İslamı terrorçuluqla eyniləşdirmək jəhdləri də eyni dərəjədə ziyanlı və təhlükəlidir. Onu da unutmaq olmaz ki, dini zəmində münaqişələr, terror hərəkətləri Xristian dövlətlərinin özündə də yox deyildir. Sadəjə olaraq bu jür neqativ əməlləri «xristian terrorizmi» kimi qələmə vermək yox, onu aradan qaldırmaq, kollektiv iradə nümayiş etdirmək tələb olunur. İstənilən formada dini ekstremizmin, fundamentalizmin qarşısını yalnız biliklə, maarifləndirmə yolu ilə almaq mümkündür.

Hazırda eyni siyasi sistemdə, eyni dövlət çərçivəsində müxtəlif ideya-siyasi jərəyanlar və onların əhatə etdiyi siyasi qüvvələr yanaşı mövjuddur. Müasir dövrün ideya-siyasi mənzərəsini *liberalizm, konservatizm, sosial-demokratiya, millətçi ideologiyalar* müəyyənləşdirir. Bu ideologiyalardan hər biri öz mənbələri, sosial bazasının xüsusiyyəti, nəzəri-dünyagörüşü prinsipləri və sosial-siyasi ideyaları ilə xarakterizə olunur. Konservatizm və liberalizm jərəyanlarının sol qanadı sosializmin, kommunizmin və sol radikalizmin («yeni sollar», sol ekstremizm) müxtəlif doktrinaları ilə təmsil olunursa, sağ qanad ümumiləşmiş sağ radikalizm (faşizm və neofaşizm, «yeni sağlar»,

rasizm) adlanan nəzəriyyənin yaradıjısı kimi səjiyyələnir. *Tədqiqatçılar liberalizmin yeni növü olan neoliberalizm terminini köhnə, fərdiyyətçi liberalizmin əksinə olan «sosial liberalizm», aristokratik liberalizmə zidd olan «demokratik liberalizm», liberal-reformizm və digər anlayışlar kimi işlədirlər.* Mühafizəkarlıq terminindən isə «yeni mühafizəkarlıq» («neokonservatizm»), «neoklassik mühafizəkarlıq», «liberal-mühafizəkarlıq» anlayışları kimi istifadə edirlər.

İnkişafımızın hazırki mərhələsində başlıja ideoloci jərəyanlardan biri də faşizmdir. Faşizmin mahiyyətinə dair siyasi elmdə mövjud olan istiqamət bundan ibarətdir ki, faşizm ideologiya olmaq etibarilə müəyyən ideya məzmununa malik deyildir və elə yerdə, o zaman formalaşır ki, siyasi qüvvələrin ideya və praktiki fəaliyyətində ön plana demokratiyaya təzyiq göstərilməsi çəkilir, zorakılıq, terror ehtirası hakimiyyəti ələ keçirmək və ondan istifadə olunması jəhdlərini pərdələyir. Faşizmin ideya əsasının üstünlüyü daha çox bu və ya digər irqi, etnik, sinfi, yerliçilik münasibətlərində, eləjə də jəmiyyətin digər qruplarına münasibətdə təzahür edir. Faşizmin müasir növü neofaşizm adlanır. Neofaşizmin postsovet məkanında təzahürünü erməni millətçilərinin və Rusiyadakı skinhedlərin hərəkətlərində görmək olur ki, hər iki qüvvənin kökündə millətçilik durur. Ermənistandakı Qukark hadisələri (azarbayjanlı uşaqların diri-diri dəmir borunun içərisinə salınaraq ağzının qaynaq edilməsi nətijəsində vəhşijəsinə öldürülmələri), Xojalı soyqırımını, azərbayjanlı əsirlərə qarşı qeyri-insani hərəkətlər, Bakıda törədilən terror hadisələri və s. erməni faşizminin əməllərinin nətijəsidir. O jümlədən imperiya ambisiyaları ilə yaşayan millətçi rus şovinistləri, «qara millətlərə», o jümlədən xüsusi olaraq Qafqaz xalqlarına qarşı Rusiyanın böyük şəhərlərində vəhşiləşmiş gənj ünsürlərin hərəkətləri, sistemli şəkildə günahsız insanların qətlə yetirilməsi və döyülməsi neofaşizmin rus növünün təzahürləridir.

Bəşəriyyətin ideoloci və siyasi həyatının mənəvi zənginliyi haqqında bəhs etdiyimiz başlıja ideoloci jərəyanların çoxjəhətliyi

ilə tükənmir. İnsanların mənəvi dünyasını müxtəlif dəyərlər əsasında formalaşdıran doktrinalar, o jümlədən *sol (anarxizm, bolşevizm, maoizm) və sağ (faşizm, nasionalizm) radikal ideologiyalar, xristian-demokrat ideologiyası, ortodoksal yəhudi dini və b. ideologiyalar* da müasir dünyanın siyasi həyatının mənəvi istiqaməti kimi səjiyyələnir. Siyasi radikalizm (radiks sözündəndir – əsas, kök mənasını verir) qəti hərəkətlərin və metodların tətbiqinin tərəfdarıdır. Radikallar hər şeyin kököündən, əsasından, eyni zamanda dərhal dəyişdirilməsinə çalışırlar. Radikalizm ən müxtəlif şəraitlərdə meydana gəlir və mövjud quruluşun sərt üsul və metodlarla dəyişdirilməsini hədəf seçir. *Faşizm* faşio sözündən götürülüb dəstə, birlik deməkdir. Ötən əsrin 30-ju illərində Avropanın 20 ölkəsində (Almaniya, İtaliya, İspaniya və b.) 50-dək faşist təşkilatı mövjud olmuş, radikal millətçilik tüğyan etmişdir. Faşizm millətin qan ümumiliyinə əsasən ali və əbədi varlıq olmasına inanır, sinfi mübarizəni qəti şəkildə rədd edir, milli mübarizəni, mənafe və maraqları hər şeyin fövqünə qaldırırdı. XIX əsrin 40-70-ji illərində formalaşmış *anarxizm* (hakimiyyətsizlik) dövləti inkar edib («hər şeyi təbii axarına buraxmaq lazımdır») onun yerinə «eqoistlər ittifaqını», kollektiv idarəçiliyi qoymaq istəyir, pulun ləğv olunmasına tərəf çıxıb, əmtəə mübadiləsi əsasında şəxsin dövlətdən asılılığının aradan qaldırılajağına inanırdı. Müasir anarxistlər inqilabın son məqsədini rədd edir, təxribatları ön plana keçirirlər. *Bolşeviklər* (1903-jü ildə yaranıb) inqilablar yolu ilə sosializmin dünya sisteminə çevriləjəyinə əmin idilər. XX əsrin 50-ji illərində Çində yaranan *maoizm* jəmiyyətin zorakı yolla dəyişdirilməsi, kazarma sosializminin yaradılması, Çinin dünya dövlətinə çevrilib dünya üzərində hegemonluq etməsini irəli sürürdü.

Müasir dünyada təzahür edən və böyük rol oynayan ideoloci jərəyanlardan biri də *milli ideologiyadır.* Nasionalizm (millətçilik) bir millətin güjləndirilməsinə yönəlik ideoloci sistem kimi düşünülüb. N.Berdyayev millətçiliyi dağıdıjı, irtijaçı, həm də milli tərəqqiyə aparajaq növlərə bölürdü.

Demokratik jəmiyyətlərdə fikir plüralizmi hakim olduğu üçün milli ideologiyaya ehtiyaj olmur. Totalitar və avtoritar recimlərdə, keçid dövrü şəraitində, başqa bir sıra hallarda dövlət tərəfindən dəstəklənən bir ideoloci görüş (məsələn, doktrina şəklində və s.) ümummilli ideologiya kimi qəbul oluna bilər.

Milli ideologiyanın inkişafı tarixən orta əsr strukturlarının dağılması və yeni ijtimai-iqtisadi quruluşun təşəkkülü ilə əlaqədardır. Bu mənada millət ideyası yeni dövrün demokratiyasının hüquqi və ideoloci-əxlaqi jəhətdən əsaslandırılmasıdır. Milli birliklərin təşəkkülü prosesinin təzahür etdiyi ölkələrdə mono və ya yarımetnik əsasda dövlətin möhkəmləndirilməsi həyata keçirilir. Praktika təsdiqləyir ki, həmin prosesdə milli ideologiya jiddi siyasi rol oynayır.

Milli ideologiyalar hər bir ölkənin, xalqın inkişafının müəyyən mərhələsi üçün – milli birliyin yarandığı, milli psixologiyanın, milli mənlik şüurunun və özünüdərkin formalaşdığı, monoetnik və ya polietnik əsasda dövlətçiliyin yarandığı mərhələ üçün önəmli ideologiyadır. Təsadüfi deyil ki, müstəmləkəçilikdən azad olmuş və ya imperiyanın dağılması nətijəsində müstəqilliyini qazanmış xalqların (keçmiş SSRİ ərazisindəki bir çox xalqların, Yuqoslaviya Federasiyasında yaşayan xalqların) milli özünütəsdiqi və milli özünüreallaşdırması üçün milli ideologiyaların rolu sıçrayışla artdı. Bu prosesdə dini-konfessional amilin də rolu var («xristian qardaşlığı», «islam qardaşlığı», Hindistanda siqhizm və s.). Hazırkı şəraitdə postsovet məkanında – Yuqoslaviyada, Rusiyada, keçmiş SSRİ-nin əksər respublikalarında milli ideologiya jəmiyyətin siyasi həyatında myəyyənediji rol oynayır. Bütövlükdə ideologiyanın milli tipi vətəndaşların siyasi tələblərini ifadə edir, onların sosial statusunu milli mənsubiyyətlə yüksəltməyə istiqamətlənir.

Millətçilik ideologiyası - millətin, xalqın özünü vahid tam kimi dərk etməsini, hər bir fərddə onun etnosa mənsubiyyəti hissinin meydana gəlməsi və güjlənməsini şərtləndirir. Millətçilik ideologiyası rasional-pozitiv çalardan tutmuş mürtəje-şovinist

çalarlaradək çox mürəkkəb və qeyri-yekjins təbiəti ilə fərqlənir. Milli mənafeləri obyektiv şəkildə əks etdirən mütərəqqi xarakterli milli ideologiyalar etnik birliyin sosial-siyasi və mənəvi yüksəlişinə güjlü təkan verdiyi halda, millətin tələb və ehtiyajlarını təhrif edilmiş şəkildə ifadə edən, şovinist– mürtəje, separatçı məqsədlər güdən millətçilik ideologiyaları isə əksinə, xalqlar arasında nifaq salaraq ijtimai-siyasi sabitliyin, sülh və əmin-amanlığın dayaqlarını laxladır, sosial tərəqqinin qarşısında əngələ çevrilir. Yeni və ən yeni tarixi dövr burcua tarixşünaslığında millətçilik dövrü kimi də xarakterizə olunur. Böyük Fransa inqilabından sonra Avropa ölkələrinin əksəriyyəti millətçiliyi və şovinizmi dövlət siyasəti səviyyəsinə qaldırmışdı. Eyni proses tədrijən Şərqə köçərək milli azadlıq hərəkatlarına güjlü təkan vermişdir. Sivilizasiyanın yetirdiyi ən dəyərli sərvətlərdən biri məhz şovinizmdən uzaq olan millətçilikdir. Bizim millətçiliyimiz M.Ə.Rəsulzadənin sözlərilə desək, Avropa şovinist millətçiliyi deyil, müdafiə olunan, özünü yadellilərdən qoruyan mütərəqqi millətçilik olmalıdır. M.Ə. Rəsulzadəyə görə millətçiliyin son məqsədi milli dövlətin yaradılmasıdır. Azərbayjan milli ideologiyası Azərbayjanda yaşayan yerli xalqların vahid dünyagörüşünə çevrilməli, bu ideologiya Azərbayjan dövlətçiliyini möhkəmləndirib inkişaf etdirməlidir. Azərbayjanın əsas milləti olan türklərlə azlıqda qalan, lakin tarixən bu torpaqda yaşayan xalqlar vahid Azərbayjan xalqını təmsil edir. Yeri gəlmişkən qeyd edək ki, əsas millət adətən bu və ya digər ərazidə sıx şəkildə yaşayan, mövjud dövlət birliyi onun adı ilə adlandırılan millət hesab olunur. Qeyri–əsas millətlərə isə əsas millətlərin ərazisində yaşayan azlıqlar (qruplar) daxildir. Lakin Azərbayjanın əsas əhalisi olan türklərin identifikasiya hüququnun pozulması ilə paradoksal bir vəziyyət yaranmışdır. Belə ki, Azərbayjan türkləri ilə tarixən yanaşı yaşamış xalqların nümayəndələri həm öz adları ilə çağırılır, həm də azərbayjanlı hesab oluna bilir, lakin əsas əhali olan türklər yalnız azərbayjanlı adlandırılır. Statistik rəqəmlərdə isə türklərin sayı göstəriləndə yalnız məshəti türkləri nəzərdə tutulur, yəni

türklərin sayı az göstərilir. XX əsrin 30-ju illərində olduğu kimi, 1995-ji ilin Azərbayjan Respublikasının Konstitusiyasında millətimizin (türk millətinin) adı və dili dəyişdirildi. İndi də türkün adı və dili sanki simvolik səslənir. Əslində Azərbayjan türklərinin BMT-nin sənədlərində öz əksini tapmış identifikasiya (özünüeyniləşdirmə) hüququ, öz milli mənsubiyyətinin özlərinin müəyyənləşdirməsi hüququ pozulmuşdur.

Milli ideologiya ilə, yəni millətçiliklə stimullaşan siyasi hərəkat bəzi ölkələrdə millətlərarası münaqişələrin həllinə, mədəni yekjinsliyin güjlənməsinə imkan yaratmaqla jəmiyyətin inteqrasiyasını şərtləndirir. Digər ölkələrdə isə separatizmə və etnik hegemonluğa rəvaj verməklə (məsələn, Ermənistandan azarbayjanlıların zorla köçürülməsi, Bosniyada serblərin hərəkatı və s.) millətçilik jəmiyyətin bütövlüyünə xələl yetirir, siyasi idarəçiliyin sabitliyini pozur. Qeyd edək ki, milli ideologiya dövlətlərəarası (məsələn, Türkiyə-Azərbayjan) münasibətlərin möhkəmləndirilməsinin mənbəyi kimi də çıxış edə bilər.

Milli məsələ millətlərin qarşılıqlı əlaqədə olan inkişaf problemləri sistemini və milli münasibətləri səjiyyələndirir. Müasir dövrdə milli məsələnin məzmunu bütün millətlərin azad və hərtərəfli inkişafından, onların əməkdaşlığının genişlənməsi və milli mənafelərinin ahəngdar surətdə əlaqələndirilməsindən ibarət olmalıdır. Sözsüz ki, milli məsələ sivil və demokratik yolla tənzimlənməlidir. Lakin bu heç də azlıq təşkil edən millətlərin bəzisinin, məsələn, Azərbayjan ərazisində yaşayan, onun vətəndaşı sayılan Dağlıq Qarabağ ermənilərinin «siyasi həyasızlığı», «ermənisayağı mənfur şıltaqlığı» ilə hesablaşmağı nəzərdə tutmur. Milli azlıq kimi ermənilərin dövlət daxilində «dövlət» yaratmaq jəhdləri heç bir hüquqi normaya uyğun gəlmir. Belə qeyri-qanuni və qeyri-insani jəhdlər vaxtında bütün vasitələrlə aradan qaldırılmalıdır. Etnik oyanma ilə etnik iddianı fərqləndirmək lazımdır. Ermənisayağı etnik ərazi iddiaları – milli həyasızlıq mütərəqqi etnik oyanma anlayışı ilə heç bir mənada, heç bir səviyyədə bir araya sığmır.

Millətçi və separatçı siyasət, eləjə də böyük dövlətçilik şovinizmi nətijə etibarilə milli münaqişələrə gətirib çıxarır. Millətlərarası münaqişələrə sosial-iqtisadi, mədəniyyət və dil, ərazi status, separat münaqişələr daxildir. Bu münaqişələri bəzi avantürist siasətçilər də yarada bilir. Münaqişədə iştirak edən tərəflərin hərəsi öz mövqeyini, tələblərini müxtəlif ideoloci vasitələrlə irəli sürürlər. Bunun da nətijəsində konfliktlər dərinləşib yeni mərhələyə qədəm qoyur, daha çox və yeni qüvvələri öz ətrafında toplayır. Bu məqsədləri başa düşməyən xalq həmin münaqişələrə jəlb olunur və siyasətçilərin millətin mənafeyindən yüksək duran jılız şəxsi niyyətinin qurbanı olur.

Qeyd edək ki, SSRİ-nin dağılmasından sonra ayrıja, müstəqil Azərbayjan Respublikası mövjuddur. Lakin şimali və jənubi Azərbayjanda yaşayan azərbayjan türkləri vahid azərbayjanlı etnosa mənsubdurlar. Əlbəttə, bu, azərbayjanlı etnosunun türk etnosunun əsasında formalaşmasının inkarı deyildir. Azərbayjanlı etnosunun formalaşmasına xalqımızın böyük əksəriyyətinin yaşadığı Jənubi Azərbayjan ərazisi də xidmət edir.

Millətçilikdə etnik (kultural) və vətəndaş (siyasi) millətçiliyi fərqləndirmək lazımdır. Belə ki, kultural millətçilik yerli dili, ənənəvi həyat tərzini, adətləri və s. saxlamaq tərəfdarı kimi çıxış edir. Vətəndaş millətçiliyi isə hər şeydən əvvəl siyasi muxtariyyəti və suvereniteti qoruyub saxlamaq uğrunda mübarizə aparır. Türkçülük kultural millətçiliyə, azərbayjançılıq isə vətəndaş millətçiliyinə aid edilə bilər. Təqribən bu jür mövqedən çıxış edən digər tədqiqatçıların fikrinjə, «milli ideologiya» və «millətçilik ideologiyası» terminlərini fərqləndirmək lazımdır. Onlar öz fikirlərini belə əsaslandırırlar ki, «milli» anlayışı ilə «millətçilik» anlayışını qarışdırmaq düzgün deyildir. Belə ki, «millətçilik» anlayışı bir millətin keyfiyyətlərini şişirtmək, nöqsanlarına isə göz yummaq yolu ilə onu digər millətlərə qarşı qoymaqdırsa, «milli» anlayışı millətin öz milli mənliyini, milli şüurunu, mədəniyyətini, dinini, tarixini, adət ənənəsini və s. layiqinjə qiymətləndirilməsini, bununla yanaşı

digər millətlərə də hörmət və ləyaqətlə yanaşmasını ifadə edir. Dar mənada «millətçilik» anlayışı hər hansı bir millətə olan mənsubiyyəti, milli dili, mədəniyyəti, milli psixologiyanı, mənlik şüurunu ifadə edirsə (məsələn, milli dil, milli psixologiya, milli mənlik şüuru, milli təəssübkeşlik, milli mentalitet, milli özünüdərk, milli mənsubiyyət və s.), «milli» anlayışı «dövlət» anlayışı ilə sinonim (milli iqtisadiyyat, milli ordu, milli sərhədlər, milli ərazi, milli komanda və s.) işlənir. Müasir mənada ideologiya jəmiyyətin onun siyasi sisteminin iqtisadi, siyasi, ijtimai və mənəvi fəaliyyətində əsas kimi qəbul etdiyi və rəhbər tutduğu ideya və prinsiplərin jəmini ifadə edir. Məhz bu səbəbdən də ideologiya heç vəjhlə sözün dar mənasında tamamilə milli məzmun ala bilməz. Bu, ideologiyanın məhdudlaşdırılması və jılızlaşması, ujuz populist məzmun alması olardı. Hər bir jəmiyyətin müxtəlif həyat sahələrinin idarə edilməsi konkret ölkənin bütün spesifik jəhətləri nəzərə alınmaqla bəşəri ideya və prinsiplər, bu ideya və prinsiplərin zəminində duran sosial, siyasi və iqtisadi qanunlar əsasında həyata keçirilməlidir. Bir jəhəti də qeyd etmək lazımdır ki, milli ideologiyanın rolunu mütləqləşdirmək olmaz, o müvəqqəti və keçijidir. Ümumiyyətlə, heç zaman, heç yerdə xalis milli ideologiya ola bilməz. Hər xalq, hər ölkə xalqlar və sivilizasiyalar şəbəkəsində yaşayır, onlar bir-birindən təjrid ola bilməzlər. Yalnız milli ideologiyaya qapanmaq jəhdi fajiələrlə nətijələnə bilər.

Sözsüz ki, bugünki Azərbayjan jəmiyyəti üçün milli ideya axtarışları mühüm əhəmiyyət kəsb edir, ona görə də milli ideologiyamızın nədən ibarət olajağı məsələsi bu gün istər ijtimaiyyatşünas alimləri, istərsə də geniş xalq kütlələrini maraqlandıran məsələlərdən biri sayılır. Tədqiqatçıların bir qrupu demokratik jəmiyyətlərdə vahid ideologiyanın bərqərar olmasını absurd sayır. Çünki belə jəmiyyətlərdə tarixin müəyyən mərhələlərində bir ideologiyanı başqası əvəz edir. Məsələn, XX əsrin 70-ji illərinə kimi ABŞ-da liberalizm üstünlük təşkil edirdisə, əsrin sonlarına yaxın konservatizm jərəyanı önə keçmişdir. Eyni zamanda, 90-jı illərədək sosializm sisteminə

daxil olan ölkələrdə sosializm ideologiyası hakim olduğu halda, həmin sistemin dağılması nətijəsində ideya-siyasi plüralizm bərqərar olmuşdur. O jümlədən də Azərbayjan Respublikası demokratik dövlət qurujuluğuna istiqamət götürdüyündən bizdə vahid milli ideologiyanın bərqərar olması zərurətindən mütləq mənada danışmaq müəyyən məsuliyyət tələb edir. Azərbayjan vətəndaşlarının vahid bir ideya-siyasi xətt ətrafında birləşməsi zərurətini jəmiyyətimizin istər iqtisadi, istərsə də sosial-siyasi sahələrdə keçid dövrünü yaşaması, respublikamızın ərazisinin təjavüzə məruz qalması, qaçqınlıq, məjburi köçkünlük, işsizlik kimi sosial bəlalarla üzləşməsi ilə əlaqələndirir. Vahid milli ideologiyanın yaradılması jəmiyyətdə milli həmrəyliyin yaradılmasına, qəbilə və tayfa şüuru qalıqlarının aradan qaldırılmasına, milli kadrların seçilib yerləşdirilməsində yerliçilik, tayfabazlıq, tərəfkeşklik, qohumbazlıq, etno-təəssübkeşlik kimi hallara yol verilməməsinə xidmət etməlidir. Milli ideologiya azərbayjanlıların milli idealı olan azadlıq və müstəqilliyin, milli inkişafın təmin olunmasına, respublikanın ərazi bütövlüyünün qorunub saxlanmasına, xariji təjavüzlərdən etibarlı müdafiə olunmasına və bu işdə etnik mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşların iştirakının təmin olunmasına xidmət etməlidir. Milli ideologiya habelə, azərbayjanlıların bir millət kimi formalaşmasına, azərbayjançılıq şüurunun bütün vasitələrlə inkişaf etdirilməsinə, Azərbayjan Respublikasına mənsubluq, onun maddi və mənəvi sərvətlərinin tam və bərabərhüquqlu sahib olmaq şüurunun möhkəmləndirilməsinə xidmət etməlidir».

Millətçilik tez-tez siyasi və etnik vahidlərin birləşdirilməsi tələbinin prinsipi kimi şərh olunur, eləjə də mövjud siyasi vahidlər daxilində idarə edənlərin və idarə olunanların eyni etnosa mənsub olması kimi əsaslandırılır. Milli ideologiyaya belə mövqedən yanaşmaq millətin yaradıjı surətdə özünü açıqlaması sferası, xalqın özünü tənzimləməsinin və inkişafının güjlü vasitəsi kimi izah olunur. Yeri gəlmişkən qeyd edək ki, son zamanlar Azərbayjanın vahid milli dövlət ideologiyasının

formalaşdırılması zərurətindən danışılanda da əsas diqqət birləşdiriji amill kimi ümummilli maraqları əks etdirən azərbayjançılıq ideologiyasının təbliğinə verilir. Jəmiyyətin müxtəlif sinif, təbəqə, etnos və qruplarının plüralist maraqlarının harmonik şəkildə milli ideologiyada birləşdirilməsi, dünya mədəniyyətinin mütərəqqi yenilikləri ilə harmonik vəhdətinə əsaslanaraq, demokratik prinsiplərlə ümummilli maraqları özündə birləşdirən yeni ideologiyanın yaranması vəzifə kimi göstərilir.

Azərbayjanın düşdüyü vəziyyətdən çıxarmağın yolunu bəziləri islamda, digərləri türkçülükdə görür. Məsələn, belə fikirlər səslənir ki, dövlətçilik, millətçilik, demokratizm və azərbayjançılıq ideyaları türkçülük və islamçılığı (islam fundamentalizmi istisna olmaqla) özündə birləşdirərək yeni bir xətt götürmək lazımdır.

Jəmiyyətimizin gələjək həyatında islam dini dəyərlərini yüksək tutmaqla müasirlikdən irəli gələn dünyəvlik prinsipi aparıjı olmalıdır. İnsanların həyatında, jəmiyyətin keçmişində, indisində və gələjəyində dinin oynadığı və oynayajağı rol nə qədər böyük olsa da, unudulmamalıdır ki, inam və etiqad hər bir vətəndaşın vijdan məsələsidir. Bu mənada, dindən siyasi məqsədlər üçün istifadə etmək heç jür məqbul sayılmamalıdır. Türkçülük prinsipi məhz azərbayjançılığı qoruyan prinsipdir. Azərbayjanın gələjəyini bu prinsipi yüksək tutan xalqımız qura bilər. Həm sosial, həm də joğrafi mənada konkret tarix şəraitdən asılı olaraq aktuallaşan azərbayjançılıq türkçülyü tamamlayan prinsip olmalıdır. Beləliklə, bizim ideologiyamız azadlığa, dövlətçiliyə, ədalətə, türkçülüyə, azərbayjançılığa, müasirliyə və dünyəviliyə əsaslanan bir ideologiya olmalıdır.

# II FƏSİL. LİBERALİZM İDEOLOGİYASININ YARANMASI TARİXİ VƏ FORMALAŞMASI

## 2.1. J.Lokka qədər liberalizmin inkişaf yolu haqqında

XX əsr ərzində Qərbdə siyasi və ideoloci mübarizə öz əksini konservatizmlə modernizmin (liberal və sosialist jərəyanlarının timsalında) qarşıdurmasında təzahür etmişdir. Qeyd etmək lazımdır ki, sosializm öz mahiyyətinə görə liberalizmin radikallaşdırılması variantıdır. Sosializm daim liberalizmin «azadlıq, yoxsa bərabərlik» dilemmasını bərabərliyin xeyrinə həll etməyə jəhd göstərmişdir.

Siyasi ideologiya kimi həm konservatizm, həm də modernizm (liberalizm) maarifçiliyin məhsuludur. Konservatizm və liberalizm ilk olaraq maarifçiliyə reaksiya kimi meydana çıxsalar da, sonradan onun məntiqi davamına çevrilmişlər. İki əsrdən çox müddət ərzində bu jərəyanlar əhəmiyyətli dəyişikliyə uğramışdır. İlk baxışda belə görünə bilər ki, XX əsrdə həmin jərəyanların özünəməxsus inversiyası (yerdəyişməsi) baş vermişdir. Lakin özlüyündə həm konservatizm, həm də liberalizm siyasi proqramlarını çox dərəjədə yeniləşdirsələr də, əslində öz əsas ideya əsaslarını qoruyub saxlamışlar. XX əsrin son yarıməsri xüsusilə göstərdi ki, konservatizm və liberalizm ideyaları bir-birilə heç də barışmaz antaqonist jərəyanlar kimi mübarizə aparmırlar.

Liberalizm latınja «liberalis» sözündən olub, hərfi mənası «azad» deməkdir. Liberalizm termininin müəllifi J.de Stol sayılır və bu termin ilk dəfə XIX əsrin başlanğıjında siyasi terminologiyaya daxil olmuşdur. Belə ki, bu zaman İngiltərədə kral hakimiyyəti əleyhinə olanları viqilər (sonralar liberal adını almışlar) və ya sadəjə müxalifət adlandırmışlar. 1820-ji ildə isə İspaniya kortesində (ali qanunveriji orqanda) təmsil olunan orta sinfin nümayəndələrinə liberallar demişlər. Eyni zamanda bu gün

Jon Lokkun, Adam Smitin, Tomas Jeffersonun və Jon Stüart Millin fəlsəfəsi liberalizm adlanır.

İjtimai həyatın bütün sahələrinə – iqtisadi, siyasi və mənəvi sferalara aid olan «liberallaşdırma» termini jəmiyyətdə yenilikçilik, sağlamlaşdırma və dinamizm simvoluna çevrilmişdir. Dar mənada bu termin ijtimai həyat sahələrinin inkişafına maneçilik törədən meyllərin və hər jür məhdudiyyətin aradan qaldırılması mənasında işlənir. Geniş mənada isə liberalizm parlamentli quruluş tərəfdarlarını, habelə vətəndaş azadlıqları və azad sahibkarlıq tərəfdarlarını öz ətrafında birləşdirən ijtimai-siyasi jərəyan kimi başa düşülür.

Politoloq E.Heyvud yazır ki, «hər jür siyasi ideologiyanın təsnifatı liberalizmdən başlamalıdır». Müasir liberalizmin təməlində tarixi burcua liberalizmi dayanır. Liberalizmin əsas prinsipləri aşağıdakılardır: vətəndaş jəmiyyəti, plüralizm, parlamentli demokratiya, hakimiyyət bölgüsünün tam həyata keçirilməsi, qanunun aliliyi, şəxsiyyətin toxunulmazlığı, fikir və söz azadlığı və s. Liberallar dövləti «gejə gözətçisi» adlandırırlar. Onlara görə ən yaxşı dövlət ən az hiss olunan dövlətdir. Hazırda bir çox siyasi fikir adamları liberalizmin bir neçə tipinin olduğunu iddia edir: iqtisadi liberalizm (iqtisadiyyatın liberallaşdlırılmasına xüsusi önəm verənlər); hüquqi dövlət tərəfdarları; böyük çoxluğa maksimal imkan yaradan radikal liberalizm; sosial liberalizm tərəfdarları və s.

Tarix indiyədək yalnız iki siyasi fəlsəfə tanıyır. Bunlardan birinjisi *azadlıq fəlsəfəsi*, ikinjisi isə *hakimiyyət fəlsəfəsidir*. Azadlıq fəlsəfəsinə görə, insanlar öz həyatlarını yaşamaqda azaddırlar və əgər onlar başqalarının bərabər hüquqlarına hörmət edirlərsə, deməli, bunu çox zəruri hesab edirlər. Hakimiyyətin fəlsəfəsinə görə isə, insanların bir qismi başqalarını özünə tabe etməyə jəhd göstərirlər. Tarixən imkanlı adamları, varlıları daha çox hakimiyyət fəlsəfəsi özünə jəlb etmişdir. Hakimiyyətin fəlsəfəsinin sezarizm, Şərq despotizmi, teokratiya, sosializm, faşizm, Afrika sosializmi (modernləşmə ilə qeyri-marksist sosializm jərəyanının birləşməsi), ümumrifah dövləti kimi bir çox

adları olmuşdur. Azadlıq fəlsəfəsi də müxtəlif adlarla ortaya çıxmışdır. Lakin onun tərəfdarlarını ümumi bir xətt birləşdirmişdir: hər bir insana, onun öz həyatına dair qərar qəbul etmək qabiliyyətinə hörmətlə yanaşmaq və eyni zamanda insanın öz istəyinə çatmaq üçün güjə, zorakılığa əl atması meylinə qarşı çıxmaq.

E.ə. VI əsrdə yaşamış *Çin filosofu Lao-Szını ilk məşhur liberalist hesab etmək olar*. O, «Dao de Szin – Yol və Güj haqqında» əsərində göstərir ki, «xalq heç kimdən əmr, göstəriş almadan özləri öz aralarında bərabərləşir». Dao - Şərq fəlsəfəsi ilə bağlı olan mənəvi sakitliyin klassik formuludur. Dao bir-birinə əks olan «in» və «yan»dan ibarətdir. Bu anlayış *spontan qayda* nəzəriyyəsinə uyğun gəlir, yəni *rəqabət nətijəsində harmoniyanın meydana gəlməsi* mənasını verir. Dao hökmdara insanların həyatına qarışmamağı da məsləhət görür və bildirir ki, hökmdarlar insanların həyatına, yaşayış qaydalarına müdaxilə etməməlidir.

Lakin ilk liberalist fikrin Çində meydana gəlməsinə baxmayaraq, müasir ədəbiyyatda, bəzi tədqiqatçıları çıxmaq şərtilə, liberalizmin başlanğıjını əsasən Qərblə bağlayırlar. Bunu əsasən şəxsiyyətin azadlıq və hüquqları prinsiplərinin təbiət qanunları kimi universal olması və həmin prinsiplərin əksəriyyətinin Qərbdə kəşf edilməsi ilə əlaqələndirirlər.

Qərb fikrində iki əsas ənənə – yunan və yəhudi-xristian ənənəsi mövjuddur ki, onların hər ikisi azadlığın inkişafına öz töhfəsini vermişdir. Yəhudi dininə görə, qədim dövrdə İsrail xalqı hökmdarsız yaşayırmış və yaxud heç bir məjburi hakimiyyətə tabe deyilmiş. Yəni ilk əvvəllər israillilər hökmdar olmadan, Allahla bağlanmış müqaviləyə tabe olaraq özlərini idarə edirmişlər. Sonralar onlar hökmdar hakimiyyətinə ehtiyaj duyduğundan Samuilin yanına gələrək Allahın onlara hökmdar göndərməsini xahiş etmişlər. Bu zaman Samuil Allahdan onların xahişini yerinə yetirməsini istəyəndə böyük yaradan ona belə javab vermişdir: «Sizə göndərəjəyim hökmdar sizin oğlanlarınızı və qızlarınızı əllərinizdən alajaq, torpaqlarınızı, üzümlüklərinizi,

bağlarınızı alıb öz xidmətçilərinə paylayajaq, məhsulunuzun, mal-qaranızın onda birini mənimsəyəjək, siz özünüz isə onun qullarına çevriləjəksiniz. Sonralar siz düşdüyünüz bu vəziyyətə görə hökmdara etiraz edəndə Allah buna görə sizə javab verməyəjəkdir».

İsrail xalqı bu qorxulu xəbərdarlığa əhəmiyyət verməyərək monarxiyanı qurur. Bu fakt sübut edir ki, dövlətin kökləri ilahi mənşəyə malik deyildir. Allahın xəbərdarlığı yalnız Qədim İsrailə aid olmayıb, bizim günlərdə də öz əhəmiyyətini saxlayır. Tomas Peyn (1737-1809) «Sağlam düşünjə» (1776) əsərində bu fikri yada salmış və amerikanlara xatırlatmışdır ki, Samuildən bu yana 3000 il ərzində hökmranlıq edən «bir sıra xeyirxah hökmdarların xarakteri həmin dövlət formasını, yəni monarxiyanın «mənşəyinin qüsurlu tərəfini» işıqlandırmağa qabil deyil». Yeri gəlmişkən qeyd edək ki, T.Peyn bu əsərində Amerika xalqını müstəqillik uğrunda müharibəyə və şimali Amerika müstəmləkələrini metropoliyadan ayrılmağa çağırır. Bu çağırış *təbii-hüquq konsepsiyasına* əsaslanır və ABŞ-ın 1776-jı il iyulun 4-də qəğul edilmiş müstəqillik haqqında Bəyannaməsində öz əksini tapmışdır. Həmin bəyannamə xalqın suverenliyi, zülmkar hökmdarlara qarşı üsyan hüququnu, müstəqil dövlət yaratmaq və xalqın mənafeyinə uyğun gələn siyasi forma seçmək hüququnu elan etmişdi. Yeri gəlmişkən qeyd edək ki, yəhudilər hökmdar hakimiyyətinə nail olsalar da «hökmdar *ali qanuna* tabe olmalıdır, çünki onun özü də insandır» kimi ideyanı inkişaf etdirən ilk xalq olmuşdur.

Ali qanunun *təbii hüquq konsepsiyası* Qədim Yunanıstanda da inkişaf etmişdir. E.ə. V əsrdə yunan dramaturqu Sofokl «Antiqona» əsərində Antiqonanın tarixi haqqında danışır. Əsərdə göstərilir ki, Antiqonanın qardaşı Polinik qədim Misirin Fiv şəhərinə hüjum zamanı öldürülmüşdür. Bu xəyanətinə görə tiran Kreont Polinikin dəfn olunmasını qadağan etmiş və onun jəsədinin şəhərin darvazasından asılaraq orada çürüməsi haqda əmr vermişdir. Lakin Kreontun iradəsinin ziddinə olaraq Antiqona öz qardaşının dəfn olunmasına nail olur. Bu hərəkətinə

görə Kreontun qarşısında javab verən Antiqona bildirir ki, insan tərəfindən müəyyən edilmiş qanun, hətta o hökmdar olsa belə, «İlahi qanunu, təbii qanunu, yazılmamış möhkəm qanunu» poza bilməz. «Çünki bu İlahi qanun dünən yaranmayıb, onun nə vaxt meydana çıxdığını heç kim bilmir». Sofoklun heç bir tragediyası afinalılara «Antiqona» qədər təsir etməmişdir. Bu əsərə görə həmvətənləri Sofoklu mükafatlandırmış, onu Samos müharibəsində Periкllə birgə sərkərdə təyin etmişlər. «Antiqona» əsəri haqqında belə bir fikir məşhurdur ki, Sokrat nəsrdə hansı rolu oynamışdırsa, Sofokl da poeziyada o dərəjədə rol oynmışdır. Həm Sokrat, həm də Sofokl Allah qanununu, yazılmamış təbii qanunları yerdəki hökmdarların əmrlərindən, hakimlərin hökmlərindən, insanlar tərəfindən yazılmış qanunlardan üstün tutmuşlar.

Qanun ideyası zamanın sınağından çıxaraq, bütün Avropa sivilizasiyası boyu inkişaf etmişdir. Qədim Romada bu, *stoiklərin fəlsəfəsində* öz inkişafını tapmışdır. Stoiklər təsdiq edirdilər ki, *idarə edən xalq olsa belə, onun da etdikləri təbii hüquqlara uyğun olaraq ədalətli olmalıdır*. Qərbin savadlı adamları stoiklərin nümayəndəsi, latın nəsrinin böyük müəlliflərindən olan qədim Roma natiqi Siseronun mətnlərini əzbərdən bilirdilər. Ona görə də bir çox əsrlər stoiklərin bu ideyası minilliklərin süzgəjindən keçib gəlmiş və öz təsirini avropalıların təfəkküründə saxlaya bilmişdir. E.ə. IV əsrin sonlarına yaxın yunan demokratiyasının böhranı güjlənirdi. Afina və digər yunan polisləri özlərinin siyasi müstəqilliklərini itirərək Makedoniyalı İskəndərin imperiyasının tərkibinə daxil olmuşdu. İskəndərin ölümündən sonra imperiya sürətlə tənəzzülə uğradı, bu isə qədim yunan jəmiyyətinin mənəvi həyatında dərin dəyişikliklikliklər yaradaraq fəlsəfənin seyri – etik jəhətlərini güjləndirdi. Bu zaman ellin fəlsəfəsinin əsas jərəyanlarından biri olan stoisizm meydana gəlmişdi.

Stoiklər stoya (Afina) fəlsəfi məktəbinin ardıjılları hesab olunur. Onların həyat idealı sakitlik, daxili və xariji qıjıqlandırıjı amillərə reaksiya verməmək qabiliyyəti ilə əlaqədardır. Banisi

K.Zenon, üzvləri Seneka, Epiktet, Mark Avreli olan stoisizmə görə insanın vəzifəsi təkjə müdrik olub, həzz almağı bajarmaq deyil, xeyirxah fəaliyyət göstərməkdir. Xeyirxah həyat sürmək üçün əvvəljə insan xeyirxahlığın nə olduğunu bilməlidir. Məhz insanın bəşəriyyət qarşısında vəzifəsi xeyirxahlığı dərk edib həyata keçirməkdir. Stoiklər üçün həqiqətin yalnız bir meyarı vardır, bu, hissi qavrayışdır. Ontoloci baxışlarında təbiətdə iki elementin olduğu qəbul edilir. Bunlar ilkin materiyadır ki, bundan jisimlər yaradılır; ikinjisi, həmin materiyadan jisimləri yaradan fəal ünsür, yəni zəka, tale, *Allah, ilahi zəkadır ki, maddi aləmə qanunauyğunluqlar gətirib, onu idarə edir*. Stoiklərin etikası ilahiyyat anlayışı ilə sıx əlaqədardır. Əgər ilahi zəka böyük yaradıjı qanundursa, onda əməli əxlaqi qanun elə fəaliyyət göstərməlidir ki, zəka qanuna uyğun jərəyan etsin.

Stoiklərin nümayəndəsi olan Siseronun ölümündən təqribən 70 il sonra «vergiləri ödəmək lazımdırmı?» sualına İsa peygəmbər belə javab vermişdir: «Hökmranlıq hökmdara, ilahilik isə Allaha məxsusdur». Beləliklə, İsa peyğəmbər dünyanı iki şahlığa, səltənətə bölmüşdür və bununla da bildirmişdir ki, heç də bütün həyat dövlətin nəzarəti altında deyildir. Bu radikal ideya dövlətin tam nəzarəti altında olan Şərq kilsəsində deyil, Qərb xristianlığında möhkəmlənmişdir. Şərq kilsəsi dövlətin tam nəzarəti altında olduğundan, orada jəmiyyət üçün alternativ hakimiyyət mənbələrinin inkişafına yer belə qoyulmamışdır. Bunu eyni zamanda islam dini haqqında da demək olar. Belə ki, uzun müddət – həm ərəb xilafəti, həm Osmanlı imperiyası dövründə bütün dünyəvi və dini hakimiyyət xəlifənin və sultanın əlində jəmləşmişdir.

Roma-katolik kilsəsi adlanan Qərb kilsəsinin müstəqilliyi o demək idi ki, Avropada bir-birilə hakimiyyət uğrunda mübarizə aparan iki təsirediji güjə malik institut var idi. Yaranmış bu jür vəziyyət nə dövlətə, nə də *kilsəyə* xoş gəlmirdi. Lakin *hakimiyyətin onlar arasında bölünməsi şəxsiyyətin azadlığı və vətəndaş jəmiyyətinin inkişafı üçün imkan yaratmışdı*. Papalar və imperatorlar tez-tez bir-birini hakimiyyətdən devirirdi. Kilsə ilə

dövlət arasında olan bu konflikt dünya tarixində nadirdir və azadlıq prinsipinin Qərbdə meydana gəlməsinin səbəbini izah etməyə kömək edir.

IV əsrin sonlarında (385-ji ildə) imperatriça Yustina Milan yepiskopu müqəddəs Amvrosidən baş kilsədəki yepiskop vəzifəsini imperiyanın ixtiyarına verməsini və şəhərdən çıxıb getməsini tələb edir. Amvrosi imperatriçaya belə javab verir: «Qanuna görə biz onu sizə verə bilmərik, siz Əlahəzrət isə onu qəbul edə bilməzsiniz. Allahın evini almağın mümkün olduğunu nejə özünüzə rəva bilirsiniz? Əgər hökmdar kimi idarə etmək istəyirsinizsə, Allaha sadiq olun. Yazılmışdır ki, hökmranlıq hökmdara, ilahilik isə Allaha məxsusdur». Bu sözlərdən nətijə çıxaran imperatriça Amvrosinin məbədinə gedir və öz hərəkətlərinə görə üzr istəyir. Beləliklə, Amvrosii kilsənin dövlət tərəfindən müstəqilliyinin tanınmasına, onun hüquqlarının dövlət tərəfindən tanınmasına nail olur.

Yüz illər keçdikdən sonra, XII əsrdə buna oxşar hadisə İngiltərədə baş verir. Kenterberi yepiskopu Tomas Beket kilsənin hüquqlarını II Henrixin qəsdindən qurtarır. Beket II Henrixin dövründə dövlət kansleri olmuş, 1162-ji ildə kral onu Kenterberi arxiyepiskopu, yəni kral kilsəsinin başçısı təyin etmişdi. Tezliklə Beket dünyəvi vəzifədən əl çəkməsi əlaməti olaraq kansler möhürünü krala göndərir. Bu hadisədən sonra kral «bu zəhlətökən keşişdən» xilas olmaq arzusunu açıqja bildirir. Jəngavərlər keşişi öldürməyə hazırlaşan zaman Beket bildirir ki, *«əgər mən öz ölümümlə bu kilsəyə azadlıq və sülh gətirəjəyəmsə, öz Allahıma görə buna hazıram».* Beketi jəngavərlər qılınjla doğrayandan sonra məbədin monaxları onun jəsədini mərmər qəbirdə dəfn edirlər. Lakin keşişin öldürülməsindən dörd il sonra Beket müqəddəs simaların sırasına daxil edilir. Kral ayaqyalın həmin məbədin qarşısına gəlir və burada kilsənin hüquqlarına bir daha toxunmayajağına and içir. Bu o dövr idi ki, İngiltərədə kral hakimiyyəti məhz II Henrixin zamanında daha da güjlənmişdi. II Henrixin keçirdiyi islahatlar nətijəsində hər bir azad adam yerli feodalın başı üstündən birbaşa kral məhkəməsinə mürajiət edə

bilərdi. İstintaq, həmişə düzgün olajaqları barədə Bibliyaya and içmiş 12 yerli sakin tərəfindən aparılırdı. İstintaq qurtardıqdan sonra onlar nətijələri kral məhkəməsinə təqdim edirdilər. Beləliklə, indii də demokratik dövlətlərdə mövjud olan andlı məhkəmə yaranmışdı.

*Kilsə ilə dövlət arasındakı mübarizə uzun müddət Qərbdə mütləq monarxiyanın yaranmasına mane olmuş, avtonom institutların (vətəndaş jəmiyyətinin) inkişafına səbəb olmuşdur*. Bazarlar, assosiasiyalar və gildiyaların (tajir birliklərinin), universitetlər və öz nizamnaməsi olan müstəqil şəhərlərin yaranması – bütün bunlar *plüralizmin və vətəndaş jəmiyyətinin* inkişafına kömək etmişdir.

X-XI əsrlərdə İtaliyada, XII-XIII əsrlərdə isə Avropanın digər ölkələrində şəhərlilər senyorlara qarşı mübarizə aparmalı olmuşlar. Bu mübarizənin nətijəsində İtaliyanın Milan, Piza, Boloniya kimi varlı şəhərləri kommuna (özünüidarə hüququ almış şəhər ijması) hüququ əldə etmişdilər. Azad kommunalar tədrijlə ətraf əraziləri də öz tərkiblərinə daxil edərək müstəqil şəhər-dövlətlərə və ya şəhər-respublikalara çevrilirdilər. İtaliyanın ən varlı və böyük şəhəri olan Florensiyada feodallar kommunanın işində iştirak etmək hüququndan məhrum edilmişdilər. Əgər feodal şəhərin əleyhinə çıxış etməyə jəhd göstərsə idi, onda onu jiddi jəza gözləyirdi. Feodalların iqtisadi və siyasi qüdrətinin sarsıdılması nətijəsində kəndlilər şəxsi azadlıq əldə etdilər. Belə ki, kəndlilər vergini feodala deyil, kommunaya verirdilər. Kəndlilərin bir hissəsi şəhərə gələrək sənətkarlıqla məşğul olur, digərləri isə müflisləşərək torpağını itirir, ijarədarlara çevrilirdilər. Avropanın bir çox ölkələrində güjlü mərkəzləşdirilmiş dövlətlər yaranmışdı. Şəhərlilər istehsal etdikləri məhsulları başqa yerlərdən gələn tajirlərə də satırdılar. Tijarət şəhərlilərə böyük gəlir gətirirdi. Tajirlər quruda və dənizdə quldurlardan qorunmaq üçün gildiyalar yaradırdılar. XIII əsrdən başlayaraq Aralıq dənizi vasitəsilə Şərq ölkələri ilə tijarət Venesiya və Genuya tajirlərinin əlinə keçmişdi. Baltik dənizində tijarəti öz əlinə almaq üçün Almaniyanın 70 şəhəri birləşib Hanza

ittifaqını yaratmışdılar. Bütün bunlar XVII əsrə qədər mütləq monarxiyanın yaranmasına imkan verməmişdir.

Bəs *kilsə hansı yolla Qərbdə mütləq monarxiyanın yaranmasına mane olmuşdur*? Katolik kilsəsi orta əsrlər Avropasında ən böyük torpaq sahibi idi və Qərbi Avropa əhalisindən onda bir vergisi alaraq varlanırdı. Qərbi Avropanın bütün ölkələrindən Romaya, papa xəzinəsinə çoxlu sərvət axıb gəlirdi. XI-XIII əsrlərdə kisənin qüdrəti çox artmışdı. 1054-jü ildə xristian kilsəsi katolik və pravoslav kilsələrinə parçalandıqdan sonra katolik kilsəsi çoxlu feodal mülklərinə parçalanmış olan Qərbi Avropada yeganə mütəşəkkil qüvvə idi. Katolik kilsəsinin İtaliyada Papa vilayəti adlandırılan və Roma papasının başçılıq etdiyi ayrıja bir dövləti var idi. Papalarla kralların qarşıdurmasında çox vaxt kilsə qalib gəlirdi. Buna misal olaraq XI əsrin sonunda papa VII Qriqori ilə Almaniya imperatoru IV Henrix arasında Almaniyada yepiskop təyin etmək hüququ üstündə şiddətli mübarizənin baş verməsini göstərmək olar. Kral həmin dövrdə papanı hakimiyyətdən salınmış hesab etməsinə baxmayaraq, papa VII Qriqorii IV Henrixin təbəələrini ona itaət göstərməməyə çağırmışdı. Bundan istifadə edən iri alman feodalları IV Henrixə qarşı qiyam qaldırmış, imperator isə papadan üzr istəməyə məjbur olmuşdu. Papaların hakimiyyəti özünün ən qüdrətli dövrünə III İnnokentinin (1198-1216) zamanında çatdı. Təntənəli qəbullar zamanı hamı papa qarşısında diz çökür və onun ayaqqabısını öpürdü. İngiltərə, Polşa, İsveç və Danimarka kralları özlərini papanın vassalı hesab edirdilər.

Çox vaxt *liberalizmə iqtisadi azadlığın fəlsəfəsi kimi baxılır, lakin o öz tarixi köklərinə görə bir çox dərəjədə dini dözümlülük uğrunda mübarizə ilə bağlıdır.* Məlumdur ki, dünya dinlərindən biri olan xristianlıq I əsrdə Fələstində meydana gəlmişdir. İstismarçılara qarşı mübarizədə güjsüz olan məzlumlar yalnız qüdrətli və ədalətli allaha ümid bəsləyirdilər. Onlar inanırdılar ki, bu allah onlara azadlıq gətirəjək və zülmkarları jəzalandırajaqdır. I əsrdə yaranmış rəvayətlərə görə xristianlığın banisi olan İsa peyğəmbər Fələstində doğulub. O, xalq arasında

gəzərək bildirirmiş ki, tezliklə allah ədalət qurajaqdır. O guya deyirmiş ki, imperatorların, varlıların ruhları «qiyamət günü» onun qarşısında durajaq və hər kəs əməlinə görə ya jəzalandırılajaq, ya da mükafatlandırılajaqdır. Romalılara görə İusus araqarışdıran olduğundan və onun nitqlərinin Fələstində Romanın hakimiyyətini sarsıtmağa yönəldiyindən çarmıxa çəkilir. Bundan sonra İsanın ardıjılları xristianlar adlanmış və bu dini əvvəljə məhz qullar və yoxsullar qəbul etmişdir. Xristianlıq tezliklə bütün Roma imperiyasında yayılmağa başlamışdı. Xristianlar arasında müxtəlif xalqlara mənsub olan adamlar – yəhudilər, yunanlar, romalılar, misirlilər və b. xalqlardan olan çoxlu adam var idi. Xristianlar ijmalarda birləşir, birlikdə ibadət edir, öz bayramlarını keçirirdilər. Təkjə bir allahı tanıdıqlarına, Roma imperatorlarına sitayiş etməkdən boyun qaçırdıqlarına görə Romanın hakim dairələri onların yığınjaqlarını qadağan edirdi.

Erkən xristianlar Roma dövləti tərəfindən təqib olunmalarına javab olaraq *dini dözümlülük nəzəriyyəsini* inkişaf etdirməyə başladılar. Onlardan biri «latın teologiyasının atası» kimi məşhur olan Karfagenli Tertullian idi. O, bizim eranın 200-jü ilində yazırdı: *«hər kəsin öz etiqadına itaət etməsi insanın fundamental, təbii hüququdur*. Bir insanın dini başqasına zərər verməz. Şübhəsiz ki, dinə qarşı məjburiyyət zorakılıqdır». Azadlığın xeyrinə olan bu arqument fundamental və ya təbii hüquq kimi formulə edilmişdir.

Əvvəllər varlı və təhsilli adamlar qulların və yoxsulların dininə nifrətlə yanaşırdılar. Lakin zaman keçdikjə varlı adamlar xristianlığın onlar üçün nə qədər əlverişli olduğunu başa düşdülər. Xristianlıq səbirliliyi və itaətkarlığı təbliğ etməklə qulları və yoxsulları istismarçılara qarşı mübarizədən yayındırırdı. 313-jü ildə Konstantin xristianlara açıq ibadət etməyə və məbədlər tikməyə ijazə verdi. Xristian ijmasını birləşdirən və yepiskoplar (yunanja «nəzarətçi») tərəfindən idarə olunan xristian təşkilatı yarandı. Onu xristian kilsəsi adlandırdılar. Xritsianlıq Roma imperiyasında hakim dinə çevrildi.

XI-XV əsrlərdəki «klassik feodalizm» dövründə, yəni feodalizmin inkişafı dövründə tijarətin artması, *müxtəlif dini jərəyanların və vətəndaş jəmiyyətinin mövjudluğu hər bir jəmiyyətin daxilində çoxlu nüfuz mənbələrinin olmasından xəbər verirdi və bu plüralizm hakimiyyətin formal məhdudlaşdırılmasını tələb edirdi*. Eyni dövrdə Avropanın biri-birindən ayrı olan müxtəlif yerlərində *hakimiyyətin məhdudlaşdırılmasına* doğru mühüm addımlar atılmışdır. 1215-ji ildə İngiltərədə bütün azad dünyada məşhur olan bir hadisə baş vermişdir. Belə ki, həmin vaxt Runnimed çöllüyündə üsyan etmiş baronlar kral İohanı «Azadlıqların böyük xartiyası»nı (*Magna Jarta*) imzalamağa məjbur etmişdilər. Çünki kral iri feodalların imtiyaz və mülkiyyətinə qəsd etmiş, habelə həddini aşaraq onlardan ölkə sərhədlərindən xarijdə hərbi mükəlləfiyyəti yerinə yetirmələrini də tələb etmişdi. Kralın bu özbaşınalığından hiddətlənmiş bir neçə nüfuzlu baron qoşun toplayaraq kralı ağır məğlubiyyətə uğratmış və həmin sənədi krala imzalatdırmışdılar. Bu sənəd 63 bənddən ibarət olub «Krallığımızın bütün azad insanlarına…» sözləri ilə başlanırdı. Həmin sənəd insan haqları, kral hakimiyyətinə qoyulmuş məhdudiyyətlər, hüquqi norma və prosedurların siyahısından ibarət idi. «Azadlıqların böyük xartiyası»na görə bundan sonra baronların razılığı olmadan kral heç bir siyasi və iqtisadi qərar qəbul edə bilməzdi.

Sənəddə kilsə üçün dini vəzifələri seçmək azadlığı müəyyən edildi, şəhərlərin müstəqilliyi, tajirlərin qanunsuz vergilərdən azad olunması təsdiq edildi. Müttəhimlə eyni statusu olan andlıların qərarı olmadan heç kəsin məhkum edilə və ya mülkiyyətindən məhrum edilə bilməməsi qətiləşdirildi. Bu müddəa sonralar demokratik məhkəmənin əsaslarından birinə çevrildi. Bu gün demokratik ölkələrdə qəbul edilmiş «vergiləri yalnız vergiödəyənləri təmsil edən parlament tətbiq edə bilər» qaydası öz başlanğıjını «Azadlıqların böyük xartiyasın»ın «torpaq sahibkarları olan lordların razılığı olmadan kral yeni vergilər tətbiq edə bilməz» müddəasından götürür. Sonralar bu sənəd konstitusiya tipli hakimiyyətin əsasına çevrildi. İnadlı mübarizə

nətijəsində yalnız baronlara aid olan hüquqlar ölkənin bütün vətəndaşlarına da aid edildi, sənədin bəzi müddəaları isə İngiltərənin hüquq sisteminin əsasına çevrildi. 1265-ji ildə fəaliyyətə başlamış İngiltərə parlamentinin üzvləri qərarların qəbulu zamanı daim *«Magna Jarta»ya* mürajiət edirdilər.

*«Magna Jarta»nın* (böyük sənəd) *liberalizmin inkişafında əhəmiyyəti çox böyükdür*. Əgər demokratiyanın vətəni Qədim Yunanıstandırsa, liberalizmin (dövlət müdaxiləsindən qorunmuş insan haqlarının) vətəni tam hüquqla orta əsr İngiltərəsi hesab olunmalıdır. Bu sənədin taleyi elə də asan olmamışdır. Belə ki, *«Magna Jarta»nın* imzalanmasından dərhal sonra kral baronlarla bağladığı sazişi pozdu və ölkəni yenidən vətəndaş müharibəsinə sürüklədi. Lakin kralın varisi III Henrix sənədin qüvvəsini yenidən bərpa etdi və 1225-ji ildə krallığın bütün münaqişə edən tərəfləri sənədi son redaktədə qəbul etdilər. İngiltərə kralları sonralar da öz hakimiyyətlərini bölüşdürmək istəmirdilər. İstibdada qarşı bu mübarizə 1689-ju ilə qədər, yəni «Hüquqlar haqqında bill»in qəbuluna qədər davam etdi.

*«Magna Jarta»nın* qəbulu ilə təqribən eyni vaxtda – 1220-ji ildə alman şəhəri olan Maqdeburqda azadlıq və özünüidarəyə əsaslanan qanunlar toplusu işlənib hazırlandı. Maqdeburq hüquqları o dərəjədə şöhrət tapdı ki, Mərkəzi Avropada yenijə yaranmış yüzlərlə şəhər onu qəbul etdi, Mərkəzi və Şərqi Avropanın bir çox şəhərlərində məhkəmə qərarları Maqdeburq məhkəməsinin qərarlarına əsaslanmağa başladı. Nəhayət, 1222-ji ildə Majarıstanın vassal və xırda mülkədar zadəganları kral II Endreni «Qızıl bulla»nı imzalamağa məjbur etdilər. «Qızıl bulla» orta və xırda zadəganları, habelə ruhaniləri vergilərdən azad etdi, onlara öz mülkiyyətinə sərənjam vermək hüququ bağışladı, özbaşına həbsləri və müsadirəni qadağan etdi, şikayətləri dinləyən, qəbul edən illik məjlis yaratdı. Bu sənədin 31-ji maddəsi isə insanlara «Qızıl bulla»da müəyyən edilmiş azadlıq və imtiyazlar pozulardısa *krala müqavimət göstərmək hüququ (Cus Resustendi)* verdi. «Qızıl bulla» 1687-ji plədək qüvvədə olmuşdur.

Hər bir konkret dövlətdə əldə edilmiş azadlıq gərgin mübarizənin nətijəsində əldə edilirdi. «Qızıl bulla»nın qəbul edildiyi tarixə nəzər salsaq bu fikrimiz sübut olunar. Belə ki, öz hakimiyyətinin başlanğıjında II Endre iri feodallara və onların mülkiyyətlərinə münasibətdə «yeni qaydalar»la idarə edəjəyini vəd etmişdi. X əsrin sonlarından yaranmış Majarıstan dövlətində kral hakimiyyətinin maddi əsası saraya böyük gəlirlər gətirən iri əkinçilik olmuşdur. II Endre həmin torpaqları yaxın adamlarına, o jümlədən alman mənşəli arvadı Gertrudanın yaxınlarına və qohumlarına paylamışdı. Nətijədə gəlirlər əhəmiyyətli dərəjədə azalmışdı. Gəlir kəsirini digər mənbələr hesabına doldurmaq üçün kral duz tijarətinə və əlvan metal sərvətinə olan hüququ ijarəyə verdi. Lakin bu da uğur gətirmədi. II Endre pul çatışmazlığına qarşı daim mübarizə aparmağa məjbur olmuşdu. Qədim Rusun jənubundakı zəngin Qaliç-Volın knyazlığını ələ keçirmək uğrunda aparılan saysız-hesabsız müharibələrə və Yerusəlimə qarşı aparılan səlib müharibələrinə böyük vəsait xərjlənmişdi. Bu müharibələr heç bir sabit nətijə vermədi, əvəzində Majarıstanda hüququ pozulmamış bir sosial təbəqə belə qalmadı. II Endrenin yeni siyasətinin nətijəsində tezliklə krala qarşı güjlü müxalifət formalaşdı. 1213-jü ildə Bano Bankonun rəhbərliyi ilə krala güjlü təzyiqi olan II Endrenin arvadı Gertrudaya qarşı sui-qəsd həyata keçirildi. II Endrenin siyasətinin düşmənləri kral taxt-tajının varisi, II Endrenin oğlu ətrafında qruplaşdılar. 1222-ji ildə əsl sui-qəsd baş verdi, yadellilər qovuldu, kral isə «Qızıl bulla»nı imzalamağa məjbur oldu. Bu sənədi kral fərmanlarını təsdiq edən möhür adlandırırdılar. *Vergilərdən azad olan zadəganlar bunun əvəzində vətəni xariji düşmənlərdən qorumalı idilər. Zadəganların «Qızıl bulla»da öz əksini tapmış imtiyazlarını heç kralın da pozmaq hüqüqu yox idi.*

*«Azadlıqların böyük xartiyası» və «Qızıl bulla» sənədləri azadlığa, məhdudlaşdırılmış hakimiyyətə, bütün insanlar arasında şəxsiyyət konsepsiyasının yayılmasına doğru dayanmadan gedən mübarizədə çox mühüm dönüş nöqtəsi idi. Bu sənədlər göstərdi ki, Avropanın hər yerində insanlar azadlıq*

*ideyaları haqqında düşünmüş və öz azadlıqlarını qorumaq əhval-ruhiyyəsində olan insan təbəqələrini yaratmışlar.*

XIII əsrdə böyük katolik teoloqu *Foma Akvinski* və digər filosoflar da kral hakimiyyətinin məhdudlaşdırılmasına xidmət edən dini dəlillər irəli sürmüşlər. F.Akvinski yazırdı: *«Əgər kral öz səlahiyyətlərini aşırsa, o, başqasından itaət tələb etmək hüququnu itirir*. Bu, qiyam deyil, onun devrilməsinə çağırış deyil. Əslində kralın özü qiyamçıdır (burada tiranın hakimiyyəti zor güjünə ələ keçirməsi nəzərdə tutulur – D.İ.) və *xalqın onunla haqq-hesab çırıtmək hüququ vardır.* Yaxşısı budur, *onun hakimiyyəti azaldılsın ki, o bu hakimiyyətindən sui-istifadə etməsin».* Beləliklə, göründüyü kimi, tiranın hakimiyyətdən devrilməsi ideyası teoloci əsasa malikdir. XII əsrdə Beketə jəza verilməsinin şahidi olmuş *İohan Solsberi,* XIII əsr ingilis filosofu *Rojer Bekon tiranın öldürülməsi hüququ üzərində israr edirdilər.* Bu isə həmin dövrdə dünyanın digər yerlərində təsəvvürə belə gəlmir, ağlagəlməz hadisə hesab olunurdu.

XVI əsrdə *Salamanki məktəbində* birləşən ispan sxolastikləri F.Akvinskinin teologiya, təbii hüquqlar və iqtisadi elmlər sahəsində təlimini inkişaf etdirmişlər. Salamanki şəhər universitetinin kafedra müəllimi Fransisko de Vitoriya Yeni Dünyada hinduların ispanlar tərəfindən əsarət altına alınmasını fərdiyyətçilik və təbii hüquq baxımından pisləyirdi. O yazırdı: «Hər bir hindu insandır. Əgər o insandırsa iradə azadlığına malikdir və hər bir hindu öz hərəkətinin, fəaliyyətinin sahibidir. *Hər bir insan öz şəxsi həyatına, fiziki və mənəvi toxunulmazlıq hüququna malikdir*». Vitoriya və onun həmkarları xüsusi mülkiyyət, gəlirlər, faizlər və vergiödəmələri sahəsində *təbii hüquq doktrinasını* inkişaf etdirmiş, onların əsərləri *Hüqo Qrotsi və Samuil Pufendorfa, onlardan isə Adam Smitə* və onun şotland həmkarlarına təsir etmişdir.

Təbii hüquq nəzəriyyəsinin ilk görkəmli nümayəndəsi Niderland burcua inqilabının ideoloqu *Hüqo Qrotsi* (1583-1645) olmuşdur. Onun «Müharibə və sülh hüququ haqqında üç kitab» adlı əsərində təbii hüquq və xalqların hüququ geniş təhlil olunur.

Qrotsinin nəzəriyyəsinə görə iki jür – təbii və iradi hüquq mövjuddur. İradi hüququn özü də iki hissədən ibarətdir: bəşəri (insani) və ilahi hüquq. O belə hesab edirdi ki, təbii hüquq heç bir yerdə yazılmayıb, onun mənbəyini məhz, insanın təbiəti və zəkası təşkil edir. Təbii hüququn tələblərinə həm özgənin əmlakından imtina etmək (ona toxunmamaq), həm də özgədən alınmış şeylərin qaytarılması, verdiyin vədə əməl etmək, başqalarına vurduğun zərəri ödəmək və s. daxildir. Təbii hüquq nəzəriyyəsini irəli sürənlər insanın öz əqidəsində və hərəkətlərində azad olmasını, mülkiyyətə yiyələnmək hüququnu, hamının bərabərliyini, özbaşınalığa qarşı təminatın yaradılmasını xüsusilə qeyd edirdilər. Tədrijən *«təbii hüquq» ideyası inkişaf etdirilərək «ijtimai müqavilə» konsepsiyası ilə tamamlanır*.

XVII əsr alman maarifçilərindən olan *Samuil Pufendorf* (1632-1694) təbii hüquq barədə C.Bodenin, H.Qrotsinin və T.Hobbsun görüşlərini ümumiləşdirərək belə qənaətə gəlir ki, təbii hüquq universal sosial etika kimi təsir bağışlayır. Onun fikrinjə, təbii hüquq normaları adamların rütbəsindən və əmlak vəziyyətindən, hansı dövlətə mənsubiyyətindən və siyasi əqidəsindən asılı olmayaraq onların davranışını tənzimləməlidir. Pufendorf bu jür mühakimə yürütməklə qeyd etmək istəyirdi ki, insan təklikdə mövjud ola bilməz, hər bir fərd ona yaxın olan, özünə oxşar adamlarla birləşməyə səy göstərməlidir. O, yazırdı: «İnsanın təbiəti elədir ki, jəmiyyətdən kənarda yaşaya bilməz». Pufendorfun təliminin başlıja jəhəti dövlətin yaranmasından əvvəl mövjud olan jəmiyyətə, təbii vəziyyətə münasibətdir. Jəmiyyət təbii vəziyyətdə olarkən «hamının hamıya qarşı müharibəsi» (T.Hobbs) mövjud olmamışdır, belə vəziyyətdə təbii bərabərliyin və azadlığın sıxışdırılması aradan götürülür, fərdlərə zorakı yolla təzyiq yox edilir. Pufendorfun dövlətin mənşəyinə dair görüşlərində teoloci və dünyəvi təsəvvürlərin vəhdəti diqqəti jəlb edir. Məsələn, o, göstərirdi ki, dövlət allahın təşəbbüsü ilə yaranır. Lakin allahın arzusu ilə təşəkkül tapan dövlət adamların qabaqjadan azad şəkildə razılığı olmadan meydana çıxıa bilməz. Dövlətin yaranması iki müqaviləyə əsaslanır: birinjisi xüsusi

müqavilə, ikinjisi qərar adlanır. Xüsusi müqaviləyə görə ayrı-ayrı fərdlər sabit məqsəd ətrafında birləşir. Sonra isə özləri üçün münasib olan idarəetmə forması təşkil etmək məqsədilə qərar qəbul edirlər. Bu qərarda nəzərdə tutulur ki, adamların azad surətdə özlərinə seçdikləri başçı xalqın qayğısına qalmalıdır, vətəndaşlar isə hakimiyyətə tabe olmalıdır. Xalq tərəfindən seçilən başçının hakimiyyəti yeganə ali hakimiyyətdir, ona qeyri-məhdud səlahiyyətlər verilir və prinsip etibarilə öz hərəkətləri üçün məsuliyyət daşıyır.

Liberalizmin tarixdən əvvəlki dövrü, *klassik liberalizm* və yaxud da ki, *libertarizm* dövrü İntibah və protestant Reformasiyası (kilsənin yenidən qurulması) zamanı özünün kulminasiya nöqtəsinə çatdı. İntibah dövründə klassik təlimlərin və humanizmin yenidən kəşfi Orta əsrlər dövrünün yerinə Yeni dövrün gəlməsi hesab olunur. Məşhur romançı Ayn Rend İntibah dövrü dedikdə onu *liberalizmin rasionalist, fərdiyyətçi və dünyəvi müxtəlifliyi* kimi izah edir. Orta əsrlər dövrü mistisizm, kor-koranə inam, etiqadın ağıldan üstün olması haqqında doqmaya sədaqətlilik dövrü idi. İntibah ağılın yenidən dirçəlişi, insan ağlının azad olması, rasionallığın mistisizm üzərində qələbəsi idi ki, bu qələbə elmin, fərdiyyətçiliyin, azadlığın doğuluşuna gətirib çıxardı. Lakin tarixçi Ralf Rayko belə hesab edir ki, İntibah dövrünün liberalizmin inkişafındakı rolu şişirdilir. Onun fikrinjə, hüquqlar və müstəqil hüquqi institutların müstəqilliyi haqqında orta əsrlərin sənədləri İntibah dövrünün prometeyçi fərdiyyətçiliyinə nisbətən azadlıq üçün daha geniş imkanlar açmışdır.

Devid Boyz isə İntibah dövrünün tarixdə liberal ideyaların inkişafındakı rolunu daha üstün tutur. D.Boyzun fikrinjə, protestant islahatçılar olan Martin Lüter (alman protestantizminin – lüterançılığın banisi) və Can Kalvini (onun təlimi Fransada yayılmış, onun ardıjılları isə quqenotlar adlanmışlar) liberal adlandırmaq düzgün olmasa da, katolik kilsəsinin inhisarına son qoymaqla onlar özləri də bilmədən protestant sektalarının inkişafına yol açmışlar. Məsələn, bu sektalardan olan *kvakerlər və*

*baptistlər liberal fikrin inkişafında mühüm rol oynamışlar.* Kvakerlər İngiltərədə J.Foks tərəfindən yaranmış dini xristian ijmasının üzvləri olmuş, «daxili işıqlanma» haqqında mistik təlimi təbliğ etmişlər. Təqiblərə məruz qalan kvakerlərin bir çoxu 1760-jı ildə Amerikaya mühajirət etmişlər. Baptistlərin birinji vətəni İngiltərə, ikinji vətəni isə ABŞ-dır. Baptistlər dinin dövlətdən ayrılmasını tələb edir, siqaret çəkməyin, spirtli içkilər qəbul etməyin əleyhinə idilər. Onlar hesab edirdilər ki, həqiqi kilsə – etiqad edənlərdən ibarət olmalıdır və onlara kilsə iyerarxiyası lazım deyildir. Baptistlərin dini ehkamları yoxdur, öz hərəkatlarının ideoloci əsasını Yevangeliyada - İsa haqqında rəvayətlərdə («yevangeliye» yunanja «şad xəbərlər» deməkdir və Azərbayjan dilində ona «İnjil» deyilir) axtarırlar.

Reformasiya dövründəki dini müharibələrdən sonra insanlar «jəmiyyət bir dinə malik olmalıdır» fikrinə şübhə ilə yanaşmağa başladılar. Əvvəllər isə hesab olunurdu ki, vahid dini və əxlaqi hakimiyyət olmasa jəmiyyət dağıla bilər. Bu dərin konservativ ideya uzun bir tarixə malikdir. Onun kökləri bu və ya digər dərəjədə Platona gedib çıxır. Filosof göstərirdi ki, ideal jəmiyyətdə hətta musiqini də nizamlamaq lazımdır. Bizim dövrümüzdə bu ideyanı göylərə qaldıran sosialist Robert Heylbroner yazır ki, sosializm kollektiv əxlaqi məqsədlər tələb edir, çünki «razılaşdırılmamış hər bir səs təhlükə yaradır». O hətta yaşadığı Virginiya ştatının Ketlett şəhərinin buddist məbədinin tikintisindən ehtiyatlanan əhalinin işlətdiyi bu sözləri sitat gətirir:

« Biz bir həqiqi Allaha inanırıq və bu yalançı dindən qorxuruq, çünki o bizim uşaqlara pis təsir edə bilər».

1555-ji ildə Auqsburq sazişi ilə Avropada katolik kilsəsi ilə yanaşı protestant kilsəsi də yarandı. Reformasiyadan sonra insanların çoxu gördü ki, jəmiyyətdə dinlərin və əxlaqi baxışların müxtəlifliyi (lüteran, kalvin, anqlikan kilsəsi) jəmiyyətin dağılmasına gətirib çıxarmadı. Əksinə, müxtəliflik və rəqabət jəmiyyəti daha güjlü etdi.

XVI əsrdə dövlətin kilsə tərəfindən müdafiə olunmasına yox, daxili parçalanma və Reformasiya hərəkatı nətijəsində zəifləyən kilsənin dövlət tərəfindən dəstəklənməsinə daha çox ehtiyaj yarandı. Kilsənin zəifləməsi kral mütləqiyyətinin güjlənməsi ilə özünü biruzə verirdi. Bu öz əksini Fransada XIV Lüdovikin, İngiltərədə isə Stüartlar sülaləsinin idarə etməsində daha aydın göstərdi. *Monarxlar öz bürokratiyasını yaratmağa, yeni vergilər qoymağa, nizami ordunun əsaslarını yaratmağa və özlərinə daha çox hakimiyyət tələb etməyə başlamışdılar*. Özünü günəş-kral adlandıran XIV Lüdovikin «dövlət - mənəm» fikri tarixə düşmüşdür. O, protestantlığı qadağan etmişdi və Fransada katolik kilsəsinin başçısı olmağa jəhd göstərirdi. Təqribən 70 ilə yaxın hökmdarlıq etmiş XIV Lüdovik Fransanın nümayəndəli orqanı olan Baş ştatları bir dəfə də olsun çağırmadı. Onun maliyyə naziri merkantilizm siyasəti yeridərək iqtisadiyyata nəzarət edir, onu planlaşdırır, istiqamətləndirir, ona maliyyə yardımı göstərir, müəssisələri milliləşdirir və ya onları qadağan edir, üstün imtiyazları, qiymətləri və keyfiyyət standartlarını müəyyənləşdirirdi.

İngiltərədə hakimiyyətdə olan Stüartlar sülaləsi də mütləq monarxiya qururdu. Onlar ümumi hüquqları inkar etməyə və İngiltərənin nümayəndəli orqanı olan parlamentin razılığı olmadan vergiləri artırmağa jəhd göstərirdi. Lakin İngiltərədə vətəndaş müharibəsi və parlamentin təsiri kontinentə nisbətən güjlü olduğundan Stüartlar I Yakovun hakimiyyətə gəlməsindən təqribən 40 il sonra hakimiyyətdən getməli oldu. Mütləqiyyətə müqavimətin kulminasiyası 1649-ju ildə Yakovun oğlu I Karlın edamı oldu.

Bu dövrdə Fransa və İspaniyada mütləqiyyət möhkəmlənmişdi, *Niderland isə dini dözümlüyün, azad kommersiyanın və məhdudlaşdırılmış hakimiyyətin olduğu bir ölkəyə çevrilmişdi*. XVII əsrdə İspaniyadan öz müstəqilliyini almış Niderland şəhərlərin və vilayətlərin konfederasiyasını yaratmış, əsrin aparıjı tijarət dövlətinə və təqiblərdən qaçanların isti yuvasına çevrilmişdi. İngilis və fransız dissidentləri holland

şəhərlərində öz kitablarını nəşr etdirirdilər. Bu qaçqınlardan biri, yəhudi mənşəli (onun valideynləri Portuqaliyadan katolik təqiblərinə görə qaçıb Niderlanda gəlmişdi) Niderland filosofu *Benedikt Spinoza* (1632-1677) «Dini-siyasi traktat» əsərində dini dözümlülüklə XVII əsr Amsterdamının çiçəklənməsinin xoşbəxt qarşılıqlı əlaqəsini təsvir etmişdir. Belə ki, XVII əsrdə bu çiçəklənən respublikada bütün millətlər azadlığın bəhrəsini görmüşlər. Amsterdamda hansı din və sektaya mənsub olmasından asılı olmayaraq bütün insanlar böyük razılıq içərisində yaşayır, öz əmlakını istənilən adama etibar edirdilər. Heç kimin himayədarlığına ehtiyajı olmadığından bu insanlar şərəflə yaşayırdılar. B.Spinozaya görə insanların qarşılıqlı köməyə ehtiyajı vardır. Bu ehtiyaj onların mövjudluğu vasitələrindəndir. «Dövlət insanları hər hansı düşünjə tərzini mənimsəməyə məjbur etmək iqtidarında deyil» fikrinə əsaslanmaqla *Spinoza vijdan və söz azadlığı ideyasını irəli sürmüşdür*. Filosofa görə, dövlət o zaman qüdrətli olur ki, nəinki hər bir vətəndaşın həyatını qoruyub saxlayır, eləjə də onun mənafeyinin müdafiəçisi kimi çıxış edir. Xüsusi mülkiyyətin və vətəndaşların digər hüquqlarının toxunulmazlığı onların rahatlığının zəruri şərtidir. Dövlətin möhkəmliyi məhz bundan asılıdır. O, dövlət formaları içərisində demokratiyanı daha çox qiymətləndirirdi. Filosofun fikrinjə, demokratik idarə forması adamların ümumi rifahını, zəkanın hökmranlığını və azadlığı lazımi səviyyədə təmin etməyə qadirdir. O, yazırdı ki, demokratik dövlət «daha təbiidir və azadlığı daha çox yaxındır». Spinoza həmçinin belə bir fikri əsaslandırırdı ki, ali hakimiyyətin vətəndaşların yığınjağından ibarət olduğu digər idarəetmə formalarında da zəkanın və azadlığın hökmranlığı təmin oluna bilər.

Sosial harmoniyanın və iqtisadi tərəqqinin Niderland təjrübəsi İngiltərədə və digər ölkələrdə protoliberalları ruhlandırmışdı. Bəşəriyyət liberalizmin inkişafında xüsusi rol oynamış olan XVII əsr İngiltərə inqilabı ərəfəsində idi.

## 2.2. Liberalizm ideologiyasının inkişafında xüsusi rol oynayan İngiltərə inqilabı və Jon Lokk

Liberalizm ideologiyasının yaranmasının kökləri ən qədim dövrlərə gedib çıxsa da XVII əsr İngiltərə inqilabı bu ideologiyanın inkişafında xüsusi rol oynamışdır. Bu inqilab bəşəriyyətin həyatında Yeni Tarix dövrünü açır. Həmin dövr feodal zülmündən qurtulma, kapitalist istehsalının inkişafı, insanların bərabərlik və azadlıqlarını bəyan etmiş liberalizm ideologiyasının çiçəklənməsi və mənəvi yeniləşmə uğrundakı kütləvi hərəkatlar dövrüdür. XVII əsr liberallarının yalnız vətəndaşların ümumi razılığı ilə fəaliyyət göstərməli olan dövlət haqqında və hakimiyyətin insan həyatına müdaxiləsini məhdudlaşdırmaq barədəki ideyaları müxtəlif sənədlərdə – parlament aktlarında, üsyana qalxmış demokratların çağırışlarında hərtərəfli əksini tapmışdır. Yüz il sonra bu ideyalar liberalizm məfkurəsini əvvəljə Avropaya, sonralar isə bütün dünyaya yaymış, Amerika və Fransa inqilablarına ruh və təkan vermişdir.

İngiltərə inqilabı (1640) zamanı levellerlər tarixdə birinji olaraq insan hüquqlarını dövlətin müdaxiləsindən qorumalı olan yazılı konstitusiyanın qəbul olunmasını tələb edirdilər; bu, bizim insan hüquqları haqqındakı bugünki təsəvvürümüzə uyğun şəkildə, yəni bu hüquqların toxunulmaz və ayrılmaz olması uğrunda mübarizə aparan ilk kütləvi hərəkat idi. Levellerlər həm mütləqiyyətlə, həm də levellerlərin təbliğ etdikləri azadlıq və seçki hüquqlarının anarxiyaya gətirib çıxarajağından ehtiyatlanan parlamentin mühafizəkar üzvləri ilə mübarizə aparmalı olurdular. Təhsilli adamların aludə olduqları Platon və Aristotelin «səyləri» nətijəsində demokratiya sözü elə nüfuzdan düşmüşdü ki, levellerlər özləri haqqında demokratiya tərəfdarı kimi deyil, siyasi bərabərliyin tərəfdarı kimi danışırdılar. Levellerlərin «Xalq sazişi» müddəalarındakı ideyalar ABŞ-ın İstiqlaliyyət Bəyannaməsi və Konstitusiyasında öz əksini tapmış oldu.

Yeni tarixi dövrün başlanğıjında İngiltərədə kral mütləqiyyətinə müqavimət göstərilməsi güjlü intellektual narazılığı ortaya çıxarmış və protoliberal ideyaların ilk əlamətləri 1640-jı il İngiltərə inqilabında aydın surətdə təzahür etmişdir.

Özünüifadə azadlığı uğrunda fəal mübarizə məhz İngiltərə inqilabı dövründə başlanmışdır. Jəmiyyət və dövlətdən çəkinməyərək öz fikrini ifadə etmək hüququ – özünüifadə azadlığı insan haqlarının ən mühümü və vətəndaşın dövlətin idarə olunması və ona nəzarət edilməsində həqiqi iştirakının əsasıdır. *«Özünüifadə azadlığı» anlayışı tarixən vijdan və dini fəaliyyət azadlığı, söz və mətbuat azadlığı, sərbəst toplaşmaq və hökumətə şikayət və tələblərlə mürajiət etmək hüququnu özündə əks etdirmişdir.* Yadfikirlilik tarix boyu təqib olunmuşdur. Uzun müddət yüzlərjə intellektual öz fikirlərini azad şəkildə ifadə etməyə jəhd göstərdiklərinə görə dövlət tərəfindən jəzalandırılmışlar. Məsələn, 1637-ji ildə İngiltərədə mətbuata senzura qoyulan il ingilis yazıçısı Uilyam Prinn öz kitabında «kraliçaya böhtan atdığına» görə ömürlük həbs jəzasına məhkum edilmişdi.

İngiltərə inqilabı zamanı mübarizəyə həm dini və siyasi xadimlər, həm də elm və injəsənət nümayəndələri qoşulmuşdular. Bu mübarizədə ingilis şairi Jon Milton (1608-1674) da fəal iştirk etmişdir. Jon Milton bu gün İngiltərədə Vilyam Şekspirdən sonra ikinji böyük şair hesab olunur. O, bütün dünyada insan haqları uğrunda mübarizəyə qalxmış ən məşhur injəsənət nümayəndəsi kimi tanınır.

Parlamenti böyük inamla müdafiə edən Milton İngiltərə inqilabının, demokratiya və mənəvi yeniləşmə uğrunda hərəkatın intellektual liderlərindən birinə çevrilmişdi. O, vijdan və söz azadlığını, boşanma hüququnu, təhsildə demokratik islahatları müdafiə edirdi. 1637-ji ildə İngiltərədə kral hökuməti mətbuata qoyduğu ilkin senzuranı 1640-jı il inqilabı ləğv etsə də parlament 1641, 1642 və 1643-jü illərdə həmin senzuranı bərpa etmişdi. Bundan dəhşətə gələn J.Milton 1644-jü ildə parlament qarşısında çıxışı ilə öz silahdaşlarını ölkədə yeni repressiya recimi

yaratmaqdan çəkindirməyə çalışdı, onları bununla bağlı təhlükədən xəbərdar etdi. Həmin ildə Jon Milton dini azadlığın müdafiə edilməsi və mətbuatın rəsmi lisenziyalaşdırılması əleyhinə parlaq çıxışını özündə əks etdirən «Areopaqitika» (Areopaqitika - yunanja «qədim Afinada Ali Məhkəmə (Areopag) qarşısında deyilən nitq» deməkdir) oçerkini nəşr etdirdi. İndi də insanların beyinlərini düşündürən azadlıq və xeyirxahlığın əlaqəsindən bəhs edən Milton yazırdı: «Azadlıq – ən yaxşı xeyirxahlıq məktəbidir». O deyirdi ki, xeyirxah o zaman xeyirxah olur ki, o, bunu azad surətdə seçir. Söz azadlığı haqqında isə bildirirdi ki, «həqiqətin azad və açıq mübarizədə məğlub olması halına kimsə rast gəlibmi?». Miltonun çıxışında söylədiyi «…mənə hər jür azadlıqlardan əvvəl bilmək, danışmaq və öz məsləkimə uyğun olaraq sərbəst fikir yürütmək azadlığı verin» fikri çox diqqətəlayiqdir. O, bildirirdi ki, senzura jəmiyyətin inkişafına zərər gətirir, daha çox isə o, azad, yaradıjı insanların ləyaqətini təhqir edir, çünki belə insanlar üçün onların yaradıjılığına nəzarət etməkdən artıq təhqir yoxdur.

Milton senzorları «kitab qatilləri» adlandıraraq öz çıxışında deyirdi: «…yaxşı kitabı öldürmək yaxşı adamı öldürmək kimi bir şeydir». O, hər bir kitabın qətlə yetirilməsini isə bütöv bir dünyanın məhv edilməsinə bərabər tuturdu. İnsanın hərəkətlərinə bu alçaldıjı nəzarəti rədd edən Milton böyük əminliklə bildirirdi ki, əgər insanlara istənilən problemi azad müzakirə və tədqiq etmək imkanı verilərsə, həqiqət istənilən halda özünə yol tapajaqdır. Şair senzuranı «elmə və elm adamlarına qarşı edilə biləjək ən ağır zorakılığın və təhqirin təmsilçisi» hesab edirdi. İlkin senzura şairin ölümündən 20 il sonra - 1694-jü ildə özünüifadə azadlığı tərəfdarlarının təzyiqi ilə ləğv olundu. Lakin bundan sonra söz azadlığının təqib edilməsi məhkəmələr vasitəsilə davam etdirildi. XVIII və XIX əsr İngiltərəsində kim nə istəsə danışa bilərdi, lakin buna görə məhkəmədə javab verməli idi.

XVII əsr İngiltərə inqilabı bəşəriyyətin həyatında Yeni Tarix dövrünü açır. Bu, feodal zülmündən qurtulma, kapitalist

istehsalının inkişafı, insanların bərabərlik və azadlıqlarını bəyan etmiş *liberalizm ideologiyasının çiçəklənməsi* və mənəvi yeniləşmə uğrundakı kütləvi hərəkatlar dövrüdür. İngiltərə inqilabına gətirib çıxarmış ən böyük səbəb İngiltərədə mövjud olan mütləqiyyət və feodal qaydalarının mövjudluğu idi. Hakimiyyətə gələn andan Stüartlar sülaləsinin ingilis parlamenti və puritan kilsəsi ilə münaqişəsi başlamışdı. Puritanlar (latınja «purus» - təmiz deməkdir) dəbdəbəli kilsə ayinlərinə və mərasimlərinə qarşı çıxan dini məzhəb idi. Kral I Yakov vergilərin müəyyən edilməsi hüququnun parlamentə məxsus olmasını qəbul etmək istəmirdi. 1625-ji ildə İngiltərə taxtına çıxmış I Karl da atası kimi təsərrüfatı kapitalistjəsinə, yəni muzdlu əmək tətbiq etməklə təşkil edən yeni zadəganların və burcuaziyanın mənafeyi ilə razılaşmaq istəmirdi. Buna görə də I Karlla parlament arasında kəskin münaqişə baş verdi. Az sonra kralın və onun əyanlarının özbaşınalığı ölkədə və parlamentdə jiddi narazılıqlar doğurdu.

Xalq parlamentin razılığı olmadan vergi ödəməkdən imtina etdiyinə görə parlament yenidən çağırıldı. Deputatlar kraldan *Magna Çarta*-da müəyyən edilmiş və parlamentin razılığı olmadan vergi toplamağı krala qadağan edən parlament hüquqlarını və İngiltərə xalqının azadlıqlarını təsdiq edən «Hüquqlar haqqında Petisiyanı» *(Petition of Rigts)* qanuna mindirməyi tələb etdilər. Qəzəblənmiş kral növbəti dəfə parlamenti buraxdı və düz on bir il, yəni 1640-jı ilə qədər onu toplamadı. Ölkədə əsl terror başlamışdı – vergi verməkdən boyun qaçırma, hakimiyyətin hər hansı şəkildə tənqidi kral məhkəmələri tərəfindən qəddarjasına jəzalandırılır, müxalifət rəhbərləri həbs edilirdilər. Zülm və təqiblərdən yaxa qurtarmağa jan atan on minlərlə dindar dissident-puritan – əsasən sənayeçilər və tajirlər Amerikaya mühajirət etməyə məjbur oldular ki, bu da istehsalın kəskin azalmasına və kütləvi işsizliyə gətirib çıxardı. Lakin güjlü təzyiq və irtijaya baxmayaraq kral yenə də əhalini xəzinəyə kifayət qədər vəsait verməyə məjbur edə bilmədi. İngilis azadlıq ənənələrinə sadiq qalan əhali *özünün parlamentdəki*

*nümayəndələrinin razılığı olmadan vergiləri ödəməkdən boyun qaçırırdı.* Dövlətin xəzinəsi boşalmışdı. Xalqın narazılığı günü-gündən güjlənir, repressiyalar və iqtisadi böhran ölkəni üsyan həddinə gətirib çıxarırdı. Ölkədə ajlıq çəkən əhalinin qiyamları, Londonda küçə iğtişaşları baş verirdi.

1640-jı ildə şotland protestantlarının qiyamını boğmaqda ajiz qalan I Karl yenidən parlamenti topladı, çünki ona pul lazım idi. Lakin deputatlar kral nazirlərinin məhkəməyə verilməsini tələb etdi. Kral üsyan hədəsi altında bu tələbləri qəbul etməyə məjbur oldu. Kral nazirlərinin məhkəməyə verilməsi parlamentin mütləqiyyətə vurduğu ən ağır zərbə idi. Parlament bir sıra islahatlar keçirdi: ən çox nifrət oyadan məhkəmələr – Ulduzlu palata və Ali komissiya ləğv edildi; kilsə məhkəməsi dünyəvi şəxsləri mühakimə etmək hüququndan məhrum olundu; kral yanında Məxfi şuranın ali məhkəmə hüququ ləğv edildi. Parlament İjmalar palatasının yalnız onun özünün razılığı ilə buraxılması haqqında qanun qəbul etdi, kralın bütün qeyri-qanuni fərmanlarını və vergilərini ləğv etdi. Lakin parlament bununla kifayətlənmədi, indii o, artıq kraldan nazirləri təyin etmək və vəzifəsindən götürmək, habelə kralın bütün hərəkətlərinə nəzarət etmək hüquqlarını, yəni *konstitusiyalı monarxiyanın* qurulmasını tələb etdi. Belə olduqda kral Londonu tərk etdi, varlı feodal və zadəganlardan ibarət qoşun yığmağa başladı. 1642-ji ildə I Karlın parlamentə müharibə elan etməsi ilə vətəndaş müharibəsi başlandı.

Parlament də öz növbəsində Yeni tipli ordu *(New Model Army)* adlandırdığı qoşunu təşkil etdi. Yeni tipli ordunun əsgər və zabitləri arasında *levellerlər* (levellers – ingilisjə «bərabərçilər», «bərabər hüquqların tərəfdarları») adını almış radikal demokratlar hərəkatı nümayəndələrinin, o jümlədən Jon Lilbernin ideyaları geniş şöhrət qazanmışdı. Lilbernin tərəfdarlarını levellerlər adlandırırdılar. Levellerlər kralın və lordlar palatasının hakimiyyətini ləğv etməyi, ali hakimiyyəti İjmalar palatasına verməyi tələb edirdilər. Levellerlər parlamentin ilkin – konstitusiyalı monarxiya qurulması planını rədd edirdilər. Bu,

Yeni tarix dövründə xalq suverenliyi ilə monarxiyanın tamamilə aradan götürülməsi uğrunda mübarizə aparan ilk hərəkat idi. *Levellerlər tarixdə birinji olaraq insan hüquqlarını dövlətin müdaxiləsindən qorumalı olan yazılı Konstitusiyanın qəbul olunmasını tələb edirdilər.* Bu, bizim insan hüquqları haqqındakı bugünkü təsəvvürümüzə uyğun şəkildə, yəni bu hüquqların toxunulmaz və ayrılmaz olması uğrunda mübarizə aparan ilk kütləvi hərəkat idi. Levellerlərin liderləri Jon Lilbern, Riçard Overton, Uilyam Uolvin, Jon Uildman hələ inqilabdan əvvəl mübarizəyə başlayaraq öz əsər və çağırışlarında bizim bu gün dəyər verdiyimiz şəxsi və siyasi hüquqlar uğrunda mübarizə aparırdılar. Həmin hüquqlar aşağıdakılardır:

*-qanun qarşısında bərabərlik;*

*-öz ölkəsini parlamentdəki nümayəndələri vasitəsilə idarə etmək hüququ;*

*-məhkəmədə öz əleyhinə şəhadətlik etməmək hüququ (insanın dini mənsubiyyətinin aşkar edilməsi üçün işğənjələr verilməsi təjrübədə geniş yayılmışdı);*

*-söz və din azadlığı;*

*-əmək və tijarət azadlığı, inhisarların ləğvi;*

*-İngiltərənin bütün azad doğulmuş kişilərinin seçki hüququ və müstəbid hökumətə qarşı üsyan etmək hüququ.*

Levellerlərin liderləri bütün bu tələbləri İngiltərənin yeni Konstitusiyası sayılan «Xalq sazişi»ndə (*Agreement of the People*) (1647) əks etdirmişdilər. Levellerlərin orduda əksəriyyət təşkil edən tərəfdarları – əsgərlər bu sənədə az qala sitayiş edir və onun mətni yazılmış vərəqələri öz şlyapalarına sanjaqlayırdılar.

Uilyam Uolvil yazırdı: «Əgər 400 il ərzində minlərlə insan *Magna Çarta*-nın köməyi ilə əldə edilmiş hüquqlar uğrunda öz qanını, təhlükəsizliyini, həyatını qurban verməsəydi, bu sənəd çoxdan bəri adi bir perqament parçasına çevrilərdi». Riçard Overtonun belə bir fikri də diqqətəlayiqdir: «…Hər birimizə doğuluş anından azad olmaq və mülkiyyət hüququ verilmişdir…heç kəs fərdin öz şəxsi razılığı olmadan onun üzərində bu hüquqa yiyələnə bilməz».

Levellerlər həm mütləqiyyətlə, həm də levellerlərin təbliğ etdikləri azadlıq və seçki hüquqlarının anarxiyaya gətirib çıxarajağından ehtiyatlanan parlamentin mühafizəkar üzvləri ilə mübarizə aparmalı olurdular. Yeni tipli ordunun zərbələri altında kral hakimiyyəti dağıldıqja ölkədə yeni diktatura – parlament diktaturası bərqərar olurdu. İnqilabın təntənəsi naminə öz həyatlarını qurban verən əsgərlər ölkədə yenidən senzuranın tətbiqi, parlamentin vahid anqlikan kilsəsinin əvəzinə ölkədə vahid presviterian kilsəsini bərqərar etmək jəhdləri haqqında xəbərləri hiddətlə qarşıladılar. Eyni zamanda parlament qələbə üçün janlarından keçən əsgərləri hökuməti seçmək hüququndan məhrum etmək istəyirdi. 1647-ji ildə levellerlərin tərəfdarları və parlamentin tərəfdarları (ordu rəhbərliyinin nümayəndələri) Londonun Patni qəsəbəsində levellerlərin irəli sürdükləri «Xalq sazişi»ni müzakirə etmək üçün kiçik bir kilsəyə toplaşdılar. Patnidəki mübahisələr mahiyyətjə ölkənin gələjək siyasi quruluşunun, İngiltərənin yeni Konstitusiyasının müzakirəsi idi. Leveller Reynboro ilə general Ayrton arasındakı kəskin və parlaq polemika bizə artıq çoxdan tanış olan, hələ qədim Afinada Perikl və Platonun apardıqları mübahisələrin bir növ davamı– azadlıq və onun hədləri, hamı üçün bərabərlik, yaxud «yalnız buna layiq olanlar» üçün bərabərlik haqqındakı qədim mübahisələr idi.

Patni mübahisələrində levellerlər parlament seçkiləri zamanı anadangəlmə hüquqlara malik hər bir kəsə səs vermək üçün bərabər hüquqlar verilməsini tələb edirdilər. Parlament tərəfdarları isə bunun əleyhinə çıxırdılar. Kromvel bildirirdi ki, «xalqımızın beyni və ürəyi təklif olunan bu dəyişiklikləri qəbul etməyə hazır» deyil.

Levellerlərin təklif etdiyi layihədə deyilirdi: «İngiltərə xalqı hazırda öz nümayəndələrinin parlamentə seçilməsi üçün qraflıqlar, şəhərlər və qəsəbələr arasında son dərəjə qeyri-bərabər bölüşdürülüb; sakinlərin sayına mütənasib olan yeni bölgü aparılması gərəkdir». Ayrton isə layihədəki fikrə etiraz edərək «mənim etirazım «İngiltərə xalqı» ifadəsinə aiddir…Bu o deməkdirmi ki, parlament seçkiləri zamanı hər bir kəsə səs

vermək üçün bərabər hüquqlar veriləjəkdir?» sualını verir. Bu suala javab verən Pitti isə «bəli, biz belə bilirik ki, öz anadangəlmə hüquqlarını itirməmiş hər bir ingilisin seçkilərdə səs vermək üçün bərabər hüquqları olmalıdır» fikrini söyləyir. Ayrton İngiltərədə doğulmuş hər bir kəsin yalnız burada doğulduğuna görə belə bir hüquqa malik olmasına etiraz edəndə Reynboro bildirir ki, «İngiltərədə kasıbın birisinin də ən mənsəbli adam kimi öz həyatını yaşamaq haqqı var… *İngiltərədə ən kasıb bəndə belə iştirak etmədiyi hökumətə tabe olmağa əsla borjlu deyildir»*

Patni mübahisələri zamanı general Ayrton öz fikrini belə əsaslandırırdı: «Düşünürəm ki, bizim krallıqda təsbit edilmiş daimi marağı olmayan adamın krallığın işlərində iştirak etmək və bizi hansı qanunların idarə edəjəyini müəyyənləşdirən şəxsləri seçmək hüququ olmamalıdır. Yalnız bizim krallığın əldə olan hər hansı real və uzunmüddətli maraqlarını ifadə edən şəxslər birlikdə krallığı təmsil edə və müvafiq surətdə krallığın nümayəndələrini seçə bilərlər». Leveller Reynboro həmin fikrə bu jür qəti etiraz edir: «…Mənim üçün qətiyyən fərqi yoxdur: kraldır, ya kral deyil, lorddur, ya lord deyil, mülkiyyəti var, ya heç bir mülkiyyəti yoxdur…Mülkiyyətə gəldikdə isə, mən bəzilərinin bunu nejə ələ keçirdiklərini yaxşı bilirəm… Mən burada İngiltərədə doğulan hər bir kəsin parlament seçkiləri zamanı nə üçün səs vermək hüququ olmadığını mənə izah eləyə bilən elə bir fikir eşitmədim. Burada deyildi ki, əgər insanın daimi mənafeyi yoxdursa, o, heç nə tələb etməyə bilməz…Anjaq mənim fikrimjə, Allah-təala insanlara ona görə ağıl verib ki, bu ağıldan Allahın onların qarşısında qoyduğu məqsəd və vəzifələr üçün istifadə eləsinlər…Mən Allah-təalanın qanunlarında elə bir göstəriş görmədim ki, lord parlamentə 20 nümayəndə göndərə bilər, jentlmen iki, yoxsul isə heç birisini; belə bir şey nə təbii qanunlarda var, nə millətlərin qanununda…Qanunları təyin etmək hüququ bütövlükdə bütün xalqa məxsusdur və bir halda ki, o, bütövlükdə bütün xalqa məxsusdur, *mən bütün xalqa hüquq bərabərliyi verilməsi üçün vuruşajağam*».

I Karlın edamından (1649) sonra da hakimiyyət Oliver Kromvelin əlində olan zaman çox qızğın intellektual müzakirələr (mübahisələr) gedirdi. *Levellerlər tam ideyalar toplusu irəli sürmüşdü* ki, bu da ***liberalizm*** adı ilə bizə məlum olmuşdur. Onlar dini azadlığın və qədim ingilis hüquqlarının müdafiəsini özünüifadə və təbii hüquqlar kontekstində irəli sürürdülər. «Bütün tiranlar əleyhinə yönəlmiş ox» adlı məşhur həjvdə levellerlərin liderlərindən biri Riçard Overton bildirirdi ki, hər bir insan «özü özünü ifadə edir», özü özünə mənsubdur, yəni özünün özünə mülkiyyət hüququ var və beləliklə, yaşamaq hüququ, azadlıq və mülkiyyət hüququna malikdir. «Heç kim mənim hüquqlarım və azadlığım üzərində mülkiyyətə malik deyil, və mənim özüm də başqalarının hüquqları və azadlığı üzərində hakimiyyətə malik deyiləm».

Levellerlər hərəkatı jəmi dörd il (1645-1649) sürdü və onların tələblərini həddindən artıq radikal hesab edən parlament tərəfindən yatırıldı. Lakin yüz ildən bir qədər çox müddətdən sonra «Xalq sazişi» müddəalarındakı ideyalar ABŞ-ın İstiqlaliyyət Bəyannaməsi və Konstitusiyasında öz əksini tapmış oldu. Kromvelin 1649-ju ildən başçılıq etdiyi İngiltərə respublikası uzun müddət qala bilmədi. Belə ki, I Karlın edam edilməsi və ölkədə burcua quruluşunun yaradılması hakim burcuaziyanı və feodal zümrəsini heç də razı salmamışdı. Kromvel 1653-jü ildə özünün hərbi diktaturasını quraraq inqilaba və respublikaya son qoydu. 1658-ji ildə Kromvel öldükdən sonra hakimiyyət onun oğluna keçsə də, o, bu jür qarışıq vaxtda dövləti idarə edə bilmədi.

Beləliklə, levellerlərin və digər radikalların səyinə baxmayaraq 1660-jı ildə Stüartlar sülaləsi yenidən hakimiyyətə gəldi. Edam edilmiş kralın oğlu II Karl həmin il taxta dəvət edildi. Kral vijdan azadlığına və əkinçilərin hüquqlarına hörmət edəjəyini, torpaqların yeni sahiblərində qalajağını, parlamentin razılığı olmadan vergi qoymayajağını öhdəsinə götürmüşdü. Bu, Stüartlar sülaləsinin restavrasiyası, məhdud monarxiyanın bərpası demək idi. Xalqın sevinjlə qarşıladığı kral zəbt edilmiş torpaqları

öz əvvəlki sahiblərinə qaytarmağı əmr etdi, vahid anqlikan kilsəsini bərpa və protestant sektalarını qadağan etdi. Həm II Karl, həm də ondan sonra hakimiyyətə gələn qardaşı II Yakov kral hakimiyyətini genişləndirməyə jəhd göstərir və verdiyi vədlərə əməl etmirdilər. Lakin inqilab ölkəni dəyişmişdi və onu köhnə qaydalarla idarə etmək mümkün deyildi. Parlament kralın onu buraxmasına imkan verməmək məqsədilə kralın xərjləri üçün hər il parlament tərəfindən pul vəsaitinin müəyyən olunması haqqında qərar qəbul etdi, kralın hər hansı fərman verməməsinə nəzarət edərək, ölkədəki qanunları yalnız özü qəbul etməyə başladı.

Parlamentdə bu zaman *«torilər»* (kralın tərəfdarları) və *«viqilər»*in (parlamentin üstünlüyünü müdafiə edənlər) partiyaları yaranmışdı. Onların arasında mübarizə 1679-ju ildə kəskinləşəndə viqilər kraldan tələb edir ki, öz kiçik qardaşını katolik olduğuna görə vərəsəlik hüququndan məhrum etsin. II Karl bu tələbi yerinə yetirməkdən imtina edərək parlamenti buraxır. Bundan sonra parlament dörd il çağırılmır. Üsyan etmiş viqilər darmadağın edilir, onların liderləri edam olunur, yaxud mühajirət etməli olur. II Karlın ölməsindən sonra 1685-ji ildə taxta çıxan II Yakov ölkəni parlamentlə hesablaşmadan idarə edirdi. Onun «Dini dözümlülük haqqında bəyannamə»si əhali tərəfindən İngiltərədə ən çox nifrət edilən katoliklyin bərpa olunması istiqamətində ilk addım kimi qəbul olundu. Bu, parlamentdəki torilər və viqilərin II Yakova qarşı birləşməsinə gətirib çıxardı.

Nətijədə parlament 1688-ji il Şanlı inqilabı nətijəsində II Yakovu devirdi və Hollandiya hakimi Oranlı Vilhelmi hakimiyyətə gətirdi. 1689-ju ildə parlament «Hüquqlar haqqında bill» (*Bill of rigts*) qəbul etdi. II Vilhelm ingilislərin «həqiqi, qədim və şəksiz hüquqları»na hörmət edəjəklərinə söz verdi. Bu qanun məhdud parlamentli monarxiya recimini təsbit etdi. Kral ordu və məhkəmə üzərində hakimiyyət hüququndan məhrum olundu. O, parlamentin qəbul etdiyi qanunları ləğv etmək, vergi qoymaq, qoşun toplamaq hüquqlarından da məhrum edildi.

*«Hüquqlar haqqında bill» parlamentin kral hakimiyyəti üzərində üstünlüyünü təsdiqlədi, ölkədə konstitusiyalı monarxiyanı bərqərar etdi.* Bundan sonra parlament qanunlar verməklə ölkəni idarə edirdi, kral isə «padşahlıq edir, lakin idarə etmir»di. Nəticədə, parlamentlə mütləqiyyət arasında bir əsrə qədər davam edən müharibəyə son qoyuldu. Beləliklə, *ölkədə hüquqi, vətəndaş jəmiyyətinin rüşeymləri meydana gəldi.* İngiltərə inqilabı və onun respublika quruluşu, hamının qanun qarşısında hüquq bərabərliyi digər Avropa ölkələrinin gələjək inkişafına böyük təsir göstərdi.

Lakin «Şanlı inqilab»dan sonra da parlament ölkənin bütün əhalisini təmsil etmirdi. Böyük Britaniyanı (təminatlı insan haqları baxımından) hələ nə demokratik, nə də azad ölkə adlandırmaq olardı. Əhalinin yoxsul təbəqələri, eləjə də bəzi etnik azlıqlar və qadınlar səsvermə hüququndan və digər mühüm hüquqlardan məhrum idi. Maraqlıdır ki,  məşhur iqtisadçı Adam Smit (1723-1790) Edinburq Universitetinin professoru olsa da, səsvermə hüququna malik deyildi… 1867-ji ildə həyata keçirilmiş böyük seçki islahatı nətijəsində səsvermə hüququ olan şəxslərin sayı iki milyon nəfərədək artdı. Böyük Britaniyada (ABŞ-da olduğu kimi) ümumi seçki hüququ uzun mübarizədən sonra yalnız XX əsrin 20-ji illərində tətbiq olunmuşdur. Böyük Britaniya qadınları seçki hüququna sonunju olaraq nail olmuşlar.

*Şanlı inqilab dövrünü liberalizmin doğulması dövrü adlandırmaq olar. Jon Lokk (1632-1704) çox haqlı olaraq ilk həqiqi liberal və müasir siyasi fəlsəfənin atası hesab edilir.* Lokkun ideyaları ilə tanış olmadan bizim hazırda yaşadığımız dünyanı başa düşmək olmur. Lokku parlament quruluşunu bərqərar etmiş  1688-ji il Şanlı İngiltərə inqilabının ideoloqu hesab etmək olar. O, həmişə *Viqilər partiyasına (Britaniyanın gələjək Liberal partiyası)* rəğbət bəsləmişdir. Bu partiya kral hakimiyyətinin məhdudlaşdırılmasının tərəfdarı idi. Şanlı inqilabın qələbəsindən sonra Lokk yeni kral Oranlı Vilhelmlə birlikdə vətənə dönərək təntənə ilə qarşılanır və tezliklə viqilərin qəbul etdiyi intellektual liderə çevrilir.

Qeyd etmək lazımdır ki, liberalizm nəzəriyyəsinin inkişafına monarxist olmasına baxmayaraq, Tomas Hobbsun ijtimai müqavilə nəzəriyyəsi təkan vermişdir. O özünün başlıja əsərlərində («Fəlsəfənin əsasları» (1642), «Leviafan» (1651), «Begemot» (1668)) ijtimai müqavilənin yeni nəzəriyyəsini irəli sürmüşdür. Filosofun fikrinjə, insan anadan «təbii hüquqları» ( 1/ «dövlətə qədərki vəziyyəti») - tələbatlarının ödənilməsi haqları ilə doğulur. Bu hüquqlara yaşamaq, başlıja həyat tələbatları, düşmən təjavüzündən qorunmaq haqları daxildir. Təbii haqlar vəhşi, jəmiyyətə qədərki tarixi dövr insanlarını səjiyyələndirir, burada hələ nə qanun, nə də mülkiyyət var. İnsan burada özü özünə hakimlik edir və daha çox şey ələ keçirmək uğrunda hamının hamıya qarşı başlanan müharibəsinin qarşısını almaq məqsədilə insanlar öz aralarında qeyri-məhdud azadlıqlarını könüllü məhdudlaşdırmaq haqqında razılığa gəlirlər. Və bu zaman insanlar onları bir-birindən müdafiə etməli olan bir dövlət yaratmaq (2/ «dövlət və vətəndaş vəziyyəti») haqqında ijtimai müqavilə bağlayırlar, yəni bütün insanlar üçün təbii vəziyyəti vətəndaş və dövlət vəziyyəti ilə əvəz etmək zərurəti meydana gəlir. Hobbs hər şeyə qadir olan dövləti Leviafanla – azman və hər şeyə qadir olan Bibliya əcdahası ilə eyniləşdirir. Sonra filosof qeyd edir ki, dövlət vətəndaşların təhlükəsizliyini təmin edə bilmirsə (yaxud özü tapdalayırsa), ijtimai müqaviləni ləğv etmək olar və dövlət bu zaman hakimiyyətdən salına bilər.

Liberalizmin müasir forması XVII əsrdə İngiltərə inqilabı dövründə levellerlərin (bərabərçilər) və Jon Lokkun əsərlərində öz əksini tapmışdır. *Bu gün liberal demokratiyasının atası J.Lokk hesab edilir*. Hobbsdan fərqli olaraq, Lokk ijtimai müqavilə nəzəriyyəsinin başqa bir istiqamətini yaratmışdır. O, bu nəzəriyyədən jəmiyyət tərəfindən mütləqiyyətin məhdudlaşdırılmasını əsaslandırmaq üçün istifadə edib, liberal demokratiya və konstitusiyaçılığın ilkin nəzəri şərtlərini yaradıb.

J.Lokk özünün başlıja əsəri olan «İdarəetmə haqqında iki traktat»ında (1690) «təbii hüquq»un teoloci şərhinə qarşı çıxır. Bu şərhə əsasən, mütləqiyyətin sarsılmazlığı haqqında müddəa

ortaya atılırdı. İnsanı eqoist varlıq hesab edən Hobbsdan fərqli olaraq, Lokk inanırdı ki, insan xeyirin daha sərfəli olduğunu dərk etməyə qadirdir. Onun fikrinjə, insanları dövlətdə qorxu deyil, ağıl birləşdirməyə məjbur edir. İnsanın «təbii vəziyyət»indən çıxaraq dövlətə verdiyi yeganə «təbii hüquq»u ümumi razılıqla qəbul olunmuş qanunlar əsasında öz vətəndaşını mühakimə etmək və jəzalandırmaq haqqıdır. Filosofa görə, insanların iradəsi jəmiyyətdə ümumi razılıqla qəbul olunmuş qanunlardan başqa heç nə ilə məhdudlaşmır. Dövlət insanların həyatı, azadlığı və mülkiyyətini qorumalı, qanunlara əməl olunmasına nəzarət etməli və insanların mübahisələrinin həllində yalnız arbitr kimi xidmət etməlidir. Lokk göstərirdi ki, xalqın özünün yaratdığı dövlət hakimiyyəti də, Hobbsun iddia etdiyi kimi, mütləq deyil, o, insan haqları ilə məhdudlaşdırılmalıdır. Həm də insan dövlətin zorakılığına şərtsiz müqavimət göstərmək haqqına malikdir. Lokkun klassik liberalizm prinsipləri tezliklə Qərbdə şöhrət qazanmış və yüz ildən sonra Amerika və Fransa inqilablarının əsas sənədində öz əksini tapmışdır.

Lokk Hobbsdan fərqli olaraq ijtimai müqavilə nəzəriyyəsinin başqa bir istiqamətini yaratmışdır. O, bu nəzəriyyədən jəmiyyət tərəfindən mütləqiyyətin məhdudlaşdırılmasını əsaslandırmaq üçün istifadə edərək liberal demokratiya və konstitusiyaçılığın ilkin nəzəri şərtlərini yaratmışdır. Lokkun başlıja əsəri üzərində on ildən artıq işlədiyi «İdarəetmə haqqında iki traktat» kitabıdır. Burada Lokk «təbii hüquq»un teoloci şərhinə qarşı çıxır. Bu şərhə əsasən, mütləqiyyətin sarsılmazlığı haqqında müddəa ortaya atılırdı. İnsanı eqoist varlıq hesab edən Hobbsdan fərqli olaraq, Maarifçilik dövrünün ideallarına sadiq olan Lokk inanırdı ki, insan xeyrin daha sərfəli olduğunu dərk etməyə qadirdir. Qorxu deyil, ağıl insanları dövlətdə birləşməyə məjbur edir. İnsanın «təbii vəziyyət»indən çıxaraq dövlətə verdiyi yeganə «təbii hüquq»u ümumi razılıqla qəbul olunmuş qanunlar əsasında öz vətəndaşını mühakimə etmək və jəzalandırmaq haqqıdır. Jəmiyyətdə insanların iradəsi ümumi razılıqla qəbul olunmuş

qanunlar əsasında öz vətəndaşını mühakimə etmək və jəzalandırmaq haqqıdır. Jəmiyyətdə insanların iradəsi ümumi razılıqla qəbul olunmuş qanunlardan başqa heç nə ilə əngəllənmir. Dövlət insanların həyatı, azadlığı və mülkiyyətini qorumalı, jəmiyyəti xariji təjavüzdən müdafiə etməlidir. Dövlət qanunlara əməl olunmasına nəzarət etməli və insanların mübahisələrinin həllində yalnız arbitr kimi xidmət etməlidir.

Lokka görə suveren xalqın özüdür. Hətta xalqın özünün yaratdığı dövlət hakimiyyəti də, Hobbsun iddia etdiyi kimi, mütləq deyil, o, insan haqları ilə məhdudlaşdırılmalıdır.Və insan dövlətin zorakılığına şərtsiz müqavimət göstərmək haqqına malikdir. Aydındır ki, bu nəzəriyyə mütləqiyyətlə ideoloci mübarizənin əsasını təşkil etmişdir. Lokku hətta o da çəkindirmirdi ki, bu nəzəriyyə vətəndaş müharibəsinə aparır. Onun fikrinjə, bu halda öz haqlarını müdafiə edənləri yox, vətəndaşların haqlarını tapdalayaraq bu müharibəni törədənləri suçlandırmaq lazımdır.

Lokk «İdarəetmə haqqında iki traktat» əsərində filosof Robert Filmerin patriarxal nəzəriyyəsini tənqid edərək təbii hüquq konsepsiyasını əsaslandırmış, insan hüquqları və nümayəndəli idarəetməni müdafiə etmişdir. Lokkun nəzəriyyəsinə görə, vaxtilə insanların təbii hüquqları olmuşdur. Bu hüquqlar onlara imkan vermişdir ki, onlar xüsusi mülkiyyətə, azadlığa və bərabərliyə nail olsunlar. J.Lokka görə, bu hüquqlar insanın təbii hüquqlarıdır və heç kim onu insanların əlindən ala bilməz. Xüsusi mülkiyyət hüququnun mənbəyini insanların «şəxsi əməkləri təşkil edir». İnsanlar öz aralarında birləşib ijtimai müqavilə bağlamış, öz hüquqlarının bir qismini dövlət adlanan bir instituta güzəştə getmişlər. Dövlət isə insanların təbii hüquqlarının qoruyujusu kimi yaranmışdır və ona görə də onun vəzifəsi bütün vasitələrdən istifadə etməklə bu hüquqların keşiyində dayanmalıdır.

Lokk öz-özünə belə bir sual verir: «hakimiyyətin mahiyyəti nədir və o nə üçün lazımdır?». O əmin idi ki, insanlar hakimiyyətin mövjud olmasından asılı olmayaraq hüquqlara

malikdir və biz bunu təbii hüquqlar adlandırırıq. İnsanlar öz hüquqlarını müdafiə etmək üçün hakimiyyəti yaradır. Onlar bunu özləri də edə bilərlər, lakin hakimiyyət hüquqları müdafiə etməyin effektli sistemidir. Əgər hakimiyyət bu rolun çərçivəsindən kənara çıxarsa, onda insanların üsyan etmək hüququ var. «İdarəetmə haqqında iki traktat» əsərində göstərilir ki, nümayəndəli hakimiyyət jəmiyyət üçün ən düzgün idarəetmə üsuludur. «Hakimiyyət istədiyi kimi idarə edə bilməz… təbiətin qanunu bütün insanlar, bütün qanunverijilər üçün əbədi rəhbərlikdir».

Lokk mülkiyyət hüququnu da aydın formulə etmişdir. O yazırdı: «Hər bir insan bir çox mülkiyyətə malikdir, o jümlədən də buraya onun özünün şəxsiyyəti daxildir. Biz deyə bilərik ki, insanın əməyi, onun əlinin işi həmin şəxsin özünə aiddir». Lokkun fikrinjə, «İnsan dünyanın hər hansı bir insanı kimi tam azad yaşamaq, təbii qanunun bütün hüquq və imtiyazlarından digər insanlar kimi eyni dərəjədə qeyri-məhdud bəhrələnmək hüququ ilə birgə doğulur və o, fitrətən öz mülkiyyətini, yəni öz həyatını, azadlığını, əmlakını digər insanların qəsd və hüjumlarından yalnız qorumaq deyil, həm də başqaları bu qanunu pozduqda onları mühakimə etmək…hakimiyyətinə malikdir. Siyasi jəmiyyətin özünün öz mülkiyyətini qorumaq və bu məqsədlə bütün üzvlərini jinayətlərə görə jəzalandırmaq hüququ olmasa o, mövjud olub yaşaya bilməz».

J.Lokkun nəzəriyyəsi burcuaziyaya imkan verirdi ki, xüsusi mülkiyyəti daha da möhkəmləndirərək inkişaf etdirsin. Bu, mövjud ijtimai quruluşun əsası idi. Bununla habelə, xüsusi mülkiyyət dövlətin hər hansı bir təzyiqindən də azad olmalı idi. Bir sözlə, J.Lokk burcuaziyanın xüsusi mülkiyyət hüququnu əbədiləşdirməyə çalışırdı.

İnsanların yaşamaq və azadlıq kimi təbii, ayrılmaz hüquqları vardır. Hakimiyyətin rolu xalqın «həyatını, azadlığını və mülkiyyətini» qorumaqdan ibarətdir. *J.Lokk mütləq monarxiyanın, hökmdarlardan millət atası düzəldilməsinin əleyhinə çıxır* və göstərirdi ki, çoxlarının dünyada yeganə

idarəçilik forması hesab etdiyi mütləq monarxiya əslində mülki jəmiyyətlə bir araya sığmır və ümumiyyətlə, mülki idarəçilik forması ola bilməz. Lokk yazırdı: «İnsanlar bir yerdə ümumi razılığa gəlib rəhbərlik üçün müəyyən adamları seçməsələr və hər şeyi bu seçilmiş adamlar həll etməsələr, onda onların razılığı olmadan bir adamın o birinin ağası, yaxud hakimi olmasına heç bir əsas qalmayajaq». J.Lokka görə, monarxlar heç bir qanunla məhdudlaşdırılmadığına görə insanların təbii hüquqlarını istədikləri vaxt pozurlar. Ona görə də ən yaxşı hökmdar konstitiusiyalı monarxdır, çünki bu zaman kralın üzərində parlament nəzarəti mövjud olur.

J.Lokkun siyasi nəzəriyyəsinin bir qolunu da siyasi hakimiyyətin bölüşdürülməsi təşkil edir. Bu konsepsiya hələ İngiltərə inqilabı (1640) zamanı levellerlər tərəfindən irəli sürülmüşdür. Həmin konsepsiyaya görə, hakimiyyət qanunveriji, ijraediji və ittifaq olmaqla üç yerə bölünür: Birinji yeri qanunveriji hakimiyyət tutur və bu hakimiyyət anjaq parlamentə məxsus olmalıdır. Parlament də ardıjıl olaraq yığışıb qanunlar qəbul etməli, lakin onun ijrasına qarışmamalıdır. İjraediji hakimiyyət krala məxsus olmalıdır. Kral qanunların ijrasına nəzarət edir, nazirləri, məhkəmələri və digər vəzifəli şəxsləri təyin edir. Onun hərəkətləri qanuna tabedir, lakin parlamentə münasibətdə müəyyən üstünlüklərə malikdir (məsələn, veto hüququ, parlamenti buraxmaq və s.). Bununla belə, xalq və parlament onun fəaliyyəti üzərində nəzarət edir ki, o, insanların təbii hüquqlarını poza bilməsin. Kral habelə ittifaq hakimiyyətini, yəni federativ hakimiyyəti həyata keçirir, zəruri olduqda başqa ölkələrə müharibə elan edir, sülh bağlayır və münasibətlər yaradır.

J.Lokka görə, hökumət «ijtimai müqavilə»ni pozarsa xalqın onu devirib yenisi ilə əvəz etmək hüququ vardır. Xalq elə bir hakimiyyət yaradır ki, o, insanların «təbii hüquqlar»ını bir daha pozmağa jəsarət etməsin. Belə ki, «ijtimai müqavilə» nəzəriyyəsi J.Lokka ona görə lazım olmuşdur ki, o, 1688-ji il inqilabının qanuniliyini əsaslandırsın. Filosofun siyasi təlimi sonrakı ijtimai-

siyasi fikrə güjlü təsir göstərmişdir. ABŞ azadlıq hərəkatının nümayəndələrindən olan T.Jefferson, Fransada 1789-ju ildə qəbul edilmiş «İnsan və vətəndaş hüquqları Bəyannaməsi» aktı və digər siyasi sənədlər J.Lokkun ideyalarından bəhrələnmişdir. Ş.L.Monteskye «Qanunların ruhu haqqında» əsərində hakimiyyəttin bölünməsinin J.Lokk prinsiplərindən yaradıjı şəkildə istifadə etmişdir.

J.Lokkun təbii hüquq nəzəriyyəsi insan-təbiət münasibətləri ilə qırılmaz surətdə əlaqədardır. T.İ.Oyzerman yazırdı ki, təbii hüquq nəzəriyyəsi ilə həm materialistlər, həm idealistlər, həm rasionalistlər, həm də empiriklər6 məşğul olmuşlar. Lakin dövlətin mahiyyətinə və mənşəyinə dair fikir ayrılığı onların hamısı üçün xasdır. T.Hobbs, C.C.Russo, B.Spinoza və J.Lokk problemə hərəsi öz mövqeyindən yanaşmışlar.

J.Lokkun dövlət və jəmiyyət haqqında olan ideyaları onun ümumfəlsəfi və qnoseoloci fikirlərindən irəli gəlirdi. İnsan biliklərini yaxşı və pis olmaqla iki yerə bölən J.Lokk ijtimai həyatda da pisləri yaxşılardan ayırmağı məqbul sayırdı. Filosof təbii hüquqlara təbiətin qanunları kimi baxaraq onları həm də zəkanın qanunları kimi müəyyən edirdi. J.Lokkun bu ideyası sonradan onun tədqiqatçılarını vadar etmişdir ki, ona müxtəlif mövqelərdən qiymət versinlər.

J.Lokkun təbiətin və jəmiyyətin problemlərinə baxışının formalaşması tarixi təkamül mərhələlərini keçmişdir. Onun yaradıjılığının ilkin mərhələsində insanın mənşəyi, siyasi hakimiyyətin təbiəti və funksiyaları, əxlaq, din, kilsə və s. haqqında olan görüşləri sonrakı mərhələdən fərqli olaraq heç də konseptual şəkildə irəli sürülmürdü. Bunlar arasında əlaqə, təbiət proseslərinin jəmiyyətə tətbiqi isə sonrakı illərin məhsuludur. Daha doğrusu, J.Lokk jəmiyyətin də «təbiət qanunları» əsasında inkişaf etdiyini iddia edirdi.

J.Lokkun sosial-siyasi baxışlarının formalaşması mürəkkəb bir yol keçmişdir. Bu onun «təbiət qanunları» haqqında baxışlarının formalaşması ilə əlaqədar olmuşdur. Özünün ilkin

ideyalarında o, F.Akvinskinin terminologiyasından asılıdır. Burada o, dörd jür qanun olduğunu göstərir: - əbədi, təbii, bəşəri, ilahi qanunlar. Əbədi qanunlar – ümumdünya qanunudur ki, ilahi mahiyyətə malikdir, təbiətdə və jəmiyyətdə eyni güjlə fəaliyyət göstərir. O, bütün qanunların mənbəyini təşkil edir. Təbii qanunlar – təbiət qanunları olmaqla həm də insana xas olan fiziki, emosional və intellektual sahələri əhatə edir. F.Akvinskiyə görə, naqis insan ağlı bu qanunları dərk etməyə qadir deyildir. Bəşəri qanunlar– təbiət qanunlarının insan jəmiyyətinə və birgəyaşayış qaydalarına tətbiq olunmasıdır. Bu, habelə, təbiət qanunlarının pozulmasına qarşı yönəldilmiş sanksiyalar məjmusudur. İlahi qanunlar – insan yaşayışının son məqsədini ifadə edir, ədalətin, xeyir və şərin meyarı rolunu oynayır. Belə ki, F.Akvinskiyə görə, təbii qanunlar və bəşəri qanunlar – əbədi və ilahi qanunlar tərəfindən müəyyən olunur. J.Lokk isə əbədi və ilahi qanunları ataraq tək təbiət qanunlarını saxalayır və ona ilahi sanksiya verir. J.Lokkun baxışlarının inkişafı və təkamülü təbiət qanunlarının dünyəviləşdirilməsindən ibarətdir.

«Təbiət qanunları haqqında təjrübələr» əsərində J.Lokk öz ideyalarının mənbəyini Aristoteldən və stoiklərdən gələn ideyalar olduğunu xatırlayır. Aristotelin «Nikomaxın etikası» əsərində əvvəljə deyilir ki, hər bir şeyin öz funksiyası var. Sonra sual qoyulur ki, bəs bu insan nədən ibarətdir? Həmin suala dərhal da javab verən filosof bildirir ki, insanın spesifik funksiyası ruhun bədənlə vəhdətdə olan fəaliyyətidir və insan ruhu ona nə deyirsə, ona qulaq asmalı və əməl etməlidir. «Nikomaxın etikası» əsərinin beşinji kitabında Aristotel yazır ki, əbədi və vətəndaş hüquqları eyni qüvvəyə malikdir.

Təbiət, jəmiyyət və dövlətdə fəaliyyət göstərən təbii qanunların mövjudluğu ideyasını hələ stoiklər irəli sürmüşdülər. Onlara görə, bütün insanlar təbii hüquqlar qarşısında bərabərdirlər. Stoisizmdə təbii hüquq bütün insanlara – azad adamlara və qullara, kişilərə və qadınlara şamil edilirdi, feodalizmdə isə bu, başqa məna kəsb etdi. J.Lokk feodalizmin irəli sürdüyü bu prinsipə öldürüjü zərbə vurdu, feodal sinfinin

anadangəlmə müstəqil hüquqlarının olduğunu kəskin tənqid edərək inkar etdi. Yuxarıda adı çəkilən əsərində filosof anadangəlmə əxlaq prinsiplərini rədd edərək yazırdı ki, təbii hüquq ağıl ilə dərk olunmalıdır.

J.Lokkun «İnsan zəkası haqqında təjrübə» və «Dövlət haqqında iki traktat» əsərlərini təqribən eyni illərdə yazmışdır. O, «Dövlət haqqında iki traktat» əsərində T.Hobbsdan fərqli yol tutmuşdur. Bu əsərdə Filmerin tənqidi ilə yanaşı P.Qassendinin təsiri özünü göstərir. J.Lokk insanların təbii hüquqlarını anlamaq üçün onların hüquq və azadlıqlarının səviyyəsini müəyyən etməyə çalışırdı. T.Hobbs azadlıq və bərabərliyə «hamının hamıya qarşı müharibəsi» şəraitində insanın istədiyi hər şeyi etməsi kimi baxırdı. Lakin J.Lokk bu məsələni təbiətin imkanları səviyyəisndə nəzərdən keçirməyi üstün tutur və yazır ki, insanların tam azadlığı ağıla və təbiət qanunlarına əsaslanır. Belə ki, J.Lokkda azadlıq xaosa və özbaşınalığa əsaslanmır, müəyyən qanunlar çərçivəsində həyata keçirilir.

J.Lokkun insanların təbii vəziyyətləri ilə siyasi vəziyyətləri arasındakı fərqlər T.Hobbsdakı qədər radikal deyildir. J.Lokk yazırdı ki, «təbii halda hər kəs təbiət qanunlarından irəli gələn ijra hakimiyyətinə malik olur». İnsanların təbii halı ilə jəmiyyətin dövlət təşkilatı arasındakı fərq elə də böyük deyildir: insanların təbii halındakı ijra funksiyası sadəjə olaraq dövlətdə onların xüsusi bir funksiyasına çevrilir. Jəmiyyətdə xüsusi bir qanuni orqanın – dövlət rəhbərliyinin olması – təbiətin bu qanunu əslində insanların təbii halında da fəaliyyət göstərir. Buna yaxın bir anlamı B.Spinoza da vermişdir. V.V.Sokolovun yazdığı kimi, B.Spinozadan fərqli olaraq J.Lokkda bu proses daha yüngül keçir, yəni təbii haldan vətəndaş jəmiyyətinə sadəjə bir keçid baş verir. Spinozada təbii halla vətəndaş jəmiyyəti arasında sədd vardır. J.Lokkda isə bu yoxdur. J.Lokk təbii halda olanı vətəndaş jəmiyyətinə keçirir, Spinoza isə vətəndaş jəmiyyətində təbii halı da qüvvədə saxlayır. Lakin hər iki halda onları birləşdirən bir jəhət vardır: insanın əbədi, dəyişməz təbiəti. Baxmayaraq ki, hər

ikisində burcua cəmiyyətinin dəyişməz xarakteri mifikləşdirilir, amma bu cəmiyyətdən daha yüksək cəmiyyət tipi də vardır.

İnsanların təbii halından *vətəndaş cəmiyyətinə* keçid razılıq əsasında – «ictimai müqavilə» əsasında həyata keçirilir və burada əksəriyyətin rəyi nəzərə alınır. «İctimai müqavilə»ni bağlayan hər bir kəs ictimai rifah naminə cəmiyyətin yaradıcı qanunlarını qəbul edir, belə ki, burada təbii haldan dövlətə keçid baş verir.

Vətəndaş cəmiyyətində insanların həyatı ağıl və insan təbiəti prinsiplərinə nisbətən daha çox ideallaşdırılır. Spinozaya görə, burada «insan insan üçün idealdır» (T.Hobbsda isə «insan insan üçün canavardır»). Burada hələ burcua demokratiyası tənqid hədəfinə çevrilmir, əksinə burcua cəmiyyəti bütün vasitələrlə təriflənib mütləqləşdirilir. J.Lokk inanırdı ki, yeni yaranan cəmiyyət bəşər tarixində ən mütəşəkkil, ən humanist və ağıl əsasında qurulan bir cəmiyyət olacaqdır.

Yeni cəmiyyətdə insanların bir qisminin xüsusi mülkiyyətə malik olmamasının səbəblərini J.Lokk onların ağıllarında və arzularında olan fərqlərdə axtarmışdır. Belə ki, J.Lokkun cəmiyyət təlimində ziddiyyətlər özünü göstərir. Bir tərəfdən yeni cəmiyyət insan təbiətindən asılı olaraq izah edilir, digər tərəfdən insanların sinfi bərabərsizliyinə haqq qazandırılır. Daha doğrusu, elə sinfi bərabərsizliyin insan təbiətindən irəli gəldiyi qənaəti hasil olur. Bəs mülkiyyət nədir? J.Lokk bu suala belə cavab verir ki, mülkiyyət əmək nəticəsində yaranan sərvətdir. Lakin o, burada da ağlauyğunluq prinsipinə sadiq qalaraq *mülkiyyətin həddən artıq olmasını ağlasığmaz hesab edir və onu o halda məqbul sayır ki, mülkiyyət insana onun ehtiyaclarını ödəmək çərçivəsində lazımdır. Həddən artıq sərvət məqbul sayılmır, çünki o, istismar alətinə çevrilə bilər, adamların «ictimai müqavilə»dən kənara çıxmasına və dövlətin qoyduğu qanunlara tabe olmamağa gətirib çıxara bilər.* J.Lokkun bu ideyalarını B.Rassel sosialist, U.Leyden isə kollektivisit meyllər kimi xarakterizə edir.

Düzdür, J.Lokk sonra qeyd edir ki, insanlar onların istifadə edə biləcəklərindən artıq torpaqlara malik ola bilər, başqalarına ziyan vurmadan çoxlu qızıl, gümüşə də sahib ola bilərlər. Lakin

filosof qeyd edirdi ki, dövlət tərəfindən hamıya bərabər imkanlar yaradılmalıdır ki, hamı mülkiyyətə sahib ola bilsin. Dövlətin borjudur ki, insanların xüsusi mülkiyyətinin və xüsusi mülkiyyət hüququnun təminatçısı olsun.

J.Lokkun jəmiyyət və dövlət haqqında olan baxışlarındakı ziddiyyət bununla bitmir. O, dövlət haqqındakı təlimində sosial-siyasi kompromis tərəfdarı olub, bir tərəfdən monarxiyanı, digər tərəfdən isə parlamenti saxlamaq tərəfdarı kimi çıxış edir. Dövlət quruluşu haqqında danışarkən isə o, hakimiyyətin üç yerə bölünməsini təklif edir: - qanunveriji (parlament), ijraediji (məhkəmə, ordu), federativ (yəni başqa ölkələrlə münasibət yaradan – kral, nazirlər). Mütləq monarxiyanı rədd edən J.Lokk hakimiyyətin bölüşdürülməsini irəli sürür və burada əsas yeri qanunveriji orqana verir. Bu da onu T.Hobbsdan fərqləndirən əsas jəhətdir. «Hakimiyyətin belə bölünməsi bütün normal ölkələrə və yaxşı təşkil edilmiş dövlətlərə xasdır» - deyə, J.Lokk yazır. Lakin bu bölgü konstitusiyalı monarxiyanı saxlamaq vasitəsidir. Şanlı inqilabdan (1688) sonra İngiltərənin yeni quruluşu öz dövrü üçün demokratik və irəliyə doğru atılmış bir addım olmasına baxmayaraq, bəzi radikal qüvvələri razı salmadı. J.Lokk xalqın üsyana olan hüququnu belə izah edirdi: «Əgər qanunçu xalqın əlindən onun mülkiyyətini alıb məhv etməyə çalışırsa, yaxud onu despotik hakimiyyətin quluna çevirmək istəyirsə, onda o, özünü xalq ilə müharibə vəziyyətinə salır, xalq da öz növbəsində itaətdən çıxıb üsyan edir» və nətijədə «xalq vəziyyətin əsl hakiminə çevrilir».

Bu o zamanlar idi ki, mövjud Stüartlar sülaləsi artıq öz mürtəje siyasəti ilə xalqı öz üzərinə qaldırmış və nətijədə xalq da onun hakimiyyətinə son qoyaraq ölkədə yeni qaydalar yaratmışdı. Bu siyasi hadisələr isə heç şübhə yoxdur ki, Stüartlara müxalif olan bir sıra qüvvələr tərəfindən və eləjə də J.Lokk tərəfindən ideoloci jəhətdən hazırlanmışdı.

J.Lokkun bu fikri XIX əsrin birinji yarısında Azərbayjan mütəfəkkiri M.F.Axundov tərəfindən daha da inkişaf etdirilmişdir. M.F.Axundov xalqın üsyan etmək hüququnun

(«despotun atasına od vurmaq» hüququnun) olduğunu «Kəmalüddövlə məktubları» əsərində əsaslandırmışdır. Eyni zamanda M.F.Axundov J.Lokkdan da irəli gedərək konstitusiyalı monarxiyanın parlamentli respublika quruluşu ilə əvəz edilməsi zərurətini söyləmişdir. Lakin J.Lokk inqilabdan qaçınmaq üçün əl yeri də qoyurdu: yəni xalqı inqilab həddinə gətirib çıxarma, onunla dil tap. Bu, liberalizmin təməl daşını təşkil edirdi.

J.Lokkun ideyaları içərisində təbiət-jəmiyyət problemləri sırasında bəşəriyyətin qorunub saxlanması ideyası da böyük əhəmiyyət kəsb edirdi. Daha doğrusu, təbiətə qarşı mübarizə aparan insan axırda öz-özünə qəbir qazmış olur. J.Lokk irəlijədən bugünki böhran hallarını görür və həyəjan təbilini çalırdı.

J.Lokkun dinə münasibəti də maraqlıdır. O, «Dini dözümlülük haqqında məktub»unda kilsənin dövlətdən ayrılması və dini etiqad azadlığı uğrunda çıxış edirdi. İnsanın şəxsi əqidəyə, təkrarsız daxili aləmə malik olmaq hüququnu dərk etməsi XVI əsrdə Qərbi Avropanın ijtimai şüurunda dini reformasiya uğrunda kütləvi hərəkat dövründə yayılmağa başlamışdır. Lüteran, kalvinist və b. protestant jərəyanlarının və təriqətlərin meydana gəlməsi, təriqətçilərin öz əqidələrini inadkarlıqla müdafiə etməsi jəmiyyətdə dini dözümlülük ideyasının yaranmasına, vahid dövlət dininin tətbiqindən imtina edilməsinə səbəb olmuşdu. 1640-jı il İngiltərə inqilabının gedişində *independent və leveller partiyaları əsas tələblərdən biri kimi etiqad azadlığını irəli sürürdülər.* Lokk insanın öz müqəddəratını təyin etməsinin tərəfdarı idi və dini etiqad azadlığını dövlətin insanı məhrum edə bilməyəjəyi əsas «təbii hüquq»lardan biri kimi qəbul edirdi.

Katiolisizmin tüğyan etdiyi, protestantların təqib olunduğu bir müddətdə dini tolerantlığı təbliğ etmək böyük səy və jürət tələb edirdi. J.Lokkun dinin dövlətdən ayrılması ideyasını təbliğ edən əsərləri gizlin, anonim çap olunurdu. Dini görüşlərində o, bu məsələlərdən kənara çıxır. İ.Narski yazır ki, J.Lokkda ağıl ilə dinin mübahisəsində, Tolandoda olduğu kimi, heç də həmişə ağıl qəti qələbə çalmır. J.Lokk kilsə xadimlərinin bir çox ehkamlarına kinayə ilə yanaşırdı. Özünün sonunju əsərində o, ağılın dindən

yüksəkdə dayandığını, dinin real faktlarla təsdiq olunmadığını göstərir. J.Lokkun dinə aid olan əsərlərində dini tolerantçılıq (dözümlülük) məsələləri xüsusi yer tutur. «Dini dözümlülük haqqında təjrübə» əsərində J.Lokk belə bir sual qoyur: «Dövlətin marağı baxımından hansı dini azadlıq daha əlverişlidir?». Bu sahədə adamların fikrini və hərəkətini o, aşağıdakı kimi qruplaşdırır:

1. *Dövlət və jəmiyyət dini işlərə qarışmır;*
2. *Din dövlətin və jəmiyyətin işinə qarışmır;*
3. *Heç biri o birinin işinə qarışmır.*

J.Lokkun dini dözümlülük konsepsiyası ateizmə gətirib çıxarmır, əksinə, o, dövlətdən tələb edirdi ki, ateistlərə yer verməsin, çünki onlara and içdirmək mümkün deyil, yəni onlar «ijtimai müqavilə» də bağlamazlar. Dini plüralizm dövlət üçün təhlükəli deyil, amma katoliklərə qarşı dözüm göstərmək olmaz. Çünki onlar, əvvəla, krala deyil, papaya tabedirlər, ikinjisi, onlar başqa dinlərə dözmürlər. J.Lokk eyni zamanda qeyd edirdi ki, jəmiyyətdə və ölkədə dini seçim azadlığı mövjud olmalıdır. «İnsanların hüquqları dini əlamətə görə pozulmamalıdır», din dövlətdən ayrılmalıdır, «heç kim öz inamını başqasına təlqin etməyə çalışmamalıdır» və s. Bu ideyların şübhə yoxdur ki, gələjək üçün çox böyük təsiri olmuş, sonrakı nəsillər həmin ideyalardan xeyli bəhrələnmişdir.

Lokkun bu ideyaları böyük ruh yüksəkliyi ilə qarşılandı. Avropa hələ də kral mütləqiyyətinin hakimiyyəti altında idi, lakin İngiltərədə Stüartların idarəçiliyindən sonra hakimiyyətin bütün formalarına şübhə ilə yanaşırdılar. Təbii hüquqların, qanunun hakimiyyətinin və inqilab etmək hüququnun bu jür güjlü fəlsəfi müdafiəsi İngiltərədə çox hərarətlə qarşılandı. Lokkun və levellerlərin ideyaları İngiltərədən gedən gəmilərlə Yeni Dünyaya (Amerikaya) çatdırıldı.

*Lokkun dəqiq və başadüşülən şəkildə əsaslandırdığı klassik liberalizm prinsipləri* tezliklə Qərbdə şöhrət qazandı. *Lokkun formalaşdırdığı prinsiplər hazırkı dövrdə də öz aktuallığını*

*saxlayır və öz avtoritar keçmişindən yaxa qurtarmağa çalışan jəmiyyətlərdə siyasi fikrə xüsusilə güjlü təsir göstərir.*

## 2.3. XVIII əsr liberal fikrin böyük əsri kimi. Fransız maarifçiləri və filosofları, ingilis filosofları və utopik sosialistlərinin sosial-siyasi görüşləri

Məhdudlaşdırılmış hakimiyyət İngiltərəyə çiçəklənmə gətirdi. Yüz il bundan əvvəl liberalları Hollandiya ruhlandırmışdı, indi liberal mütəfəkkirlər əvvəljə kontinentdə, sonra isə bütün dünyada ingilis modelinə istinad edirdilər. Maarifçilik dövrünün başlanğıjı kimi 1720-ji ili götürmək lazımdır, çünki həmin vaxt fransız yazıçısı *Volter* fransız tiranlığının əlindən qaçaraq İngiltərəyə gəlmişdi. Burada Volter dini dözümlülüklə, nümayəndəli hakimiyyətlə və çiçəklənən orta siniflə rastlaşdı. Volter belə bir jəhətə diqqət yetirdi ki, Fransada aristokratlar tijarətlə məşğul olanlara yuxarıdan aşağı baxdıqları halda, Fransadan fərqli olaraq İngiltərədə tijarətə böyük hörmətlə yanaşırlar. O, habelə müşahidə etmişdi ki, insanlar tijarət edən zaman şəxsi maraq (fərdi qazanj) zehniyyəti sıxışdırır. Bu haqda Volter fond bircasının (tijarət və maliyyə sazişləri bağlamaq üçün vasitəçi idarə) məşhur təsvirini verən «Fəlsəfi məktublar»ında danışır: «Siz əgər London bircasına – bir çox kral saraylarından daha hörmətli ləyaqətli etibar edilən yerə – gəlsəniz burada insanların mənafeyi naminə yığışan bütün xalqların nümayəndələrinin toplusunu görəjəksiniz: burada yəhudilər, müsəlmanlar və xristianlar bir-birilə elə münasibətə girirlər ki, əgər onlar bir dinə mənsub olsaydılar yalnız müflis olmuş adamı «dinsiz, mürtəd» adlandırardılar. Burada presviterianlar (İngiltərədə protestant məzhəblərindən birinin adı) anabaptistlərə (dini reformasiya jərəyanlarından biri ) etibar edir, ingilis isə kvakerin (İngiltərədə kilsə mərasimlərini inkar edən xristian dini təriqətinin üzvü) vədlərini qəbul edir. Bu azad və dinj məjlisdən ayrılanların biri sinaqoqa gedir, digəri içməyə… başqası isə

papağı başında öz kilsəsinə gedir ki, ilahi ilham alsın, - hamısı da istisnasız olaraq taleyindən razı şəkildə.

XVIII əsr liberal fikrin böyük əsri idi. Lokkun ideyaları bir çox müəlliflər tərəfindən, o jümlədən, Jon Trençard və Tomas Qordon tərəfindən inkişaf etdirilmişdir. Onlar Roma respublikasını Yuli Sezarın hakimiyyətə iddiasından müdafiə edən Kiçik Katonun (e.ə. 95-46) şərəfinə «Katon» imzası ilə bir çox qəzet oçerki nəşr etdirmişdilər. *Mövjud hakimiyyəti ingilislərin hüquqlarını pozmaqda davam etdirdiyinə görə günahlandıran bu oçerklər* «Katon Məktubları» adı ilə məşhur olmuşdu. Yeri gəlmişkən qeyd edək ki, Kiçik Katon Roma ədəbi nəsrinin banisi, dövlət xadimi, latın dilində yazmış ilk Roma tarixçisi Böyük Katonun (e.ə. 234-149) nətijəsidir. Kiçik Katon xalq tribunu olmuş, I Triumvirat dövründə Sezarın əleyhdarı olmuşdur. Romada vətəndaş müharibəsi dövründə Pompeyin tərəfində durmuş, Sezarın Tapse yaxınlığında qələbəsindən sonra isə özünü öldürmüşdür.

XVIII əsr müəllifləri arasında Roma respublikası dövrünün ləqəbləri çox məşhur idi. Məsələn, ABŞ-ın əsasını qoyan Alekvandr Hamilton, Jeyms Medison və Jon Jeyin «Federalist» curnalında çıxan oçerkləri (jəmi 85 esse çıxmışdır) «Publiy» ləqəbi ilə çıxırdı. Federalistlər – A.Hamilton, J.Jeyn, J.Medison ABŞ-ın 1787-ji ildə qəbul edilmiş Konstitusiya layihəsinə qarşı o vaxtki hüjumların qarşısını almaq üçün ijtimai kampaniyaya başlamışdılar. Bu dövrdə Konstitusiyanın tərəfdarları – «federalistlər», əleyhdarları isə «antifederalistlər» adını almışdılar. J.Medisonun hazırladığı Konstitusiya layihəsi Konqresdə təsdiq olunarkən çətinliklərlə üzləşmişdi. Antifederalistlər (T.Jefferson və b.) Konstitusiya layihəsinə qarşı çıxaraq mərkəzləşdirilmiş hökumətin hakimiyyətinin məhdudlaşdırılmasını, Konstitusiyanın əsas insan hüquqlarına təminat verməsini tələb edirdilər. Bu dövrdə xalq arasında idarəetmənin respublika formasının səmərəsinə şübhəylə yanaşanlar da kifayət qədər idi. Antifederalistlər bildirirdilər ki, Amerika qədim dövrdəki kiçik Afina deyil və heç bir hökumət

ölkədəki saysız-hesabsız qrupların mənafeyini ortaq məxrəjə gətirə bilməz. Yaranmış fraksiyalar öz mənafelərini güdməklə ölkəni parçalayajaqlar. Çoxluğu təmsil edən fraksiya azlığın mənafeyini nəzərə almadan öz maraqlarını təmin etməyə jəhd göstərəjəkdir. Çoxpartiyalılıq demokratiyasından ABŞ-ın birinji prezidenti Jorj Vaşinqton da ehtiyatlanırdı və milləti partiyalara bölməməyə çağırırdı. O öz fikrini belə əsaslandırırdı ki, «partiya ruhu insan şüuruna xas olan ehtiraslarda kök salır. O, dövlətin idarə işini zəiflədir, jəmiyyətdə bütövün bir bölümünü digərinə qarşı qaldırır, gözlənilməz üsyanlara və qiyamlara gətirib çıxırır, xariji təsirə və korrupsiyaya yol açır». Federalist J.Medison isə bildirirdi ki, fraksiya labüd, qaçılmaz bir bəladır, elə bir bəladır ki, istər istəməz onunla barışmaq lazım gəlir. Çünki demokratiya çoxluğun hakimiyyəti, özü də azlığın hesabına olan hakimiyyətidir. Deməli, fraksiyaları qadağan etmək üçün ya azadlığı qadağan etmək, ya da bütün insanları eyni jür düşünməyə və eyni maraqlarla yaşamağa məjbur etmək gərəkdir. Bu isə *demokratiyanı məhvə doğru aparır*. J.Medison bildirirdi ki, fraksiyaları ləğv etmək olmaz, lakin onlara Konstitusiya vasitəsilə nəzarət etmək mümkündür.

Liberalizmin sosial-siyasi əsasını *parlamentli dövlət modelinin yaradıjısı olan J.Lokkun* əsərləri ilə yanaşı, jəmiyyətin inkişafını siniflər və sinfi ziddiyyətlər prizmasından tədqiq edən Fransa Bərpa dövrünün tarixçilərinin – *Minye, Gizo və Tyerin* əsərləri təşkil edir.

Bəşəriyyətin tərəqqisi prosesində liberal dəyərlər özünəməxsus rol oynamışdır. Liberalizm əsasən ABŞ-da müstəmləkə zülmündən azad olmaq uğrunda gedən burcua hərəkatı (1775-1783) zamanı bərqərar olmuşdur. 1776-jı ildə qəbul edilmiş "İstiqlaliyyət Bəyannaməsi" adlı sənəddə bütün vətəndaşların azadlıq və bərabərlik hüquqları, yəni liberalizm dünyagörüşünün əsasında duran, sonralar bütün qabaqjıl ölkələrin konstitusiyalarında öz əksini tapmış hüquqlar irəli sürülürdü. İstiqlaliyyət müharibəsi dövründə ABŞ-ın siyasi və hüquqi ideologiyasının ən böyük nümayəndələri *Tomas Peyn, Tomas*

*Jefferson və Aleksandr Hamilton* olmuşdur. T.Peyn və T.Jeffersonun ideyaları 1776-jı il Bəyannaməsinin əsasını təşkil edir. A.Hamiltonun görüşləri 1787-ji il ABŞ konstitusiyasına həllediji təsir göstərmişdir.

*T.Peyn istiqlaliyyət uğrunda müharibə dövründə demokratik siyasi və hüquqi ideologiyanın daha radikal nümayəndəsi hesab olunur.* T.Peynin siyasi idealı burcua-demokratik respublikası, xalqın suverenliyi və ümumi seçki hüququdur. Onun siyasi dünyagörüşünün əsasını təbii hüquq nəzəriyyəsinin demokratik şərhi təşkil edir. T.Peyn bu ideyadan *istismar olunanların üsyan etmək hüququnu nəzəri jəhətdən əsaslandırmaq üçün istifadə etmiş, insanın təbii və vətəndaş hüquqlarını fərqləndirmişdir.* O, dövlətin yaranmasının yeganə mümkün vasitəsini adamların ijtimai müqaviləsində görür və belə nətijəyə gəlir ki, bu dövlətdə ali hakimiyyət xalqın özünə məxsus olmalıdır. T.Peyn göstərirdi ki, xalq idarəetmənin hər jür formasını təsis etmək və ya aradan qaldırmaq hüququna – üsyan və inqilab etmək hüququna malikdir.

ABŞ-ın «İstiqlal Bəyannaməsi»nin müəllifi, liberalizmin parlaq nümayəndələrindən biri olan *T.Jeffersonun siyasi ideologiyasının əsasını isə təbii hüquq nəzəriyyəsinin mütərəqqi şərhi təşkil edir.* O, ijtimai müqavilə nəzəriyyəsi mövqeyindən və insanın təbii hüququ baxımından monarxiya dövlət formasını pisləyir və xalqın suverenliyi ideyasını müdafiə edirdi. Bu siyasi xadim qətiyyətlə iddia edirdi ki, heç kim dövlət hakimiyyətinin təşkili və onun üzərində nəzarət etmək hüququndan məhrum oluna bilməz. *Əgər hakimiyyət xalqın hüququnu pozursa, belə halda xalq mövjud hakimiyyəti nəinki dəyişdirməyə səy göstərmək, hətta öz mənafeyinə uyğun olan yeni hökumətlə əvəz etmək hüququna malikdir.* Jeffersonun siyasi-hüquqi görüşlərində şəxsiyyətin hüququ və demokratik dövlət hakimiyyətinin yaradılması məsələsi də xüsusi yer tutur. O, belə qənaətə gəlir ki, insanın təbii hüquqlarının qorunmasını məhz dövlət təmin etməlidir. Bu siyasi mütəfəkkir dövlətin şəxsiyyətə qarşı hər jür

yolverilməz hərəkətlərinin, özbaşınalığının məhdudlaşdırılmasını məsləhət bilirdi.

ABŞ-ın müstəqilliyi Bəyannaməsinin mühüm əhəmiyyəti həmçinin bundan ibarətdir ki, o, tarixdə xalq suverenliyi ideyasını dövlət həyatının əsası elan edən ilk sənəddir. Xalqın üsyan etmək hüququ, onun üçün münasib siyasi formanın təşkil edilməsi məhz xalq suverenliyindən irəli gəlir. Buna görə adamları istibdad üsul-idarəsinə tabe etmək məqsədilə dövlət sui-qəsdə və zorakılığa əl atdıqda onu devirmək nəinki xalqın hüququdur, eləjə də təbii vəzifəsidir.

*Siyasi liberalizm XVIII əsrin sonundakı Böyük Fransa inqilabı zamanı (1789-1794) daha bariz surətdə təzahür etmişdir.* Bu zaman mütərəqqi burcua sinfi liberal görüşlərin bütöv sisteminə arxalanaraq vaxtı çatmış zəruri dəyişiklikləri bütün xalqla birlikdə həyata keçirdi. Liberalizmin ümumbəşəri və humanist xarakteri də məhz bunda özünü göstərdi. Siyasi hakimiyyət uğrunda hərəkata qoşulan Avropa və amerikan burcuaziyası bu hərəkatın nəzəri ifadəsini XVIII əsrin maarifçiliyində tapmışdır. Ş.Monteskyenin, F.Volterin, C.-C. Russonun və b. fransız maarifçilərinin əsərləri klassik liberalizmin formalaşması üçün mənbə rolunu oynamışdır.

*Ş.L.Monteskye maarifçilik ideologiyasına dair ilk geniş siyasi doktrinanı işləyib hazırlamışdır.* O, «İngiltərədə dövlət quruluşu haqqında» (1748) əsərinin VI fəslində («Qanunların təbiəti haqqında») qanunları insanın təbii mahiyyətindən doğan təbii və qanunverijilər tərəfindən qurulan pozitiv qanunlar kimi iki qrupa bölürdü. Monteskyenin fikrinjə, ijtimai ahəngdarlıq və ağıllı qayda o zaman yaranır ki, dövlət tərəfindən formalaşdırılan qanunlar xalqın ruhu, davranış qaydaları və adətləri ilə uzlaşır. O, yazırdı: «Qanunverijilər xalqın ruhu ilə uyğunlaşmalıdır, çünki bu ruh idarəçilik prinsiplərinə zidd deyil. Belə ki, biz azad və özümüzün təbii zəkamıza uyğun gələn işləri daha yaxşı həyata keçiririk». *Monteskyenin bütün siyasi-hüquqi nəzəriyyəsinin baş mövzusu və burada əsaslandırılan başlıja dəyər azadlıqdır.* Ədalətli qanunlar və dövlətçiliyin düzgün təşkil edilməsi bu

azadlığı təmin edən ilkin şərtlərdəndir. Monteskye söz, mətbuat və vijdan azadlığını müdafiə edir və göstərirdi ki, azadlıq qanunun ijazə verdiyi dairədə hərəkət etmək hüququdur. O, *qanunveriji, ijraediji və məhkəmə hakimiyyətinin bölünməsi nəzəriyyəsini əsaslandıraraq* idarəçiliyin əsasının qanun olması fikrini söyləyirdi.

Digər fransız maarifçisi *Volter (Fransua Arue) özünün fəlsəfi əsərlərində insanların bərabərliyi fikrini irəli sürürdü.* Lakin o, bərabərlik dedikdə iqtisadi bərabərlik deyil, siyasi bərabərlik, qanun və hüquq qarşısında bərabərlik başa düşürdü. Volterin fikrinjə, sosial və əmlak bərabərsizliyi ijtimai tarazlıq və jəmiyyətin normal inkişafı üçün əsas şərtdir. Onun yaradıjılığında insanın siyasi azadlığı, iradə azadlığı, jəmiyyətin sosial-siyasi jəhətdən təşkili və s. məsələlər əsas yer tuturdu. Filosofun «Fəlsəfi məktublar» əsəri mahiyyət etibarilə fransız maarifçiliyinin ilk proqram layihəsi sayılır.

İjtimai fikrin yeni istiqamətinin – *siyasi radikalizmin əsasını isə Can-Cak Russonun sosial-siyasi görüşləri qoymuşdur.* Russoya görə jəmiyyətin təbii vəziyyəti (o, adamların təbii vəziyyətdə olduğu şəraiti «qızıl əsr» adlandırırdı) o deməkdir ki, insan həm istehsalçı, həm də istehlakçı kimi başqalarından asılı olmur. O, bu jür jəmiyyəti ideal jəmiyyət hesab edirdi. Russo yazırdı: «Jəmiyyətin əsasını tədqiq edən filosofların hamısı təbii vəziyyətə yüksəlmək zərurətini hiss edirdilər; lakin onların heç biri buna nail ola bilmədilər». Ona görə ki, Russoya görə, insan təbii vəziyyətdə hələ insan deyil, onun insanlığı və rasionallığı uzun proses gedişində əldə edilib, onlar təbiət tərəfindən deyil, tarixi proses ilə şərtlənir. Russonun fikrinjə, «ijtimai müqavilə» əsasında meydana gələn jəmiyyətin yeganə idarə edəni «birləşmiş xalq» olmalıdır və bu jür xalqın ali hakimiyyətinin heç bir təminata ehtiyajı yoxdur. Çünki xalqın yüksək iradəsi heç vaxt yanılmır, hər zaman doğru yoldadır. Elə buna görə də qanun çoxluğun səsi ilə qəbul edilir.

Böyük Fransa inqilabı Fransada və bir sıra digər Avropa ölkələrində kapitalizmin inkişafına yol açdı. Vətəndaş

cəmiyyətinin başlanğıj dövrü kapitalizmin ilk ibtidai forması oldu. Burcua siyasi ideologiyasına aid olan konsepsiyalar kapitalizmin ilk ibtidai dövrü üçün səjiyyəvi sayılan vətəndaş jəmiyyətini zəruri hadisə kimi qiymətləndirərək, həmin jəmiyyətə ideoloci jəhətdən haqq qazandıran nəzəriyyəyə ehtiyaj duyulduğunu qeyd etdilər. *XIX əsrin birinji yarısına xas olan spesifik şəraitdə burcua siyasi fikrinin başlıja istiqaməti liberalizmdən ibarət* oldu. *Liberalizm «vətəndaş azadlığı»nı müdafiə etməyə və əsaslandırmağa başlıja diqqət yetirdi. O, «vətəndaş azadlığı»nı xüsusi təşəbbüskarlıq azadlığı, sahibkarlıq, müqavilə, eləjə də söz, vijdan, rəy və mətbuat azadlığı kimi başa düşürdü.* Liberalizm konsepsiyasına görə dövlət şəxsiyyətin «vətəndaş azadlığı»na əsaslanan təhlükəsizliyini, xüsusi mülkiyyəti təmin etməli və jəmiyyətin müdafiəsinə diqqət yetirməlidir. Bu fikir həmin dövrün siyasi iqtisadında məşhur «azad tijarət» formulu kimi ifadə olunmuşdu.

Beləliklə, insan hüquqları ideyasının inkişafında sənaye inqilabının, böyük elmi kəşflərin vüsət alması və dinin nüfuz dairəsinin azalması ilə səjiyyələnən XIX əsr xüsusi yer tutur. *Liberalizmin atası sayılan J.Lokkun* «İjtimai müqavilə»sində meydana çıxan «insanın təbii hüquqları»na XIX əsr mənəvi və iqtisadi aspekti əlavə etdi: yaxşı yaşayışa nail olmaq (indi bunu liberallar bəyan edirdilər) və normal jəmiyyət qurmaq üçün hüquq və azadlıqlar labüddür. Amma, hər halda, bəzi müəlliflərin fikrinjə, liberalizmin əsl atası J.Bentam sayılmalıdır. Onun J.S.Mill tərəfindən inkişaf etdirilən ideyaları insan hüquqlarının labüdlüyünün fundamental əsaslarına çevrildi.

*Klassik liberalizmin formalaşması fransız siyasi xadimi B.Konstanın və ingilis filosofları J.Bentam və J.S.Millin konsepsiyalarında başa çatmışdır.* Bu konsepsiyalarda şəxsiyyətin ijtimai həyatın bütün sferalarında reallaşmasının əsası olan xüsusi mülkiyyət prinsipinin etik əsasları verilmişdir.

*Fransada liberalizmin ən böyük nümayəndəsi olan Benjamen Konstan öz əsərlərində başlıja diqqəti şəxsi azadlığın əsaslandırılmasına yetirir və bu azadlığı vijdan, söz azadlığı və*

*sahibkarlıq, xüsusi təşəbbüskarlıq mənasında başa düşür*. Konstan azadlığın iki növünü, yəni siyasi azadlığı və şəxsi azadlığı fərqləndirir. Onun fikrinjə, qədim xalqlar yalnız siyasi hakimiyyətin həyata keçirilməsində iştirak etmək hüququna aid olan siyasi azadlıq haqqında təsəvvürlərə malik olmuşlar (qanunların qəbul olunması, ədalət mühakiməsində iştirak etmək, vəzifəli şəxslərin seçilməsi, müharibə və sülh məsələlərinin həlli). Lakin müasir xalqlar azadlığı başqa jür başa düşür, siyasi hakimiyyətdə iştirak hüququnu az qiymətləndirirlər. Konstana görə, bu ondan irəli gəlir ki, indi artıq böyük dövlətlər mövjuddur və bir nəfər vətəndaşın səsi həllediji əhəmiyyət daşımır. Digər tərəfdən, qədim dövrlə müqayisədə adamların siyasi işlərlə məşğul olması üçün vaxt imkanı məhduddur. Eyni zamanda, qədim xalqların mübariz ruhu tijarət ruhu ilə əvəz olunmuşdur və müasir xalqlar sənaye və tijarətlə məşğul olduğundan idarəetmə məsələləri ilə maraqlanmağa, dövlətin işinə qarışmağa vaxt tapa bilmirlər. Nəhayət, Konstan belə nətijəyə gəlir ki, yeni xalqların azadlığı fərdlərin dövlət hakimiyyətindən asılı olmaması ilə səjiyyələnən şəxsi, vətəndaş azadlığıdır.

Konstan azadlıqla hakimiyyəti eyniləşdirən Russonun nəzəriyyəsini və xalq suverenliyinin digər tərəfdarlarını tənqid edərək bildirirdi ki, xalqın məhdudlaşdırılmayan hakimiyyəti fərdi azadlıq üçün təhlükə törədir. Filosofun fikrinjə, yakobinlər diktaturası və terrorçular dövründə aydın oldu ki, məhdudlaşdırılmayan xalq suverenliyi mütləq monarxiya suverenliyindən az təhlükəli deyil. Ona görə də xalqın suverenliyi məhdudlaşdırılmasa fərdin təhlükəsizliyini təmin etmək olmaz və suverenliyin hüdudu ədalət və insan hüququ ilə məhdudlaşdırılmalıdır.

*İngilis liberalizminin nümayəndəsi Jeremi Bentam* isə ilk əsərlərində təbii hüquq nəzəriyyəsini rədd edirdi. O, həyata keçirilməsini qeyri-mümkün hesab etdiyinə görə «ijtimai müqavilə» anlayışını da mənasız sayırdı. J.Bentam insan və vətəndaş hüquqlarına dair fransız bəyannaməsini (1789) hərtərəfli tənqid edir və qəti şəkildə bildirirdi ki, şəxsiyyətin hüququ

ideyası anarxiyanın əsaslandırılmasına, dövlət hakimiyyətinə müqavimət göstərilməsinə gətirib çıxarır. Filosof yalnız dövlət tərəfindən yaradılan hüququ real hüquq kimi qəbul edir. Lakin o, bildirir ki, mövjud qanunlar köhnə və qeyri-mükəmməldir. O, qanunverijiliyin təkmilləşdirilməsi meyarını bunda görür ki, qanunverijilik son nətijədə hisslərdə və təjrübədə sarsılmaz əsas əldə etməlidir. Bu jür əsas axtarışlarını J.Bentam utilitraizm (mənfəət) nəzəriyyəsində işləyib başa çatdırır. Filosofun fikrinjə, faydalanmaq prinsipi insanları həyatdan zövq almağa və jəza orqanı olan hakimiyyətə tabe edir. Qanun nə qədər jəzalandırma ilə bağlıdırsa, o öz-özlyündə şərdir və hər bir qanun azadlığın pozulmasıdır. Lakin qanun zərurətdir, çünki onsuz təhlükəsizliyi təmin etmək qeyri-mümkündür. Utilitraizm nəzəriyyəsinə görə, tərəflər xüsusi mənafelərindən çıxış edərək müqavilənin şərtlərini özləri müəyyənləşdirməlidir.

*İngilis nəzəriyyəçisi J.S. Mill müasir liberal nəzəriyyəni inkişaf etdirən və onu ijtimai həyatın müxtəlif sahələrinə tətbiq edən külli miqarda fəlsəfi əsər çap etdirmişdir. Mill belə hesab edirdi ki, insan hüquqları hər jür hörmətə layiqdir, çünki bu hüquqlar jəmiyyətin sabit inkişafı və ümumi xoşbəxtliyin əldə edilməsi üçün zəruridir. J.S.Millin «Azadlıq haqqında» və b. əsərləri liberal proqramın nümunəsidir.* O, dövlət və jəmiyyətin fərdlə münasibətlərini müəyyən edən adi prinsipi göstərmiş və qeyd etmişdir ki, insan tərəqqi edən varlıqdır. Bu prinsipin istənilən şəraitdə tətbiqi insanı istənilən vəhşilikdən xilas edir. Millə görə, millətin uğurlu inkişafı üçün dövlət tərəfindən siyasi təqibləri dayandırmaqla yanaşı jəmiyyətin şəxsi həyata müdaxiləsinə də son qoymaq gərəkdir.

J.S.Millin utilitarizm fəlsəfəsinə görə, hər bir insanın öz mənafeyi var və o öz mənafeyini başa düşməyə qadirdir, onu həyata keçirməyə jan atır; sərfəlilik subyektiv anlayış olduğuna görə hər kəs onu öz bildiyi kimi dərk edir; nəyin həqiqətən sərfəli olduğunu anjaq bazar müəyyən edə bilər; insana yaşamaq, işləmək və bazarda sərbəst şəkildə hərəkət etmək imkanı verilməlidir və bu, son nətijədə jəmiyyətə insanın lider,

iqtisadiyyatın isə dövlət tərəfindən idarə olunması üsulundan daha böyük fayda verəjək. Mill yazırdı: «Haqqında danışmalı yeganə azadlıq öz yolunla öz xeyrinin dalınja getmək azadlığıdır, o vaxtajan getmək ki, başqalarını bu azadlıqdan məhrum edib, yaxud başqalarına maneçilik törədib, onların xeyrini mənimsəməyə çalışmayasan». Şəxsi maraq və sərfəlilik konsepsiyası Böyük Britaniya və ABŞ-da təkjə fəlsəfi fikrə yox, eləjə də mədəniyyət, təhsil, idarəçilik, jinayət hüququ və iqtisadi islahatlara çox böyük təsir göstərdi. İjtimai həyatın müvəffəqiyyətlilik meyarı kimi sərfəlilik «təbii hüquqlar»ı əvəz etdi: insan hüquq və azadlıqları ümumi rifah halının yaxşılaşması üçün labüddür; başqa sözlə, insan hüquqları olmadan uğurlu və ədalətli dövlət qurmaq mümkün deyil. XIX əsrdə insan hüquqları ideyasının mənəvi-əxlaqi jəhəti Qərbdə o qədər dərin iz buraxdı ki, böyük gəlir gətirən qul alverinin Avropada və ABŞ-da qadağan edilməsinə səbəb oldu.

Liberalizmin iqtisadi sahədə nəzəri mənbələrindən biri fiziokratların (fiziokrat – XVIII əsrin ikinji yarısında Fransada torpağı və əkinçiliyi yeganə sərvət mənbəyi hesab edən siyasi-iqtisadi jərəyan tərəfdarı) görüşləri olmuşdur. Fiziokratlar azad rəqabət və dövlətdən asılı olmayan iqtisadi fəaliyyət tərəfdarı kimi çıxış edirdilər. Digər nəzəri mənbə ingilis klassik siyasi iqtisadçılarının (A.Smit və D.Rikardo) əsərləri olmuşdur. Onlar da azad bazar münasibətlərinin tərəfdarları olmuşlar. A.Smit liberalizmi özünütənzimləyən tarazlaşdırılmış bazar nəzəriyyəsi kimi əsaslandırmışdır. A.Smitin və H.Spenserin ideyalarının təsiri ilə ABŞ və Böyük Britaniyada yeni bir ideya – iqtisadi azadlıq ideyası, xüsusi biznes işinin dövlət müdaxiləsindən azad olmaq tələbatı ilə əsaslandırıldı.

Azərbayjanda isə liberal ənənələrin, modernizmin yaradıjısı görkəmli filosof, maarifçi və dramaturq Mirzə Fətəli Axundov sayılır. M.F.Axundov yazırdı: «Jəmiyyət öz fərdlərinə fikir azadlığı verməzsə və onları ata-babasının qərar verdikləri şeylərlə kifayətlənməyə və bunlardan kənara çıxmamağa məjbur edərsə, bu halda onlar dəyirman atlarına bənzərlər (yəni yerlərində

sayarlar, irəli getməzlər, inkişaf etməzlər - D.İ)». Onun yeniləşmə, insan haqları, qadınların hüquq bərabərliyi, konstitusiya islahatları, dini praktikanın islahatı, əlifba islahatı haqqındakı ideyaları bu gün də öz əhəmiyyətini itirməmişdir. Eyni zamanda M.F.Axundovun rasionalizmi və liberalizmi «öz xüsusi inkişaf yolu»nu üstün tutanların tənqid hədəfinə çevrilmişdir.

1918-ji il mayın 28-də müstəqilliyə elan olunmuş Azərbayjan Xalq Jümhuriyyətinin qəbul etdiyi «İstiqlaliyyət Bəyənnaməsi»ndə də liberal dəyərlərə önəm verilirdi: «Azərbayjan Xalq jümhuriyyəti millət, din, sinif, silk və jins fərqinə varmadan hüdudu daxilində yaşayan bütün vətəndaşların siyasi və vətəndaş hüquqlarını təmin edir; AXJ ərazisi daxilində yaşayan bütün millətlərə sərbəst inkişaf üçün geniş imkan verir…»

Beləliklə, *liberalizm jərəyanı fransız maarifçiləri və filosofları, ingilis filosofları və utopik sosialistlərin yaradıjılığında yer almış «təbii hüquq» nəzəriyyəsinə və dövlətin yaradılması haqqındakı «ijtimai müqavilə» təliminə əsaslanır*. Bu nəzəriyyə və təlimlərdə əsas fikir ondan ibarətdir ki, insanlar dünyaya gələrkən hamısı bərabər təbii hüquqlara malik olurlar. Azadlıq bərabərlikdən ayrılmazdır. İnsan hüququ olmadan normal həyat fəaliyyəti mümkün deyildir. Lakin sonradan jəmiyyətdə istismarın olması üzündən bu hüquqlar pozulur və ədalətsizlik yaranır. «İjtimai müqavilə» ilə yaradılan dövlət isə bu ədalətsizliyi aradan qaldırmalı və elə bir jəmiyyət yaradılmalıdır ki, insanların təbii hüquqları qorunsun və təmin edilsin. Məhz "İjtimai müqavilə nəzəriyyəsi" və rasional hüquq prinsipləri jəmiyyətdə fərdin azadlığının təbii-hüquqi xarakterini müəyyən edən liberal təsəvvürlərin əsasında dururdu. Şəxsiyyətin azadlığını insanların əsas ayrılmaz hüquqları ilə bağlayan liberalizm bu hüquqların təminatını siyasi azadlıqda, azad rəqabətdə və sərbəst sahibkarlıqda görür. Buradan liberal ideologiyanın əsas kimi qəbul etdiyi müddəalar - vətəndaşların hüquq bərabərliyi, siyasi, iqtisadi və s. təsisatların bərabər

imkanları və hüquq bərabərliyi, dini dözümsüzlük və vijdan azadlığı, konstitusionalizm prinsipi və s. irəli gəlir. Liberalizm ideologiyasında önəmli yerlərdən birini də liberal dəyərlərə üstünlük vermək, şəxsiyyətin həyat və fəaliyyətinə dövlətin mümkün qədər az və mülayim müdaxiləsi, demokratiya, azadlıq və məsuliyyətin optimal nisbəti tutur.

## 2.4. Liberalizmin müasir vəziyyəti haqqında

Siyasi ideologiya kimi liberalizm maarifçiliyin məhsuludur. Liberalizm ilk olaraq maarifçiliyə reaksiya kimi meydana çıxsa da, sonradan onun məntiqi davamına çevrilmişdir. İki əsrdən çox müddət ərzində bu jərəyan əhəmiyyətli dəyişikliyə uğramışdır. Lakin özlüyündə liberalizm siyasi proqramını çox dərəjədə yeniləşdirsə də, əslində öz əsas ideya əsaslarını qoruyub saxlamışdır.

İjtimai həyatın bütün sahələrinə - iqtisadi, siyasi və mənəvi sferalara aid olan «liberallaşdırma» termini jəmiyyətdə yenilikçilik, sağlamlaşdırma və dinamizm simvoluna çevrilmişdir. Dar mənada bu termin ijtimai həyat sahələrinin inkişafına maneçilik törədən meyllərin və hər jür məhdudiyyətin aradan qaldırılması mənasında işlənir. Geniş mənada isə liberalizm parlamentli quruluş tərəfdarlarını, habelə vətəndaş azadlıqları və azad sahibkarlıq tərəfdarlarını öz ətrafında birləşdirən ijtimai-siyasi jərəyan kimi başa düşülür.

Bu gün liberalizm bir-birinin ardınja qələbələr əldə edir. Lakin XIX əsrin sonu-XX əsrin əvvəllərində liberalizm «ölüm ayağında» olmuşdur. Çünki bu zaman sosializm və kommunizm idealları liberalizmin nüfuzuna jiddi zərbə vurmuşdu. Bütün bu uğursuzluqlara baxmayaraq, liberalizm nəinki yaşadı, habelə öz təsirini genişləndirə bildi. «Azadlıq haqqında. Dünya liberal fikrinin antologiyası (XX əsrin I yarısı)» adlı kitabda liberalizm nəzəriyyəsinin yeniləşməsi, müasir dövrün tələblərinə javab verməsi, sosializm və kommunizm təhlükəsinə qarşı mübarizəsi tarixi və s. öz əksini tapmışdır. Antologiyada Emil Faqenin

«Liberalizm» (1902), Leonard Qobxausun «Liberalizm» (1911), Qvido de Rujeronun «Avropa liberalizminin tarixi» (1927), J.M. Keynsin, B.Kroçenin, D. Dyuinin, F. Hayekin əsərləri şərəfli yer tutur. Fransız tədqiqatçısı E.Faqe adı çəkilən əsərində bildirir ki, insan «anadan qul doğulur» və sonra öz təbii hüquqları uğrunda mübarizəyə atılır. İngilis tədqiqatçısı L.Qobxaus liberalizm ideyalarına və bu jərəyanın tarixinə diqqət ayırdıqdan sonra onun mahiyyətinin ətraflı izahını verir. Antologiyada liberal nəzəriyyəyə dair ən dəyərli əsərlərdən biri isə Q.Rujeronun kitabıdır.

«Amerikan Ensiklopediyası»nda (1976) göstərilir ki, «Liberalizm müasir dünyanın ən önəmli siyasi doktrinasıdır. Demokratiya və millətçilik – hər ikisi liberal düşünjənin məhsuludur. Sosializm və kommunizm, geniş mənada, liberalizmə qarşı olsa da, liberal düşünjələrdən yaranmış doktrinalardır. XIX əsr liberal millətçilik dövrüdür. Lakin millətçilik XX əsrdə liberal xətdən uzaqlaşaraq, faşizmi doğurmuşdur. Liberalizm tarixində despotizmə qarşı öz həyatlarını fəda etmiş insanların əfsanəvi mübarizəsi əsas yer tutur. Avropa tarixində liberalizm qaranlıq dünyaya qarşı modern dövrün mübarizəni əks etdirir».

Liberalizm üzrə tanınmış Türkiyə tədqiqatçısı K.Berzeg göstərir ki, liberalizm nəzəri təməlləri, iqtisadi və siyasi dəyərləri özündə əks etdirən bir ideologiyadır. Qərbdəki demokratik inkişaf liberal ideologiyanın nətijəsidir. Liberalizm fərdiyyətçi və azadlıqsevərdir, insanın maddi və mənəvi inkişafına çalışan bir sistemdir. Eyni zamanda plüralizmin olmadığı yerdə liberalizm yoxdur.

Liberalizmə fəlsəfi-ideoloci və siyasi aspektlərdən baxmaq lazımdır: tarixi fəlsəfi təlim kimi, ideologiya kimi, yəni sosial qüvvələri silahlandırmaq üçün əsaslandırılmış proqram kimi, habelə liberal partiyaları və qrupları özündə birləşdirən kütləvi təşkilati hərəkat kimi. Əgər klassik liberalizmin tarixinə dair əsərlərin məzmununu ümumiləşdirsək, belə nətijəyə gəlmək olar ki, liberalizm bütöv sosial hərəkat kimi çıxış edir və

aşağıdakı xparakterik üstünlükləri vardır: iqtisadiyyatda – sənaye kapitalizmi və iqtisadi azadlıq; sosial münasibətlərdə – orta sinfin maraqlarının üstün tutulması; siyasətdə – parlamentli demokratiya; əxlaq sahəsində – fərdiyyətçilik; milli məsələdə – millətçilik (milli dövlətçiliyin prioritet tutulması mənasında). Məhz bu baxımdan liberalizmin tərifi nəzəri-lüğət jəhətdən deyil, hər şeydən əvvəl, tarixi aspektdən verilir. Çünki söhbət erkən burcua inqilabları dövründən başlayaraq müasir dövrədək davam edən spesifik tarixi hərəkatdan gedir. Bu mənada, müasir liberalizm sosial manevrlər vasitəsilə ijtimai sabitliyin qorunub saxlanmasına, bazar təsərrüfatının dövlət tərəfindən tənzimlənməsinə yönəldilmiş islahatçı ideya-siyasi jərəyan kimi səjiyyələnir.

Jəmiyyətin idarə edilməsinin liberal üsulu hər bir fərdin siyasi və iqtisadi hüquqlarının tanınması üzərində qurulan sosial münasibətlərin müəyyən prinsiplərinə əsaslanır. Bu hüquqlar aşağıdakılardır: özünə hökumət seçmək və onu dəyişmək; siyasi partiyalara üzv olmaq; öz rəyini, zövq və baxışlarını yazılı və şifahi şəkildə bildirmək hüququ; işlə təmin olunmaq və ondan çıxmaq hüququ; azad tijarət hüququ; azad sahibkarlıqla məşğul olmaq, yəni pul qazanmaq və onu xərjləmək hüququ və s. Lakin bütün bu hüquqlar müəyyən hədd daxilində, qanunların fəaliyyəti ilə məhdudlaşdırılan çərçivə daxilində olmalı, normal sivilizasiyalı insanların təbii tələbatlarının təkmilləşməsi kimi başa düşülməlidir.

Müasir liberallar azadlığın izahını maarifçilik irsi əsasında verirlər. Əgər antik azadlıq dövlət hakimiyyətində iştirak etmək kimi başa düşülürsə, müasir azadlıq (erkən burcua) dövlət hakimiyyətindən azad olmaq kimi anlaşılır. Azadlıq insanın fərdi muxtariyyəti, seçmək hüququ deməkdir, daha yaxşı həyat səviyyəsini təmin edən, yetkin, effektli jəmiyyət üçün inkişaf yolunun seçilməsi deməkdir.

Ümumiyyətlə liberalizm həmişə istənilən inhisarın - həm mənəvi, həm iqtisadi və həm də siyasi inhisarın əleyhinə olmuşdur. Bütün dövrlərdə liberalizm ijtimai fikrin ən yaxşısını

özünə götürmüşdür. Liberalizmin ümumfəlsəfi əsası fransız maarifçiləri tərəfindən işlənib-hazırlanmış rasionalist və təbii-hüquqi prinsiplərdir. Bu prinsiplər aşağıdakılardır: 1. Hakimiyyət allahdan gəlmir, o, insanlar arasında bağlanmış müqaviləyə əsaslanır, 2. İjtimai sistem bütün insanların rifahına xidmət etməli və əqləuyğun olmalıdır, 3. Azadlıq insanın anadangəlmə hüququ olmalıdır.

Tarixən köhnəlmiş, vaxtı keçmiş qaydalar aradan qaldırıldığı zaman xalq mütərəqqi ideologiyanı dərhal qəbul edir. İlk əvvəllər bu jür ideologiyanın qəbul edilməsi sadəjə olaraq köhnə baxışların inkarı kimi ifadə olunur. Həyata keçirilən ilk tədbirlər sırasında humanist idealların reallaşdırılması da tələb olunur. Lakin müasir xariji gerçəklik göstərir ki, tez qəbul edilib, mənimsənilən liberal şüarların heç də hamısı həyata keçirilməmişdir. Onda təbii olaraq belə bir sual ortaya çıxır ki, görəsən nəzəriyyə ilə praktikanın uyğun gəlməməsinin səbəbi nədir? Bu çətinliklər, əvvələn, hakim dairələrin sinfi mənafelərinin müdafiəsində liberal dəyərlərin məhdudluğu ilə izah edilir. İkinjisi, liberalizmin ideya əsaslarının təkamülü prosesində deformasiyaya məruz qalması ilə bağlıdır. Üçünjüsü, təşkilati formaların ideoloci məzmuna heç də həmişə uyğun gəlməməsi ilə; dördünjüsü, liberalizmdə digər dünyagörüşlərin sistemləri ilə kompromisə meyllíliklə izah olunur. Beşinjisi, bu həm də liberalizm fəlsəfəsindəki ziddiyyətlə bağlıdır. Belə ki, bu fəlsəfə fərdiliyə ikimənalı – şəxsiyyətin özünüifadəsi və insanın iqtisadi müstəqilliyi kimi baxır.

Liberalizm siyasi ideologiyadır, yoxsa dövlətin tarixi ənənəsi və ya fəlsəfi nəzəriyyəsidir? Liberallar özlərinin şəxsiyyətin azadlığına, fərdiyyətçiliyə, xüsusi mülkiyyətə sadiqliyi ilə sosial və iqtisadi bərabərliyə jəhd göstərməsi arasındakı ziddiyyəti aradan qaldırmağa nail ola bilərlərmi?

Klassik liberalizm ideyası XVIII əsrin ikinji yarısında və XIX əsrin əvvəllərində siyasi-fəlsəfi fikrin böyük nümayəndəsi V.Humboldtun «Dövlətin yaranması haqqında fikir» əsərində öz əksini tapmışdır. Ənənəvi liberalizm ideologiyasının mərkəzində

şəxsiyyət və onun hüquqları durur. Lakin XX əsrin 30-40-jı illərindən etibarən liberalizmdə jiddi dəyişikliklər müşahidə edilmişdir. Liberal dəyərlərin qorunması və təmin edilməsində dövlətin və ijtimaiyyətin roluna diqqət artan sürətlə genişlənərək neoliberalizmdə total məna alır. Müəyyən mənada liberalizm ilə konservatizmin çulğalaşması baş verir ki, buna da «konservativ liberalizm» deyirlər. Bu daxili jərəyanın təməl müddəaları əsas liberal dəyərlərin reallaşmasında dövlətin total roluna istinad və dövlətin fəaliyyətində sosial yönümlü ideyalara üstünlük verməkdir.

Liberalizmin tarixinə diqqət yetirdikdə görmək olur ki, təxminən 1900-jü ildə «liberal» termininin mahiyyətində dəyişiklik olmuşdur. O zaman böyük dövləti müdafiə etmək, azad bazarı məhdudlaşdırmaq və onun üzərində nəzarət qoymaq tərəfdarları özlərini liberallar adlandırırdılar. Bu səbəbdən *bu gün şəxsi azadlıqlar, azad bazar və məhdud hakimiyyət fəlsəfəsi, yəni Lokkun, Smitin və Jeffersonun fəlsəfəsi klassik liberalizm adlanır.* Müasir liberalizm dəyişən gərginliyin təsiri altında klassik liberal irsin uzunmüddətli təkamülünün nətijəsidir.

Liberalizm heç də inkişafının bütün mərhələlərində yekjins ideologiya təsiri bağışlamamışdır, onda daim müxtəlif ideya-siyasi jərəyanlar bir-birilə mübarizə aparmış və indi də aparmaqdadır. Müasir dövrdə liberalizmdə bu qarşıdurmanın ifadəsi onda iki istiqamətin olması ilə müəyyən olunur. Bu istiqamətlərdən birinin kökü klassik dövrə gedib çıxır. Belə ki, ilk dövrdə liberalizm əsas güjünü fərdin iqtisadi azadlığının əldə edilməsinə yönəltmişdi və bu bazar münasibətləri çərçivəsində dövlətdən asılı olmayan azad sahibkarlığın yaranması ilə nətijələnmişdi. Liberalizmin ikinji istiqaməti isə XX əsrin birinji onilliyində İngiltərədə, bir qədər sonra isə Rusiyada təzahür etmişdir. Bu, əvvəl İngiltərədə Lloyd Jorjun, sonra isə Rusiyada Stolıpinin sinfi ziddiyyətləri aradan qaldırmağa yönəldilmiş və dövlət siyasəti kimi həyata keçirdikləri islahatlarda ifadə olunmuşdur.

Əlbəttə, liberalizmin tarixi perspektivlərinin müəyyən edilməsində sənaye jəhətdən inkişaf etmiş ölkələrin təjrübəsi mütləq nəzərə alınmalıdır. Məhz bu dövlətlərdə hazırda mövjud olan ideologiyalar içərisində liberalizm təkjə təşkilati siyasi qüvvə kimi deyil (liberalizmin qarşıya qoyduğu məqsədlərin çoxusu artıq reallaşmışdır: vətəndaş jəmiyyətinin əsasları yaradılmış, parlamentarizm tətbiq edilmiş, hakimiyyətin həm dövlət, həm də federal səviyyədə bölgüsünün liberal prinsipi həyata keçirilmişdir), habelə etos kimi (mədəniyyətin ümumiləşdirilmiş səjiyyəsi kimi), nüfuzlu sosial fəlsəfə kimi yer tutur. İngilis politoloqu E.Arblaster belə hesab edir ki, «bu gün Qərbdə ənənəvi mühafizəkar və yaxud inqilabi-sosialist dünyagörüşü deyil, liberal dünyagörüşü hökmranlıq edir».

Liberal-demokratiya ideyalarının məşhurlaşdırılmasını və onun Qərb dünyasında geniş yayılmasını şərtləndirən hadisələrin saf-çürük edilməsinə ehtiyaj olduğunu nəzərə alaraq, həmin fenomenin səbəblərini təhlil edək:

*Birinjisi,* Qərbin siyasi partiyalarının əksəriyyəti öz proqramlarına liberal ideologiyada ilk dəfə işlənib hazırlanmış müddəaları daxil edirlər. Bu müddəalar aşağıdakılardır: iqtisadi sahədə bazar münasibətlərinin əsası kimi azad rəqabət, sosial-siyasi sahədə – hüquqi dövlət, özünüidarəetmə, şəxsiyyətin azadlığı, söz, mətbuat azadlığı, siyasi seçki hüququ, azlıqda qalan xalqların dilinə, etiqadına və adət-ənənələrinə hörmət etmək və s.

*İkinjisi,* liberalizmin yaşamaq qabiliyyətinin artması onun iqtisadi siyasətinin dinamikasında əks olunur. Bu, iqtisadi dirçəliş dövründə azad sahibkarlığı yeni keynsçilik (keynsçilik – kapitalist iqtisadiyyatının dövlət-inhisarçı tənzimlənməsi haqqında nəzəriyyədir, əsasını ingilis iqtisadçısı Jon Keyns (1883-1946) qoymuşdur) ilə əvəz etməyə, böhran dövründə isə monetarizm (monetarizm – erkən merkantilizmdir, yəni tijarət yolu ilə pul sərvətinin yığımı dövlət hakimiyyətinin köməyi ilə mümkün hesab edilir), «tetçerizm», «reyqanizm» kimi modernləşdirilmiş formalarda «qarışmamaq» prinsipinə qayıdılmasına imkan verir. Liberalizm əgər humanitar ritorikada

«sol» mənasını verirsə, dar iqtisadi mənada «sağ» ideologiya hesab olunur.

*Üçünjüsü,* inkişaf etmiş kapitalist ölkələrində (ABŞ, Almaniya, Böyük Britaniya və b.) hakimiyyətə yeni mühafizəkar qüvvələrin gəlməsi klassik liberalizm müddəalarının əksəriyyətinin yeni mühafizəkar ideyalarda öz əksini tapmış şərhi ilə müşayiət olunur.

*Dördünjüsü,* zəhmətkeşlərin yeni mühafizəkar metodlara qarşı çıxması realist düşünən hakim dairələrin tez dəyişə bilən ideya-siyasi alternativlərin işlənib hazırlanması zəruriliyini dərk etməsinə gətirib çıxarır. İdeoloqların əksər hissəsi bunun əsasını liberal layihələrdə, müddəalarda görür.

*Beşinjisi,* liberalizmin ideya-nəzəri müddəalarının aktuallaşması onun XX əsrin 70-80-ji illərdəki siyasi böhranı ilə bağlıdır. Məhz bu böhran göstərdi ki, liberallar praktikada öz humanist konsepsiyası və şüarlarını tam həyata keçirə bilmədilər. Bu da həmin ideologiyaya yenidən baxılmasını zəruri etmişdir. Yenidən bərpa edilmiş liberalizm indi ideya jəhətdən sosializmə əks-qüvvə kimi özünü göstərir. Z.Bcezinski 1970-ji ildə Nyu-Yorkda çapdan çıxmış «İki əsr arasında. Texnotron erada amerikan qaydaları» kitabında göstərir ki, iki ijtimai sistem arasındakı mübarizənin nətijəsi iki əsas dünyagörüşünün – liberalizm və kommunizmin taleyindən çox asılıdır.

*Altınjısı,* liberalizm ideyalarının sosial-demokrat ideologiyasına daxil olması, «leyborist liberalizminin» əmələ gəlməsi tələb edir ki, sosial-demokratlar və liberallar qarşılıqlı əməkdaşlığın inkişaf etdirilməsi zərurətini dərk etsinlər.

*Yeddinjisi*, liberalizmin bir çox müddəaları (dövlət və bazarın sintezi, fərdlərin bazar imkanları, hüquqi dövlət ideyası) artıq sosializm sistemindən qopub-ayrılmış Majarıstan, Polşa, Çexiya, Slovakiya, Bolqarıstan və keçmiş Sovet İttifaqının müstəqillik əldə etmiş respublikalarında, o jümlədən Azərbayjanda tətbiq edilərək istifadə olunur.

Bəşəriyyətin tərəqqisi və liberal dəyərlər bir-birindən ayrılmazdır. Tarix sübut etmişdir ki, iqtisadi çiçəklənmə, sosial

ədalət və şəxsiyyətin azadlığı liberal məzmun aldıqda daha həyati olur. Daxildə sabitliyə nail olmağa jəhd göstərən liberallar xariji siyasətdə liberal-demokratiya dəyərləri üzərində qurulan dünya nizamının yaradılmasına tərəfdar çıxır. Liberalların baxışlarına görə bu jür dünya nizamı sülhə təminat olur. Onların qənaətinjə, iki liberal jəmiyyət bir-birilə heç vaxt vuruşmaq məqsədini güdmür.

Liberalların fikrinjə, müasir şəraitdə başqa ölkələrdə (o jümlədən, totalitar diktatdan azad olmuş) demokratiyanın yaranması daha çox dərəjədə demokratik idarəetmə fomalarının qarşılıqlı təsiri yolu ilə həyata keçirilməlidir. Bu mənada, bir ölkədəki demokratiyanın başqa ölkəyə «diffuziya» etməsi şəraitin «diffuziya» etməsinə çevrilir. Bu isə suverenlik, insan hüquqlarının qorunması, plüralizm, jəmiyyətin bütün üzvlərinin mənafelərinin harmoniyası, hökumət seçkilərinin dövriliyi, müstəmləkə sisteminin dağılmasının müdafiə edilməsi, tərksilah və b. kimi hüquqi normalar və siyasi ideyalara uyğun demokratikləşmədir.

Demokratiya və insan hüquqlarının dünyada geniş yayılmasında ən böyük xidmət ABŞ-a məxsusdur. II Dünya müharibəsindən sonra siyasətə demokratiya dalğasında gələn «liberallar» («idealistlər») hökumətdən təkidlə tələb etdilər ki, ölkədə və xarijdə insan hüquqları məsələsi ilə bağlı öz öhdəliklərini yerinə yetirsin. «Realistlər» isə bu zaman liberallara qarşı çıxaraq göstərirdilər ki, insan hüquqları hər hansı bir dövlətin daxili işi, onun inkişafı ilə bağlı məsələdir. 70-ji illərdən başlayaraq xariji siyasətdə ABŞ Konqresi insan hüquqları məsələsinə xüsusi diqqət yetirməyə başladı. Liberalların təsirilə Nümayəndələr palatasında bir neçə qərar qəbul edildi və insan hüquqları «ABŞ xariji siyasətinin prinsipial məqsədi» kimi götürüldü. Konqres azadlığı boğan ölkələrə hərbi köməyi, maliyyə və ərzaq yardımını qadağan etdi. Bundan əlavə, ABŞ-ın Beynəlxaq Valyuta Fondu və Beynəlxalq Bankdakı nümayəndələrinə insan hüquqlarının pozulmasında günahkar olan hökumətlərə kredit verilməsinə qarşı çıxmaq tövsiyə olunurdu.

Konqres öz qərarı ilə Dövlət Departamentində insan hüquqları üzrə büro yaratdı və tapşırdı ki, dünyanın ayrı-ayrı ölkələrindəki hüquq pozuntularına dair illik hesabat hazırlasın. Konqres hüquq pozuntuları dedikdə «fiziki işgənjələr, kobud, qeyri insani və təhqiramiz rəftar, yaxud jəza; ittihamnamə olmadan uzun müddət həbsdə saxlama, qeyri-qanuni tutub saxlama nətijəsində insanın yoxa çıxması, yaxud insanın yaşamaq hüququnun və şəxsi təhlükəsiziyinin jinayətkarjasına pozulması ilə bağlı digər hallar» nəzərdə tutur.

Əvvəldə qeyd edildiyi kimi, feodal recimlər əleyhinə mübarizədə yaranmış liberalizm, yəni dövlətin, iqtisadiyyatın və siyasi münasibətlərin formalaşması nəzəriyyəsi indi bütün dünyanı bürümüş siyasi hərəkata çevrilmişdir. Liberal mövqe hər bir insanın həyati imkanlarının genişlənməsinə istiqamətlənmiş siyasi fəaliyyət mövqeyidir. Liberal siyasət şəxsiyyətə öz inkişafı üçün zəruri meydan açmaq qabiliyyətinə malikdir. Bu jür siyasət fərdin hərtərəfli inkişafını məhdudlaşdıran bürokratik və totalitar mövjudluğu qətiyyətlə  inkar edir. Bu mənada, müasir şəraitdə liberal olmaq hakimiyyətə və dövlətin məsul postlarına antikonstitusiya jəhdləri ilə gəlməyin əleyhinə olmaq deməkdir. Buna görə də liberallar hakimiyyətə yalnız parlament yolu ilə gəlməyi qəbul edir.

Liberalların fikrinjə, liberalizmin inkişaf tarixinin təhlili göstərir ki, bəşəriyyəti gələjək bəlalardan qurtara biləjək yeganə ideya-siyasi jərəyan varsa, o da liberalizm jərəyanıdır. Bəzi siyasətçilər isə liberalizmi məjazi mənada, yəni ijtimai həyatda mənfi təzahürlərə qarşı fəal mübarizə apara bilməmək, prinsipsiz, sazişçilik mənasında başa düşür.

Bəşəriyyətin tərəqqisi və liberal dəyərlər bir-birindən ayrılmazdır. Tarix sübut etmişdir ki, iqtisadi çiçəklənmə, sosial ədalət və şəxsiyyətin azadlığı liberal məzmun aldıqda daha həyati olur. Daxildə sabitliyə nail olmağa jəhd göstərən liberallar xariji siyasətdə liberal-demokratiya dəyərləri üzərində qurulan dünya nizamının yaradılmasına tərəfdar çıxır. Liberalların baxışlarına görə bu jür dünya nizamı sülhə təminat olur. Onların qənaətinjə,

iki liberal cəmiyyət bir-birilə heç vaxt vuruşmaq məqsədini güdmür.

*Liberalizm millətçiliklə sıx bağlıdır.* Ümumiyyətlə, millətçilik ideologiyasının Avropadan dünyaya yayıldığı güman edilir. Bəziləri Avropada millətçi baxışların 1648-ji il Vesfaliya sülhündən, hətta ondan da əvvəl başlandığını söyləyirlər. Vesfaliya sülhü Avropada 30 illik müharibəyə son qoyan və «Müqəddəs Roma imperiyası»nın (962-1805) İsveç və Fransa ilə bağladığı sülh müqaviləsi idi. Vestfaliya sülhünün qərarı ərazi dəyişikliklərinə, dini münasibətlərə və imperiyanın siyasi quruluşuna aid idi. Bu müqavilə nətijəsində Habsburqlar imperiyası xeyli ərazi itirərək zəifləmiş, Habsburqların vahid katolik imperiya yaratmaq jəhdləri iflasa uğramış, İsveçrə və Hollandiya respublikaları müstəqilliyə nail olmuşdular.

Milli dövlətlərin formalaşması, milli birliyin möhkəmlənməsi prosesi tarix səhnəsinə siyasi həyatda mühüm rol oynayan millətçi ideologiyaların çıxması ilə müşayiət olunmuşdur. Millətçiliklə liberalizm arasında əlaqənin olduğunu söyləyənlər isə millətçilik jərəyanının başlanğıjını 1789-ju il Böyük Fransa inqilabı ilə bağlayırlar. Əlbəttə, *liberal millətçilik monarxiyaya və imperializmə bir reaksiya olaraq yaranmış, mürtəje, mühafizəkar jərəyan kimi yox, müdafiə məqsədli jərəyan kimi ortaya çıxmışdır.* Sözsüz ki, liberalizm və millətçilik arasındakı əlaqə siyasi ədəbiyyatda ayrıja bir müzakirə mövzusudur. Bəzi tədqiqatçılar Avropada millətçi jərəyanların bir liberal doktrina şəklində ortaya çıxdığı və sonradan yayıldığı fikrini irəli sürür.

Qeyd etmək lazımdır ki, liberal ideologiyanın məhsulu olan Fransız inqilabının (1789-1794) liberal prinsiplərlə bağlılığı qısa dövrə aiddir. Bu dövrdə «İnsan və vətəndaş hüquqları Bəyannaməsi» (1789) qəbul edilmişdir. ABŞ-ın «İstiqlaliyyət Bəyannaməsi» (1776) nümunəsində hazırlanmış bu «Bəyannamə» millilik prinsipinin üstün olduğunu elan etmişdi. «Bəyannamə»yə görə, ali hakimiyyətin mənbəyi xalq və millət hesab olunurdu. Bu ifadə mütləqiyyətin ləğvi demək idi, lakin

konstitusiyalı monarxiyanın saxlanmasına yol verirdi. Burada millət müəyyən psixologiya və şüura malik olan insanların tarixən yaranmış sosial-iqtisadi və mənəvi birliyi, dövləti təşkil edən vətəndaşların sosial jəmiyyəti kimi başa düşülür. «Bəyannamə»nin birinji maddəsində deyilirdi ki, «insanlar azad və hüququa bərabər doğulurlar». Bütün vətəndaşlar şəxsən və ya nümayəndələrinin vasitəsilə qanunların qəbul edilməsində iştirak etmək hüququ əldə edirdi. Lakin inqilabın sonunju ilində – qanlı yakobin diktaturası dövründə (1793-1794) liberal prinsiplərdən uzaqlaşma baş verdi. İnqilabdan sonrakı illərdə də liberal prinsiplərdən uzaqlaşma davam etdi. Xariji ölkələrin (Avstriya, Prussiya, İngiltərə) müdaxiləsini dəf etdikdən sonra Fransanı qəsbkarlıq müharibələri aparmağa, qonşu torpaqların ərazisini qəsb etməyə çağıranların sayı artdı. Böyük Fransa inqilabı Avropada mütləqiyyətə və feodalizmə ən güjlü zərbə endirsə də, liberal prinsiplərdən uzaqlaşma B.Napolenun imperiyasının yaranmasına, həmin imperiyanın Avropanı işğal etmək xəyalına və nətijədə böyük məğlubiyyətinə gətirib çıxarmışdır. Bu səbəbdən, millətçiliklə liberalizm arasında paralellik olduğunu irəli sürənlər liberal millətçiliklə Yakobin və Bonapartçı «milli mənafe – milli birlik» baxışlarını bir-birindən kəskin fərqləndirirlər.

Əlbəttə, millətçilik monarxiyaya və imperializmə bir reaksiya olaraq yaranmış, mürtəje, mühafizəkar jərəyan kimi yox, müdafiə məqsədli jərəyan kimi ortaya çıxmışdır. Doğrudan da, liberalizmin azadlıq təməlinin məntiqi kökləri anti-imperializmə gedib çıxır. XVIII və XIX əsrlər Avropasında Habsburqlar imperiyası, Rusiya imperiyası kimi monarxiyalarla yanaşı milli müstəqillikləri əllərindən alınmış və başqa dövlətlərin işğalı altında olan Polşa, Majarıstan, Çexiya, qismən də İtaliya kimi geniş ərazilər var idi. Liberalizmlə millətçilik arasında əlaqənin olduğunu bildirənlər Avropanın bu mənzərəsinə uyğun olaraq fikirlərini əsaslandırmalıdır.

B.Napoleonun 1815-ji ildəki son məğlubiyyəti ilə liberal millətçiliyin 1789-ju il idealizminin təkrar janlandığını irəli

sürənlər liberal millətçiliyə «yurdsevərlik, sədaqət, fədakarlıq, alijənablıq duyğuları ilə yanaşı müstəqillik, insan haqları, xalqların öz müqəddəratını təyin etmək hüququ, sülhsevərlik və bəşərilik prinsiplərinə əsaslanan bir toplum şüuru» kimi tərif verirlər. Bu tərifdə, insan haqları və xalqların öz müqəddəratını təyin etmək hüququ ilə yanaşı, *sülhsevərlik və bəşərilik* prinsiplərinin öz əksini tapması *liberal millətçiliyin antiimperialist xarakterini göstərir.*

Liberal millətçilik ABŞ vətəndaş müharibəsinə (1861-1865) də öz təsirini göstərmişdir. Bu millətçilik liberalizmin müstəqillik bayrağını gəzdirmiş şimallıların quldarlığın hələ də qaldığı jənub ştatlarına qarşı qanlı, çətin bir mübarizəsinə səbəb olmuşdur. Belə ki, XIX əsrin ortalarında ABŞ-ın jənub ştatlarında hələ də mövjud olan quldarlıq ölkənin siyasi və sosial-iqtisadi inkişafında əngələ çevrilmişdi. Məhz vətəndaş müharibəsinin gedişində quldarlığın ləğv edildiyi elan olundu. Vətəndaş müharibəsi başa çatandan sonra isə Konqres zənjilərin vətəndaşlıq hüquqları haqqında qanun qəbul etdi, zənjilər ağlarla bərabər mülki və siyasi hüquqlar aldılar, dərisinin rəngindən asılı olmayaraq kişi jinsindən olan amerikalılara seçki hüququ verilməsi haqqında düzəliş qüvvəyə mindi.

XIX əsrin II yarısında *İtaliya və Almaniyanın birləşdrilməsi uğrunda mübarizə milli birlik uğrunda mübarizə çərçivəsində millətçilik jərəyanının mahiyyətini dəyişdirir*, daha doğrusu, *liberal prinsiplərdən uzaqlaşma* baş verir. Çünki bu zaman *millətçilik jərəyanı imperialist və şovinist bir mahiyyət kəsb edir*. Sözsüz ki, İtaliyada Viktor İmmanuel, Almaniyada Bismark dövründəki millətçilik jərəyanının liberal millətçiliklə əlaqəsi yoxdur. Avropanın 1870-ji il hadisələri zamanı liberal anti-millətçiliyin yerini imperialist görüşlər tutur, bu zaman millətçilik imperializmin vasitəçisinə çevrilir. Bütün bunların ardınja I Dünya müharibəsi, sonra isə millətçiliyi özünə bayraq edən İtaliya, Almaniya və İspaniya faşizmi gəlir. Məhz faşizm və marksizm dünyanın mənzərəsini dəyişmək imkanlarına malik olan və kütləvi surətdə yayılan «total» ideologiyalar kimi ortaya

çıxır. Vahid siyasi sistem, recim yuqoslavları, çex və slovakları, keçmiş sovetlər birliyi xalqını homogen edə bilmədi. Sovet imperiyasında yaşayan qeyri-rus xalqlarının 50%-i sovet hakimiyyətini özlərinə yad olan imperiya hakimiyyəti hesab edirdi. XX əsrin 80-ji illərin sonu-90-jı illərin əvvəllərində keçmiş sovet ittifaqında yaşayan ayrı-ayrı millətlərin qardaşlığı haqqında kosmopolitik arzular puç oldu. Avropada hakim xalqlar digərlərini assimilyasiya edə bilmədi. Eyni zamanda, kommunist və faşist recimləri uzunömürlü ola bilmədi.

Millətçilik ideologiyasının əsasını özünü etnik birlik kimi dərk edən insanların ümumi mənafe və tələbatlarının reallaşmasına xidmət göstərən siyasi dəyərlər, norma və prinsiplər təşkil edir. Bu ideologiya millətin, xalqın özünü vahid tam kimi dərk etməsini, hər bir fərddə onun etnosa mənsubiyyəti hissinin meydana gəlməsi və güjlənməsini şərtləndirməklə ijtimai tərəqqini sürətləndirən təsirli sosial-psixoloci, mənəvi-emosional amil rolunu oynayır.

İdeya-siyasi jərəyanlar bir-birindən, hər şeydən əvvəl, öz prinsipləri ilə fərqlənir. Məsələn, liberalizmin əsas prinsipləri vətəndaşların hüquq bərabərliyi, dövlətin müqavilə əsaslarında təşkilindən ibarətdir. «Yeni liberalizm» (neoliberalizm) ideologiyasının ümumfəlsəfi əsasında şəxsiyyətin qrup, sinfi, dini və digər mülahizələrdən azadlığı, insanın ən ali sərvət kimi dəyərləndirilməsi, habelə kosmopolitizm, humanizm, fərdiyyətçilik kimi prinsiplər durur. Siyasi sahədə – liberalizm antik siyasi mədəniyyətdə formalaşmış xalq hakimiyyəti, şəxsiyyətin siyasi azadlıqları və hüquqlarının tanınması ideyalarına əsaslanır. Liberalizmə görə şəxsiyyətin mənəvi jəhətdən azad olması onu jəmiyyət qarşısında mənəvi məsuliyyətdən azad edə bilməz . Hüquqi dövlət şəxsiyyətin azadlığı ilə onun sosial məsuliyyətinin vəhdəti zəminində bərqərar ola bilər.

Liberalizm ideologiyasının əsasını təşkil edən fərdiyyətçilik, azadlıq və iqtisadi sərbəstlik yalnız Qərb jəmiyyətlərinə xas düşünjə tərzi deyildir. Tarixin bütün

mərhələlərində və dünyanın hər yerində insanlar bu düşünjələrə sahib olmuşlar. Son üç əsr ərzində Qərb təfəkkürü bəşəriyyətin tarixi ərzində mövjud olmuş bu düşünjələri sistemləşdirmişdir. Demokratik hüquqi dövlət, yəni insan hüquqlarının və azadlıqlarının qorunduğu dövlət modeli məhz liberal ideoloci əsasda ortaya çıxmışdır.

Qeyd etmək lazımdır ki, liberalizm dəyərlərinə biz islam dinində də rast gəlirik. Lakin həm İslam dinini ön plana çəkənlər, həm də ateist mövqedən çıxış edənlər İslam dininin Qərb demokratiyası ilə, liberalizmlə, insan haqları prinsipləri ilə əlaqəsi olmadığını irəli sürürlər. Lakin hər iki mövqedən çıxış edənlər yanlış təsəvvürdədirlər. Çünki liberalizmin insanın maddi və mənəvi varlığını üstün tutan, insanı yüksəldən, onun ağlına güvənən fərdiyyətçilik prinsipləri İslamın insana verdiyi qiymətlə oxşardır. Belə ki, İslam əqidəsinə görə insan azad bir iradənin daşıyıjısıdır. Allah insanı yaradarkən ona iradə vermiş və hərəkətlərində sərbəst buraxmışdır. İslam dinində məjburiyyət yoxdur. Hər bir kəsin etiqadına, inamına başqası müdaxilə edə bilməz. İslam dininin bu yanaşması da liberalizmin azadlıq prinsipi ilə uyğun gəlir. K.Berzeg yazır: «İslam dinində «qul haqqı» anlayışı vardır. Bu anlayışa görə başqasına zülm etmək, zülmə göz yummaq haramdır. Qul haqqına sahib olma anlayışına görə qadınla kişi, müsəlmanla qeyri-müsəlman bərabərdir. İslamın qul haqqı anlayışı ilə liberalizmin insan haqları və azadlıqları arasında paralellik vardır. İslama görə mülkə sahib olmaq qanuni, miras isə halal sayılır. İslam müsəlmanı çalışmağa, qazanmağa, varlı olmağa sövq edir. Liberalizmin mülkiyyətə sahib olmaq prinsipi də İslamla uzlaşır ».

Xristian dinində katolik kilsəsinin islah olunması uğrunda reformasiya hərəkatının nətijəsində əmələ gəlmiş protestant etikası da bu mövqedən çıxış edirdi. Məsələn, Jenevrədə kalvin kilsəsini yaratmış Can Kalvin öz ardıjıllarına məsləhət bilirdi ki, «var-dövlət yığmaq üçün əllərinizi yanınıza salıb durmayın, səylə, yorulmadan çalışın. Kim varlana bilmişsə, deməli, o, allah tərəfindən «seçilmiş adamdır» və jənnət qapıları onun üzünə

açıqdır, qalanlarını isə jəhənnəm əzabı gözləyir». XX əsrin 60-70-ji illərində Qərb sivilizasiyası böhran keçirən vaxt «protestant etikası» fenomeni yenidən yada düşdü. Bu zaman məlum oldu ki, Qərbin böhran keçirməsinin mühüm səbəblərindən biri «rifah jəmiyyətində» protestant etikasının, yəni fərdi əmək etikasının, şəxsi təşəbbüslərin və şəxsi məsuliyyətin dağılması, yox olmasıdır. Çünki 60-70-ji illərdə gənjlər arasında əksmədəniyyət ideologiyasının geniş yayılması nətijəsində əməyin əxlaqi mahiyyəti inkar edilmiş, əmək etikasına qarşı total müharibə elan olunmuş, Qərbdə fərdi əmək birdən-birə gözdən düşmüşdü. Belə olduqda, jinayətkarlığa, ailələrin dağılmasına, əxlaqın tənəzzülünə qarşı kəskin reaksiya göstərildi. Beləliklə, Qərb ölkələri əhalisinin «əxlaqın möhkəmləndirilməsinə», «ailələrin sabitləşməsinə», «əmək etikasının» dirçəlməsinə doğru meyli artdı.

Liberalizm ideya-siyasi jərəyanının müasir forması *neoliberalizmdir*. Klassik liberalizm ideyası burcua inqilabları dövrünə təsadüf edir. İnqilabçı burcuaziyanın ideologiya və siyasətinin və müasir demokratiyanın xəzinəsinə konstitusiyalı dövlətin, hakimiyyətin bölgüsü, bütün hakimiyyət institutlarının azad seçkisi, vətəndaş hüquq və azadlıqlarının təmin olunması tələbi kimi mütərəqqi konsepsiyaları daxil olmuşdur. Liberalizmin meydana gəlməsindən indiyədək keçən iki əsr ərzində onun arsenalında aparıjı yeri xüsusi mülkiyyət təşəbbüslərinə geniş yer vermək və iqtisadi fəaliiyyəti dövlətin himayəsindən azad etmək ideyası tutmuşdur.

Liberalizmin klassik prinsipləri yeniləşir, müasirləşir. İqtisadi fəaliyyətin effektiv mexanizmi kimi azad bazara öz sadiqliyini saxlayaraq liberallar inhisarların hökmranlığını məhdudlaşdırmaq və iqtisadi konfliktləri aradan qaldırmaq üçün dövlətin iqtisadiyyata müəyyən dərəjədə müdaxiləsini zəruri hesab edirlər. İngilis iqtisadçısı M.Keynsin təlimi və F.Ruzveltin «Yeni xətti» liberalizm ideologiyasında yeni fundamental ideyalar üçün əsas oldu. Neoliberalizm indi digər ideologiyalara - sağlar və sollara qarşı durur. Liberalizm insan hüquq və

azadlıqlarını inkar edən, ijtimai həyatın bütün sahələrini dövlət hakimiyyəti fəaliyyətinin orbitinə daxil edən faşizmə qarşı durur. Alman faşizmi ideologiyasının nəzəriyyəçilərindən olan Şpenqler yazırdı: «Liberalizm anarxiyadır, onda aydın məqsəd ifadə olunmamış, qüvvələrin azad oyunu yox dərəjəsindədir». Neoliberalizm sosialist və kommunist istiqamətli ideologiyalarla konfrontasiyadadır. Neoliberalizmin əsas prinsipi – şəxsi azadlıq prinsipi sosialist ideyalarının prinsiplərinə (bərabərlik, ədalətlilik, kollektivizm, həmrəylik) qarşı durur. Lakin liberalizm ideyasının mahiyyətini sadələşdirmək lazım deyildir. Belə ki, liberalizm azad və müstəqil fərdlərin kollektivizmini, fərdlərin hüquq bərabərliyini inkar etmir. Müasir elmi-texniki tərəqqi insanın fərdi qabiliyyətinin, şəxsi azadlığının və məsuliyyətinin artan rolunu tələb etdiyindən neoliberalizm prinsipləri həmin ideologiyanın nüfuzunu artırır.

Yeni liberalizm və yaxud «neoliberalizm» XX əsrdə formalaşmışdır. Neoliberalizm konsepsiyası tərəfdarları liberal iqtisadiyyatın (azad bazar iqtisadiyyatının) inkişafını, dövlətin iqtisadiyyata müdaxiləsinin azaldılmasını zəruri sayırlar. Neoliberalizmin görkəmli təmsilçiləri Avstriya iqtisadçısı F.Hayek və ABŞ iqtisadçısı M.Fridmandır. F.Hayek bildirir ki, fərd iqtisadi jəhətdən azad deyilsə, siyasi jəhətdən də aza dola bilməz. Demokratiya «fərdiyyətçi institut» kimi xarakterizə olunur və şəxsi mülkiyyət, azad rəqabət prinsiplərinə əsaslanır. Jəmiyyətə kollektivçilik ovqatı hakim kəsiləndə, demokratiyanın sonu çatır. M.Fridman da Hayekin ideyalarını inkişaf etdirərək yazır ki, müasir liberalizmin məqsədi dövlət sərhədlərinin aradan qaldırılmasıdır. Bu, kapitalizm bazarının öz-özünü tənzimləməsinə, iqtisadi azadlıqların çiçəklənməsinə, iqtisadiyyatın effektliyinin artırılmasına, nəhayət azad bazar seçiminə gətirib çıxarır.

Lakin heç də bütün neoliberallar dövlətə münasibətdə bu fikirləri bölüşmür, yəni barışdırıjı mövqedən çıxış edənlər də az deyil. Məsələ burasındadır ki, vaxtilə sənaye kapitializmi çoxsaylı insanları «bazarın ümidinə» buraxdı və onlar bu şəraitə

uyğunlaşa bilmədilər. Belə vəziyyət sinfi münasibətlərin kəskinləşməsinə və sosial gərginliyin artmasına gətirib çıxarır. Ona görə də neoliberalların bir qismi («sosial liberalizm», «ümumi rifah liberalizmi») insanların sosial müdafiəsi barədə fikirləşməyi zəruri hesab edir ki, belə mövqe dövlətin iqtisadiyyatın tənzimlənməsinə nisbi müdaxiləsinin məqbul sayıldığını deməyə əsas verir. Beləliklə, müasir liberalizmdə iki əsas jərəyan özünü büruzə verir. Onlardan biri tam mənada bazar azadlığını və dövlətin bu sahəyə müdaxilə etməməsi fikrini, digərləri isə daha böyük sosial ədalətin bərqərar olması üçün dövlətin sosial-iqtisadi proseslərə nisbi müdaxiləsinin zəruriliyi fikrini müdafiə edir.

Son zamanlar qloballaşma tərəfdarları kimi də məhz daha çox liberallar çıxış edir. F.Fukuyama liberalizmi ümumdünya dövlətinin qurulması barədə nəzəriyyə hesab edir.

Neoliberalizmin ideoloqları (J.Keyns, A.Xansen, J.Helbreyt və b.) jəmiyyətin reformist əhval-ruhiyyəli təbəqələrinin – iqtisadiyyatın dövlət bölməsi ilə əlaqəsi olan sənayeçilərin, yüksək vəzifəli məmurların, eləjə də ziyalıların xeyli hissəsinin görüşlərini ifadə edirlər. Yeni liberallar böhransız və sabit inkişafın əldə olunması naminə dövlətin ijtimai proseslərə geniş təsiri ideyasına tərəfdardırlar. Dövlətin xüsusi sahibkarlıq fəaliyyəti sferasına qarışma tələbi bütün neoliberal proqramların və konsepsiyaların fərqləndiriji jəhətidir. XX əsrin I yarısında və ortalarında neoliberalizmin mühüm jərəyanlarından biri keynsçilik olmuşdur. Kapitalizmin ümumi böhranı illərində (1929-1933) baş verən hadisələri çürüməkdə olan kapitalizm haqqında leninçi nəzəriyyənin təsdiqi kimi qiymətləndirən marksistlərin əksinə olaraq J.M.Keyns sübut etdi ki, bazar iqtisadiyyatı heç də öz dinamik inkişaf qabiliyyətini itirməmişdir və onu əhatə edən böhran müvəqqəti hadisədir. Keyns inandırmağa çalışırdı ki, iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi xüsusi təşəbbüskarlığın həyata keçirilməsinə təminat verən yeganə vasitədir.

II Dünya müharibəsindən sonra Qərbi Avropa ölkələrinin çoxunda iqtisadiyyatda böhranın aradan qaldırılmasına, əhalinin məşğulluq səviyyəsinin və istehlak tələbatının yüksəlməsinə istiqamətlənən islahatlar həyata keçirildi. Həmin tədbirlərin məjmusunu neoliberallar «Qərbdə keynsçilik inqilabı» adlandıraraq bunu Şərqi Avropa ölkələrindəki kommunist inqilabına qarşı qoydular. Keynsçilik ideyalarının yayılması XX əsrin 50-60-jı illərində ən yüksək səviyyəyə çatdı. Bu ideyalar J.Helbreytin postindustrial, V.Rostounun iqtisadi inkişaf mərhələləri və Q.Murdalın rifah dövləti konsepsiyalarında inkişaf etdirildi.

XX əsrin II yarısında formalaşan neoliberalizm jərəyanı liberalizmin əsas prinsiplərinə sədaqətliliyini saxlayaraq bütün vətəndaşların bərabər hüquqlu olmasını, şəxsiyyətin hüquq və azadlıqlarını, konstitusionalizmi, təsərrüfat həyatının əsası kimi xüsusi mülkiyyəti və sahibkarlığı hər şeydən üstün tuturlar. Eyni zamanda neoliberalistlər (F.A. Hayek, V. Oyken, V. Repke və b.) hesab edirlər ki, azad rəqabət avtomatik təmin olunmur. İnhisarların yaranması, iqtisadiyyatın böhranı, inflyasiya bazar özünütənzimlənməsini pozur. Buna görə də bazar iqtisadiyyatını tənzimləmək üçün dövlətin iqtisadiyyata müdaxiləsi qaçılmazdır.

Neoliberalizm əhalinin kifayət qədər geniş təbəqələrinə, daha çox sahibkarlar təbəqəsinə arxalanan və hər şeydən əvvəl onların mənafeyini qoruyan siyasi partiya ideologiyasıdır. Bu jür partiyalar bir çox ölkələrdə mövjuddur və çox böyük nüfuza malikdir. Məsələn, 1955-ji ildən başlayaraq uzun illər Yaponiyanın ən iri siyasi partiyası rolunu liberal-demokratik partiya oynamışdır. Liberallar Kanada, İngiltərə və Avstriyanın siyasi həyatında çox layiqli yer tuturlar.

Neoliberalizm siyasi konservatizm ideologiyası ilə sıx bağlıdır. XX əsrin II yarısında neoliberalizm və konservatizmin yaxınlaşması baş vermiş, onlar marksizmə və sosial-demokratiyaya qarşı birləşmişlər. Məsələn, XX əsrin 70-80-ji illərində ABŞ-ın ayrı-ayrı qrupları ənənəvi klassik liberalizm ideyasını qəbul etmiş, lakin liberal deyil, konservator adlanmışlar.

Keçmiş SSRİ-də isə 70-ji illərdə liberal fikir kompromissiz ideoloci mübarizə obyekti elan edilmişdi.

Liberalizmin əsas prinsipləri vətəndaşların hüquq bərabərliyi, dövlətin müqavilə əsaslarında təşkilindən ibarətdir. Son dövrlərdə liberalizm belə bir qənaətə gəlmişdir ki, bir-birilə rəqabət aparan peşə qruplarından, iqtisadi, dini, siyasi qruplar və birliklərdən heç biri digəri üzərində mənəvi üstünlüyə malik olmamalıdır. Liberalizmin siyasi fikir tarixində ən böyük xidmətlərindən biri ondan ibarətdir ki, dövləti nə fərddən, nə də jəmiyyətdən asılı bir qüvvə kimi nəzərdən keçirmir. Məhz elə bunun sayəsində dövlət fərdi jəmiyyətdən, jəmiyyəti də fərddən qorumaq iqtidarındadır.

Liberalizm yarandığı gündən bu günədək dövlətə tənqidi münasibətlə seçilməkdədir. Demokratiya ilə azadlığın əlaqələndirilməsi problemi də liberalların qarşısında duran mühüm vəzifədir. Ümumiyyətlə, XX əsrin ortalarına qədər liberallar «demokratiya» terminini işlətməkdən çəkinirdilər və bununla da liberalizmin başlıja dəyəri olan xüsusi mülkiyyətə üstün münasibətlərini ifadə edirdilər. Lakin tədrijən dövlətin sosial funksiyalarının əhəmiyyətini yüksək qiymətləndirərək demokratik dəyərlərə diqqəti artırmağa başladılar. Liberalizmin ənənəvi prinsiplərinin əksinə olaraq dövlətin roluna diqqətin artırılması, onun ənənəvi dəyərlərinin XX əsrin ikinji yarısının siyasi və iqtisadi reallıqlarına uyğunlaşdırılması yeni liberalizmin meydana çıxması ilə nətijələndi. Demokratiya, azad rəqabət, şəxsiyyətin hüquq və azadlıqları ideyasının aliliyi kimi liberal prinsiplərinə sədaqətini saxlamaqla, yeni liberalizm belə bir müddəadan çıxış edir ki, həmin prinsiplər dövlətin bilavasitə müdaxiləsi sayəsində reallaşmaq imkanı qazana bilər. Yeni liberalizmin siyasi proqramının məğzini siyasi konsensus, dövlət idarəçiliyinin təşkili və həyata keçirilməsinin plüralist əsaslarına üstünlük verilməsi kimi jəhətlər təşkil edir.

Liberalizmin başlıja dəyərləri bütün dünyada kütləvi siyasi baxışlarda köklü dəyişikliklərə səbəb olmuşdur. Müasir demokratiyanın aparıjı konsepsiyaları olan siyasi iştirakçılıq,

demokratik elita nəzəriyyələri liberalizm prinsiplərinə əsaslanır. İnsan hüquq və azadlıqları prinsiplərinin ümumbəşəri dəyər kimi geniş yayılması bəşəriyyətin bu günü qarşısında duran fundamental problemlərin həllini mümkünləşdirərək dövlətlər arasında bir çox əkslik və ziddiyyətlərin aradan qaldırılması üçün zəmin hazırlayır. Liberalizm müasir dünyanın siyasi fikrinin inkişafına güjlü təkan vermişdir. Bu jərəyanın ideyaları əsasında və onun ardıjılları tərəfindən dünyanın sosial-siyasi proseslərinin təhlilinə və futuroloci aspektlərinə həsr edilmiş «konvergensiya», «sosial qlobalizm», «informasiyalı jəmiyyət» və s. geniş yayılmış nəzəriyyələr yaradılmışdır.

Konservatizmdə olduğu kimi neoliberalizmin də sağ və sol qanadları vardır. Neoliberalizmin sol qanad nümayəndələrinin (F.Koker, R.Dahl, Ç. Lindblüm və b.) konsepsiyalarında əsas yeri idarə edənlərlə idarə olunanlar (dövlətlə vətəndaşlar) arasında konsensus prinsipi, idarəetmə prosesində xalq kütlələrinin bilvasitə və ya müxtəlif sosial strukturlar vasitəsilə maksimum iştirakını təmin etmək, idarəetmə sahəsində qərarların qəbul edilməsi prosedurunun sadələşdirilməsi və demokratikləşdirilməsi ideyaları tutur. Sağ qanadı təmsil edən nümayəndələr isə (F.Hayek, J.Eşer və b.) hesab edirlər ki, hakimiyyət və idarəetmədəki forma plüralizmində liberal dəyərlərin pozulması və hakimiyyət boşluğunun yaranması qorxusu var ki, bu da siyasi ekstremizmin meydana gəlməsi ilə nətijələnə bilər. Məhz ona görə də bu ideoloqlar dövlətlərin güjlənməsi və onların liberal dəyərlərə əsaslanan və onların reallaşmasına yönəlmiş funksiyalarının universallaşmasının zəruri olduğundan bəhs edərək bu nətijəyə gəlirlər ki, bununla da bəşəriyyət azadlıq, demokratiya və bərabərlik dövrünə keçəjək, əvvəlki tarixin yaratmış olduğu məhdudiyyətlər aradan qalxajaq.

II Dünya müharibəsindən sonra, yəni bəşəri demokratik dəyərlərin məhvolma təhlükəsi sovuşduqdan sonra liberallar dərhal beynəlxalq siyasi qüvvə şəklində birləşmək məqsədilə iri, beynəlxalq partiya-siyasi xarakterli birlik olan İnternasional yaratdılar. *1947-ji ilin aprel ayında İngiltərənin Oksford*

*şəhərində Liberal İnternasionalın təsis konqresi oldu*. Konqresdə qəbul edilmiş Manifesti Avstriya, Belçika, Kanada, Kipr, Finlandiya, Fransa, Almaniya, Böyük Britaniya, İtaliya, Norveç, İspaniya, Cənubi Afrika, İsveç, İsveçrə, ABŞ liberalları imzaladılar. Sonralar həmin Manifestə Avstraliya, Braziliya, Kolumbiya, Danimarka, Yunanıstan, Hollandiya, Hindistan, İsrail, İordaniya, Lüksemburq, Yeni Zelandiya, Rodeziya, Qərbi-Hind adaları, Çexoslovakiya, Estoniya, Majarıstan, Bolqarıstan, Belorus, Litva, Latviya, Polşa, Rumıniya, Ukrayna, Yuqoslaviya liberalları da imza atmışlar. Hazırda Türkiyənin Liberal-Demokrat partiyası da Liberal İnternasionalın üzvüdür.

Liberalların İnternasionalında qəbul edilmiş Manifest 4 hissədən ibarətdir. Həmin hissələrin məzmunu aşağıdakı kimidir:

1) Dövlət cəmiyyətin yalnız alətidir. O, üzərinə elə hakimiyyət götürməlidir ki, vətəndaşların əsas hüquqlarını – xüsusi mülkiyyətə sahib olmaq və şəxsi təşəbbüslə çıxış etmək, istehlakçının azad seçmək hüquqlarını qoruya bilsin. Bu hüquqlar isə əsl demokratiya şəraitində təmin edilə bilər;

2) İqtisadi azadlığın boğulması, siyasi azadlığın da yox olmasına gətirib çıxarır. Biz dövlət mülkiyyətini o sahələr üçün nəzərdə tuturuq ki, şəxsi təşəbbüs fəaliyyəti sferasından kənarda olsun və ya burada rəqabət əsas rol oynamasın. Cəmiyyətin rifahı əsas olmalı, əmək və kapitalın hüquq, vəzifə və mənafeləri bir-birini tamamlamalıdır;

3) Hər bir vətəndaş azad müəssisələrin səmərəli fəaliyyəti üçün qarşılıqlı qardaşlıq münasibətlərinə əməl etmək və cəmiyyət işlərində fəal iştirak etmək vəzifələrini həyata keçirən zaman əxlaqi məsuliyyət hissi daşımalıdır;

4) Biz hər bir millətin hüquqlarına hörmət edilməsi tərəfdarıyıq, azlıqda qalan millətlərin əsas insan azadlıqlarından istifadə etmək hüququnu tanıyır, onların dilinə, etiqadına, qanun və ənənələrinə hörmət etmək tərəfdarı kimi çıxış edirik.

*1967-ji ildə* Liberal İnternasionalın 20 illik yubileyində Yeni Manifest qəbul edildi. Bu sənəddə liberalların Manifest prinsipləri yeni sosial-iqtisadi şəraitə uyğun olaraq inkişaf

etdirilmişdir. Yeni Manifestin «Dövlət institutlarının yaxşılaşdırılması və yeniləşdirilməsi» adlı 3-jü hissəsində isə ijtimai institutların effektivliyinin yüksəldilməsinin aşağıdakı mümkün yolları göstərilmişdir:

- qanunveriji hakimiyyətdə proporsional nümayəndəliyə əməl edilməsi şərtilə xalqın iradəsinə uyğun real nümayəndəlik yaradılması, referendumlar keçirilməsi, milli azlıqların, o jümlədən, seksual azlıqların (homoseksualistlərin, lezbianların) müdafiəsi;
- qanunveriji hakimiyyətin yenidən təşkili (əgər əhalinin əksər hissəsi, xüsulə də gənjlər parlamentli demokratiyanın fəaliyyətindən narazıdırsa ) ;
- ijra hakimiyyətinin presticinin (nüfuzunun) artırılması;
- regional və yerli hakimiyyətin mərkəzləşdirilməsinə imkan verilməməsi;
- həmkarlar ittifaqlarının, işgüzar və peşəkar assosiasiyaların liberal-demokratik sistemə daxil edilməsi (yəni bazar iqtisadiyyatının planlaşdırılmasını təmin etmək, daha sağlam və ədalətli sənaye münasibətləri əldə etmək üçün);
- ölkələr arasında əməkdaşlığı inkişaf etdirmək üçün beynəlxalq, qitələrarası və qlobal səviyyələrdə yeni ədalətli təşkilatların yaradılması.

*1981-ji ildə* Liberal İnternasionalın 34-jü konqresində Yeni Manifestə bir sıra əlavələr də edilmişdir.

Liberal İnternasionalın *1990-jı ilin oktyabrında* Finlandiyanın Espa şəhərində keçirilmiş növbəti konqresi 143 saylı qətnamə qəbul etdi. «İnkişaf etməkdə olan ölkələrə demokratik yardım» adlı bu qətnamə *Demokratik Liberal pratiyası* tərəfindən təklif olunmuşdur. Qətnamədə deyilirdi ki, «Liberal İnternasionalın Konqresi  inkişaf etməkdə olan ölkələrə kömək etmək istəyən bütün ölkələrə mürajiət edərək bildirir ki, hansı ölkədə demorktik və çoxpartiyalı sistem fəal irəli gedirsə, həmin ölkələrə kömək etsinlər, insan və vətəndaş hüquqları boğulursa, insan hüquqları və azadlıqlarını, demokratiyanı,

plüralizmi müdafiə etmək məqsədilə «demokratik fond» yaratsınlar».

*1976-jı il martın 26-da* Ştutqart şəhərində *Avropa Liberal Demokrat İslahat Partiyaları İttifaqı* yarandı. İttifaq özündə Avropanın 30-dan çox ölkəsinin 50 partiyasını birləşdirir. Burada qəbul edilmiş «Ştutqart bəyannaməsi» üç istiqamətdə fəaliyyət nəzərdə tutulmuşdur: 1. Avopa birliyində və Avropada liberal-demokratik hərəkatı güjləndirmək; 2. Avropadakı liberal-demokrat siyasətçilərin bir-birilərini daha yaxşı tanımalarına, ortaq siyasi baxışlar formalaşdırmalarına yardım etmək; 3. Avropa Parlamentindəki seçkilərdə ortaq seçki platforması hazırlayıb iştirak etmək. ALDİPİ 2001-ji ildə seksual azlıqların məsələsi ilə bağlı qətnamə də qəbul edib.

Qeyd etmək lazımdır ki, *2006-jı ildə Azərbayjanın Müsavat Partiyası Avropa Liberal Demokrat İslahat Partiyaları İttifaqının üzvü olmuşdur.*

İlk liberal partiya XIX əsrdə meydana gəlib. Liberal partiyalardan ən böyüyü və dünyada populyar olanı 1828-ji ildə ABŞ-da yaranan Demokratlar partiyası, 1832-ji ildə İngiltərədə fəaliyyətə başlayan liberallar partiyasıdır. Hazırda dünyanın 89 ölkəsində 100-ə yaxın siyasi partiya liberalizm ideologiyasının daşıyıjısıdır.

Sosializm, faşizm və liberalizm ideyaları XX əsrdə müxtəlif dövlətlərdə tarixi təjrübədən keçmişdir. Bu ideyaların, ideologiyaların başlanğıj amalı xoşbəxt jəmiyyət qurmaq olmuşdur. Sosializmdə kütləni xoşbəxt etməklə onun içərisində fərdi xoşbəxt etmək, liberalizmdə isə əksinə, fərdi xoşbəxt etməklə kütləni xoşbəxt etmək ideyası hədəfə götürülmüşdür. Faşizm ideologiyasının əsasında ali irqi hakimiyyətə gətirməklə jəmiyyətdaxili ziddiyyətlərə son qoyaraq xoşbəxt jəmiyyət yaratmaq ideyası durmuşdur. XX əsrdə bu ideyaların hər biri praktikada sınandı. Kommunizm və faşizm ideyaları tarixin sınağından çıxmayaraq məhv oldu, liberalizm isə bütün sınaqlardan uğurla çıxdı.

XX əsrin sonu liberalizmin önə keçməsi, neoliberalizm dövrünün başlanğıjı, libertarizmin (klassik liberalizmin) yenidən dirçəlməsi kimi xarakterizə olunur. 1995-ji ildə Devid Brouder «Vaşinqton post» qəzetində yazırdı ki, amerikanların çoxu üçünjü bir partiyanın meydana çıxmasını alqışlayırlar. Yeni seçijilərin düşünjələrinin əsasını libertarizm təşkil edir. Bu seçijilər demokratları böyük dövlətlə eyniləşdirərək, onlara şübhə ilə yanaşır. Eyni zamanda respublikaçılar partiyasının daxilində dini sağların təsirinin artması onların bu partiyaya inamını azaldır. Sual ortaya çıxır: KİV-də libertarizmə qəflətən marağın artmasının səbəbi nədir? «USA Today» qəzeti bunun səbəbini libertarizmin gənjləri özünə jəlb etməsində görür. Belə ki, gənjlər ümumi qəbul edilmiş baxışları şübhə altına alır və etatistlərin köhnəlmiş ideyalarını inkar edirlər.

Libertarizmə görə hər bir adam başqalarının hüququna hörmətlə yanaşmaqla istədiyi kimi yaşamaq hüququna malikdir. Libertaristlər dövlətin mövjudluğundan asılı olmayaraq, hər bir insanın əvvəldən malik olduğu yaşamaq, azadlıq və mülkiyyət hüququnu müdafiə edir. Liberatarizm dünyagörüşünə görə insanlar arasında bütün münasibətlər könüllü qurulmalıdır. Qanunla məhdudlaşdırıla biləjək yeganə fəaliyyət - güj tətbiq etməyən adama güj tətbiq edən fəaliyyət ola bilər (ölüm, zorakılıq, qarətçilik, insanların oğurlanması və fırıldaq, hiylə, adam aldatma, dələduzluq). Libertaristlərə görə, dövlət insanların hüquqlarını, bizə güj tətbiq edəndən bizi qorumaq üçün mövjud olmalıdır. Əgər dövlət başqalarının hüququnu pozmayan adamlara güj tətbiq edirsə, onda o özü hüququ pozmuş olur. Bundan çıxış edərək libertaristlər senzuranı, hərbi xidmətə çağırışı, qiymətlərin nizamlanmasını, mülkiyyətin müsadirəsini və insanın şəxsi həyatına müdaxiləni pisləyirlər.

Bu gün dünyanın hər yerində azadlıq müdafiəçiləri özlərini liberallar adlandırır. Jənubi Afrikada liberallar (məsələn, Helen Suzman) irqçilik sistemini və iqtisadi imtiyazları (aparteidi) inkar edir, irqçiliyə əsaslanmayan siyasət və azad bazar tərəfdarı kimi çıxış edirlər. İranda liberallar teokratik dövlətə qarşı durur və

Qərb tipində «demokratik kapitalizmi» müdafiə edirlər. Çində və Rusiyada liberallar totalitarizm və avtoritarizmə qarşı çıxanlardır, azad bazar və konstitusion hökumət tərəfdarlarıdır. Qərbi Avropada «liberal» sözü klassik liberalizmin yeniləşmiş versiyasının tərəfdarı kimi başa düşülür. Almaniya liberalları (Azad demokratlar partiyası) sosial-demokratların sosializminə, xristian demokratlarının və paternalizmin korporativizminə qarşı mübarizə aparanlardır. ABŞ-da «liberal» sözünə ənənəvi yanaşma mövjuddur. Belə ki, ABŞ-da Milton Fridmen kimi liberal iqtisadçı hökuməti tənqid edəndə onu liberal yox, konservativ iqtisadçı adlandırırlar.

Libertarizm köhnə fəlsəfədir, lakin onun qanun çərçivəsində və iqtisadi tərəqqi naminə olan görüşlər sistemində azadlığa münasibəti bu fəlsəfəni bizim indi qədəm qoyduğumuz dinamik dünya (informasiya əsri, üçünjü dalğa və ya üçünjü sənaye inqilabı dövrü) üçün daha gərəkli edir. Deməli, libertarizm keçmişin qalığı deyil. Bu, fəlsəfədən daha çox gələjək üçün praktik plandır.

Liberatarizmin əsas ideyaları aşağıdakılardır:

-*Fərdiyyətçilik*: Libertarizm tərəfdarları belə hesab edirlər ki, sosial analizin elementar vahidi ayrıja götürülmüş insan və ya fərddir. Yalnız fərdlər seçim edir və öz fəaliyyətinə javabdehdir. Libertarizm fikri hüquq və vəzifələrə malik olan hər bir şəxsin ləyaqətini yüksək qiymətləndirir. Qadın ləyaqətinin, müxtəlif dinlərə və irqlərə məxsus insanların ləyaqətinin daim yüksək tutulması Qərb dünyasında libertarizmin ən böyük zəfərlərindən biridir;

-*İnsan hüquqları:* Nə qədər ki, insanlar əxlaq daşıyıjısılarıdır, onlar öz hüquqlarını, azadlıq və mülkiyyətlərini müdafiə etmək hüququna malikdirlər;

-*Spontan qayda-qanun:* Sadəjə olaraq mövjud olmaq və özünüreallaşdırmaq üçün insanlar jəmiyyətdə yüksək dərəjədə qayda-qanunu gözləməlidirlər. Bu qayda-qanun heç də mərkəzləşdirilmiş və avtoritar qayda-qanun kimi başa düşülməməlidir. Liberatrizmə görə jəmiyyətdə qayda-qanun

spontan surətdə yaranır. Yəni minlər və milyonlarla insan öz xüsusi məqsədlərinə çatmaq üçün fəaliyyətlərini digər insanların fəaliyyətləri ilə əlaqələndirir və bu hal qayda-qanunun yaranması ilə nətijələnir. İnsan jəmiyyətinin ən mühüm institutları olan dil, hüquq, pul və bazar spontan olaraq, mərkəzləşdirilmiş rəhbərlik olmadan yaranıb, inkişaf etmişdir. Spontan qayda-qanunun digər nümunəsi insanlar arasında birlik və əlaqələrin vahid mürəkkəb şəbəkəsi olan vətəndaş jəmiyyətidir; vətəndaş jəmiyyəti daxilində birliklər müəyyən məqsədlər üçün yaradılır, lakin vətəndaş jəmiyyətinin özü təşkilat deyildir və ayrıja götürülmüş məqsəd daşımır;

- *Hüququn aliliyi:* Libertarizm nə hər şeyin ijazə verildiyi dəyər, nə də gedonizm (gedonizm – həyatın zövq və səfa üçün yaranmış olduğunu iddia edən qədim yunan fəlsəfəsi) deyildir. Liberatristlər qanunlar çərçivəsində azad jəmiyyəti təklif edirlər. Belə bir jəmiyyətdə insanlar öz həyatlarını yaşamaqda o vaxtadək azad sayılırlar ki, eyni dərəjədə başqalarının da hüquqlarına hörmət edirlər. Hüququn aliliyi o deməkdir ki, insanlar ümumi qəbul edilmiş hüquq normalarına və həmçinin spontan yaranmış hüquq normalarına tabe olurlar;

- *Məhdudlaşdırılmış hakimiyyət:* Hüququ təmin etmək üçün insanlar hökumət yaradır. Lakin hökumət təhlükəli institutdur. Libertarizm hakimiyyətin mərkəzləşməsinə güjlü antipatiyaları ilə seçilirlər. Onlar hakimiyyəti bölmək və məhdudlaşdırmaq istəyirlər. Bu isə o deməkdir ki, libertarizm hakimiyyətin yazılmış konstitusiyalar ilə məhdudlaşdırılmasını üstün tuturlar. Libertarizm ideologiyasının əsas siyasi nətijəsi hakimiyyətin məhdudlaşdırılmasıdır;

-*Azad bazar:* Azad bazar azad insanlardan təşkil olunmuş iqtisadi sistemdir. Libertaristlər belə hesab edirlər ki, dövlətin azad seçim prosesinə müdaxiləsi nə qədər minimuma endirilsə, insanlar eyni zamanda daha azad olar və daha çox varlana bilər;

-*Xeyirxah istehsal:* Müasir libertaristlər insanların qazanmaq hüquqlarını müdafiə edirlər və heç bir istehsalla

məşğul olmayan, lakin onların əlindən bu qazanjı alan siyasətçilərin və bürokratların əleyhinə çıxırlar;

-*Maraqların təbii harmoniyası:* Libertaristlər belə hesab edirlər ki, ədalətli jəmiyyətdə dinj surətdə istehsalla məşğul olan insanların maraqları harmonikdir. Azad bazarın olduğu şəraitdə fermerlər və tajirlər, istehsal edənlər və idxal edənlər arasında heç bir konflikt yarana bilməz;

-*Sülh:* Libertaristlər həmişə müharibə əleyhinə çıxırlar. Onlar başa düşürlər ki, müharibə özü ilə ölüm və dağıntı gətirir, ailələri və iqtisadiyyatı dağıdır, hakimiyyətin hakim sinfin əlində jəmləşməsinə imkan yaradır.

Müasir liberal partiyalar adətən çoxpartiyalılığa, insan azadlıqları və hüquqlarının maddi əsası kimi xüsusi mülkiyyətə əsaslanan hüquqi dövlət qurulmasını, koalision hökumət yaradılmasını, birbaşa prezident seçkiləri keçirilməsini, dövlət və ijtimai institutların ideologiyasızlaşmasını öz qarşısına məqsəd qoyur. Bu mövqedə duran partiyalar bir nəfərin iradəsi ilə dövlət idarəetmə üsulunu inkar edir, istənilən diktatura əleyhinə çıxır, bir ideologiyanın hökmranlığını, bir partiyanın inhisarını rədd edir, sağ və sol radikalizmi qəbul etmir, ideoloci fərziyyələrə deyil, sağlam fikrə əsaslanan düşünülmüş islahatlar tərəfdarıdır.

Liberallar həmişə qanun çərçivəsində fəaliyyət göstərən bütün partiyalarla əməkdaşlıq etməyə hazır olduqlarını nümayiş etdirirlər. Onlar jəmiyyətin xalqın dostları və düşmənlərinə bölünməsini qəbul etmir, milli ayrı-seçkilik əleyhinədir, ümumi siyasi tətilləri məqbul saymırlar və ijtimai həyatın humanistləşməsinin, daxili problemlərin iqtisadi metodlarla həll edilməsinin tərəfdarı kimi çıxış edirlər.

*Siyasi və iqtisadi azadlıq olmadan ümumi bərabərlik jəmiyyəti qurmaq təjrübəsi XX əsrin 80-ji illərin axırlarında SSRİ-nin süqutu ilə iflasa uğradıqda Avropa və Amerikanın demokratik dövlətləri Lokkun liberalizmini və Russonun «yaxşı dövlət» ideyasını qəbul edərək hərtərəfli inkişafa nail oldular.* İnsanın söz və yığınjaq azadlığına sosial müdafiə hüququ da əlavə olundu. İnsan hüquqları, bazar iqtisadiyyatı və inkişaf etmiş

sosial təminat müasir demokratiyanın başlıja məzmununa çevrildi. Bizdə isə liberal dəyərlər əsasında yaranan demokratiya prinsipləri bu illərdə hələ yenijə özünə yer etməyə jəhd göstərirdi.

Keçmiş sovet imperiyasının dağılması prosesində Azərbayjanda ilk kütləvi təşkilat kimi yaranmış Azərbayjan Xalq Jəbhəsinin (1989) mahiyyəti həm insanın, həm də xalqın öz müqəddəratını təyin etməsi uğrunda hərəkatdan ibarət idi. O zaman AXJ-nin himayəsi altında azad mətbuat yarandı. Qəbul edilmiş AXJ Proqramı ölkənin siyasi fikir tarixində yeni səhifə, yeni söz oldu. Azərbayjan xalqı liberal dəyərlərdən ibarət olan hüquqi dövlət, vətəndaş jəmiyyəti və dövlətin əzməyə hüququ olmadığı əsas insan hüquqları haqqında ilk dərsi ondan aldı. Bu gün Azərbayjanda insan hüquqları uğrunda mübarizəni çoxlu sayda siyasi, ijtimai və hüquq müdafiəsi ilə məşğul olan təşkilat vardır. Bu təşkilatların, demək olar ki, hamısı, o jümlədən liberal dəyərlərin daşıyıjıları olan siyasi partiyalar AXJ ümummilli hərəkatının «bətnindən» çıxıb, onların proqramları isə indiyəjən özündə Xalq Jəbhəsinin ilk Proqramının (16 iyul, 1989) ruhunu və «möhürünü» daşıyır. *Hazırda Azərbayjanda liberalizm ideologiyasının daşıyıjıları kimi «Əhrar», Azərbayjan Liberal və Azərbayjan Liberal-Demokrat partiyaları və b. fəaliyyət göstərir.* Həmin siyasi partiyalar, eyni zamanda demokratik partiyaların əksəriyyəti öz proqramlarına liberal ideologiyada ilk dəfə işlənib hazırlanmış müddəaları daxil etmişlər. Bu müddəalara bazar münasibətlərinin əsası kimi azad rəqabət, hüquqi dövlət, özünüidarəetmə, şəxsiyyətin azadlığı, söz, mətbuat azadlığı, siyasi seçki hüququ, azlıqda qalan xalqların dilinə, etiqadına və adət-ənənələrinə hörmət etmək və s. aiddir.

Beləliklə, Azərbayjanda liberalizm artıq təşkilati siyasi qüvvə kimi fəaliyyət göstərir və liberalizmin qarşıya qoyduğu məqsədlərin çoxusunun reallaşmasına misal olaraq göstərə bilərik ki, respublikamızda vətəndaş jəmiyyətinin və hakimiyyətin əsasları yaradılmış, parlamentarizm tətbiq edilərək hakimiyyətin dövlət səviyyəsində bölgüsünün liberal prinsipi həyata keçirilmişdir. Liberalizmin bir çox müddəaları - dövlət və bazarın

sintezi, fərdlərin bazar imkanları və hüquqi dövlət ideyası Azərbayjanda tətbiq edilərək istifadə olunur.

Daxildə sabitliyə nail olmağa jəhd göstərən liberallar, habelə Azərbayjanın milli demokratları xariji siyasətdə liberal-demokratiya dəyərləri üzərində qurulan və sülhə təminat verən dünya nizamının yaradılmasına tərəfdar çıxır. İki liberal jəmiyyətin bir-birilə heç vaxt vuruşmaq məqsədini güdmədiyini əsas tutaraq Dağlıq Qarabağ probleminin sülh yolu ilə həll olunmasının əleyhinə olmadığını bildirirlər. Qeyd etmək lazımdır ki, dövlət də bu məsələdə liberal xətt yeridir. Lakin eyni zamanda bu problemin sülh yolu ilə əldə olunmadığı təqdirdə, beynəlxalq sənədlərə istinad edən demokratik qüvvələr, o jümlədən hakim recim ərazi bütövlüyümüzün bərpa olunması üçün müharibə yolunu da istisna etmirlər.

Azərbayjan liberalları – istər siyasi təşkilatların üzvləri, istərsə də liberal düşünjəli insanlar müasir şəraitdə hakimiyyətə və dövlətin məsul postlarına antikonstitusiya jəhdləri ilə gəlməyin əleyhinə çıxış edirlər və hakimiyyətə yalnız seçkilər yolu ilə gəlməyi qəbul edirlər.

Azərbayjanda inhisarların olması bir faktdır və bunu prezident səviyyəsində iqtidar nümayəndələri də etiraf edirlər. İnhisarların yaranması, iqtisadiyyatın böhranı, inflyasiya bazar özünütənzimləməsini pozduğundan bazar iqtisadiyyatını tənzimləmək üçün dövlətin iqtisadiyyata müdaxiləsini qaçılmaz edir. Bu mənada Azərbayjan liberalları libertarizm (ənənəvi liberalizm) mövqeyindən deyil, neoliberalizm mövqeyindən çıxış edərək inhisarların hökmranlığını məhdudlaşdırmaq və iqtisadi konfliktləri aradan qaldırmaq üçün dövlətin iqtisadiyyata müəyyən dərəjədə müdaxiləsini zəruri hesab edirlər. Azərbayjan neoliberalları eyni zamanda liberalizmin əsas prinsiplərinə sədaqətliliyini saxlayaraq bütün vətəndaşların bərabər hüquqlu olmasını, şəxsiyyətin hüquq və azadlıqlarını, konstitusionalizmi, təsərrüfat həyatının əsası kimi xüsusi mülkiyyəti və sahibkarlığı üstün tutduqlarını bəyan etmişlər.

Ənənəvi liberalizm mövqeyində duran Azərbayjan liberalları dövlətin iqtisadi həyata fəal müdaxiləsinə qarşı çıxmalarını bununla əsaslandırırlar ki, iqtisadi azadlığın boğulması siyasi azadlığın da yox olmasına gətirib çıxarır. Azad sahibkarlığın qarşısına çəkilən bürokratik əngəllər bu gün həmin qüvvələri narahat edir. Lakin Azərbayjan keçid dövrünü başa vurmadığından bu ideyaların həyata keçirilməsi problemlərlə nətijələnir.

Müasir liberal partiyalar Azərbayjan Respublikasının Konstitusiyasında öz əksini tapmış müddəaların – demokratik quruluşa təminat vermək, vətəndaş jəmiyyətinin bərqərar edilməsinə nail olmaq, xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq, bazar münasibətləri əsasında iqtisadiyyatın inkişafına şərait yaratmaq, azad sahibkarlığa təminat vermək, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol verməmək, insan və vətəndaş hüquqlarını və azadlıqlarını müdafiə etmək və s. həyata keçirilməsini istəyirlər. Azərbayjanın liberal partiyaları və liberal düşünjəli bitərəf ziyalıları, tərəqqinin tərəfində duran bütün qüvvələr liberal dəyərləri hər şeydən üstün tutaraq, bir nəfərin iradəsi ilə, yəni avtoritar dövlət idarəetmə üsulunu pisləyir, zorakı üsullarla idarəçiliyin əleyhinə çıxır, bir partiyanın inhisarını rədd edir, sağ və sol radikalizmi qəbul etmir və liberal islahatların həyata keçirilməsini tələb edirlər.

Hazırda yeni dünya düzəni yaratmaq zərurəti ortaya çıxmışdır. Müharibəsiz, hərbsiz, insan haqlarının müştərək qorunduğu, hər kəsin həddini bildiyi, haqqını ala biləjəyi yeni düzənə ehtiyaj ortaya çıxmışdır. Yaranmaqda olan bu yeni dünya düzəni müxtəlif sivilizasiyalara əsaslanır. Avropada 1975-ji il Helsinki Yekun Aktı, 1990-jı il Paris xartiyası, Avropa Birliyi timsalında yeniliklər bu məqsədə xidmət edir. XX əsrin sonlarında Avropanın siyasi inteqrasiyası sahəsində mühüm dəyişikliklər baş vermişdir. 1991-ji il Maastrix müqaviləsinə əsasən Avropa İttifaqı gerçəkliyə çevrildi. Bu sazişin əsas məqsədi Avropada vahid iqtisadi, sosial, hüquqi, informasiya və

mədəni məkan yaratmaqdır. Artıq vahid kapital, əmtəə və xidmət bazarı formalaşmış, 1999-ju ildə yeni Avropa valyutası-yevro tətbiq olunmuşdur, gələjəkdə vahid vətəndaşlığa keçmək, vahid konstitusiya qəbul etmək, təhlükəsizlik sistemini möhkəmləndirmək və Avropa ölkələrinin hərbi-siyasi jəhətdən daha da yaxınlaşdırılmasını təmin etmək planlaşdırılmışdır. 1991-ji ildə yenidən müstəqilliyini əldə etmiş Azərbayjan Respublikası da Avropa inteqrasiyasına qoşulmaq yolu ilə gedir. Daha yaxşı dünya üçün klassik-fərdiyyətçi liberalizm sanki təkrar olaraq etibarlı mövqeyə keçir, insan haqları bəşəriyyətin başlıja hədəfi olur. İqtisadiyyat, siyasi münasibətlər, hüquq yenidən liberallaşdırılır.

# III FƏSİL. LİBERALİZMLƏ DİGƏR SİYASİ İDEOLOGİYALARIN QARŞILIQLI TƏSİRİ

## 3.1. Liberalizm və konservatizm

Liberalizm, konservatizm (mühafizəkarlıq), o jümlədən də sosial-demokratizm heç də bu və ya digər partiyanın sadəjə siyasi proqramı deyil, dünyaya baxışlar sistemi, şüur tipləri, eyni zamanda siyasi-ideoloci istiqamətlərdir və hər üç baxış konkret siyasi partiyalar tərəfindən əlaqələndirilir. Bu ideya-siyasi jərəyanlar içərisində daha keçmiş tarixi kökə malik olan mühafizəkarlıq özündə müxtəlif, müəyyən mənada ziddiyyətli ideya və ənənələri birləşdirir.

Konservativ ideyaların formalaşması üçün katalizator rolunu Böyük Fransa inqilabı oynamışdır. Elə bu zamandan başlayaraq konservativ ideologiya haqqında danışılmağa başlanılmışdır. Mühafizəkarlıq ideya-siyasi jərəyanının prinsiplərinin əsasında belə bir müddəa durur ki, hər bir yenilik, dəyişiklik əvvəlki qaydalarla varislik əlaqəsindən kənarda mövjud ola bilmədiyi kimi, jəmiyyətin təbii surətdə qərarlaşmış sosial iyerarxiyası, xüsusilə də onun ailə, din, mülkiyyət kimi təsisatları, bütünlükdə jəmiyyətin mənəvi əsasları və prinsipləri ali dəyərlər olub ötəri xarakter daşıya bilməz. Yenilikdən vahimələnmə, köhnə qaydaların toxunulmazlığını mütləq zərurət kimi qəbul etmə halını ənənəvilik və ya «təbii mühafizəkarlıq» adlandırmışlar. İdeya-siyasi jərəyan kimi mühafizəkarlıq məhz təbii mühafizəkarlıq, ənənəvilik dünyabaxışı prinsipləri üzərində qərar tapmışdır.

«Konservatizm» termini nəinki müasir siyasi şərhdə, habelə elmi ijtimai ədəbiyyatda işlənir. Azərbayjanda konservatorlara milli-demokratlar da, «hakimiyyət partiyası» da aiddir, Qərbdə isə konservatorlara M. Tetçer, A. de Benua, Q.Rormozer, D.Bell və ya F.Mitteran kimi siyasətçilər aiddir. Ümumiyyətlə, siyasi aləmdə mövjud quruluşu, recimi, adət-

ənənələri, milli xüsusiyyətləri qoruyub saxlamağı qarşısına məqsəd qoyanları mühafizəkarlar adlandırırlar.

Konservatizmin siyasi və ideya jəhətdən sonrakı təkamülü göstərir ki, o heç də yenilikçiliyə qarşı çıxmır, yalnız «yenilikçi prinsiplərin» mütləqləşdirilməsinə qarşı çıxır və jəmiyyətlə nejə gəldi rəftar etməyin əleyhinədir. Konservatizm sadəjə olaraq dəyişikliklərə qarşı deyil, müəyyən dəyişikliklərə qarşı çıxış edir. *Çox vaxt müasir konservatizmlə XIX əsrin klassik liberalizmi arasında bərabərlik işarəsi qoyulur*.

Konservatizmə müəyyən tarixi mərhələlərdə əhəmiyyəti aydın görünən fundamental dəyər və prinsiplərin məjmusu kimi qiymət verilir. *Amerikan politoloqu K.Rossiter hesab edir ki, «konservatizm prinsipjə istənilən mövjud jəmiyyətin qoruyujusu kimi çıxış edir, lakin yalnız liberalizmlə qarşılıqlı əlaqədə tam inkişafını tapır, məhz bu da onun ideya korpusunu müəyyən edir».* XVIII əsrin ikinji yarısındakı aristokratik konservatizmin əsas vəzifəsi həmin dövrdə yenijə güj tapmaqda olan demokratizmə və liberalizmə qarşı durmaq, inqilaba qədərki Avropada hökmran olan qayda-qanunu əsaslandırmaqdan ibarət olmuşdur. Tarixi geri döndərməyin mümkün olmadığını dərk edəndən sonra isə konservatizmin ideoloqları və siyasətçiləri ənənəçiliyi siyasi və ijtimai həyatın yeni reallıqları ilə uyğunlaşdırmaq üçün yollar aramağa başlamışlar. Bunu ardıjıl olaraq həyata keçirməyə isə E.Berk müyəssər olmuş, məhz bu zamandan etibarən müasir konservativ dünyagörüşünün əsası qoyulmağa başlanmışdır.

Müəyyən mərhələdə mövjud vəziyyəti mühafizə edib saxlamaq jəhdi istənilən siyasi ideologiyaya xasdır. Bu jür «konservatizmin» ən son nümunəsi müasir sosialist və postsosialist ölkələrinin kommunist qüvvələrinin siyasətidir.

Böyük Britaniya, ABŞ, AFR, Fransa və digər ölkələrdə konservatizmin əhəmiyyəti onunla izah edilir ki, həmin ölkələrin millətləri dəyişiklikləri arzu etdiyi zaman (XX əsrin 70-ji illərində) konservatorlar elə həmin dəyişiklikləri təklif etdilər.

Yeninin mütləqləşdirilməsi və ənənələrin məhvinə doğru yönəlmiş sosial mühəndisliyin tənqidinin klassik nümunəsini E.Berk özünün «Fransa inqilabı haqqında düşünjələr» kitabında vermişdir. Müasirlərinin fikrinjə E.Berkin kitabı inqilab haqqında ən inqilabi kitabdır. Berk bu kitabda xəbərdarlıq edir ki, kim jəmiyyəti qlobal surətdə dəyişdirməyi arzu edirsə, onun fəaliyyəti zamanla əlaqənin kəsilməsinin, özü inkişaf edən orqanizmin - sosiumun məhvinə doğru aparır. İngilis mütfəkkiri E.Berk İngiltərədə baş verən 1688-ji il «şanlı inqilabı»nı nümunə gətirərək fransız siyasətçilərinə mürajiətlə bildirir ki, «sizin memarlar özülsüz tikirlər». E.Berk qeyd edir ki, 1688-ji il ingilis inqilabında bütün islahatlar keçmişə hörmət prinsipi əsasında həyata keçirilmişdir, Fransada həyata keçirilən və əsası olmayan dəyişikliklər (1789-1794) isə gələjəkdə tənqid obyektinə çevriləjəkdir. Berk daha sonra qeyd edir ki, yakobinçilər «öz şəxsi mənafeyindən çıxış edərək yaşadıqları jəmiyyətin bütün əvvəlki strukturunu dağıtmışlar, şəhərlərin yerində xarabalıqlar yaratmaqla böyük riskə gediblər. Onlar öz əjdadlarının yaratdığı institutlara az ehtiram bəsləməklə, gələjək nəsillərin də onların yeniliyinə hörmətsizliyinin əsasını qoyublar».

Berk yazırdı: «Ən yaxşını saxlamaq, qüsurları təkmilləşdirmək qabiliyyəti – məhz mənimçün dövlət adamı bu keyfiyyətlərə malik olmalıdır» Müasir konservatizmin inkişafında xüsusi xidmətləri olan Dizraeli və Bismark öz dövrlərinin sosial islahatlarının başında durmuşlar. Balanslaşdırılmış islahat keçirilməsinin reseptlərini müasir konservatorlar da verirlər. Onların fikrinjə, islahatları tədrijən, «antitarixi tələskənliyə» yol vermədən, «yuxarıdan» həyata keçirmək lazımdır. İslahatları «kütlə metodları ilə», «aşağıdan» keçirmək olmaz. «Jəmiyyətdə partlayış törətməmək», dövlət mexanizmini pozmamaq, ijtimai inkişafda kəskin dəyişikliklərdən, çevrilişlərdən qaçmaq çox mühümdür, dəyişikliklər prosesinin sabitliyinə nail olmaq lazımdır, çünki mədəniyyət tərəfindən toplanmış mənəvi dəyərlərin reallaşması bütövlükdə yalnız sabit jəmiyyətdə mümkündür.

*İnstitutların legitimləşdirilməsinin liberalizm konsepsiyasından fərqli olaraq konservatizmdə institutların şərhi başqa jür qoyulur. Liberalizm üçün institutlar müstəqil mənbəyə malik deyildir. Konservativ doktrinada isə institutlar özündə ənənələri, adətləri, dilin ümumiliyini birləşdirən mədəni obyektlərlə jəmiyyətin konseptual əlaqəsi kimi nəzərdən keçirilir. Konservatizmə görə adət və ənənələrin qəti olaraq islah edilməsi jəhdləri institutların və assosiasiyaların dağılmasına gətirib çıxarır.*

*Müasir konservatizm liberalizmin fərdiyyətçilik ideyasına qarşı «konservativ fərdiyyətçilik» ideyasını irəli sürür, ağıl və ehtirası bir-birinə qarşı qoymur. Fərdiyyətçilik burada eqoizmdə, inadjıllıqda və qiyamda təzahür etmir, əksinə insan şəxsiyyətinin bütövlüyündə təzahür edir. Bu isə fərdi dövlətə və jəmiyyətə, şəxsi iradəni ümumiyə qarşı qoymağa imkan vermir. Bu jür yanaşmanın əsasları E.Berk tərəfindən işlənib* hazırlanmışdır. Belə yanaşma liberal-fərdi insan obrazına qarşı durur.

*Konservatizmin bu jür yanaşmasında jəmiyyət fərddən öndə durur. Belə ki, jəmiyyət tarixi şəraitin məhsuludur. Bu şərait isə adətlərlə, dəyərlərlə sıx bağlıdır və fərd də bunlarsız mövjud ola bilməz. Bununla bağlı olaraq E.Berk əjdadlardan miras qalan hisslərlə, əxlaqla, dinə olan ehtiramla həmrəy olan ağılın, siyasətin idealını irəli sürür. Yalnız belə olduqda siyasi müdriklikdən, E.Berkin adlandırdığı «prudensiyadan» («ağıldan») danışmaq olar. Dəyərlər sisteminin hər bir təkamül mərhələsində insanlar məqsədləri müəyyənləşdirir ki, burada da ağıl əsas rol oynayır. Bu jür dəyər istiqaməti ehtimal edir ki, «biz həmişə institutlarımızın yaxşılaşdırılmasına jəhd göstərməyimizə baxmayaraq, heç zaman qarşımıza onları tamamilə aradan qaldırmaq vəzifəsini qoymuruq. Biz daim özümüz tərəfindən yaradılmamış dəyərlərin, o jümlədən də institutların hüdudları çərçivəsində və onun daxilində fəaliyyət göstərməliyik».*

Konservatizm ideoloqlarının fikrinjə, təkmil idarəetmə olmadığı kimi, təkmil jəmiyyət də yoxdur. Konservatizm jərəyanına görə, tam ideala jəhd göstərmək inqilaba doğru yoldur.

Konservativ doktrinada «nüfuz hakimiyyəti» konsepsiyası ilə demokratiya haqqında təsəvvürlər sıx bağlıdır. Bu doktrinaya görə, demokratiya nə qədər səbirli, dözümlü olarsa, o qədər həyat qabiliyyətli olar. Mühafizəkarların fikrinjə, təjrübə, səlahiyyət və istedad tələb olunan yerdə demokratiya qəbuledilməz olur. Tam özünüidarəetmə kimi başa düşülən demokratiya mifdir, heç bir sosial reallığa uyğun gəlmir, belə ki, siyasət səlahiyyətli elitanın fəaliyyət dairəsidir. Kaltenbrunnerin ideyası ilə səsləşən konservativ nəzəriyyə azadlıq nəzəriyyəsidir. Bu nəzəriyyəyə görə azadlıq anlayışı reallığa maksimal dərəjədə uyğun gəlməlidir və azadlıq anlayışı insanın ikili təbiətindən irəli gəlir. Hələ E.Berk deyirdi ki, o, yeganə bir azadlıq tanıyır – bu, qayda-qanunla bağlı olan azadlıqdır. O qeyd edirdi ki, azadlıq qayda-qanundan asılı olmadan mövjud deyil, yəni sosial xarakter daşıyır. Buna görə də həqiqi konservatizm azadlığın abstrakt, qeyri-tarixi modelindən imtina etməlidir. Geniş liberal azadlıqların tərəfini saxlamaqla nə onu mütləqləşdirmək, nə də «təbii insan hüquqları» konsepsiyasına əsaslanmaqla ideallaşdırmaq olmaz. Unutmaq olmaz ki, liberal demokratiyaya görə də istənilən fərdi maraq o zaman reallaşır ki, öz şəxsi mənafeyindən yüksəkdə dura bilsin.

Konservatizmə görə, hər bir insanın hüququ, o jümlədən, şəxsi azadlıq eyni zamanda həm təbii, həm də sosial xarakter daşıyır: təbiidir ona görə ki, Allah tərəfindən yaradılmış insana mənsubdur, sosialdır, ona görə ki, insan bu hüquqlardan yalnız təşkil olunmuş jəmiyyətdə istifadə edir. Müasir konservatizmin hərdən fərdi azadlıq bayrağı altında çıxış etməsinə baxmayaraq (qeyd etmək lazımdır ki, bu daha çox iqtisadi doktrina üçün xarakterikdir), ona fərdiyyətçilik nəzəriyyələri yaddır.

Çətin həll edilən problemlərdən biri azadlıq və ədalətin uyğunlaşdırılmasıdır. R.Xiqqins qeyd edir ki, «azadlıqla qayda-qanun, azadlıqla ədalət, bərabərliklə təşəbbüs, fərdiyyətçiliklə həmrəylik arasında konfliktlərin həll edilməsi üçün praktikada yoxlanılmış göstəriş mövjud deyildir». Bu fikirlə konservativ müəlliflərin əksəriyyəti razılaşır. Konservatizm ilk növbədə

*liberal modelə əsaslanan rasional seçim prinsipi əleyhinə çıxış edir. Məsələn, D.Bell ijtimai müqavilə haqqında tezisi formal qəbul edərək hesab edir ki, bu, yalnız aşağıdakı əsasda mümkündür: a) keçmişə hörmətlə yanaşmaq; b) məhdudlaşdırılmayan arzular üzərində fərdi və sosial tələbatların prioritetliyini etiraf etmək; j) bütün insanlarda onların jəmiyyətə mənsubluğu hisslərini aşılayan ədalət konsepsiyasının etirafı haqqında müqavilə. D.Bellə görə, mövjud olan, eyni zamanda insanlara fayda gətirən bərabərsizlik ədalətlidir. Çünki istənilən rifah və dəyər dərhal hamının malına çevrilməzsə, eqalitar şüur ondan imtina etməyi tələb edir. Bu jür şüur keçmiş tarixi məhv edir və jəmiyyətin gələjək nailiyyətlərinə mane olur. Ədalətli bərabərsizlik kimi ədalətliliyin konservativ anlayışı ənənəsinin əsasını Berk qoymuşdur. O, hesab edirdi ki, «hamının bərabər hüququ olsa da, hər halda eyni deyildir». Bundan nətijə çıxaran müasir konservatorlar radikalizm dərəjəsinə görə bir-birində fərqlənirlər. Avropa «yeni sağları» fərqlərin etirafının və dərkinin mürəkkəb iyerarxiyalar üçün perspektivlər açması kimi qəbul edirlərsə, mötədil konservatorların əksəriyyəti möhkəm iyerarxiyalaşmış jəmiyyətlərə şübhə ilə yanaşırlar.*

Aydındır ki, müasir konservatizm düzgün və tam işlənmiş doktrina təsiri bağışlamır, bu doktrina çoxüzlü və çox paradoksal xarakter daşıyır. Amerikan konservatizminin tədqiqatçısı Allison qeyd edir ki, «konservatorlar eyni zamanda həm fərdiyyətçi, həm də kollektivçi, həm nüfuz və həm də azadlığın ardıjılları, həm mistik, həm də ağıllı praktik insanlar rolunda çıxış edirlər».

*Konservatizmin ideologiya, o jümlədən siyasi ideologiya kimi inkişafının qeyri-iradiliyini onun reallığa adekvat münasibət göstərməsi ilə əlaqələndirən liberalizm jərəyanı olmuşdur. Bir çox tədqiqatçılar təsdiq edir ki, müasir konservatorları neoliberallar, konservativ liberallar və ya liberal konservatorlar adlandırmaq olar. Liberalizm və konservatizmin qarşılıqlı təsiri öz ifadəsini klassik sosial fikrə münasibətində də tapır. Belə ki, liberallar E.Berkin ideyalarını qəbul edir, konservatorlar isə*

*klassik liberalizmin irsini mənimsəyir. İ.Kristol qeyd edir ki, «neokonservatorlar Lokka hörmətlə yanaşır».*

*Baş vermiş dəyişikliklərə qiymət verilməsi sahəsində konservativ fikrin öz daxilində vahid mövqe yoxdur. Konservatorları indiyədək liberalizmin sosial islahatçılığı, qanunçuluq məsələlərinə hədsiz dərəjədə «liberal» münasibəti, ijtimai əxlaq sahəsində hər şeyi məqbul sayması heç jür qane etməmişdir. İnteqrativ şüur liberalizmə yad, konservatizmə isə xas şüurdur. Bu şüura görə dövlətin, millətin mənafeyi fərdi və qrup maraqlarından üstündür. Konservatizm üçün ijtimai borj hissləri birinji yerdədir, şəxsiyyətin azadlığı onunla həmahəng olmalıdır. Liberalizm üçün isə şəxsiyyətin azadlığının təmin olunması əsasdır, ijtimai borj və vəzifələr fərdin azadlığı və hüquqları ilə razılaşdırılmalıdır. Konservatorlar liberalizmin siyasi fəlsəfəsinə qarşı çıxırlar. İqtisadiyyatda bazar münasibətlərinin azadlığını müdafiə edən konservatorlar, eyni zamanda, bu prinsiplərin bütövlükdə jəmiyyətə keçirilməsinə qarşı çıxırlar.*

Lakin XX əsrin 70-80-ji illərində mühafizəkarlar öz strategiyasını ideoloci jəhətdən əsaslandırmaq məjburiyyəti qarşısında qalmış oldular. Mühafizəkarlığın ən mühüm müddəaları ona əks olan ideya-siyasi jərəyandakı dəyişikliklərə javab reaksiyası kimi əmələ gəlmiş və təkamülə uğramışdır. Doğrudan da *mühafizəkarlıq liberalizmə, burcua reformizmi və sol radikalizmin müxtəlif formalarına, sosial-demokratiyaya münasibətdə həmişə ikinji dərəjəli xarakter daşımışdır.*

*Əgər liberalizm və sosializm ilk başlanğıjdan sinfi ideya-nəzəri jərəyan kimi əmələ gələrək, burcuaziya və fəhlə sinfinə arxalanırdısa, konservatizmin bu mənada işi çox mürəkkəb olmuşdur. Siyasi şüur tipi kimi və ideya-siyasi istiqamət kimi konservatizm o siniflərin, təbəqə və qrupların ideologiyasıdır ki, məhz onların mövqeyini ijtimai-tarixi və sosial-iqtisadi inkişafın obyektiv meylləri təhlükə altına alır. Bu jür imkanlı sosial qruplar nəinki daim artan çətinliklərin və demokratik qüvvələrin təzyiqinə, habelə əhalinin az-çox dəyişkən nümayəndələrinin də*

*təzyiqinə məruz qalır. Belə olan təqdirdə mühafizəkarlar ijtimai tərəqqiyə, yeniləşməyə müqavimət göstərən qorxulu qüvvəyə çevrilir.*

Mühafizəkarlıq ideya-siyasi jərəyanı XVIII əsrin sonu-XIX əsrin əvvəllərində zadəganların mənafeyinin müdafiəçisi kimi fomalaşsa da *XIX əsrin sonlarında klassik liberalizmin bir sıra müddəalarını mənimsəmiş,* burcua aristokratiyasının ayrı-ayrı fraksiyalarının ideya-siyasi platformasına çevrilmişdir. Bu jərəyan bəzi hallarda öz sosial statusunun gələjək taleyindən ehtiyatlanan, gələjəyini qeyri-müəyyən görən xırda və orta sahibkarların müdafiəçisi kimi də çıxış etmişdir. Bəzən mühafizəkar dəyərləri və normalarını əhalinin elə qrupları (fermerlər, sənətkarlar, dükançılar və b.) müdafiə edirlər ki, əslində bu dəyərlər heç də həmin qrupların mənafeyinə uyğun gəlmir. Mühafizəkarlığın sinfi mənafeləri əsas götürməməsi də müəyyən dərəjədə onun yayılmasına imkan yaradır.

Mühafizəkarlığın bir xarakterik əlaməti də onun ikili təbiətə malik olmasındadır. Bir tərəfdən o, təkamül, inkişaf, köhnənin inkar edilməsi, keçmişlə əlaqənin kəsilməsi və yeninin yaranması tərəfdarı kimi təzahür edir, digər tərəfdən isə yaşamaq qabiliyyəti olan bütün ənənələri, keçiji olmayanları, bəşəri olanları qoruyub saxlayan, onları gələjəyə ötürən jərəyan kimi çıxış edir. Qeyd etmək lazmdır ki, istənilən ijtimai-siyasi sistem varisliyi saxlamaq şərtilə bir sıra aspektlərdə yeniləşə bilər. Məsələn, Böyük Fransa inqilabından sonra bu ölkə öz milli simasını heç də itirmədi. Belə ki, inqilabdan sonra milli şüurun əsası olan adət-ənənələr, etiqad, köhnə davranış normaları və s. mühafizə olunub saxlandı.

Mühafizəkarlıq öz ikili təbiətində ən çox ikinji tərəfə, yəni köhnəni qoruyub-saxlamağa və gələjəyə ötürmək səylərinə üstünlük verir. Mühafizəkar həmişə mövjud olan dünyanı, quruluşu mümkün ola bilən dünya və quruluşdan üstün tutur. Əlbəttə, inkaredilməz faktdır ki, tarixi inkişaf gedişində əldə olunan nailiyyətləri, dəyərləri qoruyub-saxlayaraq gələjək

nəsillərə çatdıra biləjək partiya və təşkilatlara istənilən ölkənin və millətin ehtiyajı vardır.

*Dünyanın dəyişkən olduğunu dərk edən mühafizəkarlar baş verən dəyişikliklərin heç də hamısını inkar edə bilmir, bu sahədə liberal jərəyanla rəqabət gedişində məğlubiyyətə uğramaqdan ehtiyatlanaraq tarixi şəraitə uyğun dəyişməyə məjbur olur. XIX əsrin II yarısından başlayaraq, xüsusilə XX əsrdə (bir sıra hallarda isə II Dünya müharibəsindən sonra) sosial-iqtisadi və ijtimai-siyasi dəyişikliklərə uyğunlaşan mühafizəkarlar əvvəllər inkar etdikləri bir sıra ideya və prinsipləri yenidən qəbul etmək məjburiyyətində qaldılar. Onlar azad bazar münasibətlərini, konstitusionalizmi, hakimiyyət orqanlarının nümayəndəlik və seçkili sistemini bu mənada qəbul etməyə bilməzdilər. Bir sıra ideyalara sadiqliyini saxlayan mühafizəkarların əksəriyyəti II Dünya müharibəsindən sonra rasionalizmin və texnokratizmin tərəfində durdular. Məhz bu səbəbdən 50-ji illərdə özünəməxsus liberal-mühafizəkar sazişi və ya mühafizəkar düşünjənin mötədil qanadı ilə liberallar arasında konsensus yarandı. Bu özünü ABŞ-da liberal-mühafizəkar konsensusu kimi, Qərbi Avropanın əksər ölkələrində isə sosial-demokratlar, liberal və mühafizəkarlar arasında bağlanmış saziş kimi təzahür etdirdi.*

Qeyd etmək lazımdır ki, II Dünya müharibəsindən sonrakı ilk onilliklərdə Qərb dünyası qarşısında duran bir sıra problemlərin həllində «rifah dövləti» prinsiplərinin reallaşması mühüm rol oynadı. *Sosial-demokratlar və burcua-liberal partiyaları tərəfindən həyata keçirilən bir çox islahatlar mühafizəkarların əksəriyyəti tərəfindən müdafiə edildi* və bu islahatlar əhalinin maddi vəziyyətini yaxşılaşdırdı, həmkarlar ittifaqlarının iqtisadi və siyasi mövqelərini möhkəmləndirdi, onların dövlət-siyasi sisteminə təsirini güjləndirdi. Lakin 60-jı illərdə kapitalist ölkələrində sosial-iqtisadi və siyasi sahələrdə böhran hallarının artması *liberal-mühafizəkar konsensusuna zərbə vurdu. Belə olan halda həm liberallar, həm də mühafizəkarlar böhranı aradan qaldırmağın yollarını axtarmağa*

*başladılar*. Yaranmış reallığa uyğun yeni ideya-siyasi və sosial-siyasi strategiyanın işlənib-hazırlanması zərurətə çevrildi.

*Əlbəttə, sosial və iqtisadi problemlərin həlli üçün məsuliyyət ilk növbədə liberalların «rifah dövləti» («firavanlıq dövləti») üzərinə düşdü və təbii olaraq bütün bədbəxtliklərin səbəbini bu dövlətdə görməyə başladılar. «Rifah dövləti»nin və iqtisadiyyatın dövlət nizamlanmasının keynsçilik sisteminin qeyri-effektliyi belə bir fikrin əmələ gəlməsinə səbəb oldu ki, həm sollar, həm də liberallar yeni reallıqlara uyğun gələn alternativlər tapmaq qabiliyyətinə malik deyillər. Bu səbəbədən, sollar və liberallar arasında dövlət nizamlanmasının rolu, miqyası, ətraf mühitin qorunması barədə fikir ayrılığı baş verdi. Belə olan təqdirdə, əhalinin geniş təbəqələri sollardan uzaqlaşmağa başladı. Sol intellektual dayağın itirilməsi onların zəifləməsi, eyni zamanda, şəraitdən çıxmaq yolunu göstərən ideya və konsepsiyaların qəhətliyi nətijəsində bu boşluğu mühafizəkarlar və sağlar doldurmuş oldular.*

*XX əsrdə konservatizm və liberalizm ideologiyalarının məzmununda mühüm, bir sıra aspektlərində isə radikal dəyişikliklər edilmişdir*. Aydındır ki, tarixi şəraitdən asılı olaraq bir sıra mühüm ideyaların məzmununda bu və ya digər dərəjədə dəyişikliyə məruz qalma gözlənilən haldır. Məsələn, vaxtilə liberal ideyalar mühafizəkar mahiyyət kəsb etdiyi kimi, ayrı-ayrı mühafizəkar ideyalar da liberal məzmunla dolğunlaşmışdır.

Adları çəkilən ideya-siyasi və sosial-fəlsəfi anlayışlar eyni zamanda özündə bir sıra daxili jərəyanları, ideya və istiqamətləri də birləşdirir. Məsələn, konservatizmdə «sağlar» öz sosial, siyasi, psixoloci və digər xüsusiyyətlərinə görə bir-birindən kəskin surətdə fərqlənən müxtəlif ideya-siyasi mövqeləri özündə əks etdirir. Buraya mötədil mühafizəkarlar, qatı mühafizəkarlar, sağ radikallar və faşist görüşləri aiddir. Bu görüşlər arasında ayrı-ayrı kəsişmə nöqtələri olsa da, onlar bir-birindən öz proqram məqsədləri və bu məqsədə nail olmaq metodlarına görə fərqlənirlər.

Bu və ya digər ideya və konsepsiyalar ayrı-ayrı tarixi dövrlərdə müəyyən məqsədlər üçün istifadə edildiyindən bu doktrinalar müxtəlif sosial-iqtisadi və siyasi kontekstlərdə müxtəlif jür şərh oluna bilər. *Liberalizm kimi mühafizəkarlıq da yekjins deyil və onun bir sıra jərəyan və istiqamətləri vardır.* Məsələn, mühafizəkarlıqda radikal qanad dövlət-inhisarçı kapitalizmində və «rifah dövləti»ndə dəyişikliklər edilməsi tərəfdarı kimi çıxış edir. Onları ABŞ, Fransa, Almaniya və digər Qərbi Avropa ölkələrindəki «yeni sağlar»ın və yeni mühafizəkarların ayrı-ayrı qruplaşmaları, İngiltərədə isə tetçerizm təmsil edir. Ənənəvi mühafizəkarlar «radikallar» tərəfindən təklif edilən dəyişikliklərin nisbətən həyata keçirilməsi tərəfdarı kimi çıxış edirlər. Bu mənada mühafizəkarların daha çox istiqamətləri üzə çıxır. Bəzi politoloqlar mühafizəkarlıqda «intellektual», *«iqtisadi liberallar»,* «ənənəvi mühafizəkarlıq», «yeni sağlar» adlı istiqamətlərin olduğunu göstərirlər. Qeyd etmək lazımdır ki, həm ABŞ-da, həm də Qərbi Avropada «yeni sağlar» təsirli qüvvə kimi çıxış edirlər. Çünki onlar ziddiyyətdə olan müxtəlif qruplaşmalar arasında sazişçi mövqe tutur.

Ümumiyyətlə, konservatizmin daxili siyasi jərəyanları ilə yanaşı, bir sıra iqtisadi konsepsiyaları, nəzəriyyələri də vardır. Bu gün konservativ siyasi qüvvələr tərəfindən müdafiə olunan və çox məşhur olan iqtisadi proqramlar, konsepsiyalar *klassik liberalizmlə əlaqəni* açıq nümayiş etdirir. Yeni iqtisadi konservatizm Avropa sivilizasiyasının ənənəvi dəyərlərini (iqtisadi azadlıq, rəqabət, dövlətin iqtisadi həyata fəal müdaxiləsinin, yəni onun təsərrüfat üstünlüyünün məhdudlaşdırılması, öz qüvvəsinə arxalanmaq) bərpa etməyi öz qarşısında bir məqsəd kimi qoyur. Lakin *liberalizmdən, həm də onun məntiqi davamı olan keynsçilikdən fərqli olaraq* konservatizmin başlanğıj nöqtəsi heç də utilitarizm (mənfəətpərəstlik) və rasional subyektivlik deyil.

J.Keyns bildirmişdir ki, «Bizim yaşadığımız jəmiyyətin qüsurları daha çox əhalinin tam məşğulluğunu təmin edə bilməməsində, habelə sərvət və gəlirləri nejə gəldi, ədalətsiz

bölüşdürməsindədir». İqtisadi konservatizm dövlət nizamlaması mexanizmlərindən imtina etmir. Lakin burada iqtisadiyyat çox az dərəjədə dövlət tərəfindən nizamlanmanın təsiri altındadır.

Beləliklə, bütün yuxarıda deyilənləri ümumiləşdirərək belə nətijəyə gəlmək olur ki, müasir siyasi konservatizm özündə ən müxtəlif, bir-birilə konfliktdə olan ideya və konsepsiyaları birləşdirir və bütöv bir mürəkkəb jərəyanı əks etdirir.

Özünün tarixi təkamülü gedişində konservatizm xüsusilə siyasi proqram və manifest səviyyəsində əhəmiyyətli dəyişikliklərə mə'ruz qalmışdır. Konservatizmin siyasi fəlsəfəsi siyasi proqram və hərəkatlara münasibətdə müəyyən müstəqilliyə malikdir.

Bütövlükdə müasir konservatizmin bütün variantlarını üç əsas tipə, daha dəqiq desək jərəyana bölmək olar: 1.Neokonservativ jərəyan; 2. «Yeni sağlar»; 3. Ənənəvi və yaxud paternalist konservatizm. Qeyd etmək lazımdır ki, bu üç tip müxtəlif «maraqlar sferasını» (real siyasət, metapolitika və mədəni siyasət, mənəvi-əxlaqi sfera) xarakterizə edir və bu da daha çox onun ideoloci dayaqlarını müəyyənləşdirir.

70-ji illərdə ABŞ-da konservativ hüjumun birinji mərhələsində əsas «zərbə qüvvəsi» rolunu «yeni sağlar» oynadı və respublikaçılar patiyasının elektoral qələbəsində əvəzsiz xidmət göstərdi. Böyük Britaniyada isə konservativ dəyərlərin dərk olunmasının və siyasi proqram hazırlanmasının təşəbbüsçüsü kimi klassik konservativ dairələr (İ.Oakşot, «Solsberi» qrupu) çıxış etdi. 80-ji illərin ikinji yarısında konservativ hərəkat çərçivəsində jiddi dəyişikliklər baş verdi, qüvvələr balansı *mötədil konservatorların* xeyrinə dəyişdi. ABŞ-ın sağ konservatizm hərəkatındakı mötədil qanad (J.Buş, J.Beyner, R.Doul), habelə *konservativ demokratlar* (A.Qor, S.Nann) neokonservatizmə yaxındır. Konservatizm demokratik partiyaların siyasi kursuna və ideologiyasına əsaslı təsir göstərmişdir. *Həmin partiyalar 80-ji illərdə liberalizmin Böyük jəmiyyətinin və Yeni kursunun proqramından geri çəkilmiş oldular.*

*Avropa «yeni sağları» xristianlığı və ondan doğan liberalizmi mədəni irsə münasibətdə biganə və məsuliyyətsiz olmaqda günahlandırırlar* və qeyd edirlər ki, bu münasibətin sonu ümumi prinsip olan eqalitarizmlə başa çatır. *D.Bell (onu «sosial-demokrat konservatoru» adlandırırlar) belə hesab edir ki, «müasir Qərb jəmiyyətində sabitliyə və nizam-intizama yalnız liberalizm prinsipi əsasında nail olmaq olar*. Çünki bu prinsip fərdi və qrup rəylərinin müxtəlifliyinə böyük əhəmiyyət verir… Lakin heç də istənilən jəmiyyətdə vəziyyət sabit olmur… nüfuzun itirilməsi hakimiyyətin itirilməsinə gətirib çıxarır… Elitaların qabiliyyətsizliyi 70-ji illər irsinin həyəjanlı hissəsidir». Amerikan sosioloqunun fikrinjə, bu zaman «inam böhranının» nətijəsi olaraq qanuna tabe olmağa dərhal hazır olmaq psixologiyasına, ijtimai rifah hesabına şəxsi tələbatını ödəmək tamahına son qoyulmuş oldu.

Böhranın əsas səbəblərindən biri dövlətin iqtisadi rolunun artmasıdır. Bunun da nətijəsində bürokratikləşmə güjlənir, təsərrüfat mexanizmləri isə dəyişən dünya təsərrüfatı vəziyyətinə uğyunlaşma qabiliyyətini itirir. *İqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsini liberalizm ədalətsiz sayır.* Libertalistlərdən fərqli olaraq *neokonservatorlar* dərk edirlər ki, *dövlətin iqtisadiyyata müdaxiləsi bu və ya digər dərəjədə mümkündür və bunsuz keçinmək olmaz.*

Konservatorlarda müasir dövlətə ikili münasibət mövjuddur. Buraya həm etatistləri, həm də antietatistləri aid etmək olar. Konservatizmə antietatizm yox, etatizm xasdır. Konservatorlar «rifah dövlətini» tənqid edirlər. Məlumdur ki, II Dünya müharibəsindən sonra Qərbi Avropa dövlətlərində və ABŞ-da «rifah dövləti» quruldu. D.Eyzenhauerin ABŞ prezidenti olduğu dövrdə (1952-1960) amerikalılar ilk dəfə olaraq «firavanlıq dövlətinin» bəhrəsini gördülər. Öz xüsusi evləri və mənzilləri olan ailələrin xüsusi çəkisi ikiqat artdı, əhalinin yarısı gəlirinə görə orta təbəqəyə çevrildi. Bütün ölkədə kütləvi istehlakın rəmzi olan tijarət mərkəzləri yarandı. Dövlətin iqtisadi həyata müdaxiləsi tendensiyası dünya kapitalizminin 70-ji illər

böhranına qədər davam etdi. Rifah dövlətini tənqid etmək sahəsində Avropa sağları daha kəskin mövqedən çıxış edirlər. Belə mövqe onların liberalizmi və sosializmi tənqid etmələrindən irəli gəlir.

«Nekonservatizm» termini bütövlükdə yeni konservativ hərəkatı xarakterizə etmək üçün deyil, bu hərəkatda müəyyən istiqaməti – siyasi-ideoloci istiqaməti xarakterizə etmək üçün işlənir. Qeyd etmək lazımdır ki, *konservatizmlə liberalizmin bir-birindən əxz etdiyi dəyərlər çoxdur. Məhz XX əsrin 70-ji illərində bir çox liberal dəyərləri qəbul edən mühafizəkarlıq neokonservatizm adlandı və iqtisadiyyatla bağlı dəyərləri (azad bazar, azad rəqabəti) qəbul edərək islahatçı xarakter daşıdı.* Eyni zamanda digər demokratik dəyərləri qəbul edərək tərəqqinin düşməni olmadığını sübut etdi. Qərb ölkələri çərçivədən çıxan azadlıqların jəmiyyətə nejə zərbə vurduğunun 50-60-jı illərdə şahidi olmuşdu. O vaxtlar bolluq jəmiyyəti olan «rifah dövlətində» fərdiyyətçiliyin önə keçməsi nətijəsində əxlaqsızlıq baş alıb gedir, ailələr dağılırdı, kütləvi mədəniyyət jəmiyyət üçün parazitlərə çevrilən narkomanları, alkoqolları, tüfeyliləri, homoseksualistləri, diggerləri, hippiləri, başıqırxıqları, metallistləri və b. yetişdirdi. Məhz bu neqativ halların və yaranmış ideoloci boşluğun qarşısını 70-ji illərdə konservatizm ideologiyası aldı.

Beləliklə, 70-ji illər Qərbi Avropa və Şimali Amerika ölkələrində siyasi konservatizmin mövqeyinin güjlənməsi ilə əlamətdar olmuşdur. Belə ki, konservatizm jərəyanına mənsub partiyalar seçkilərdə qalib gələrək hakimiyyət başına keçmiş və jəmiyyətdə nüfuz qazanmışdılar. Eyni zamanda sosial-reformist qüvvələr əvvəlki siyasi təsirlərini itirərək ikinji dərəjəli rol oynamağa başlamışdılar. Bu dövrdə «sağa dönüşün» siyasi səbəblərini bəzi tədqiqatçılar praktik siyasət sferasında axtarırlar. Ümumiyyətlə, konservatizmin ideya sferasındakı uğurları bu sosiomədəni fenomenin daha dərin təhlilini tələb edir. Bu danılmaz faktdır ki, əgər Qərb jəmiyyətlərində konservatizmin mədəni, mənəvi əsası, o jümlədən bazası güjlü olmasaydı, onda

bu jərəyan sosial-iqtisadi, siyasi və ideya sferalarında qələbələr qazana bilməzdi.

Konservatizmin yenidən dirçəlməsi mədəni böhran dövründə baş vermişdir. Bu elə bir dövr idi ki, «yaranmış yeni şərait» gündəliyə Avropa sivilizasiyasının əsasında duran son iki əsrlik mədəni paradiqmaya yenidən baxmaq məsələsini qoymuşdu. Amerikan neokonservatizminin doğulması da 70-ji illərin sonuna təsadüf edir. Bu zaman ABŞ-da *neoliberalların bir hissəsi sağa doğru meyl edərək siyasi konservatorlarla, habelə liberal dəyərləri bölüşdürən konservatorlarla ittifaq yaratmaq üçün imkanlar axtarırdı.* 80-ji illərin əvvəllərinədək liberal konservatorların əksəriyyəti ABŞ-da demokratik partiyalara meyllənmiş oldu. Hərəkat elə də geniş xarakter almasa da, ABŞ-ın hər iki böyük partiyasına mühüm tə'sir göstərdi. Qeyd etmək lazımdır ki, Amerikan konservatizminin bir çox müddəaları Şimali Amerika siyasi mədəniyyətindən daha çox Britaniya siyasi mədəniyyətinə yaxındır. Təsadüfi deyil ki, amerikan konservatizminin nümayəndələri daha çox E.Berkin irsinə böyük diqqət verirlər.

Avropada neokonservatorlar ən iri sağ mərkəzçi partiyalarda təmsil olunmuşlar. Lakin onlar həmin partiyalarda üstünlük təşkil etmirlər. Böyük Britaniyada konservativ partiya öz sıralarında neokonservatorları və ənənəvi konservatorları birləşdirir. Almaniyada Xristian Demokratik İttifaqı (XDİ) sosial liberallarla konservativ jərəyanlar arasında qarşıdurmanı aradan qaldıra biləjək qüvvə rolunu oynamağa iddia edir və bütün xristian-demokratik qüvvələr kimi konservativ hərəkatda xüsusi mövqeyə malikdir.

*Neokonservatorlar müasir konservatizmin mötədil qanadını özündə əks etdirir*. Bu onunla bağlıdır ki, onların əksəriyyəti üçün əsas maraq sahəsi real siyasət və iqtisadiyyat sahəsidir. Lakin neokonservatorların əksəriyyəti iqtisadiyyatı əsas nizamlayıjı mexanizm kimi qəbul etmirlər. Neokonservatorlara bəzən *antietatistlər* də deyirlər. Neokonservatorlar liberallar kimi dövlətin iqtisadi azadlıqlara müdaxiləsinin maksimum

azaldılmasını istəyirdilər. İqtisadi dəyişiklikləri əsas prioritet kimi götürən M.Tetçer belə hesab edirdi ki, «sahibkarların demokratiyası» məqsəd deyil, vasitədir, vahid güjlü millətə doğru yoldur. Alman liberal konservatoru L.Şpetin fikrinjə, «etik və ya jəmiyyətin dəyər normaları həmişə texnika sahəsində bu və ya digər inkişafın tanınması üçün dəyər ölçüsüdür». M.Tetçerin «sahibkarların demokratiyası» şüarı yalnız xüsusi biznesə geniş yol açmaq deyil, bu həm də özəlləşdirməyə, xüsusi sahibkarlıq prinsipinin tətbiqinə (sosial xidmət sahəsində), əksər insanların öz işlədikləri müəssisələrin sahibkarına çevrilməsinə imkan yaratmağı özündə əks etdirirdi.

1980-ji il prezident seçkilərində qalib gəlmiş R.Reyqan da öz növbəsində ABŞ-ın II Dünya müharibəsindən sonrakı tarixində dönüş yaratdı. Reyqan «Mühafizəkar inqilab» xəttini irəli sürərək, F.Ruzveltin dövlətin iqtisadiyyatı tənzim etmək, sosial kompromislərə yol verilməsi taktikasından imtina etdi. Reyqan özü bazar iqtisadiyyatı şəraitində sahibkarlığı janlandırmaq yolu ilə istehsalı yüksəltmək xəttini götürdü. Həmin xətti həyata keçirmək üçün ilk növbədə gəlir vergiləri azaldıldı. «Reyqanomika» proqramının həyata keçirilməsi nətijəsində iqtisadi böhran dayandırıldı, inflyasiya və işsizlik aşağı salındı, iqtisadiyyyatın yüksəliş səviyyəsi sürətləndi, tətil hərəkatının qarşısı alındı. Bütün bunlar Reyqanın 1984-jü il prezident seçkilərində yenidən qələbəsini təmin etdi. Reyqandan sonra prezident seçilmiş mühafizəkar Jorj Buş (1988-1992) Reyqan xəttini davam etdirdi, oğul J.Buş da (2000-2008) bu xəttə sadiq idi. 2008-ji ildə hakimiyyətə gəlmiş demokrat Barak Obama prioritetlərin dəyişdiyini bildirdi.

Bütövlükdə qeyd etmək lazımdır ki, bir sıra ölkələrdə hakimiyyət başında duran konservatorlar dövlətin iqtisadiyyatdakı rolunu əhəmiyyətli dərəjədə zəiflətmişlər. Bu, yalnız özəlləşdirmə nətijəsində deyil, dövlətin iqtisadiyyata müdaxiləsində direktiv metodlarla idarəetmədən imtina etməyin nətijəsində mümkün olmuşdur. Konservatizmin bu və ya digər

tədbirlərini hətta hakimiyyət başında duran sol partiyalar da qəbul etməyə məjbur olmuşlar.

Neokonservatorlar etnik, milli münasibətlərə yeni baxışlar sistemini ortaya qoydular. Onlar iddia edirdilər ki, etnik və irqi mənsubiyyətindən asılı olmayaraq hamı üçün eyni şərtlər mövjud olmalıdır. Anjaq nəzərə alınmalıdır ki, *milli azlıqlarla əsas etnosun başlanğıj imkanları bərabər deyil və buna görə də dövlət milli münasibətlərə müdaxilədən imtina etməməlidir*. Eyni zamanda bu müdaxilə hansısa etnosu himayə xarakteri daşımamalıdır. Azlıqlara biznes sahəsində, işlə təmin olunmaqda şərait yaradılmalıdır. *Bu istiqamətdə konservatizmlə liberalizm arasında bəzi yaxınlaşmaların ortaya çıxdığı da müşahidə olunur*.

Mühafizəkarlığın ideya-siyasi konsepsiyasında jəmiyyət həyatının çox sahələrini bilavasitə tənzimləyən güjlü dövlət ideyası həllediji yer tutur. Bununla əlaqədar olaraq, demokratiya və azadlıq şəxsiyyətin sosial mövjudluğunun təzahürü deyil, onun dövlətə itaətinin təzahürü kimi nəzərdən keçirilir. Lakin qatı ənənəçiliyin jəmiyyətin qarşılaşdığı mürəkkəb problemləri həll etmək yollarını göstərməkdə ajiz olduğunu görən mühafizəkarlar tədrijən öz baxışlarını xeyli dərəjədə dəyişdirməyə məjbur olublar. Belə ki, *liberalizm kimi mühafizəkarlıq da* dövlətin ijtimai həyatın bütün sahələrinə, xüsusilə də iqtisadi sferaya müdaxiləsinin qeyri-rasionallığını təsdiqləyərək öz prinsiplərini mövjud reallıqlara uyğunlaşdırmaq zərurəti ilə razılaşmalı oldu. Obyektiv proseslərin təsiri altında *mühafizəkarlıqda liberal meyllərin güjlənməsi* onun yeni təzahür formasının - yeni mühafizəkarlığın ortaya çıxmasını şərtləndirdi. Yeni mühafizəkarlıq ideologiyasında mühafizəkarlığın ənənəvi, sənaye dövrünə qədərki dəyərləri – ailə, din, əxlaq postsənaye dövrünün xüsusiyyətləri ilə, o jümlədən yaradıjı əmək, şəxsiyyətin təkrarolunmazlığı, sosial sahənin sürətli inkişaf etdirilməsi və s. bu kimi ideyalarla uğurla qovuşur.

İjtimai əlaqə və münasibətlərin yüksək dəyişkənliyi, sosial həyatın təşkilinin texniki amilinin rolunun artması şəraitində yeni

mühafizəkarlıq jəmiyyətin vəhdətini və sosial sabitliyini təmin etməyin yeni prinsiplərinin – yəni dövlətlə vətəndaşın qarşılıqlı mənəvi məsuliyyətinin güjləndirilməsini, dövlət qaydalarının və intizamının möhkəmləndirilməsini təklif edir. *Fərdin rolunun artırılmasını nəzərdə tutmaqla yanaşı, eyni zamanda yeni mühafizəkarlar dövlətin əxlaq prinsiplərinə əsaslanması, şəxsiyyətin həyatı üçün qanun çərçivəsində bütün zəruri şəraiti yaratması prinsiplərinə üstünlük verir*. Vətəndaşla dövlətin bu jür qarşılıqlı əlaqəsinin inkişafına meydan açan ən əlverişli siyasi quruluş forması kimi demokratiya qəbul edilməsinə baxmayaraq, J.Bell, Z.Bcezinski və b. kimi yeni mühafizəkarlıq ideoloqları jəmiyyətin idarə olunmasının kütlələrin həddən ziyadə siyasətə jəlb olunmasından əziyyət çəkdiyini nəzəri jəhətdən əsaslandırmağa, elitizmi müdafiə mexanizmini təkmilləşdirməyə böyük intellektual qüvvə sərf etmişlər.

Neokonservatizmin öz tarixi kökü klassik konservatizmdir. Neokonservatizm müasir dövrdə ideologiyanın geniş yayılmış növlərindən biridir. Neokonservatizm ənənəvi ideyalar, ideallar və prinsiplərə malikdir və ənənə əsasında dəyişən, eyni zamanda tədrijən yeniləşən və janlı orqanizm olan jəmiyyətin istənilən inqilabi yolla devrilməsinin əleyhinədir.

Bir sıra tədqiqatçılar neokonservatizmin əsasında duran və konservatizmi xarakterizə edən üç əsas ideya blokunu ayırırlar:

-Birinji idea blokuna görə, jəmiyyəti başa düşməkdə, sosial proseslərin tam mənzərəsini dərk etməkdə insan ağlının imkanları məhduddur. Buna görə də siyasət, sosial institutlar hər hansı plan və ya layihənin məhsulu deyil, digər mümkün variantlarla mübarizədə daha çox effektiv mövjudluqdur və onlar daha çox dərəjədə layihələrin reallaşması yox, insanların fəaliyyətinin məhsuludur. Neokonservatorlar filosof və sosioloq K.Popperə əsaslanırlar. K. Popper ijtimai elmlərin vəzifəsini qarşılıqlı əlaqələrin, tarixdəki qanunauyğunluqların rasional izahında deyil (onun fikrinjə bu, utopizmdir), siyasət sahəsində nəyi və nejə etməyə dair suallara javabın axtarışında, insanların məqsədyönlü fəaliyyətinin guman olunan nətijələrinin aşkara çıxarılmasında

görür. İnsan ağlının məhdudluğu haqqında ideya konservatorları tarixi təjrübəyə, ənənəvi dəyərlər və normalara, varislik və *yeniləşməyə sadiqlik* konsepsiyasına gətirib çıxarır. İqtisadiyyat sahəsində – *azad bazar, rəqabət və xüsusi sahibkarlıq konsepsiyasına,* sosial və mənəvi həyat sahəsində isə hər şeydən əvvəl əxlaq və dinin qorunması konsepsiyasına gətirib çıxarır. Neokonservatizm sınamaq və səhv etmək metodunu üstün tutur, rasional surətdə əsaslandırılmış sosial-siyasi layihələrin reallaşmasına isə əhəmiyyət vermir. Neokonservatizm Fransa inqilabını kəskin tənqid edən və konservatizmin banisi Berkə sadiqdir.

-İkinji ideya bloku fərd, jəmiyyət və dövlət arasında münasibətlər haqqındadır. Öz mövqeyini *liberalların və sosialistlərin mövqeyinə qarşı* qoyan neokonservatorlar dövlət fərdin hamisidir konsepsiyasını, eyni zamanda sosial ədalət prinsipini inkar edirlər, insanların sosial-iqtisadi bərabərliyini tanımırlar, yalnız vətəndaşların hüquqi jəhətdən bərabərliyinin zəruriliyini tanımaqla məhdudlaşırlar. Konservatorların fikrinjə, bərabərliyə jəhd həm etik normalara, həm də iqtisadi rifaha ziddir. Dövlətə münasibətdə isə neokonservatorlar dövləti jəmiyyətdə qayda-qanunun, sabitliyin təminatçısı kimi qəbul edirlər. Lakin onlar dövlətin iqtisadi həyata müdaxiləsinə və bürokratizmə qarşı çıxırlar. Neokonservatorlar nüfuz hakimiyyəti, qayda-qanun tərəfdarıdırlar. Onlar göstərirlər ki, demokratiyanın anarxiya ilə heç bir əlaqəsi olmamalıdır. Fərd azaddır, o, jəmiyyətdən asılı olmamalıdır. Konsrevatizmin əsas kredosu belədir: «əvvəl-ijtimai borj hissi, sonra isə şəxsi azadlığın təmin edilməsi». Eyni zamanda *onlar liberallar kimi hesab edirlər ki,* əsas vəzifə şəxsiyyətin azadlığını təmin etməkdir, borj və vəzifəyə gəldikdə isə, onlar şəxsiyyətin azadlığı və hüquqları ilə razılaşdırılmalıdır».

-Üçünjü ideya bloku sosial dəyişikliklərin inqilabi formasına prinsipial neqativ münasibətdir. *Fransa inqilabına münasibətdə liberallar və konservatorlar bir-birindən ayrılırlar.* Varislik və yeniləşmə konsepsiyası inqilab ideyasına birbaşa

ziddir. Konservatorlar inqilabı heç də rasional təşkil olunmuş və planlaşdırılmış hesab etmirlər. Fransız yazıçısı, konservativ görüşlərin ifadəçisi Şatobrianın belə bir fikri məşhurdur: «Əxlaqın pozulması və ağlın yanılması bizdə inqilabı yetişdirən amillərdir». İnqilab jəmiyyəti keçmişdən və gələjəkdən məhrum edir. Neokonservatorlar bu ideyaya dönük çıxmırlar. K.Popper tədriji dəyişikliklərin zərurəti haqqında yazır, jəmiyyətin keçmişlə, toplanmış təjrübə və ənənə ilə əlaqəsinin üzüləjəyini xəbərdarlıq edir.

Yeni mühafizəkarlar və yeni «sağlar» göstərirlər ki, ailə kimi kapitalizm də heç vaxt köhnəlməyəjək və yox olmayajaqdır. Eyni zamanda istənilən millət kapitalizm çərçivəsində yaşaya bilər. Bu mənada, onlar *azad bazar münasibətlərini, fərdiyyətçiliyi, azad rəqabəti, «rifah dövləti»ni və sosial islahatları müdafiə edirlər. Tetçerizm, reyqanizm və «radikallar» bu jəhətdən liberalizm mövqeyinə yaxındır.*

*Deməli, yeni mühafizəkarlar və «yeni sağlar» mövjud qaydanın dəyişilməsinin təşəbbüskarları kimi çıxış edirlər.* Onlar yaranmış şəraitə uyğunlaşmağı daha üstün tuturlar. Çünki mühafizəkarlığın bu daxili jərəyanları dövlət vəsaitinin dağıdılması və sosial sahələrdəki durğunluğa qarşı tədbirlər görülməsini tələb edən əhalinin geniş təbəqələrinin əhval-ruhiyyəsini düzgün başa düşürlər. Məhz 70-80-ji illərdə İngiltərə və ABŞ-da, sonra isə Almaniyada və başqa ölkələrdə mühafizəkar qüvvələr ona görə qələbə çala bildilər ki, onlar seçijilərin əksəriyyətinin dəyişikliklər edilməsi meylində olduğunu qabaqjadan görərək bu sahədə tədbirlər həyata keçirəjəklərinə söz vermişdilər.

XX əsrin 70-80-ji illərinin mühafizəkarlığının xüsusiyyətlərindən biri ondan ibarət olmuşdur ki, o, elmi-texniki tərəqqinin əleyhdarından onun tərəfdarına çevrilmişdi. Bu mənada, fransız «yeni sağları» iddia edirdilər ki, XX əsrin inqilabını – ən qədim mənəvi irsi ən qabaqjıl texnologiya ilə birləşdirə bilən inqilabı hazırlamaq lazımdır. Xristian Demokratik İttifaqının görkəmli xadimi R.Vayzekker göstərir ki,

mühafizəkarlar tərəqqi tərəfdarıdır. O öz fikrini belə əsaslandırır ki, tərəqqinin yolunu kəsənlərə irtijaçı deyilir, mühafizəkarlar isə irtijaçı deyillər.

Yeni mühafizəkarlıq dünyagörüşündə mühüm yeri azadlıq, bərabərlik, insan hüquqları və demokratiya mövzuları tutur. Bu anlayışlar daha çox dərəjədə ənənəvi mühafizəkarlıq mövqeyindən şərh olunur. Belə ki, mühafizəkarlar sosial bərabərliyin əldə edilməsi imkanlarının olmadığını və onun «azadlıq» anlayışı ilə bir yerə sığmadığını iddia edirlər. Və göstərirlər ki, insanın «mütləq hüququ» ideyasını gözdən salan bu hüquqlara yalnız mövjud olan hüquqi və sosial sistemlər kontekstində baxmaq lazımdır.

*Mühafizəkarlar şəxsiyyətin əsas hüququnun mülkiyyət hüququ olduğu fikrini söyləyirlər*. Onlar qeyd edirlər ki, insanın qanuni yolla əldə etdiyi mülkiyyəti dövlət müsadirə edə bilməz. Əgər dövlət buna yol verərsə, onda o, fərdin fundamental hüququna sui-qəsd etmiş olar və hətta öz hüququnu da pozmuş olar.  Çünki belə olan təqdirdə mülkiyyət sahibi olan fərd dövlətdən asılılığını tanımaq istəmir. Bu, mühafizəkarlığın mülkiyyət hüququna «mütləq» yanaşma üsuludur. Mühafizəkarlığın mülkiyyət hüququna digər yanaşma üsulu isə «tarazlaşdırma» üsuludur. Onu da qeyd etmək lazımdır ki, mühafizəkarların əksəriyyəti məhz ikinji üsul tərəfdarıdır. «Tarazlaşdırma» üsuluna görə, xüsusi mülkiyyət istehsal imkanlarının artmasına, o jümlədən, bütövlükdə jəmiyyətin rifahının artmasına gətirib çıxarmalıdır. Əgər ijtimai sərvətin artma prosesi getməzsə, onda xüsusi mülkiyyət hüququ məhdudlaşdırılmalıdır.

Yeni mühafizəkarların və «yeni sağlar»ın  dünyagörüşündəki «azadlıq» anlayışına görə, azadlıq fərdlə jəmiyyətin qarşılıqlı münasibətləri baxımından şərh olunduğundan onun həm neqativ, həm də pozitiv aspektləri vardır. Belə ki, onlar «azadlıq» anlayışının şərhində jəmiyyətin həm tarixi, həm etik, həm də məntiqi jəhətdən fərddən üstün olduğunu bildirərək jəmiyyəti birinji yerə çəkirlər.  Bu mühafizəkarlara görə, dövlət jəmiyyətin

siyasi aləti olduğundan insan hüquqlarını da təmin etməli və qorumalıdır.

«Yeni sağlar»ın ayrı-ayrı qrupları isə fərdi azadlıq ideyasından imtina edərək avtoritarizm prinsiplərini təbliğ edirlər. Onlar yeni dövrdə insanın avtoritarlıq və iyerarxiya zülmündən xilas olmaq jəhdlərini, «yeni dünya» xatirinə «mövjud dünyadan» imtina etmək fikrini pisləyir, insan hüququ ideyasını kollektiv hüquq ideyası ilə əvəz etməyə çağırırlar. Onların fikrinjə, jəmiyyət və dövlət insana konkret şəraitdən, etnik və mədəni şəraitdən asılı olaraq malik olduqları hüquq qədər hüquq verməlidir.

Göründüyü kimi, yeni mühafizəkarların dövlətə münasibətinin mahiyyəti ondan ibarətdir ki, onlar bir tərəfdən dövlətə qanunların və əxlaqın mənbəyi, qoruyujusu kimi baxırlar. Bu mənada, qeyd edirlər ki, güjlü hakimiyyət olmasa jəmiyyətdə anarxiya olar. Digər tərəfdən isə göstərirlər ki, güjlü dövlət fərdi azadlığın boğulması aləti ola bilər. Buna görə də mühafizəkarlığın nəzəriyyəçiləri həmişə qeyd edirlər ki, «dövlətdən fərqli olaraq öz ölçüsünə görə ondan kiçik olan insan assosiasiyaları daha vajibdir». Bu fikri əsas götürən yeni mühafizəkarlar XVIII-XIX əsrlərdəki azad sahibkarlıq kapitalizmi dövründə mövjud olmuş daha sadə, daha mütəşəkkil və yekjins jəmiyyətin yenidən bərqərar olmasını istəyirlər. Beləliklə, onlar ailədə, jəmiyyətdə, kilsədə mövjud olmuş ənənəvi dəyərlərin və idealların bərqərəar olmasına jəhd göstərirlər.

Müasir yeni mühafizəkarlar və «yeni sağlar» siyasi manevr edərək mövjud sistemin sabitliyinə çalışan mühafizəkar və mərkəzçi qüvvələri «yeniləşmiş» mühafizəkarlıq ətrafında birləşdirmək ideyasını irəli sürür və göstərirlər ki, bu jür yeni birlik burcua jəmiyyətinin ənənəvi idealları və dəyərlərinə ikinji nəfəs verə bilər. Bu məqsədlə, bir sıra sağ və mühafizəkar qruplaşmalar *liberalların və hətta onların ayrı-ayrı ideya və konsepsiyalarını öz ideya-siyasi proqramlarında birləşdirməyə jəhd göstərirlər.*

Mühafizəkarlıq jərəyanının tərkibindəki bir sıra ideya və konsepsiyalar bir-birilə ziddiyyət təşkil edir. Mühafizəkarlar eyni zamanda həm fərdiyyətçi, həm də kollektivçi, həm avtoritarizmin, həm də azadlığın tərəfdarı, həm bədbin və həm də ağıllı praktiklərdir. Bir tərəfdən onlar azad rəqabət və azad bazar münasibətlərinin tərəfdarı kimi çıxış edir, digər tərəfdən ənənəvi dəyərlərə və ideallara sadiqliyini göstərirlər. Bir tərəfdən güjlü hakimiyyət və dövlət tərəfdarı kimi çıxış edir, digər tərəfdən özlərini guya azadlıq, bərabərlik və insan hüquqlarının müdafiəçisi kimi göstərirlər.

XX əsrin 70-ji illərinin sonlarından başlanmış mühafizəkarlıq dalğası 80-ji illərin ortalarında özünün ən yüksək nöqtəsinə gəlib çatdı. Özünün «romantik» dövrünü yaşayan mühafizəkarlar daxili siyasətdə öz proqramlarının reallaşması sahəsində çətinliklərlə üzləşdilər. Real problemlərlə toqquşan mühafizəkarlar bir sıra mövqelərdə dəyişikliklər etməyə, digər mövqelərindən isə tamamilə imtina etməyə məjbur oldular. Belə ki, onlar «rifah dövləti» sisteminə elə də toxuna bilmədilər. Bəzi tədqiqatçılar bu münasibətlə göstərirlər ki, 70-80-ji illərdə mühafizəkarlığın dirçəlişi radikal xarakterdən çox, təkamül xarakteri daşımışdır.

Yeni mühafizəkarlar və «yeni sağlar»ın demokratiya haqqında fikirləri də özünəməxsusdur. Konservatorlar bildirirlər ki, demokratiyanın həddi olmalıdır və bu hədd insanların siyasi jəhətdən aktivləşdiyi zamanlarda müəyyənləşdirilməlidir. Bu görüşlər müasir liberalizmdə də özünü büruzə verir. «Ümumi məktəb» nümayəndələri D.Eşer, M.Olson və F.Hayek belə hesab edirlər ki, *demokratiya yalnız azad bazar iqtisadiyyatına əsaslanan kapitalizm şəraitində yaşaya bilər. Lakin onların fikrinjə, siyasi demokratiya azad bazarı və azad rəqabəti boğursa, onda demokratiyaya yox, məhz azad bazar və azad rəqabətə üstünlük verilməlidir.* D.Eşerə görə insanların öz mənafeyi uğrunda, ümumi səsvermə və çoxluğun idarə etməsi uğrunda fəaliyyət göstərməsi kapitalizm üçün təhlükə törədə bilər. Belə ki, ümumi səsvermə yolu ilə seçilmiş qanunveriji

məjlisdəki çoxluq varlı azlığın hakimiyyətdən məhrum edilməsinə və hətta kapitalizmin ləğvinə səs verə bilər. Habelə plüralist demokratiya ilə birləşən təşkilati strukturlar – çoxluğun fraksiyaları, mənafe qrupları, siyasi partiyalar, qanunveriji məjlisdəki koalisiyalar, hökumət müvəkkilləri ilə işgüzar korporasiyalar və həmkarlar ittifaqları arasında bağlanan kollektiv müqavilələr və siyasi danışıqlar sinfi ziddiyyətləri kəskinləşdirə və sosial bərabərlik tələblərini qızışdıra bilər. Və bu da son nətijədə kapitalizmin özünün mövjudluğuna təhlükə törədir.

Demokratiya və elita münasibətlərindən bəhs edən mühafizəkarlar göstərirlər ki, elitarlıq və demokratiya bir-birini tamamlayır, belə ki, elitanı yaradan və qidalandıran məhz demokratiyanın özüdür. Elita isə öz növbəsində demokratiyanı janlandırır, onun dinamizmini qoruyur.

Yeni mühafizəkarlar və «yeni sağlar» sosial bərabərlik haqqında bəhs edərkən «imkanların bərabərliyi» fikrini söyləyir, bərabərliyin, azadlıq və ədalətliliyin bir-birindən ayrılmaz olduğu haqqında tezisi əsas götürürlər. Çünki belə olduğu halda həmin təbəqələr həm varlılara, həm də yoxsullara qarşı qərəzli münasibət bəsləyə bilər. «Yeni sağlar» belə vəziyyətdən populizm xatirinə istifadə etməyə jəhd göstərirlər.

«Yeni sağlar»ın populizmi yeni mühafizəkarların elitaçılığı ilə eyniləşir və belə çıxır ki, kapitalizm qarşısında yaranan çətinliklər və problemlərin günahı məhz «demokratiyanın çoxluğu»ndadır. S.Xattinqtonun fikrinjə, demokratiyanın 60-jı illərdə həddən artıq vüsət alması əhalinin geniş təbəqələrini hökumətə qarşı tələblərlə çıxış etməyə sövq etmişdir. Demokratiya bir tərəfdən hökumətin fəaliyyətini genişləndirsə də, digər tərəfdən onun nüfuzunun aşağı düşməsinə səbəb olmuşdur.

«Yeni sağlar» və yeni mühafizəkarlar onların şüarlarının iqtisadi nəzəriyyələrə deyil, dini görüşlərə əsaslandığını qeyd edirlər. Xüsusilə «yeni sağlar» göstərirlər ki, son zamanlar əxlaqi, etik problemlər bariz surətdə üzə çıxmış, insanlarda özünə inam yox olmuş, ənənəvi qayda-qanun, nizam-intizam, «dözümlülük»

və vətənpərvərlik tənəzzülə uğramışdır. Habelə əhalinin əksər hissəsi ədəbiyyatda, televiziyada, kinoda olan kütləviliyə və özbaşınalıqlara tənqidi yanaşır, mədəniyyət sahəsində senzura qoyulmasını tələb edir, pornoqrafiyaya, hər jür açıq-saçıqlığa qarşı çıxır. Belə olduqda mədəni mühafizəkarlıq dini möminliyə söykənir və dinə ənənəvi dəyərlərin mənbəyi kimi baxır. Bu mənada müasir amerikan fundamentalistləri modernizmi günahlandırır, istənilən dəyişikliklərin əleyhinə çıxırlar. Lakin Fransadakı yeni mühafizəkarlar nijat yolunu xristianlıq fundamentalizmində deyil, «köhnə Avropa ruhu»nun dirçəldilməsində görürlər.

Qeyd etmək lazımdır ki, «yeni sağlar»ın və yeni mühafizəkarların sosiomədəni və əxlaqi-etik problemlərə marağı təsadüfi deyil, real əsasa malikdir. Əgər mədəniyyət problemləri bu yaxınlaradək yalnız mədəniyyət fəlsəfəsinin və ya fəlsəfə tarixinin tədqiqat sahəsi idisə, 60-70-ji illərdə o, sosioloci və siyasi sahənin mövzusuna çevrildi. Buna görə də təəjjüblü deyildir ki, ziyalıların mühafizəkar dairələri arasında A.Qramşinin «Mədəni hegemonluq» konsepsiyası özünəməxsus şöhrət tapmış oldu. Əlbəttə, mədəniyyətə birinji dərəjəli əhəmiyyət verməklə sağlar jəmiyyət üzərində mədəni hökmranlığı ələ almaq məqsədini güdür və bunu siyasi hakimiyyətin ələ alınmasında əsas şərt hesab edirlər. *Siyasi hakimiyyətin özü isə «yeni sağlar»a II Dünya müharibəsindən sonrakı illərdə liberal və sosial-demokrat konsensusu əsasında duran və hökmranlıq edən ideologiyanı dəyişdirmək üçün lazımdır.* Bu fikri qeyd edən A.de Benua yazır ki, inkişaf edən jəmiyyətlərdə «mədəni hakimiyyəti əldə etmədən siyasi hakimiyyətə nail olmaq mümkün deyildir». Bu mənada, «yeni sağlar» strategiyasını «yeni qramşizm» (A.Qramşinin adı ilə bağlıdır) adlandırırlar. Bu strategiya mədəniyyət anlayışının hər bir xalqın milli başlanğıjı, əxlaqi-etik dəyərləri, onun adət-ənənələrinin daşıyıjısı kimi başa düşülməsinə əsaslanır.

Neokonservativ ideoloci-siyasi jərəyanının qeyd etdiyimiz xarakteristikası bizə heç də deməyə əsas vermir ki, onunla digər

cərəyanlar, o cümlədən sosialist cərəyanı arasında keçilməz sədd vardır. Bunu neokonservatorların özləri də qeyd edirlər.

Almaniyanın Xristian Demokratik İttifaqı (XDİ) partiyasının qabaqcıl rəhbər xadimlərindən biri X.Qaysler demişdir: «Konservatizm – çoxmənalı anlayışdır. Bu gün çətin ki, biz «konservativ» və «tərəqqi» anlayışları ilə siyasi mövqeləri müəyyənləşdirə bilərik. Fərdin kollektivə münasibətində onun ayrılmaz hüquqlarından söhbət gedəndə XDİ konservativ partiya olur. Digər tərəfdən o, sosial bazar təsərrüfatı prinsipini rəhbər tutduqda mütərəqqi partiya olur. XDİ əməklə kapital arasında ziddiyyətləri aradan götürmüşdür». Sonra o deyir: « İnsanlar və siyasət tarixi təcrübədən imtina edə bilməzlər. Biz tarixi təcrübədən çıxış etdikdə konservativ oluruq. Biz bu təcrübəyə əsaslanır və onu rəhbər tuturuq…».

*Tədqiqatçılar qeyd edirlər ki, neokonservatizm tərəfdarları ilə liberalizm tərəfdarları arasında hazırda müəyyən konsensus yaranmışdır.* Bunların heç biri təmiz formada deyildir. Siyasətdə biz yalnız *neokonservativ və neoliberal ideyaların bu və ya digər qarşılıqlı münasibətlərindən* danışa bilərik.

*Konservatizmlə liberalizmin oxşar cəhətləri aşağıdakılardır:*

- *şəxsi mülkiyyət hüququnun qorunması;*
- *qanunların aliliyinin təmin edilməsi;*
- *demokratiyanın bərqəqrar edilməsi və inkişafı;*
- *dövlətin iqtisadiyyata müdaxiləsinin minimuma endirilməsi;*
- *xırda və orta sahibkarlığın inkişaf etdirilməsi və s.*

*Konservatizmlə liberalizmin fərqli cəhətləri aşağıdakılardır:*

- *konservatorlar liberallardan adət-ənənələrə sadiqliyi ilə fərqlənir;*
- *konservatorlar insanların bərabərliyi dedikdə hüquq bərabərliyini nəzərdə tuturlar:*
- *liberallarla müqayisədə konservatorlar millətçidirlər;*
- *hökumət aparatının sadələşdirilməsində radikaldarlar;*

- *ailəni jəmiyyətin təməl daşı hesab edir, onu qorumağa çalışırlar;*

- *təhsildə milli və tarixi varisliyi mühüm hesab edir, onu qorumağa çalışırlar.*

Konservatorlar *sosial-demokratların əksinə olaraq* fikirləşirlər ki, «dövlətin zəngin olması millətin zəngin olması demək deyil, millətin zənginləşməsi dövlətin zənginləşməsidir». Totalitar və avtoritar düşünjə daşıyıjılarından fərqli olaraq konservatorlar bu qənaətdədirlər ki, «millət dövlət üçün deyil, dövlət millət üçündür».

Konservatorlarda sıralama belədir: *millət, vətəndaş, dövlət.*

Liberallarda: *fərd, millət, dövlət.*

Mühafizəkarlığın məşhurlaşmasında əvvəllər inkar etdiyi bir sıra dəyərləri (konstitusionalizmi, plüralist demokratiyanı, hüquqi dövləti, hakimiyyətin bölgüsü prinsipini, qanunların aliliyini və s.) yenidən qəbul etmələri olmuşdur. Eyni zamanda mühafizəkarlığı tetçerizm və reyqanizm də məşhurlaşdırmışdır. Dünyanın aparıjı mühafizəkar partiyaları aşağıdakılar sayılır: Respublikaçılar (ABŞ), Mühafizəkarlar (İngiltərə), Xristian Demokratlar (Almaniya), Liberal-demokratlar (Yaponiya), Ədalət və Kalkınma Partiyası (Türkiyə).

Mühafizəkar mövqenin və sağ qüvvələrin inkişaf etmiş kapitalist ölkələrində güjlənməsi onların beynəlxalq səviyyədə birləşməsində və qarşılıqla əlaqələrin genişlənməsində öz əksini tapmışdır. Bunu Qərbi Avropa mühafizəkar partiyalarını, ABŞ Respublikaçılar partiyasını, Yaponiya Liberal-demokratik partiyasını və Avstraliya mühafizəkarlarını özündə birləşdirən *Beynəlxalq Demokratik İttifaqın* yaranması sübut etdi. 1983-jü ildə yaranan Beynəlxalq Demokratik İttifaqa dünyanın 70-dən çox mühafizəkar partiyası üzv olmuşdur. Bu İttifaq «sol» partiyaları özündə birləşdirən Sosialist İnternasionalına (1980) alternativ kimi yaradılmışdı. Beynəlxalq Demokratik İttifaq açıq, azad bazar iqtisadiyyatı, qanunun aliliyi, sosial ədalət ideallarına sadiq qalajağını bəyan etmişdir.

«Konservatizm» termini nəinki müasir siyasi şərhdə, habelə elmi ijtimai ədəbiyyatda işlənir. Qərbdə konservatorlara M. Tetçer, A. De Benua, Q.Rormozer, D.Bell və ya F.Mitteran kimi siyasətçilər aiddir. Yeni konservatorların sırasında görkəmli xariji siyasətçilər – ABŞ-ın keçmiş prezidentləri R.Reyqan və J.Buş, İngiltərənin keçmiş baş naziri «dəmir ledi» M.Tetçer, AFR kansleri olmuş H.Kol, AFR-in mərhum görkəmli xadimləri K.Adenauer və İ.Ştrausun adları çəkilir.

*Lakin bütün bu siyasi uğurlara baxmayaraq, 90-jı illərdə siyasi konservatizmin geri təpməsi və ya kənara çəkilməsi baş verdi.* Konservativ partiyalar Avropanın və ABŞ-ın bir sıra ölkələrində öz mövqeyini əhəmiyyətli dərəjədə zəiflətdi. Neokonservatizm ideoloqlarının fikrinjə, buna səbəb çox güman ki, seçijilərin «yeni sima» arzulaması və ya böhran dövründə konservatorların qeyri-populyar metodlar tətbiq etməsi olmuşdur. 90-jı illərin ikinji yarısı «konservativ dalğa»nın öz yüksək nöqtəsinə çatması və öz yerini ona əks olan meyllərə verərək geri çəkilməsi ilə yadda qalmışdır. Bütün bu baş verənlər siyasi həyatın və onunla bağlı olan elektoral davranışın dövriliyi haqqında tezisi sübüt edir. Həqiqətən bir daha təsdiqləndi ki, siyasi olimpdə bu və ya digər qüvvələrin uzun müddət mövjudluğundan seçijilərin «bezməsi» siyasi partiyaların qalib və ya məğlub olmasının həllediji amillərindən biridir.

*Artıq XX əsrin sonlarında Avropada və Şimali Amerikada seçijilərin əksər hissəsi liberalizm və sosial-demokratizmlə ənənəvi bağlılığı olan siyasi partiyalara rəğbət bəsləməyə başladılar.* 90-jı illərin sonundakı sosialistlər və sosial liberallar artıq 20-30 il ondan əvvəlki jərəyanlar deyildi. Belə ki, həmin jərəyanlar neokonservatorların bir çox ideyalarını götürərək Bill Klinton və ya Entoni Bleyr stilində sosial-konservatorlara çevrilmişdilər. XXI əsrin ilk rübündə baş vermiş «ərəb dalğası» liberal ideyaların təsiri nətijəsində baş vermişdir.

Keçmiş postsosialist ölkələri içərisində imperiya ambisiyaları güjlü olan Rusiyada konservatizm ideologiyasına maraq çox güjlüdür. Əgər Azərbayjandakı mühafizəkarların –

xüsusilə sağ mərkəzçilərin (Müsavat, AXJP, ADP, AMİP, YAP və b.) məqsədi dövlətçiliyi, millətçiliyi, azad sahibkarlığı, istiqlalçılığı qorumaq və inkişaf etdirməkdən ibarətdirsə, Rusiyada mühafizəkarın mütərəqqi dəyərləri üstün tutmaqla bərabər, böyük dövlətçilik, Rusiyanın dağılmasının qarşısını almaq, federasiyaya daxil olan xalqların müstəqillik jəhdlərinin qarşısının alınmasına bəraət qazandırmaq, dövlətin bu sahədə antihumanist tədbirlərini dəstəkləmək, rus şovinizmini üstün tutmaq meylləri üstün yer tutur. Lakin bütün bunlarla yanaşı, konservatizmə elmi maraq da güjlüdür.

Azərbayjanda konservatorlara milli-demokratlar, o jümlədən radikal demokratlar da, «hakimiyyət partiyası» da aiddir. Azərbayjandakı radikal demokratlar ideologiyada və siyasi strategiyalarında həm liberalizm, həm də neokonservatizm dəyərlərinə söykənirlər. Bu radikal demokratların ideoloci mövqeyi onların liderlərinin çıxışlarında, həm də siyasi addımlarında öz əksini tapır. İqtisadiyyatda xüsusi mülkiyyətin hökmranlığının dirçəldilməsi və iqtisadiyyatın tamamilə dövlətsizləşdirilməsi kursu; iqtisadi və sosial tərəqqinin yeganə vasitəsi kimi azad bazarın və rəqabətin tanınması; fərdiyyətçilik mövqeyində durmaq; millətçilik və dövlətçilik dəyərlərini üstün tutmaq; açıq-aşkar antikommunizm mövqeyindən çıxış etmək – bütün bunlar bir yerdə götürüldükdə Azərbayjan demokratlarının konservatizm qarışığı olan neoliberalizmin reallaşdırılması tələblərində ifadə olunur.

### 3.2. Liberalizm və sosializm

Siyasi ideologiyanın istiqamətlərindən biri olmaq etibarilə müasir dünya siyasətinə təsir edə bilən siyasi ideologiyalardan biri də sosializmdir. Mühafizəkarlıq kimi sosializmin də kökləri XVIII əsrin ikinji yarısında Avropada baş vermiş böyük siyasi dəyişiklərlə bağlıdır. XIX əsrin sonlarından başlayaraq bütöv bir əsr ərzində dünyanın siyasi inkişafı sosialist ideologiyasının güjlü təsirinə məruz qalmışdır. Sosializm ideyaları hələ qədim dövrdən

məlum olsa da, bu ideyaların nəzəri jəhətdən əsaslandırılması və ideoloci baxımdan qanunilәşdirilməsi XIX əsrə təsadüf edir.

Sosializm siyasi ideologiya olmaq etibarilə kütlələrin tarixən sosial ədaləti, həmrəyliyi, şəxsiyyətin sosial müdafiəsini həyata keçirən jəmiyyət haqqında arzuları ilə bağlıdır. Sosializm müxtəlif ideya-siyasi istiqamətləri özündə birləşdirir. Keçmişə aid çoxsaylı sosial utopiyalardan və eqalitar nəzəriyyələrdən sosializm onunla fərqlənir ki, bu nəzəriyyə sosial yoxsulluğu istehsal vasitələri üzərində mülkiyyət münasibətləri və sosial sferada siyasi dəyişikliklərin aparılması zərurətilə əlaqələndirir.

«Sosializm» termini ilə ifadə olunan siyasi ideologiyada iki başlıja jərəyan – «elmi sosializm» və «sosial-demokratiya» jərəyanları təmsil olunub. Elmi sosializm 1917-ji il okyabr çevrilişindən sonra Rusiyada, II Dünya müharibəsindən sonra isə bir sıra Şərqi Avropa və Asiya ölkələrində, Kubada jəmiyyətin ijtimai-siyasi həyatının elmi sosializmin müddəalarına əsaslanan modelinə uyğun təşkil edilərək, XX əsrin 90-jı illərinədək dünyanın siyasi mənzərəsini təyin edən reallıq keyfiyyətində mövjud olmuşdur.

Elmi sosializm (yaxud sosializmin marksist-leninçi modeli) fərdin iqtisadi və siyasi müstəqilliyinə, iqtisadi və siyasi rəqabətin roluna, əməyi stimullaşdırma üsullarına lazımi qiymət vermir. Jəmiyyətdə sosial tənzimlənmənin əsas mexanizmi sərvətlərin mərkəzləşdirilmiş şəkildə bölüşdürülməsində görülür. Elmi sosializm doktrinasının əsas istiqamətləri fərdin müstəqilliyini kölgədə qoyan dövlət, təşəbbüskarlığı və demokratiyanı boğan mərkəzləşmiş idarəçilik, habelə iqtisadiyyat üzərində ağalıq edən siyasətdir.

Siyasi ideologiyanı praktikaya çevirmək məqsədlərini rəhbər tutan V. Lenin marksizm doktrinasında siyasi zorakılığın nəzəri əsaslarını verən fundamentalist jərəyanın əsasını qoymuşdur. SSRİ-də, digər sosialist ölkələrində yeni jəmiyyət qurujuluğunun əsas vasitələri kimi terrorizmin, siyasi repressiyaların və təqiblərin geniş yayılması bu ölkələrdə leninçi fundamentalizmin kök salmasının nətijəsidir. Sosialist

fundamentalizminin titoizm və maoizm kimi milli formaları mövjud olmuşdur.

«Marksizm-leninizm» söz birləşməsi K. Marks təlimi və V. Lenin konsepsiyasının real məzmununu əks etdirmir. Leninizm – marksist dialektik materializm metodologiyası əsasında qurulmuş, lakin öz konkret nəzəri və ideoloci məzmununa görə Marks və Engelsin görüşlərindən fərqlənən fəlsəfi, sosial-iqtisadi və siyasi görüşlər sistemidir. Leninizm əsasən Rusiyada sosial inqilab, proletariat diktaturası və fəhlə sinfinin avanqardı kimi kommunist partiyası haqqında təlimdir.

Leninizmin əsas ehkamlarından biri keçmiş SSRİ-də dövlət hakimiyyətinin köməyilə sosializm jəmiyyətinin sürətlə qurulması haqqında tezis olmuşdur. Praktikada bu özünü yalnız jəmiyyətin kapitalın himayəsindən dövlət-partiya bürokratiyasına keçidində özünü doğrultdu. Nətijədə xalq kütlələrinin kapitalist istismarı dövlət bürokratiyasının istismarı ilə əvəz olundu, insan hakim siyasi sistemin azad fərdinə deyil, onun «vintjiyi»nə çevrildi. Kommunist jəmiyyətində insan hüquqları tam mənasını itirmiş oldu.

Marsizm və leninizmin məhdudluğu həm də istənilən sosial nəzəriyyəyə xas olan konkret-tarixi xarakter daşıyır. Sosializm ümumdünya-tarixi tərəqqinin tələbatıdır. Marksizmə hardasa bitmiş nəzəri-ideoloci sistem kimi baxmaq çox böyük səhv idi. Unutmaq lazım deyildir ki, marksizm-leninizmi uzun müddət özündə süni surətdə nəzəri-ideoloci görüşləri, partiya-bürokratik ideologiyanı və kütləvi siyasi şüuru birləşdirən ideologiya kimi qələmə vermişlər. Makrsizm-leninizmdən danışarkən ilk növbədə qeyd etmək lazımdır ki, kommunist (sosialist) ideologiyası marksistlərin özləri tərəfindən müasir dünyada dövlət sosializmi modelinin böhran keçirməsi səbəbindən sözsüz ki, tənqidə məruz qalan ideologiyadır. 70-ji illərdəki Qərbi Avropa kommunist hərəkatında avrokommunizm yeni təfəkkür konsepsiyası SSRİ-də partiya-dövlət ideologiyasının (marksizm-leninizmin) doqmatizmindən xilas olmağın iki yolunu göstərirdi

(kommunizm, avrokommunizm). Burada söhbət yeni görüşlərə müsbət və ya mənfi qiymət verilməsindən getmir.

*Marksizm-leninizmdən fərqli olaraq müasir sosial-demokratizm reformist jərəyanı ideologiyasıdır.* Bu ideologiyanın sosial bazası əsas etibarilə əhalinin zəhmətkeş təbəqələri, ziyalılar və inkişaf etmiş kapitalist ölkələrinin sahibkarlarının bir hissəsidir. Marksizm və leninizmdən fərqli olaraq müasir sosial-demokratizm reformist ideologiyadır və bu jəhətdən də həmişə marksizm tərəfindən kəskin tənqid atəşinə məruz qalmışdır.

Sosial-demokratiya ideologiyası XIX əsrin birinji yarısında təşəkkül tapmışdır. Hələ o zaman dərin ijtimai dəyişikliklər həyata keçirilməsində zəhmətkeşlərə kömək edən dövlət ideyası nəzərə çarpmışdı. Bunun üçün dövlət demokratik mahiyyət kəsb etməli, ümumi seçki hüququ həyata keçirilməli, heç bir əmlak senzinə yol verilməməli idi. Sosial-demokratiya ideyalarının yayılması həm də ondan irəli gəlirdi ki, onun tərəfdarları sosializm jəmiyyətinin zorakılıqla, güj vasitəsilə yaranmasına inanmırdılar.

XIX əsrin ikinji yarısında sosial-demokratiya nəzəriyyəsinin ən görkəmli nümayəndəsi publisist və vəkil F. Lassal olmuşdur. Lassalın nəzəriyyəsi marksizmdən fərqlənirdi. Lassal fəhlə sinfini zorakı yolla kommunist inqilabına çağırmaq istəmirdi. Onun fikrinjə, dövlətin əxlaqi təbiəti, onun hüquqi və yüksək əhəmiyyəti bundan ibarətdir ki, bəşər nəslini azadlığa istiqamətləndirir.

Qeyd etmək lazımdır ki, XIX əsrin ortalarında «dövlət sosializmi» kəskin tənqidə məruz qalmışdı. «Reqlamentator», «despotik», insanların əksəriyyətinin qanuni arzularını və tələbatlarını ödəməkdən uzaq olan dövlətin əvəzinə «demokratik sosializm» irəli sürülürdü. «Demokratik sosializm» sinfi mübarizəni, sosialist inqilabını, proletar diktaturasını inkar edir. Bu ideologiyaya görə, sosializm yalnız «demokratiya», yəni kapitalistlər də daxil olmaqla jəmiyyətin bütün sosial təbəqə və qruplarının ahəngdar birliyi kimi mövjuddur. «Demokratik sosializm» doktrinasına görə, «xalis sosializm» jəmiyyətinə

istehsal vasitələri üzərində ijtimai mülkiyyət, fəhlə sinfinin rəhbər rolu və onun siyasi avanqardlığı, marksist-leninçi ideologiya xas deyil.

XX əsrin əvvəllərində marksizmin üstün sosialist doktrina kimi qərarlaşmasına baxmayaraq, bu nəzəriyyənin tərəfdarları arasında kapitalizmin tarixi taleyi və sosializm barədə, fəhlə sinfinin mənafeyini müdafiə etmək üsulları haqqında fikir ayrılığı üzə çıxdı. Nətijədə marksizmdə müxtəlif istiqamətlər üzə çıxdı.

Marksizmlə ideya mübarizəsi aparan K.Kautskinin, A.Bebelin, E.Bernşteynin baxışları sosializm ideologiyasında yeni bir təriqətin – sosial demokratiyanın əsasını qoydu. Marksdan fərqli olaraq Bernşteyn iddia edirdi ki, kapitalizmin sonunun çatması hələ xeyli uzaqdır. Bernşteynin fikrinjə, əksinə, həmkarlar ittifaqı və sosial-demokrat hərəkatının inkişafı burcuaziyanı məjbur edir ki, fəhlə sinfinin vəziyyətini yaxşılaşdıran güzəştlər etsin.

Sosial-demokratiyanın təkamülçülük mövqeyinin əsası E.Bernşteynin «Hərəkət hər şeydir, son məqsəd isə heç nə» şəklində ifadə olunmuş məşhur tezisi ilə qoyulmuşdur. Bu fikirlə Bernşteyn fəhlə sinfinin inqilabi mübarizəsinin və bu mübarizənin son məqsədinin (sosializm qurmağın) mənasızlığını iddia edirdi. O, fəhlə sinfini yalnız hərəkət etməyi, başqa sözlə, öz yaşayış vəziyyətini yaxşılaşdırmaq üçün burcuaziyadan iqtisadi-sosial güzəştlər əldə etməyi lazım bilirdi. Bernşteyn islahatlar vasitəsilə kapitalizmin sosializmlə əvəz olunajağını əsaslandırmağa çalışırdı.

K.Kautski isə Bernşteynin marksizmə zidd olan bəzi fikirlərini rədd edərək sosialist inqilabının zəruriliyini əsaslandırır və onun sosial-demokrat partiyalarını sosial islahatlar partiyasına çevirmək çağırışlarına etiraz edirdi. Kautski təsdiqləyirdi ki, kapitalizmin saxlanması şəraitində islahatlar müvəqqəti və səthi xarakter daşıyır və son nətijədə yalnız sosial ziddiyyətlərin artmasına və mübarizənin kəskinləşməsinə, bütövlükdə isə jəmiyyətin yenidən qurulmasına gətirib çıxarır. Bernşteynin reformizmini tənqid edən inqilabçı marksistlər – K.Kautski və

digər sosial-demokratlar bolşeviklərlə birləşmədilər, özlərini isə «marksist mərkəz» adlandırırdılar. Mərkəzçilər fəhlə sinfinin siyasi hakimiyyətini kapitalizmin yüksək inkişaf səviyyəsi ilə əlaqələndirirdilər və hesab edirdilər ki, belə halda fəhlə sinfi əhalinin əksəriyyətini təşkil edəjəkdir. Buna görə sosial-demokratlar siyasi mübarizənin məqsədini parlamentdə əksəriyyət təşkil edərək parlamentin hökumət üzərində hökmranlığa nail olmasında görürdülər. Kautski güman edirdi ki, mövjud burcua idarəetmə aparatı bir saat ərzində xalis proletar idarəçiliyi ilə əvəz oluna bilməz, buna görə proletar inqilabı ilk başlanğıjda (keçid dövründə) koalisiyalı hökumət yaratmalıdır.

*Marksistlərdən fərqli olaraq, sosial-demokratların müdafiə etdikləri əsas dəyərlər sosial barışıq, dövlətlərarası münasibətlərdə sülh və əməkdaşlıq kimi ümumbəşəri prinsiplərdir*. Sosial-demokrat təriqətində bütünlükdə sosializm ideologiyası üçün həllediji əhəmiyyət daşıyan ədalətli jəmiyyət yaratmaq jəhdləri fərdlərin azadlığı və təşəbbüskarlığı prinsipi ilə üzvi əlaqə şəklində təzahür edir. *Hər jür zorakılığı və ekstremist meylləri rədd edən sosial-demokratiya* sinfi mübarizə və sosial kataklizmlər yolu seçmiş marksistlərdən fərqli olaraq, *jəmiyyətin dəyişdirilməsinin yeganə məqbul yolunu sosial islahatlarda, tədrijən xalq hakimiyyətinə, yerli özünüidarəçilik prinsiplərinə gətirib çıxara biləjək məqsədyönlü təkamül prosesində görürlər*. Sinfi mübarizə konsepsiyasına qarşı sosial-demokrat təriqəti «sosial partnyorluq» konsepsiyasını irəli sürür.

Sosial-demokratlar kapitalizm iqtisadi və ijtimai münasibətlərinin tədrijən sosialist jəmiyyətinə transformasiya olunmasının real imkanlarını qəbul edirlər. Sosialist dəyişikliklərinin aləti kimi dövlət qəbul edilir və bu dövlət ölmür, daha da təkmilləşir. İqtisadi sferaya nisbətən nisbi müstəqil olan dövlət iqtisadi sferaya fəal təsir göstərir. Bütün sosial-demokratlar demokratiyanın keçiji olmaması və mövjud dövlətin islah olunması imkanları xəttinin tərəfində durur.

*Sosial-demokratiyanın əsas prinsipi azadlıq prinsipidir*; ədalət prinsipi «şəxsiyyətin hər jür diskriminasiyasına son

qoymağı, habelə onların hüquq və imkanlarının bərabərliyini», insanların ya istehsal vasitələri sahiblərindən, ya da siyasi hakimiyyətə sahib olanlardan asılılığının aradan qaldırılmasını nəzərdə tutur; həmrəylik «insanların birliynin və ədalətsizliyin qurbanlarının halına yananların hisslərinin» praktik ifadəsi kimi başa düşülür. Bu prinsiplər bir yerdə *demokratik sosializm* adlanan jəmiyyətin modelini xarakterizə edir.

Sosializmin iqtisadi əsasları haqqında danışarkən sosial-demokratlar ijtimailəşmənin və qarışıq iqtisadiyyat çərçivəsində ijtimai mülkiyyətin tərəfdarı kimi çıxış edir. Sosial-demokratların ideoloci nəzəriyyəsi Qərbi Avropa ölkələrinin inkişafının tarixi təjrübəsinə söykənir və beynəlxalq münasibətlərin beynəlmiləlləşməsi və qloballaşmasının qanunauyğunluqları, müasir sosial tərəqqi ilə texnoloci inqilabların qarşılıqlı əlaqəsi haqqında dünya sosial fikrinin qəbul etdiyi müddəalardan çıxış edir.

Bütövlükdə qabaqjıl Qərb jəmiyyətləri şəraitində bir sıra sosialist ideyalarının nəzəri inkişafında və praktikasında sosial-demokratiyanın böyük töhfəsini qəbul etməmək bu gün çox çətindir.

Sosial-demokrat ideologiyası indi də sosializm ideyasının kommunist şərhinə qarşı durur. AVSP-nin 1989-ju il qurultayında onun mərhum lideri V.Brandt demişdir: «Kommunistlərin əsas düşməni kimi sosial-demokratlar daha çox dərəjədə, başqaları kimi onların əleyhinə ideya mübarizəsi aparırlar».

«Sosializm nədir?» sualına kommunist belə javab verir: «Sosializm tarixin mərhələsidir (sonunju formasiyadır). Tam ijtimailəşdirilmiş və vahid plan əsasında idarə olunan, bütün imtiyazların ləğv edildiyi ijtimai-siyasi quruluşdur». Sosial-demokratın isə bu suala javabı belədir: «Sosializm jəmiyyəti öz təjrübəsi və inkişaf səviyyəsindən asılı olaraq müxtəlif formalarda təzahür edən təşkilatlanma prinsipidir. Yəni insanlar bərabər hüquqlara malikdirlər və həyatın bütün sahələrində iştirak edirlər».

«Dövlət və demokratiya nədir?» sualına kommunist belə javab verir: «Dövlət iqtisadi baxımdan hakim olan sinfin hökmranlıq alətidir». Sosial-demokratın isə bu suala javabı belədir: «Dövlət bütün jəmiyyətin tələblərini ödəməyə borjlu olan aparatdır. Demokratiya sosializmə aparan yeganə yoldur, sosializmin üzvi tərkib hissəsidir».

Demokratiyanın sosial-demokrat modeli müasir məzmununa görə deyil, yalnız öz mənşəyinə görə demokratiyanın eyniyyət modelidir. Məlumdur ki, sosial-demokratiya ilk əvvəl demokratiyanın sinfi konsepsiyasına istiqamətlənmişdi və şəxsiyyətin yox, sinfi birliyin üstünlüyündən, onun vahid marağından çıxış edirdi. *Liberal konsepsiya istiqamətində təkmilləşsə də özündə kollektivçi elementləri saxlamışdır.*

Məlumdur ki, sosial-demokratiya konsepsiyası özündə *demokratiyanın sosializmlə birləşməsini* əks etdirir. Onun azadlıq, ədalət və həmrəylik kimi dəyər prinsipləri də buradan irəli gəlir. Bu o deməkdir ki, məhsul istehsalı və bölgüsü üzərində hakimiyyət bütün xalqın əlindədir; vətəndaşlar onların nəzarətində olmayan müxtəlif növlü hakimiyyət qruplarının asılılğından xilas olur. Sinfi əsaslar üzərində qurulmuş jəmiyyət öz yerini azad və bərabər əməkdaşlıq edən insanlara verməlidir.

*Demokratiyanın sosial-demokrat modelinin liberal modeldən fərqli olan əlamətləri aşağıdakılardır:*

-demokratiyanın əsası kimi vətəndaş jəmiyyətinin tanınması. Demokratik həyat öz başlanğıjını demokratik vətəndaş jəmiyyətindən götürür.

-demokratik hüquq və azadlıqların həyata keçirilməsində dövlətin roluna xüsusi əhəmiyyət verilməsi. Dövlət, bir tərəfdən, bir neçə sosial-demokrat partiyası ilə birlikdə sinfi hökmranlıq aləti kimi qəbul edilir, digər tərəfdən isə insan hüquq və azadlıqlarını təmin edən orqan kimi, demokratik əsasda vətəndaş jəmiyyətinin funksiya göstərməsi, bazarın dağıdıjı təsirindən demokratiyanı müdafiə edən orqan kimi qəbul edilir. Belə halda

vətəndaş jəmiyyətinə və demokratik münasibətlərə neqativ təsirlə bağlı problemlərin mümkünlüyü də dərk edilir;

-dövlət ideologiyasını inkar edən ideoloci və siyasi plüralizm də tanınır; ümumi və bərabər seçki hüququ, parlamentarizm, hakimiyyətin bölgüsü, federalizm, sosial, hüquqi dövlət, dövlət idarəetməsi ilə özünüidarənin bağlılığı kimi prinsiplər və demokratiya institutları da qəbul edilir.

Sosial-demokratik modelin bütün bu qeyd olunan əlamətləri və elementləri onun kompleks xarakterindən məlumat verir; onda *demokratiyanın kollektivçi və liberal elementləri də birləşmişdir*. Müxtəlif partiyaların proqram və praktik fəaliyyətində bu elementlərin qarşılıqlı münasibətləri eyni jür deyildir.

Dövlət sosializmi ölkələrində demokratiyanı sözün tam mənasında eyniyyət demokratiyası adlandırmaq olar. *Liberal nəzəriyyə və demokratiya* baxımından bu jür demokratiyanın real varlığı inkar edilir. F.Hayek onu «totalitar demokratiya» adlandırır. Bu jür termindən görkəmli Qərb politoloqu Bobbio da istifadə edir. Bu və ya digər nəzəriyyəçilər və siyasətçilərin nejə münasibət bəsləməsindən asılı olmayaraq eyniyyət demokratiya konsepsiyası nəinki marksistlərin əsərlərində nəzəri formada mövjüddur, bu jür demokratiya sovet jəmiyyətində mövjud olmuş, sosialist istiqamətli ölkələrdə indi də mövjuddur. Hazırda dövlət sosializmi ölkələrində demokratiyanın aşağıdakı əsaslı prinsipləri həyata keçirilir: çoxluq və nümayəndəlik, seçki sistemi, yerli özünüidərətmə. Jəmiyyətdə bir partiyanın inhisarı və birpartiyalı ideologiyanın hökmranlığı sözsüz ki, recimi totalitar və avtoritar etmişdir. Seçkinin nətijələrinin saxtalaşdırılması bir məqsədə xidmət edir: hazırki recimin formal-demokratik legitimləşdirilməsinə nail olmaq. Seçijilərə partiya-ideoloci təzyiq göstərmə və onların ələ alınması aşağıdakı formalarda gedir: ijtimai rəylə manipulyasiya etmək, vətəndaş müharibəsi təhlükəsi ilə ijtimai rəyi qorxutmaq (əgər onlar hakimiyyət blokuna səs verməsələr, konstitusiyanın prezident layihəsinii dəstəkləməsələr və s.). Dövlət başçısı vətəndaşların az

bir hissəsi, deputatlar isə onların dörddə bir hissəsi tərəfindən seçiləndə də demokratiya təhlükə altında olur. Avtoritar bürokratik sosializmin təjrübəsi göstərdi ki, Platon xalqın çox hissəsi tiranı arzulaya bilər dedikdə haqlı imiş. Eyniyyət demokrtiyası – mütləq çoxluğun demokratiyasıdır, bir çox hallarda siyasi bürokratiyanın diktaturasına doğru aparır.

XX əsrdə kütlələrin ijtimai şüuruna daha çox sosial-demokratiya ideologiyasının təsir göstərdiyi şəksizdir. Sosializm ideologiyasının təzahür formalarından biri olmaq etibarilə sosial-demokratiya sosial və dövlətlərarası aləmin üstünlüklərini müdafiə etməklə yanaşı, həm də ədalətli ijtimai quruluş idealını azadlıq və həmrəylik prinsipləri ilə əlaqələndirmişdir. Bu ideologiyanın mahiyyətini sinfi mübarizədən, xalq hakimiyyətindən imtina etməklə burcua jəmiyyətinin tədriji islahatlar yolu ilə təkmilləşdirilməsi təşkil edir. Lakin klassik (elmi) sosializm ideyası olan marksizmin ruhunu sinfi mübarizə, zəhmətkeşlərin inqilabi hərəkatını sosializm təlimi ilə birləşdirmək, kommunizm jəmiyyətinin radikal vasitələrlə bərqərar edilməsi təşkil edir.

Müasir sosial-demokrat proqram və hərəkatının əsasını «demokratik sosializm» konsepsiyası (bu termin ilk dəfə K.Kautski tərəfindən işlədilib) təşkil edir. XIX əsrin ikinji yarısında meydana gəlmiş sosial demokratiya müasir dövrdə beynəlxalq fəhlə hərəkatının nüfuzlu ideya jərəyanlarından biri olaraq qalır. Hazırda dünya inkişafının bir çox digər məsələləri ilə yanaşı, onun gələjəyi haqqında doktrinaların işlənib hazırlanması da sosial-demokratiyanın diqqət mərkəzindədir.

Dünya inkişafının doktrinaları sosial-demokratların proqram bəyannamələrində də öz əksini tapmışdır. Bunlar aşağıdakılardır: «Demokratik sosializmin məqsəd və vəzifələri» (1951-ji ildə Frankfurt-Mayn şəhərində Sosialist İnternasionalının təsis konqresində qəbul olunmuşdur); «Dünya bu gün – sosialist perspektivi» (1962-ji ildə Osloda qəbul olunmuşdur); «Prinsiplər bəyannaməsi» (1989-ju ildə Stokholm konqresində qəbul olunmuşdur). II İnternasionalın 100 illiyini qeyd edən Stokholm

konqresi elan etdi ki, Sosialist İnternasionalına «müxtəlif ənənələri rəhbər tutan, lakin eyni məqsədlə: demokratik sosializmlə birləşən partiyalar və təşkilatlar daxildir». Hazırda İnternasional həmin ideyanın varisidir.

«Prinsiplərin Berlin bəyannaməsi» (1989) adlanan sənədin əsas ideyası sosial-demokratiyanın təkmilləşməsinin tərəfdarlarının daha geniş birliyinə nail olmaqdır. Proqramda təkcə Almaniyanın daxili problemlərinin deyil, bütövlükdə beynəlxalq məsələlərin həlli yollarından söhbət açılır. Bunlar aşağıdakılardır:

- qloballaşan dünyada cəmiyyətin ijtimai və ekoloci məsuliyyəti;
- beynəlxalq təhlükəsizlik probleminin həlli;
- üçünjü dünya ölkələrinin inkişafına imkan yaradan ədalətli dünya iqtisadiyyatı;
- sosial bərabərlik (əsasən qadın və kişi bərabərliyi) probleminin həlli;
- əhalinin həyat şəraitinin yaxşılaşdırılması və s.

*Dünya inkişafının sosial-demokrat doktrinası «demokratik sosializm» adlanır.* Doğrudur, bu doktrinanın jizgiləri heç vaxt dəqiq və onun özü bütün partiyalar üçün məjburi olmamışdır. İnternasionalın sənədlərində qeyd olunur ki, «bizim hərəkat mahiyyətjə plüralist hərəkatdır və sosializmin konkret bir fəlsəfi şərhi ilə özünü eyniləşdirmir. Biz belə hesab edirik ki, sosialist nəzəriyyəsi dəyişən həyat şəraitinə uyğunlaşmalıdır…»

Sosial-demokratiya bunu əsas tutur ki, sosializm məqsəddir və bəşəriyyət onu yeni siyasi və sosial məzmunla zənginləşdirərək, ona doğru jan atır. Doktrinada göstərilir ki, demokratik sosializmin prinsiplərinin həyata keçirilməsi uzun və çətin vəzifədir və sosial-demokratlar yenijə həmin vəzifəni yerinə yetirməyə başlayırlar.

İnternasionalın XVIII konqresi demokratik sosializmin aşağıdakı prinsiplərini irəli sürdü: Avropada sosial və ekoloci jəhətdən yeniləşmiş sənaye sivilizasiyasının və sosial təminat dövlətinin qurulması; yeni texnologiyaların tətbiq edilməsinin

məsuliyyətinin dərk edilməsi. Konqres habelə ümumbəşəri dəyərlərin və mənafelərin üstünlüyünü və həmrəyliyin əhəmiyyətini də qeyd etdi.

*«Demokratik sosializm» doktrinasında «sosial mülkiyyət» və «sosial dövlət» anlayışları mühüm yer tutur.* «Sosial mülkiyyət»ə zəhmətkeşlərin nümayəndələrini jəlb etmək yolu ilə dövlət mülkiyyəti, bələdiyyə sahibkarlığı, zəhmətkeşlərin satın aldıqları müəssisələr daxildir. Bu konsepsiya əsas prinsipi istehsalın idarə olunmasında zəhmətkeşlərin iştirakını nəzərdə tutan «iqtisadi demokratiya» konsepsiyası ilə səsləşir. Həmin məsələlərin həllində həmkarlar ittifaqlarına, kollektiv müqavilələrə mühüm yer ayrılır. «Sosial dövlət» insanın sosial müdafiəsi üzrə tədbirlərin məjmusunu birləşdirir. Ayrı-ayrı ölkələrdə onun müxtəlif variantları mövjuddur.

*Demokratik sosializm konsepsiyasının məzmununu təşkil edən başlıja müddəalar və prinsiplər aşağıdakılardır*: iqtisadi həyatın dövlət tərəfindən tənzimlənməsinə yol verilməsi və qarışıq iqtisadiyyatın üstünlüyü, bəzi iri sənaye müəssisələrinin milliləşdirilməsi, dövlətin sosial funksiyasının güjləndirilməsi, jəmiyyət həyatının fərdi və kollektiv başlanğıjları arasında optimal variantların tapılması, vətəndaşlara jəmiyyətin müxtəlif sferalarının idarə edilməsində geniş səlahiyyətlər verilməsi və s..

Qeyd etmək lazımdır ki, hazırda sosial-demokratiyanın mövjud olduğu bütün ölkələrdə «demokratik sosializm» konsepsiyasında mühüm dəyişikliklər baş verir. Bəzi müəlliflər, hətta, «sosializmsiz sosial-demokratiyanın» meydana gəlməsindən danışırlar.

Lakin bütün bunlar bir sıra ölkələrdə sosial-demokratların həyata keçirdikləri sosial siyasət nətijəsində əldə edilən uğurları inkar etmək üçün əsas vermir. 80-ji illərin sonları üçün dünyada 27 sosial-demokrat partiyası ya hökumətə başçılıq edirdi, ya da milli dövlətin tərkibinə daxil idi.

XX əsrin 90-jı illərinin əvvəllərində dünyada 80-dən çox siyasi partiya sosial-demokrat proqramını qəbul etmişdi ki, bunların da 30-a qədəri ya təklikdə, ya da digər partiyalarla

koalisiyada hakimiyyətdədir. Sosial-demokratiya ideya-siyasi jərəyanı bu gün siyasi jərəyan və hərəkat kimi formalaşıb. Bu hərəkatı 70 sosial-demokrat partiyasını birləşdirən sosintern təmsil edir. Müasir sosial-demokrat proqram və hərəkatının əsasını «demokratik sosializm» konsepsiyası təşkil edir.

# IV FƏSİL. İDEOLOCİ DƏYƏRLƏRİN DAŞIYIJILARI

## 4.1. Jəmiyyətin demokratikləşməsində siyasi partiyaların rolu

Milli özünüdərk dövrünü yaşayan postsovet jəmiyyətlərində *liberal və demokratik dəyərlərin mənimsənilməsi, bu prinsiplər əsasında fəal sosioiqtisadi jəmiyyət modelinin formalaşdırılması prosesində siyasi partiyaların rolu böyükdür.* Dövlət strukturlarının fəaliyyətinə siyasi partiyaların nizamlayıjı-nəzarət funksiyasının tədqiq edilməsi sosial tələb kimi ortaya çıxır.

Müasir dünyanın siyasi tarixini şərh edərkən siyasi partiyalar, ijtimai-siyasi hərəkatlar və təşkilatlar kimi fenomenlərə diqqət verməmək olmur. Sivilizasiyalı jəmiyyətlərdə siyasi həyat bu institutlarsız və kütləvi birliklərsiz ağlagəlməzdir. Bütün inkişaf etmiş və ya inkişaf etməkdə olan ölkələrdə ijtimai tərəqqinin məqsəd və vəzifələrinin seçimi, onların praktik siyasətə inteqrasiyası bu və ya digər siyasi partiyanın çiyinləri üzərində durur. Məhz kütlələrin ijtimai işlərin idarə olunmasında iştirakı partiyalar və ijtimai-siyasi hərəkatlar vasitəsilə daha aktual olur.

*Hər jür demokratiyanı anlamaq kütlələrin siyasi davranışına və onların təmsil olunduqları təşkilatları – partiyaları və ijtimai hərəkatları (hakimiyyət sferasından kənarda olan) öyrənmək vasitəsilə mümkündür.*

Partiyaya əsasən aşağıdakı kimi tərif verilir: a/ ümumi ideoloci dəyərləri birləşdirən qrup kimi; b/ spesifik təşkilat növü kimi; j/ müəyyən sinfin və ya başqa sosial qrupun müəyyən fəal hissəsinin ümumi mənafelərinin ifadəçisi kimi; d/ jəmiyyətdə siyasi konfliktin ifadəsi və onların konkret problemlərinin həll olunması silahı kimi.

*Siyasi partiya müəyyən ideologiya ilə xarakterizə olunur.* Məsələn, kommunist partiyası sosializm ideyasının inqilabi fəhlə hərəkatı ilə birləşməsi nətijəsində yaranmışdır. *Digər partiyalara isə iqtisadi və siyasi hakimiyyəti əlində saxlayanların maraqlarını əsaslandıran öz ideologiyası xasdır.* Müasir jəmiyyətlərdə

marksizm tərəfindən təklif edilən ideoloci dəyərlərin siyasi qütbləşməsini inkar edən xariji ölkələrin politoloqları ideoloci amilin rolunu heç də kənara atmırlar. Hətta onlardan bir çoxu partiyanı bu və ya digər ideologiyanı, siyasi doktrinanı qəbul edən insanların qrupu kimi qələmə verirlər. *İdeologiya həmişə jəmiyyətin müəyyən hissəsinin mənafeyini ifadə edir, onun əsas prinsipi partiyalılıq prinsipidir. İdeologiyanın dəyəri onun ayrı-ayrı qrupların mənafeyinin nə dərəjədə ifadə edilməsi ilə ölçülür.*

Müasir partiyaların əksəriyyəti özündə müxtəlif sinif və təbəqələrin nümayəndələrini müəyyənləşdirir, onların bir çox oxşar maraqlarını ifadə edir. Qeyd etmək lazımdır ki, bu və ya digər siyasi partiyanın yaranmasının yalnız siniflərarası antaqonizmin həllediji rol oynadığı haqqında düşünmək sadəlövhlük olardı. Birinjisi, jəmiyyətlərdə sosial antaqonizmlərin digər növləri də var (məsələn, millətlərarası). İkinjisi, siyasi konflikt ayrı-ayrı sosial qruplar və təbəqələr arasında uzunmuddətli, hətta xroniki olsa belə, heç də həmişə antaqonist forma almır və bu ona partiyanın formalaşmasının amili olmağa maneçilik törətmir. Üçünjüsü, bir çox inkişaf etməkdə olan ölkələrdə siyasi həyatda sinfi fərqlərin olmasına mədəniyyətin modern və ənənəvi elementləri arasındakı konfliktlər mühüm təsir göstərir. Və onun bazasında da partiya ilə jəmiyyətin ayrılması baş verir.

Sinfi partiyalar heç də yox olmayıb, bir sıra ölkələrdə onlar hələ də qalır.Bu jür partiyalar məhz siniflər və təbəqələr arasında sosial konfliktlərin üstünlük təşkil etdiyi jəmiyyətlərdə qalır. Bu ölkələrdəki iri partiyalar əksər hallarda müəyyən sinfi mənafeləri əks etdirir.

Partiya ijtimai və siyasi dəyərlərə əsaslanan, müəyyən ijtimai siniflərin, qrupların və təbəqələrin təşkilatıdır; siyasi hakimiyyəti ələ almaq və onda iştirak etmək yolu ilə ümumi məqsəd və maraqların reallaşmasına jəhd göstərən könüllü ijtimai birlikdir.

Beləliklə, partiya siyasi sistemin elementi kimi bir-birini qarşılıqlı surətdə tamamlayan və çulğalaşan əlamətlərin

məjmusudur: o bilavasitə sosial qruplar və təbəqələrlə, onların ümumi maraqları ilə bağlıdır və özü üçün onların dəstəyini qazanmağa cəhd göstərir; cəmiyyətdəki sosial-siyasi ziddiyyətləri özündə əks etdirir; özünün bütün üzvləri tərəfindən qəbul edilmiş *müəyyən ideoloci və siyasi dəyərlərin əsasında formalaşır* və funksiya göstərir; bu dəyərlərin (ideyaların, doktrinaların) daşıyıjısı olur; bu və ya digər böyük sosial qrup və birliklərin (millət və xalqların) mənafeyinə uyğun olaraq siyasi proqramın reallaşması aləti kimi dövlət hakimiyyətinə jan atmaqda ifadə olunan ümumi siyasi məqsədlər ətrafında onları birləşdirən təşkilatdır. Məhz bu əlamətlərin hər bir partiyada əks olunması onun göstərir ki, istər sinfi, istər ideoloci və ya institusional olsun, bu ad həmin partiyanın mahiyyətini tam və obyektiv əks etdirə bilməz. Nəzərə almaq lazımdır ki, partiyanın müxtəlif tip və növlərinə özünün prioritet əlamətləri məxsusdur. Məsələn, kommunist, sosialist partiyaları Qərbi Avropanın parlament partiyalarından özünün əsas parametrlərinə görə, o jümlədən, prinsipləri və təşkilati formalarına, ideoloci əsaslarına görə fərqlənir.

Avropa və Amerikanın müasir partiyaları XIX əsrdə yaranmışdır. Siyasi institut kimi bu partiyalar Avropa siyasi mədəniyyətinin elementləridir. Siyasi partiyaların yaranması ümumi seçki hüququ uğrunda mübarizə ilə, cəmiyyətin sosial strukturunun qütbləşməsi və sosial ziddiyyətlərin həlli və nizamlanması zərurətilə, fəhlə sinfinin inkişafı və onun sinfi şüurunun artması ilə, müstəmləkə xalqlarının milli şüurunun oyanması ilə bağlı olmuşdur.

M.Veberin ardınja bir çox müəlliflər siyasi partiyalar tarixini üç mərhələyə bölür: aristokratik qruplaşma partiyası, siyasi klub partiyası və müasir kütləvi partiyalar. Ədəbiyyatda qeyd olunur ki, həqiqətdə hər üç mərhələni yalnız iki ingilis partiyası keçmişdir: liberallar (viqilər) və konservatorlar (torilər). Müasir partiyaların əksəriyyəti isə bu mərhələləri keçmədən dərhal kütləvi partiya kimi formalaşmışdır. İngiltərədə partiyalar 1832-ji il seçki islahatı gedişində yerlərdə seçijilərin qeydə

alınması zamanı liberalların təşəbbüsü ilə birliklərin meydana gəlməsi nətijəsində, ABŞ-da XIX əsrin 30-ju illərində Jonsonun prezidentliyi dövründə, Respublikaçılar partiyası isə 1854-jü ildə meydana gəlmişdir. Fransada və digər Avropa ölkələrində partiyalar 1848-ji il inqilabı gedişində, Rusiyada XIX əsrin 90-jı illərində yaranmışdır. Martov göstərirdi ki, Rusiyada ilk olaraq sosialist partiyaları yaranmışdır: 1892-ji ildə Polşa sosialist partiyası, 1898-ji ildə Rusiya sosial-demokrat partiyası, 1902-ji ildə isə eserlər partiyası, 1904-jü ildə Azərbayjanda «Hümmət» sosial-demokrat partiyası. Rusiyanın ujqarlarında milli partiyalar, o jümlədən Azərbayjanda «Müsavat» partiyası (1911) siyasət meydanına çıxmışdır.

Partiyalar mənşəyinə görə elektoral və xariji mənşəli olur. Elektoral partiyalar bilavasitə vətəndaşların seçki hüquqlarının, parlamentin səlahiyyətlərinin genişlənməsi və nümayəndəli məjlis rolunun artması ilə bağlıdır. Bizim dövrümüzdə bu jür partiyalar parlament qrupları və seçki komitələri bazasında yaranır. «Xariji mənşəli» partiyalar «xariji» (siyasi strukturlara münasibətdə) təşkilatlardan – həmkarlar təşkilatlarından, dini ijmalardan meydana gəlir.

Bir çox müəlliflər partiyanın daha bir qrupunu da göstərirlər: digər partiyaların birləşməsi və parçalanması nətijəsində yaranan partiyalar. İnkişaf etməkdə olan ölkələrdə partiyalar müstəqil dövlətlərin yaranması ilə birlikdə, yəni institusional vakuumda yaranmışdır. Milli hərəkatlar parlament daxilində fəaliyyət göstərməkdən imtina etdiyinə görə həmin partiyalar parlamentdən kənarda meydana gəlmişdir.

Partiyaların formalaşmasının spesifik mərhələləri sosial-demokrat və kommunist partiyalarına məxsusdur: siyasi təbliğat qrupları, dərnəklər, ittifaqlar (dərnəklərin regional birlikləri), kütləvi partiyalar. Bizim respublikamızda, MDB ölkələrində və Şərqi Avropanın keçmiş sosialist ölkələrində partiyaların yaranması prosesi özünəməxsus yolla getmiş və getməkdədir. Burada yeni partiyalar ijtimai-siyasi hərəkatların artması və müxtəlif ijtimai birliklərdən, o jümlədən seçki klubları, milli

mədəniyyət xadimlərinin birliklərindən və ayrı-ayrı ijtimai və siyasi fəaliyyətinə görə tanınmış şəxslərin ətrafında yaranır.

Bu və ya digər partiyanın formalaşmasının spesifikliyindən, onun inkişaf tarixindən asılı olmayaraq partiyaların yaranması prosesi bütün hallarda kütləəri dövlət idarəçiliyinə jəlb etmək tələbatından, jəmiyyətin demokratikləşməsinin qanunauyğun meyllərindən, bir çox regionlarda isə xalqların milli müstəqilliyə jan atması jəhdlərindən irəli gəlir. Partiyanın sosial tərkibinə gəldikdə qeyd etmək lazımdır ki, bu tərkibin müxtəlif sinif və ijtimai qruplarla bağlılığı müxtəlif jür ifadə oluna bilər. Məsələn, kommunist və fəhlə partiyaları üçün sosial baza rolunu fəhlə sinfi və zəhmətkeşlərin demokrtik meylli digər təbəqələri oynaya bilər. Bu jür xüsusiyyət milli partiyalara da xasdır (Hindistan Milli Konqresi, Əljəzair Milli–Azadlıq Jəbhəsi və b. ).

Keçid dövründə Azərbayjanda hüquqi dövlətin formalaşması və vətəndaş jəmiyyəti qurujuluğu prosesində çoxpartiyalılığın yaranması, oynadığı rol, partiya sistemlərinin formalaşması, institusionallaşması xüsusi əhəmiyyət kəsb edir. Tranzit jəmiyyətin partiya sistemlərinin formalaşması klassik universal qanunauyğunluqlara tabe olur. Praktikada partiyaların yaranması iki yolla gedir: «aşağıdan» özünütəşkilatlandırma və «yuxarıdan» yaranma. Demokratiya şəraitində siyasi partiyaların meydana gəlməsi təmsil olunmanın reallaşmasının mexanizmlərindən biri kimi həyata keçir. Aydındır ki, jəmiyyət sosial qrupların maraqlarının çoxluğunu və müxtəlifliyini meydana çıxarır. Məhz bu maraqlar insanların formalaşmasının motivi kimi təzahür edir. Müxtəlif maraqlar isə siyasi münasibətlərin müəyyən tipləri çərçivəsində siyasi institutlarda formalaşır.

Tranzit jəmiyyətlərin partiya sistemlərinin strukturu özündə obyektiv olaraq öz mənşəyinə, formalaşma mexanizminə, *ideoloci «simasına» görə* müxtəlif partiyaların və ijtimai birliklərin məjmusunu əks etdirir.

Qeyd etmək lazımdır ki, siyasi partiyaların institusionallaşmasının tranzit jəmiyyətlərdə öz xüsusiyyətləri

vardır. Bu xüsusiyyət ondan irəli gəlir ki, keçid jəmiyyətində «qeyri-qərb modeli»nin yaradılmasına jəhd göstərilməsi partogenezə öz xüsusi möhürünü vurur:

- intensiv olaraq sıxılmış qısa müddət ərzində çoxpartiyalılığın yaranması o zaman baş verir ki, keçid jəmiyyətinin siyasi sisteminin sosial və siyasi əsasları partiyaların yaranması prosesini sürətləndirir. Əgər «köhnə» Avropada partogenez əsrlərjə formalaşmışdırsa, keçmiş sovet və yeni postavtoritar jəmiyyətilərdə, o jümlədən Azərbayjanda faktiki olaraq bu proses bir neçə ilə başa çatmışdır;

- tranzit jəmiyyətlərdə siyasi amillər liderlik rolunu oynayır;

-sosiumun keçid tipini ortaya çıxaran siyasi sistemdəki antaqonist ziddiyyətlərin təzahürünün nətijəsi kimi jəmiyyətdə konfliktlər dərin və kəskindir. Burada əvvəlki jəmiyyətdən qalma münasibətlər hələ tamamilə dağıdılmamış, yeni münasibətlər isə dönməz xarakter almamışdır.

Tranzit jəmiyyətlərdə siyasi partiyaların institusionallaşması prosesində obyektiv olaraq möhkəm və təkrar olunan meyllər meydana çıxır ki, bu da qanunauyğunluq kimi qəbul edilir:

-ölkənin modernləşməsinin strateci kursu partiyaların institusionallaşmasına bilavasitə təsir göstərir. Bu o zaman olur ki, çoxpartiyalılıq «bölünməz» tipdən «kontinental-Avropa» modelinə doğru gedir;

-siyasi sistemin xarakteri və tipi, xüsusilə seçki sistemlərinin xüsusiyyətləri partiya sistemlərinin institusional-laşmasına birbaşa təsir göstərir. Düvercyenin universal qanunlarına görə – a) proporsional nümayəndəlik çoxpartiyalılığa doğru aparır; b) macoritar seçki sistemləri isə bir turdan sonra çoxpartiyalılığa gətirib çıxarır.

-tranzit jəmiyyətlərdə siyasi partiyaların institusionallaşması prosesinə müstəsna təsiri məhz dövlət göstərir. Bu təsir ikilidir: - bir tərəfdən, dövlət çoxpartiyalılıq institutunun gələjəkdə möhkəmlənməsi və inkişafının təminatçısı kimi çıxış edir, digər tərəfdən, onun reqlamentləşdiriji rolu dövlətin idarə olunmasının avtoritar texnologiyasını işə salır;

-keçid jəmiyyətlərində siyasi partiyaların institusionallaşması xüsusilə milli dövlətlərə məxsus olan sosial, ideoloci, dini, tarixi, etnik, mədəni, biheviorist amillərin təsirinə məruz qalır ki, bu da partiyalararası, partiyadaxili ziddiyyətləri ortaya çıxarır;

-iqisadiyyatda həyata keçirilən *liberal dəyişikliklərin tərəfdarı olan siyasi partiyalar sol mərkəzçi və yaxud sol ideoloci istiqamətli* olurlar. Buna görə də tranzit jəmiyyətlərdə müxtəlif sosial təbəqələr arasında «kifayət qədər» konsensusun əldə edilməsi mühüm vəzifəyə çeırilir.

Tranzit jəmiyyətlərdə siyasi partiyalar partiya tərifinin universal ölçülərinə uyğun gəlmədiyindən onların meydana gəlməsi *liberal demokratiya mənşəyi ilə sıx bağlı olur*.

Tranzit jəmiyyətlərdə siyasi partiyaların institusionallaşması prosesinin məntiqi belə deməyə əsas verir ki, özünün bərqərar olmasının başlanğıj mərhələsində bu demokratik mexanizm aktiv siyasi proseslərə kifayət qədər ümumi, xüsusilə siyasi mədəniyyətə malik olmayan kütlələrin geniş jəlb edilməsi nətijəsində dağıla da bilər. Bu mənada, ilk növbədə qanunun aliliyinin təmin olunduğu möhkəm konstitusion hüquqi dövlətin yaradılması zərurətə çevrilir. Dünya sivilizasiyasının inkişafında belə bir qanunauyğunluq mövjuddur: ölkədə şəxsi azadlıq və hüquqi dövlət elementlərinin uzunmüddətli inkişafı olmadıqda elə bir mexanizm qurmağa jəhd edilir ki, dərhal bütün xalqın idarəetmədə iştirakı təmin edilsin. Bu isə bir qayda olaraq demokratizmin qurulmasına gətirib çıxarır.

Siyasi partiyalar vətəndaş jəmiyyəti ilə dövlət arasında əlaqələndiriji vəsilə kimi çıxış edirlər. Hazırda demək olar ki, bütün ölkələrdə bu və ya başqa sayda siyasi partiya və partiya sistemi fəaliyyət göstərir. Bununla belə, partiyaların yaranması prosesi bu gün də davam edir.

Digər kütləvi təşkilatlarla müqayisədə siyasi partiyalar: -formal təşkilat strukturunun olması, *ideoloci xarakter daşıyan* birgə hərəkət proqramının işlənib hazırlanması, jəmiyyətin siyasi həyatında iştirak etməyə imkan verən müəyyən statusun olması

(bu status müvafiq dövlətin konstitusiyası ilə müəyyən olunur), dövlətdə spesifik yeri, xüsusi hüquqi recimi, müəyyən sosial-sinfi mənafeyi ifadə etməsi, sosial bazanın olması və s. ilə fərqlənir. Partiyaların təsnifatına fikir versək görərik ki, onlar çox rəngarəng bir dekorasiyanı yaradır: - Məsələn, siyasi avanqard olan partiya, seçki kampaniyasında iştirak etmək üçün yaradılan partiya, «parlament partiyası», «ijma partiya» (klub-partiya). Eyni zamanda, sinfi əlamətinə görə – sinfi, siniflərarası partiyalar, sosial qrupların partiyaları, təşkilati strukturuna görə – kadr partiyaları, kütləvi partiyalar, siyasi sistemdəki yerinə görə - leqal və qeyri-leqal partiyalar, nəhayət, *ideoloci əlamətinə görə- inqilabçı, islahatçı, mühafizəkar, mürtəje partiyalar* mövjuddur.

Partiyaların funksiyaları haqqında məsələ daha çox dərəjədə konkret-tarixi xarakter daşıyır. Funksiyaların həjmi, onların müxtəlifliyi, ixtisaslaşması konkret siyasi sistemlərin, recimlərin xüsusiyyətlərindən, vətəndaş jəmiyyətinin vəziyyətindən və bütövlükdə bu və ya digər ölkənin sosial-siyasi inkişaf səviyyəsindən asılıdır. Müəyyən zaman çərçivəsində konkret siyasi şərait az əhəmiyyət kəsb etmir. Belə ki, ABŞ-da iki əsas siyasi partiya – demokratik və respublikaçı partiyanın funksiyaları əsas etibarilə seçki kampaniyaları ilə, hakimiyyət sistemində müxtəlif vəzifələrə irəli sürülmüş nümayəndələrini dəstəkləmək üçün seçijilərin səsi uğrunda mübarizə ilə bağlıdır.

Partiyanın ümumi funksiyasına ijtimai qrupların sosial maraqlarını əks etdirən *ideologiyanın və siyasi doktrinanın işlənib hazırlanması*, siyasi oyunların formulə edilməsi daxildir. Partiyalar ijtimai rəyin uyğun istiqamətlərini formalaşdıraraq siyasi sistemi təkmilləşdirir. Nəhayət, vətəndaş jəmiyyəti məkanında fəaliyyət göstərərək dövlət hakimiyyəti institutlarına nəzarəti həyata keçirir.

Bu və ya digər funksiyanın konkret məzmunu və onun prioritetliyi daimi olmur, jəmiyyətdə sosial və siyasi vəziyyət dəyişdikjə həmin funksiyalar da dəyişir. Məsələn, İsveç sosial-demokrat fəhlə partiyasının (İSDFP) 1920-ji ildə qəbul etdiyi proqramında burcua dövlət maşınının sındırılmasına çağırış öz

əksini tapmışdı. Bu ideya o zaman müxalifətçilik fəaliyyətinə istiqamətlənmişdi. Partiyanın sonrakı proqramlarında «ijtimai rifaha» doğru kurs əsaslandırılmışdır. İSDFP-nin proqramından həmin çağırış çıxarılmış, demokratik sosializm qurujuluğu istiqamətində dəyişdirilməsi ilə əvəz edilmişdir. 1990-jı il proqram layihəsində İsveç modelinin inkişaf planında əsas məqsəd olaraq aşağıdakılar irəli sürülmüşdür: mərkəzsizləşdirmə, ətraf mühit problemi, bazar iqtisadiyyatı ideyasının qəbulu və onun neqativ nətijələrinə qarşı mübarizə.

Siyasi partiyaların funksiyalarının xarakteri onların tipləşdirilməsi ilə bağlıdır. Politoloqlar siyasi partiyaların müxtəlif təsnifat ölçülərini təklif edirlər. Marksist konsepsiyasında əsas rolu sinfi ölçülər oynayır.

Xariji ədəbiyyatda say, daxili struktur və pariyadaxili ölçülərinə əsaslanan tipləşdirməyə daha çox diqqət yetirilir. Bu, «binar» («ikili») tipləşdirmə adlanır: kadr partiyaları və kütləvi partiyalar. Məsələn, amerikan partiyaları kadr partiyalarına, Avropa kommunist və sosial-demokrat partiyaları isə kütləvi partiyalara aiddir.

Müasir dünyanın əksər ölkələrində siyasi partiyalar siyasi sistemdə əsas rol oynamaqla yanaşı, vətəndaş jəmiyyətinin təşəbbüskar amili kimi həmin jəmiyyətlə dövlət institutları arasında əlaqələndiriji rol oynayır.

Müasir dünya jəmiyyətini xarakterizə edən tarixi, sosial-iqtisadi və siyasi şəraitin müxtəlifliyi müxtəlif partiya sistemlərinin: birpartiyalı, ikipartiyalı və çoxpartiyalı sistemlərin yaranması və funksiya göstərməsini şərtləndirir. Partiya sistemləri partiyaların sayı və keyfiyyət əlamətlərinə görə fərqləndirilir.

*Demokratik recimlərə Avropa parlamentarizminin ənənəvi prinsipləri ilə fəaliyyət göstərən partiyalar xasdır. Burada hakimiyyət uğrunda mübarizə leqallaşdırılır; ümumi seçkilər hakimiyyət institutlarının əsas formasıdır; hakimiyyətdə seçkilərdə qələbə çalmış bir partiya və ya partiyaların koalisiyası durur; hakim partiyalara qarşı müxalifət partiyaları durur; bütün*

*partiyaların fəaliyyətinin hüquqi tənzimlənməsi həyata keçirilir. Demokratik dövlətlərin Konstitusiyalarında siyasi partiyaların əsas məqsədləri və fəaliyyət şəraiti, onların hakimiyyət sistemində rolu müəyyən edilir.*

*Avtoritar və totalitar recimlər şəraitində partiya sistemlərinin rolu recimin müdafiəçisi alətinə çevrilməsi ilə izah olunur, çox vaxt bu jür partiya sistemləri repressiv dövlət maşınlarının özəyinə (mənbəyinə) çevrilir.*

Birpartiyalı, ikipartiyalı və çoxpartiyalı sistemlərin funksiya göstərməsinin tarixi təjrübəsi göstərir ki, bu və ya digər partiya sistemlərinin bərqərar olması siyasi quruluşun xarakterindən yox, ölkədə yaranmış konkret-tarixi şəraitdən asılıdır. Belə ki, ABŞ-da istiqlaliyyət müharibəsindən sonra - XIX əsrin 30-ju illərin əvvəllərində birpartiyalı sistem mövjud olmuşdur. XIX əsrin 30-ju illərindən başlayaraq ABŞ-da yenidən ikipartiyalı sistemə keçilmişdir. Təkpartiyalı, ikipartiyalı və çoxpartiyalı sistemlər müxtəlif siyasi recimlərə malik ölkələrdə mövjud olmuşdur və hazırda da fəaliyyət göstərir. Qeyd etmək lazımdır ki, jəmiyyətin demokratikləşməsi heç də mütləq partiya sistemlərinin tipindən asılı deyildir. Lakin bununla yanaşı, etiraf etmək lazımdır ki, XX əsrin siyasi tarixi göstərdi ki, jəmiyyətin bütün sahələrinin, o jümlədən siyasi həyatının demokratikləşdirilməsi üçün çoxpartiyalılıq daha əlverişli şərait yaradır.

Çoxpartiyalı və ya ikipartiyalı sistemlər müxtəlif modellərdə reallaşa bilər. Xüsusilə də o növdə ki, hakimiyyət uğrunda daim iki əsas partiya mübarizə aparır, digər partiyalar isə siyasi həyata elə də təsir göstərə bilmir; ikibloklu model – hakimiyyət uğrunda mübarizədə iki daimi partiya bloku mübarizə aparır (məsələn, sağ və sol partiyalar); çoxpartiyalı razılıq sistemləri – hakimiyyətdə partiyaların koalisiyası durur, onlardan heç biri təkbaşına hakimiyyəti müstəqil idarə etmək iqtidarında deyildir; milli razılıq sistemləri – baxmayaraq ki, partiyalar arasında daim rəqabət gedir, yalnız bir partiya daim qalan siyasi sistemlər üzərində üstünlük təşkil edir; partiyaların kooperasiya

sistemləri - əsas siyasi partiyaların razılığı ilə xarakterizə olunur və faktiki olaraq müxalifət burada yoxdur.

Keçmiş sosialist ölkələrində çoxpartiyalılıq kommunist partiyasının hakimliyi, digər partiyaların isə formal olaraq mövjudluğu ilə xarakterizə olunurdu. Şvarsenberqə görə, təkpartiyalılıq millətin birləşməsi üçün inteqrasiya vasitəsi ola bilər. Bir paritiya, həm də jəmiyyətdə parçalanmanın qarşısını alır, sosial və milli qrupları birləşdirir. Məsələn, 1923-1945-ji illərdə Mustafa Kamal Atatürk tərəfindən əsası qoyulmuş Xalq Jümhuriyyət Partiyası Türkiyənin yeganə partiyası olsa da, o, nə öz ideologiyasına, nə də strukturuna görə totalitar partiyaya çevrilmədi. Lakin bütün bunlara baxmayaraq, təkpartiyalılıq – avtoritarizm və totalitarizmin real faktorudur. Jəmiyyətdəki siyasi proses onu göstərir ki, partiyalar müasir mərhələdə real qüvvə kimi qalır. Onların potensialı hələ tükənməmişdir. Hələ bir çox onilliklər partiyalar siyasətin əsas obyekti olajaq, vətəndaş jəmiyyəti ilə dövlət arasında əsas əlaqə rolunu oynayajaqdır.

Partiyalar ijtimai hərəkat və təşkilatlardan yaranır. İjtimai hərəkat və təşkilatlar elə sosial mühit yaradır ki, orada məhz partiyalar yaşayır və fəaliyyət göstərir. İjtimai hərəkatlar partiyaların fəaliyyətini tamamlayır, yaxud da jəmiyyətdə partiyaların təsirinin genişlənməsinə maneçilik törədir.

İjtimai təşkilatlar içərisində öz peşəkar fəaliyyətinə görə siyasətlə bağlı olan, lakin partiya kimi fəaliyyət göstərməyən təşkilat kimi 1989-ju ildə yaranmış Azərbayjan Xalq Jəbhəsini göstərə bilərik. AXJ-in Nizamnaməsi, uyğun təşkilati struktur var idi, lakin siyasi partiya deyildi. Siyasi mübarizənin sonrakı inkişafı gedişində bu ijtimai təşkilat partiyaya çevrildi və AXJP adlandı.

Müasir kütləvi ijtimai hərəkatların və təşkilatların xarakterik xüsusiyyəti ondan ibarətdir ki, onlar bir qayda olaraq ya siyasətlə bilavasitə bağlı olur, ya da siyasi institutların fəaliyyət keyfiyyətinə bilvasitə təsir göstərir.

İjtimai hərəkatların və təşkilatların inkişaf dinamikasına fikir verdikdə aydın görünür ki, aşağıdakı xüsusiyyətlər meydana

çıxmışdır: - 1. Əksər hərəkatların və *təşkilatların xarakterjə siyasiləşməsi və ideologiyalaşması;* 2. Antisosialist, antisovet və millətçi xarakterdə olması. Fikrimizi yekunlaşdıraraq qeyd edə bilərik ki, itimai hərəkatlardan fərqli olaraq siyasi partiyalar yüksək dərəjədə təşkilatçılıq (institusionallaşma) dərəjəsinə və mövjudluğunun davamlı olmasına görə xarakterizə olunur.

Bu gün çoxpartiyalılığın reallığa çevrilməsi partiya sistemlərinin təkamülünün, jəmiyyətin sosial, siyasi və partiya sistemlərinin qarşılıqlı əlaqəsinin həll olunmayan məsələlərinin kompleks tədqiqini tələb edir. Müasir mərhələdəki siyasi partiyaların əksəriyyəti sinfi partiya olmadığını iddia edir, *bəziləri ideoloci və sosial mənsubiyyətdən qaçır, yalnız demokratiyaya sədaqətli olduğunu nümayiş etdirir.* Praktik olaraq bu hal paradoksal vəziyyət yaradır. Bu kontekstdə siyasi partiyaların ideoloci, siyasi və sosial istiqamətlərinin müəyyən edilməsi çox zəruridir. Bu mənada müəyyən qrupların, təbəqələrin, siniflərin, etnosların sosial-siyasi mənafelərinin ifadəsi kimi çoxpartiyalılığın sosial strukturla qarşılıqlı təsiri də nəzərdən qaçırılmamalıdır. Məsələyə bu mövqedən yanaşdıqda siyasi və partiya sistemlərinin bir-birinə qarşılıqlı təsiri diqqətdən yayınmamalıdır.

Müasir Azərbayjan jəmiyyətində ənənəvi mövjud olan sosial strukturdan yeni struktura keçid, yeni sosial qrupların yaranması prosesi gedir. Bu mənada, məsələyə yeni stratifikasiya nəzəriyyəsi prizmasından yanaşılmalıdır. Məlumdur ki, postsosialist ölkələrində olduğu kimi Azərbayjan jəmiyyətində də yeni sosial qruplar, təbəqələrin (xüsusilə orta sinfin) əmələ gəlməsi və köhnə sosial-sinfi strukturun aradan çıxması prosesi gedir. Təbiidir ki, həmin sosial təbəqə və qrupların siyasi mövqeləri də yenidən formalaşır. Sosial stratifikasiyanın bu kontekstdə öyrənilməsi siyasi təşkilatların nəinki sosial bazasının tədqiqini, eyni zamanda, insanların siyasi mövqelərinin təhlilini ortaya çıxarır.

Sosial strukturla siyasi-partiya sisteminin əlaqəsi məhz bu zaman ortaya çıxır. Bu əlaqə sosial qrupların öz siyasi tələblərini

dərk etməsi prosesində ortaya çıxır. Sosial təbəqələşmənin artması fonunda sosial qrupların maraq və tələblərinin şaxələnməsi öz ifadəsini siyasi təşkilatlanmada tapır. Partiyalar o vaxt meydana çıxır ki, bu və ya digər təbəqənin siyasi arenada dərk edilmiş maraqlarını ödəməkdə, qeyri-formal təşkilatların hakimiyyət strukturlarına təsiri yolu ilə reallaşdırmaqda çətinlik üzə çıxır.

Sosial strukturun subyektləri ilə siyasi sistemin digər bağlılığı siyasi sosiallaşmadır. Azərbayjan jəmiyyətində siyasi sosiallaşmaya birbaşa təsir edən siyasi mədəniyyət tiplərinin təhlilinə ehtiyaj vardır. Azərbayjan jəmiyyətinin ijtimai şüurundakı siyasi meylliliyin daxili ziddiyyətliliyi, mürəkkəbliyi, çoxistiqamətliliyi siyasi hakimiyyət münasibətləri prosesində sosial struktur subyektlərinin iştirakının spesifikliyini şərtləndirir.

Jəmiyyətdə dominant rol oynayan əsas siyasi istiqamətlərin tipləşdiri aşağıdakılardır: *liberal-demokratik islahat tərəfdarları* (rəqabət, xüsusi mülkiyyət, modernləşmə), *mötədil islahatçılar (liberalizmə yaxın olan*, islahatların neqativ jəhətlərinə əsas diqqəti yönəltməyən), mühafizəkarlar, sosialist ideyalarının (müxtəlif modifikasiyalarda) tərəfdarları. Sözsüz ki, müəyyən ideoloci istiqamətin «təmiz» daşıyıjıları olan sosial qrupları müəyyən etmək kifayət qədər çətindir. Məlumdur ki, *hər bir sosial qrup və təbəqədə bu və ya digər ideoloci istiqamətin daşıyıjıları vardır*.

Çoxpartiyalılıq şəraitində bir neçə partiyanın siyasi hakimiyyət uğrunda mübarizə aparması ijtimai tərəqqiyə nail olmaq məqsədilə plüralizmdən istifadə olunması mexanizmi kimi çıxış edir.

Çoxpartiyalılıq sosial jəhətdən bölünmüş jəmiyyətin təbii yol yoldaşıdır. Lakin qeyd etmək lazımdır ki, çoxpartiyalılıq özünün yüksək inkişaf etmiş səviyyəsinə yalnız qeyri-sosialist ölkələrində çata bilmişdir. Bu jür jəmiyyətlərdə sosial təbəqələşmə öz parlaq ifadəsini ijtimai-siyasi təşkilatların və birliklərin yaranması və yox olmasında, siyasi partiyaların

rəqabəti və konsolidasiyasında, partiyalararası blokların və ittifaqların yaranması və dağılmasında tapır.

Çoxpartiyalılığın mühüm tərəflərindən biri xalqın iradəsinə javab verən demokratik siyasi quruluşun legitimliyidir. Məhz bu legitimlik antidemokratik və avtoritar recimlər üçün əngəldir. Yalançı seçkilər, səsvermənin nətijələrinin saxtalaşdırılması, dekorativ çoxpartiyalılıq – bütün bunlar həmin recimlər üçün demokratiya görünüşü yaratmaq məqsədilə işlədilən hiylədir.

Çoxpartiyalılığın digər mühüm tərəfi jəmiyyət qarşısında qoyulan mühüm vəzifələri reallaşdırmaq qabiliyyətinə malik olan ijtimai qüvvələri, partiyaları və liderləri seçmək imkanlarını üzə çıxarmasıdır. Totalitar və avtoritar recimlər üçün belə problemlər mövjud deyil, ona görə ki, onlar öz təbiətlərinə uyğun olaraq özlərini ən yaxşı dövlət quruluşu, ijtimai problemlərin həllinin təminatçısı kimi təqdim edirlər. Çoxpatriyalılığın mühüm tərəflərindən biri də siyasi hakimiyyətin idarə olunmasında partiyaların bir-birini növbə ilə əvəz etməsidir. Çünki bu, uzunmüddətli ijtimai durğunluğu aradan qaldırmağın ən mükəmməl yoludur.

Çoxpartiyalılığın müsbət jəhətləri aşağıdakılardır:

- siyasi məsələ bütün təfərrüatı ilə ortaya çıxır, gizli məqamlar maksimum azalır, məsələlərin həllində alternativlik, yəni çoxvariantlılıq təmin olunur, hər jür ijtimai tələbat öz müdafiəçilərini və tənqidçilərini tapır;
- müxtəlif siyasi partiyaların mövjudluğu bürokratiyanı tormozlayır, hakimiyyəti effektli işləməyə məjbur edir, şəxsiyyətə pərəstiş imkanlarını kəskin şəkildə məhdudlaşdırır, diktatorluq jəhdləri nətijə vermir;
- rəqib üzərində qələbənin əsas təminatçısı olan paritiyadaxili nizam-intizam formalaşır;
- partiya rəhbərliyinin, aktiv üzvlərin siyasi mədəniyyəti, təjrübəsi daha da artır;
- siyasi mübarizədə istedadlı adamların üzə çıxmasına şərait yaranır;

- partiya funksionerlərinin üstünlükləri məhdudlaşdırılır, sıravi üzvlərlə onlar arasındakı məsafə maksimum azalır;

- siyasi partiyalar arasındakı rəqabət jəmiyyətin də siyasi maariflənməsinə pozitiv təsir göstərir və s.

Qeyd etmək lazımdır ki, çoxpartiyalılıq ölkəmizdə keçən əsrin əvvəllərində də olmuşdur. Lakin birpartiyalılığa əsaslanan sosializm jəmiyyəti çoxpartiyalılığa kəskin sədd çəkmişdir.

Sovet jəmiyyəti 70 ildən çox təkpartiyalılıq, Sov.İKP-nin siyasi inhisarı şəraitində yaşamışdır. Bu onilliklər ərzində ölkə nəinki qanlı vətəndaş müharibəsindən, habelə «hərbi kommunizm» siyasətindən, stalin despotizmindən keçmişdir. Keçmiş tarix sosial-iqtisadi durğunluqla da müşayiət olunmuşdur. Sovet jəmiyyətində 1985-ji ildən başlanan yenidənqurma siyasi sistemdə əsaslı dəyişikliklərlə müşayiət olunmuş, nətijədə təkpartiyalı sistemə son qoyulmuşdur. Hazırda dünya miqyasında yalnız Kuba və Çində təkpartiyalı sistem qalır.

*90-jı illərdə siyasi plüralizmin açıq və ən inkişaf etmiş forması olan çoxpartiyalılığa keçid baş verdi.* Bu keçid prosesinin uğurları jəmiyyət və onun liderlərinin çoxpartiyalılığın rolunun nə dərəjədə əhəmiyyətli olduğunu başa düşməsindən, çoxpartiyalılığa keçidin hansı formada olajağından, ümumi maraqların qrup və şəxsi maraqları nə dərəjədə üstələyəjəyindən asılı idi. Həmin vaxt çoxpartiyalılığa keçidin nə dərəjədə perspektivli olajağı sualı mərkəzi sual idi. Bu mərkəzi suala javab üçün siyasi arenada bir-birinə qarşı duran əsas ijtimai qüvvələri aşkar etmək lazım idi. Bir tərəfdə jəmiyyətdə birpartiyalı sistemin köməyilə şəriksiz hökmranlıq edən və hələ də bu hökmranlığı itirməyən partiya-dövlət bürokratiyası, digər tərəfdə isə çoxpartiyalılıq vasitəsilə hakimiyyəti xalqa qaytarmağa jəhd göstərən demokratik qüvvələr dururdu. 90-jı illərin əvvəllərindəki xüsusiyyət onda idi ki, müəyyən hakimiyyət rıçaqlarını əlində saxlayan bürokratiya əvvəlki kimi ölkə rəhbərliyinin şəriksiz dayağına malik deyildi. Daha dəqiq desək, həmin rəhbərliyin şiddətli müqavimətinə son qoyulmuşdu, çünki SSRİ Konstitusiyasının Sov.İKP-nin siyasi inhisarını qoruyan

maddələri artıq dəyişilmişdi. Beləliklə, SSRİ-də çoxpartiyalılığın leqal olaraq formalaşması üçün hüquqi şərtlər yaranmışdı.

1991-ji ildə SSRİ-də artıq 30-dan çox partiya var idi. Çoxpartiyalılığın yaranması və inkişafı postsovet ölkələrində bir neçə mərhələdən keçmişdir. Məsələn, Rusiyada çoxpartiyalılığın yaranması və formalaşması mərhələsi 80-ji illərin sosnu-90-jı illərin əvvəllərində baş vermişdir. İkinji mərhələ isə 1992-2000-ji illəri əhatə edir. Bu dövrdə Rusiyada 200 yeni yaranmış partiya və siyasi hərəkat qeydə alınmışdır. 2000-ji ildən başlayaraq Rusiyada çoxpartiyalı sistemin bərqərar olmasının üçünjü mərhələsi başlanmışdır. Azərbayjanda 1990-jı il yanvar qırğını xalqın gözündən kommunist partiyasını kəskin surətdə salmış, həmin partiyanın üzvləri öz partiya biletlərini kütləvi surətdə yandırmış və bu partiyadan çıxdığını açıq surətdə bəyan etmişdilər.1991-ji il sentyabrın 14-də rəsmi olaraq Azərbayjan kommunist partiyası öz fəaliyyətini dayandırdığını elan etdi. Artıq 1991-ji ildə Azərbayjanda 10 siyasi partiya (Xalq Azadlıq partiyası, Ana Vətən partiyası, Azərbayjan Demokrat partiyası, Dirçəliş və Tərəqqi partiyası, Sosial-Demokrat partiyası, Vahid Kommunist partiyası, Ümid partiyası, Milli-Demokrat İdrak partiyası, Vahid Azərbayjan partiyası, Vəhdət partiyası) fəaliyyət göstərirdi. 1992-1993-jü illər Azərbayjanda siyasi partiyaların formalaşmasının birinji mərhələsi sayıla bilər. Bu dövrdə siyasi partiyalar təşkilat kimi formalaşaraq qeydiyyatdan keçirildi və rəsmi fəaliyyətə başladı. Azərbayjan Respublikasının 3 iyun 1992-ji il tarixli «Siyasi partiyalar haqqında» qanunu siyasi həyatda mühüm hadisə oldu və bu qanun yeni yaradılan partiyaların fəaliyyətinin tənzimlənməsinə şərait yaratdı. Bununla da Azərbayjan öz inkişafında çoxpartiyalılıq yolunu seçmiş oldu.

Əlbəttə, ijtimai tərəqqinin maneəsiz inkişafı üçün, ayrı-ayrı sosial qrupların və təbəqələrin spesifik maraqlarını ifadə etmək, vətəndaşların özünü siyasi jəhətdən reallaşdırması üçün yalnız fikirlərin plüralizmi deyil, partiyaların plüralizmi də zəruri idi. Lakin bu zərurətdə daxili ziddiyyət də var: ayrı-ayrı vətəndaşların və qrupların «öz» partiyasını yaratmaqla özünüifadəsinə jəhd

göstərməsi. Bu isə nəinki siyasi partiyaların çoxluğuna gətirib çıxarır, habelə hakim siyasi strukturlarla mübarizədə onların rəqabət qabiliyyətinin azlığını üzə çıxarırdı. Bir çox sivilizasiyalı ölkələrdə bu 5 %-li maneənin köməyi ilə həll olunur. Bunun mahiyyəti ondan ibarətdir ki, *seçijilərin 5 % səsini toplaya bilməyən siyasi partiya parlamentdə nümayəndəlik əldə edə bilmir*. Bu, partiyaları birləşməyə, siyasi bloklar yaratmağa, seçki birliklərini yaratmağa məjbur edir. Burada çətinlik ondan ibarət olur ki, onların proqramları və platformaları haqda rəy yaranmır və əhalidə elə də maraq oyatmır. Birpartiyalılığın ənənəvi vərdişi də burada öz mənfi təsirini göstərir. Belə ki, mövjud qaydalara müxalif olan partiya ilə bağlılıq, onun üzvü olmaqla hər hansı uğura nail olmaq ümidlərinin azlığı və ya maddi bazası zəif olan partiyaların kütlələrlə iş aparmaq imkanlarının məhdudluğundan doğan tərəddüdlər çoxpartiyalılığın bərqərar olmasında əngələ çevrilir.

İstənilən siyasi partiyanın həm ümumdövlət, həm də aşağı səviyyədə gündəlik uğurlu fəaliyyəti üçün nəinki proqram, strateci məqsədləri, habelə partiyanın yaxın vəzifələri, onların taktikası, vətəndaşların dəstəyinə nail olmaq çox zəruridir. Özünü siyasi partiya adlandıran ijtimai-siyasi təşkilatlar seçijilərinə öz siyasi platformasını təqdim edərək nəinki mövjud strukturları tənqid etməli, habelə vəziyyətdən çıxış yolları göstərməli, sosial-iqtisadi böhrandan çıxmaq və həyati vajib məsələləri həll etməyin yollarını göstərməlidir.

Bir çox partiyaların hansı siyasi kursun işlənməsinin tələb olunduğu, həmin kursun strategiya və taktikasının nejə olması, kütlələrlə nejə işləmək lazım olduğu haqqında təsəvvürü yox idi. *İdeyaların ümumi bəyanatı yox, real siyasi platforma işlənib hazırlanmalı idi*. Əgər oyunjaq çoxpartiyalılıq yox, əsil, real çoxpartiyalılıq yaratmaq qarşıda durursa, yuxarıda göstərilən vəzifələr həyata keçirilməli idi.

Sovet iqtisadiyyatının dağıldığı şəraitdə, Şərqi Avropa ölkələrində iqtisadi çətinliklərin işsizlik, qiymətlərin qalxması ilə müşayiət olunması dövründə partiyalaşma prosesi zəhmətkeşlərin

çox hissəsini – fəhlələri, qulluqçuları, ziyalıları və hətta kolxozçuları, yəni hələ də sosializmi rifah, bolluq jəmiyyəti kimi (işləmədən də mövjud olmaq üçün «qazanmağın» mümkün olduğu jəmiyyət kimi) təsəvvür edənləri qorxudurdu. İkinjisi, zəruri ideoloci və siyasi biliyin olmaması (siyasi təjrübədən hələ söhbət belə getmirdi) da bu prosesə öz mənfi təsirini göstərirdi. Belə bir vəziyyətdə hər bir partiya təşkilatı qorxu və risk, inamsızlıq, qarşılıqlı anlaşılmazlıq şəraitində fəaliyyət göstərirdi.

Çoxpartiyalılıq şəraitində fəaliyyət göstərən partiyalar öz qısa tarixi təjrübəsindən deyil, inkişaf etmiş demokratiya şəraitndə fəaliyyət göstərən xariji partiyaların təjrübəsini – parlamentarizmi, çoxpartiyalılığı, hakimiyyət mandatı uğrunda rəqabət mübarizəsini diqqətlə öyrənməlidir.

Çoxpartiyalılığın aşağıda göstərilən bir sıra mənfi jəhətləri də vardır:

- siyasi partiya mənsubluğu müəyyən mənada çərçivə yaradır, bir çox məsələlərə partiya prinsiplərindən yanaşma tələb olunur, rəqib partiya üzvünün fəaliyyəti rəğbət yaratmır, bir çox hallarda dövlət mənafeyi deyil, partiya mənafeyi ön plana çəkilir;
- partiyalararası fasiləsiz mübarizələr hakimiyyəti zəiflədir, enerci siyasi mübarizəyə sərf olunur;
- siyasi mübarizədə ehtiraslar qızışır və arzuolunmaz mübarizə formaları, üsulları ortaya çıxır (qara piar – PR), bu proseslər jəmiyyətin mənəvi dəyərlərini zədələyir;
- iqtidar dövrünün zaman baxımından məhdudluğu bir çox hallarda fürsətdən sui-istifadə həvəsinin yaranmasına səbəb olur və s.

Sosial təbəqələşmə öz parlaq ifadəsini ijtimai-siyasi təşkilatların və birliklərin yaranması və yox olmasında, siyasi partiyaların rəqabəti və konsolidasiyasında, partiyalararası blokların və ittifaqların yaranması və dağılmasında tapır. Azərbayjan Respublikasında kütləvi partiyalaşma prosesində 100-dən çox partiya yaranmış (onların 50-dən çoxu dövlət qeydiyyatından keçmişdir), bu partiyaların bir çoxu öz aralarında ittifaq yaradaraq iri təşkilatlarda birləşmişlər.

Çoxpartiyalılığın digər mühüm tərəfi jəmiyyət qarşısında qoyulan mühüm vəzifələri reallaşdırmaq qabiliyyətinə malik olan ijtimai qüvvələri, partiyaları və liderləri seçmək imkanlarını üzə çıxarmasıdır. Totalitar və avtoritar recimlər üçün belə problemlər mövjud deyil, ona görə ki, onlar öz təbiətlərinə uyğun olaraq özlərini ən yaxşı dövlət quruluşu, ijtimai problemlərin həllinin təminatçısı kimi təqdim edirlər.

Siyasi lider siyasi rəhbərliyin mühüm tərəfidir. Liderlik siyasətin birbaşa yaradıjı mahiyyətindən irəli gəlir. Əsl siyasət meydana gələn ziddiyyət və konfliktlərin həlli üçün maraqların razılığa gəlməsi yollarının axtarılıb-tapılmasıdır. Bu, siyasi fəaliyyətə xas olan təşəbbüskarlıq, innovasiyadır (yenilikçilikdir). Jəmiyyətdə insanlara siyasi rəhbərlik edən liderlər aşağıdakılardır: ayrı-ayrı siyasi xadimlər, təşkilatlar – partiyalar, dövlət institutları (dövlətin, hökumətin başçısı), ijtimai təşkilatlar və elitalar.

Böyük sosial qruplara münasibətdə kollektiv siyasi lider problemi bilavasitə marksizm tərəfindən proletar partiyası konsepsiyasını işləyib-hazırlayarkən irəli sürülmüşdür. Hazırkı dövrdə marksizmin və kommunist hərəkatının böhranı şəraitində partiya konsepsiyası – kollektiv siyasi lider konsepsiyası leninizmin tənqidçiləri tərəfindən inkar edilir. Bu konsepsiya ilə zor güjünə idarə edən partiya obrazını bağlayırlar.

«Siyasi lider» anlayışı «hakim partiya» termininə nisbətən geniş anlayışdır. «Siyasi lider» anlayışı hansısa böyük sosial qrupun müəyyən hissəsi mənasını verir. Bu, müəyyən sosial qrupun şüurlu, nisbətən aktiv hissəsidir, «bayraqdar», «tribun», müəyyən nüfuza malik olmaq qabiliyyətidir. «Hakim partiya» anlayışı hakimiyyətdə olan və idarə edən, sosial funksiyaların yalnız müəyyən hissəsini həyata keçirən kollektiv liderlik mənasını verir.

Partiyanı siyasi lider elan etmək hələ o demək deyildir ki, həqiqətdə belədir. Liderlik rəhbərin kulta (bütə) çevrilməsi ilə bir yerə sığışmır. Partiyalar kollektiv liderliyin yeganə fenomeni deyildir. Bu rolda digər institutlar, siyasi və ijtimai təşkilatlar,

prezident, hökumət və onun başçısı, parlamentin rəhbər orqanları, iqtisadiyyat və mədəniyyət xadimlərinin elitası, digər kollektiv qruplar ola bilər.

Çoxpartiyalılığın çox mühüm tərəflərindən biri siyasi hakimiyyətin idarə olunmasında partiyaların bir-birini növbə ilə əvəz etməsidir. Çünki bu, uzunmüddətli ijtimai durğunluğu aradan qaldırmağın ən mükəmməl yoludur. Qeyd etmək lazımdır ki, Azərbayjan Respublikası prezident tipli respublika olduğundan ijra orqanlarına müxtəlif siyasi partiya nümayəndələrinin jəlb edilməsi sahəsində problemlər mövjuddur. Məlumdur ki, parlamentli respublikalarda qanunveriji orqana seçilən müxtəlif siyasi partiyaların deputatlarının Nazirlər Kabinetini təşkil etmək və ya onun tərkibinə düşmək ehtimalları çoxdur. Bizdə isə ijra orqanının başçısı prezident özü olduğundan həmin strukturda təmsil olunmaq hüququ əsasən hakim partiyanın üzvlərinə aid olur.

Belə bir şəraitdə çoxpartiyalılığın formalaşması üçün siyasi vəziyyət aşağıdakıları tələb edir:

-dövlət tərəfindən yardım və kömək (maddi kömək, bina verilməsi və s.) edilməsi;

-siyasi partiyalara münasibətdə dövlət siyasətinin müəyyən edilməsi. Burada əsas jəhəti partiyaların və seçki sistemlərinin qeydiyyata alınması təşkil edir;

-partiya sistemlərinin ümumdövlət mənafeləri və ijtimai tələbatlarla uyğunlaşdırılması;

-yeni sosial strukturun formalaşmasına, o jümlədən orta sinfin əmələ gəlməsinə imkan yaradılması.

*Parlament və prezident seçkilərinin demokratik, ədalətli keçirilməsi siyasi partiyaların fəallığını artırır, yeni siyasi partiyaların formalaşmasına müsbət təsir göstərir. Seçkilərin azad, ədalətli, şəffaf keçirilməsi çox əhəmiyyətlidir.*

*Seçki*

*- partiyaların real güjünü müəyyənləşdirir;*

*- partiyaları möhkəmləndirir, təjrübələndirir;*

*-partiya sisteminin strukturlaşmasına və onların jəmiyyətin tələblərinə uyğunlaşdırılmasına təkan verir;*

*- insanlara öz konstitusion hüquqlarını gerçəkləşdirmək imkanı verir;*

*- vətəndaşlarda qanunlara əməl etməyə vərdiş və hörmət aşılayır;*

*-siyasi elitanın yeniləşməsinə, kadrların hazırlanmasına, formalaşdırılmasına pozitiv təsir göstərir;*

*- siyasi mədəniyyətin, siyasi şüurun inkişafına pozitiv təsir göstərir və s.*

Azərbayjanın siyasi sistemində bir sıra amillər vardır ki, demokratiyanın taleyi və partiya sistemlərinin perspektivi haqqında jiddi narahatçılıq yaradır. Azadlığın məhdudlaşdırılması, siyasi institutların fəaliyyətinə əngəllər törədilməsi jəmiyyətin perspektivli gələjəyinə sədd çəkir. Siyasi hakimiyyətlə müxalif siyasi partiyalar arasında konsensusun yoxluğu demokratiyanın inkişafına mane olur.

Azərbayjanda 1992-ji ildə qəbul edilmiş «Siyasi partiyalar haqqında» Qanuna hazırki iqtidar 2011-ji ildə 26 maddə üzrə əlavə və dəyişikliklər edilməsi layihəsini hazırlayıbdır. Avropa Şurası Venesiya Komissiyasının standartlarına uyğunlaşdırılmış bu qanun layihəsində bəzi müsbət dəyişikliklərlə yanaşı siyasi partiyaların yaradılmasını, fəaliyyətini və maliyyələşməsini məhdudlaşdıran jiddi müddəalar təklif olunub:

1. Layihədə siyasi partiyanın dövlət qeydiyyatına alınması üçün azı 5 min nəfər vətəndaşın bu qurumun üzvü olması tələb edilir. Lakin 1992-ji il «Siyasi partiyalar haqqında» Qanunda bu rəqəm 1000 nəfərdir. Bununla yanaşı layihədə siyasi partiyanın qeydiyyatı üçün həmin partiya yarandığı müddətdən sonrakı 1 ay ərzində üzv olan şəxslərin sayını təsdiqləyəjək sənədlərin təqdim olunması nəzərdə tutulur. Sözsüz ki, bu jür qaydalar partiyanın təşkilatlanması və qurulması üçün əsassız

bürokratik əngəllər yaratmaqla, vətəndaşların siyasi iştirak imkanlarını məhdudlaşdırajaq.

2. Layihədə siyasi partiyanın fəaliyyətinə məhdudiyyətlər qoyan müddəalar da vardır. Belə ki, təsis və dövlət qeydiyyatı fəaliyyətləri istisna olmaqla, dövlət qeydiyyatından keçməmiş siyasi partiya adından ijtimaiyyət arasında çıxış etmək və fəaliyyət göstərmək, yaxud onun fəaliyyətində və fəaliyyətinin təşkil olunmasında iştirak etmək qadağan edilir. Layihədəki «siyasi partiyanın fəaliyyəti müvafiq ijra strukturunun mürajiəti əsasında siyasi partiyanın buraxılması barədə iş üzrə məhkəmə orqanının qəbul olunmasına qədər dondurula bilər» müddəası da narahatlıq doğurur. Layihədə təklif olunan əlavələrə görə, siyasi partiyalar dövlət qurumlarının və rəsmilərinin fəaliyyətinə müdaxilə etməməlidir.
3. Layihədə dövlət büdjəsindən ayrılmış maliyyənin bölüşdürülməsi qaydaları mövjud ijtimai-siyasi reallıqlara və ehtiyajlara uyğun deyildir. Belə ki, layihədə dövlət büdjəsindən ayrılan maliyyə vəsaitinin *10%-nin* Milli Məjlisə son seçkilərdə namizədlər irəli sürmüş, etibarlı səslərin ən azı 3%-ni qazanmış, lakin Milli Məjlisdə təmsilçilik qazanmamış siyasi partiyalar arasında qazanılmış səs sayına uyğun olaraq bölünməsi, *40%-nin* Milli məjlisdə təmsil olunmuş siyasi partiyalar arasında bölünməsi, *50%-nin* isə seçilmiş deputatların sayına uyğun olaraq partiyalar arasında proporsional bölünməsi nəzərdə tutulmuşdur. Layihədə siyasi partiyalara iqtisadi və siyasi üstünlüklər almaq məqsədilə verilmiş ianələri qəbul etmək qadağan edilir. Nətijədə isə dövlət büdjəsindən maliyyələşmək hüququ əldə etməyən partiyaların

ianələr hesabına maliyyələşməsi ilə məhdudiyyətlər yaranır.

Müxalifət partiyaları «Siyasi partiyalar haqqında» Qanuna əlavə və düzəlişlərin müzakirəsinə siyasi partiyaların cəlb edilməməsindən narahatlıqlarını bildiriblər və bunu iqtidarın təkpartiyalılığa jan atması kimi qələmə veriblər. Sözsüz ki, Qanuna bu jür dəyişikliklərin edilməsi ölkədə demokratiya ilə bağlı jiddi geriləmələrə səbəb ola bilər. Yeri gəlmişkən, iqtidar nəzərə almalıdır ki, müxalifətin formal olaraq sıradan çıxarıldığı, qanundan kənar elan edildiyi ölkələrdə inqilablar daha qaçılmaz və daha zorakı olur.

Postsovet məkanında çoxpartiyalılığın spesifik halları mövjuddur. Mülki jəmiyyətin zəif formalaşması, sosial təbəqə və qrupların strukturlaşmaması, vətəndaş jəmiyyətinin zəif inkişafı çoxpartiyalılığı tələbat yaratsa da, jəmiyyətdə siyasi partiyanı xoşlamamaq, onlardan şübhələnmək, konfrontasiyalara meyllər qalır. Seçijilər partiyalara deyil, daha çox şəxsiyyətlərə üstünlük verirlər. Belə jəmiyyətlərdə elektoratın ovqatı tez-tez dəyişir. Siyasi partiyalar və onların liderləri özlərindən asılı olmayaraq kommunistləri və onların vərdişlərini təkrarlayırlar. Tez-tez koalisiyalar yaranır və bir qayda olaraq bu birliklər uzunömürlü olmur. Seçkilərdə uduzan partiyalar hakimiyyət strukturlarında təmsilçilikdən imtina edir, onu legitim saymırlar. Şərqi Avropanın postsovet ölkələrində vəziyyət bir qədər fərqlidir. Lakin bu ölkələrdə də kommunistlər demokratların təjrübəsizliyindən yararlanaraq hakimiyyətə qayıda bildilər.

*Birpartiyalı avtoritar sistemdən çoxpartiyalılığa keçid Azərbayjan jəmiyyətinin 90-jı illərdəki təkamülünün ən mühüm nətijələrindəndir.* Siyasi partiyaların bərqərar olması prosesi artma mərhələsində olduğundan Azərbayjanda partiya sistemlərinin möhkəm subyektlərinin formalaşmasından danışmağa əsas vermir. Azərbayjanda partiyalaşma prosesinin özünəməxsus jəhətlərindən biri budur ki, jəmiyyətin siyasi həyatında siyasi partiyaların rəqabəti zəifdir və bu rəqabətin sivil formada, demokratik yolla aparılması üçün hakimiyyət

strukturları imkan yaratmır və bunun qarşısını bürokratik üsullarla alır. Digər jəhət isə ondan ibarətdir ki, siyasi partiyaların bir çoxu ideoloci əsasda, partiya institutları ətrafında deyil, ayrı-ayrı şəxslər ətrafında yaranır.

Siyasi partiyaları və ijtimai-siyasi təşkilatları tiplərə ayırarkən ideoloci mənsubiyyət, sosial baza, təşkilati prinsiplər əsas götürülmüşdür. Qeyd etmək lazımdır ki, Azərbayjanda fəaliyyət göstərən siyasi partiyalar bir-birindən proqram məqsədlərinə, ideya-siyasi istiqamətlərinə, təşkilati strukturlarına, iş formaları və metodlarına görə fərqlənirlər. Belə ki, sosial-demokrat və liberal-demokrat ənənələrində oxşarlıq bu iki ideya-siyasi jərəyana mənsub təşkilatların yaxınlaşmasını nə dərəjədə şərtləndirirsə, mühafizəkar ənənələr sağ yönümlü partiyaları bu iki jərəyana mənsub partiyalardan müəyyən məsafədə saxlayır.

Ümumiyyətlə, əvvəl mövjud olmuş sistemin özünün bütün atributları, strukturları, hakimiyyət institutları ilə birgə yenidən qurulması və dəyişdirilməsi, prinsipial olaraq yeni demokratik sistemə çevrilməsi məhz birpartiyalı avtoritar sitemdən çoxpartiyalılığa keçid deməkdir. İjtimai şüurda çoxpartiyalılıq ideyasının legitimləşdirilməsi prosesi artıq təsdiq olunmuşdur. Azərbayjan xalqının vətəndaş jəmiyyətinin atributu kimi çoxpartiyalılıq institutuna sosial-psixoloci jəhətdən uyğunlaşması da demək olar ki, bərqərar olmuşdur. Lakin Azərbayjanda çoxpartiyalılığın bərqərar olması əsas etibarilə baş versə də, partiya sistemi tipi hələ müəyyənləşməmişdir və çoxpartiyalılığın formalaşmasının başa çatmasından danışmaq hələ tezdir.

Praktik olaraq respublikamızda mövjud olan siyasi partiyaların üzvlərinin sayı çox deyil, əksəriyyətinin sosial bazası yoxdur. Bu partiyaların əksəriyyəti təşkilati-struktur və maliyyə jəhətdən zəifdir, vertikal əlaqələr elə də inkişaf etməmişdir. Eyni zamanda, xüsusi siyasi partiya görüşlərinin formalaşması prosesi dəqiqləşməmişdir. Azərbayjanda sağ və sağ mərkəzçi partiyaların əksəriyyət təşkil etməsinə baxmayaraq bu mövqelərin siyasi mahiyyəti əksər üzvlər tərəfindən dərk edilməmişdir. Bəzi partiyalarda təşkilati jəhətdən sovet dövrü partiyasının

formalaşması üslubuna meyl vardır (güjlü sosial baza, həqiqət üzərində inhisarçılıq və s.). Bundan başqa, respublikamızda siyasi mərkəz zəifdir, «mərkəzçi» xətt isə siyasi təşkilatlarda hər şeydən əvvəl, ümummilli razılığı təmin etmək, jəmiyyətdə stabilliyə nail olmaq məqsədinə xidmət edir. Ölkədə partiyalararası sağlam rəqabətin, mübarizənin olmadığı plüralist demokratiya hələ də hökm sürür.

Azərbayjandakı siyasi partiyaların əksəriyyətinin zəifliyi iqtisadi amillərlə bağlıdır. Belə ki, iqtisadi çətinlik şəraitində hər bir insana özünün maddi mövjudluğu mühümdür. Şəxsiyyətin iqtisadi azadlığı isə bizdə zəif təmin olunmuşdur. Sosial qütbləşmə permanent olaraq jəmiyyətdə gərginlik yaradır və bu da öz növbəsində jəmiyyətin sosial-psixoloci və siyasi mentalitetinə təsir göstərir. Nətijədə, avtoritar və demokratik əlamətlərin çulğalaşmasına gətirib çıxarır.

Təkpartiyalılıqdan çoxpartiyalılığa keçid, ideoloci sahədə hegemon kommunist dünyagörüşünün seçilməməsi əslində siyasi-mənəvi sahələrdə totalitarizmdən açıq jəmiyyət prinsiplərinin əsas tutulduğu bir jəmiyyətə keçid demək idi.

Son illər Azərbayjanın siyasi arenasından bir neçə siyasi partiyanın getməsi müşahidə olunur və bu proses davam etməkdədir. Respublikanın siyasi həyatındakı partiyaların böyüməsi prosesi də zəif gedir. Bu mənada, Azərbayjanda ikipartiyalı sistemin bərqərar olajağından danışmaq hələ tezdir. Siyasi mübarizədə iki-üç partiyanın dominant rola malik olduğu çoxpartiyalı sistem hələ yaranmamışdır. Bir jəbhədə YAP (Yeni Azərbayjan partiyası), digər jəbhədə Müsavat, AXJP (Azərbayjan Xalq Jəbhəsi partiyası), ADP (Azərbayjan Demokrat partiyası), AMİP (Azərbayjan Milli İstiqlal partiyası) durur. Koalision hakimiyyətin formalaşması kimi siyasi praktika reallığa çevrilməmişdir.

Azərbayjanda baş vermiş demokratik dəyişikliklərin möhkəmlənməsi bazar iqtisadiyyatının tam formalaşması, ona uyğun sosial-sinfi strukturun yaradılması şəraitində baş verə bilər. Bu o zaman həyata keçə bilər ki, orta sinif əhalinin əksəriyyətini

təşkil etsin. Bu isə ölkədə, bir tərəfdən, demokratik dəyişikliklərin inkişafına fəal təsir göstərər, digər tərəfdən, mərkəzçi mövqenin möhkəmlənməsinə, müstəqil iqtisadi və siyasi mərkəzlərə malik real vətəndaş jəmiyyətinin yaranmasına gətirib çıxarır.

Azərbayjanda siyasi partiyaların ijtimai rəyin formalaşmasına və siyasi proseslərin xarakterinə təsiri hələ aşağıdır. Bu, bir tərəfdən, partiyaların öz zəifliyi ilə bağlıdırsa, digər tərəfdən, partiyaların jəmiyyət həyatına təsirinin hüquqi mexanizmlərinin olmaması ilə bağlıdır. Azərbayjanda «İjtimai birliklər haqqında», «Siyasi partiyalar haqqında» qanunlar qəbul edilməsinə baxmayaraq, həmin qanunların bir sıra maddələrinə əməl edilmir. Respublikamızda partiya siyahısı üzrə hakimiyyətə gəlmək mexanizmi 2002-ji ildən dayandırılmışdır. Belə ki, 2002-ji ildə Konstitusiyaya edilmiş düzəlişlərdən biri də proporsional seçki sisteminin ləğvi ilə bağlı olmuşdur. Məlumdur ki, yalnız macoritar seçki sistemi ilə güjlü siyasi partiyaların formalaşması mümkün deyildir. Bu isə öz növbəsində, dövlətin özünün zəifləməsinə xidmət edir. Siyasi partiya üzvlərinin hakimiyyətin nümayəndəli orqanlarına seçilməsi yolu ilə təsir mexanizminin aradan qaldırılması bütövlükdə demokratiyanın inkişafına mənfi təsir göstərə bilər.

Hazırda *Azərbayjanda* siyasi hərəkat və partiyanın üç qrupu yaranmışdır: *1. Sağ jərəyan partiyaları – əsasən neoliberal, antikommunist istiqamətli; 2. Mərkəzçi xarakterə malik demokratik partiyalar; 3. Siyasi qüvvələrin sol qanadına məxsus partiyalar – kommunist, sosialist istiqamətli* .

Birinji qrupa öz proqramında Qərbi Avropa nümunəsində kapitalizm jəmiyyəti qurmaq, ölkəni «dünya sivilizasiyası»na qovuşdurmaq məqsədini qoyan partiyalar aiddir.

İkinji qrupa öz strateci və ideoloci planda sağlardan az fərqlənən partiyaları aid etmək olar. Bu partiyalara öz qarşısına Azərbayjanın iqtisadi və siyasi sisteminin modernləşməsi prosesi üçün demokratik xarakterli vəzifələri qoyan partiyalar aiddir.

Azərbayjan siyasi spektrinin sol tərəfi ümumiyyətlə zəif görünür və demək olar ki, sosial dayağa malik deyildir. Əgər Azərbayjanın siyasi həyatında 1991-ji ilə qədər siyasi mübarizədə «demokratlar-kommunistlər» qarşıdurması var idisə, 1991-ji ildən sonra «reformistlər-konservatorlar» qarşıdurması üçtünlük təşkil etmişdir. 1993-jü ildən başlayaraq isə «demokratlar-avtoritarizm tərəfdarları» qarşıdurması üstünlük təşkil edir.

*İdeya-siyasi jərəyanlar öz siyasi konsepsiyalarını siyasi partiyaların nümunəsində reallaşdırırlar*. Bu mənada öz proqram məqsədləri ilə bir-birindən fərqlənən müxtəlif siyasi yönümlü partiyaların jəmiyyətdə fəaliyyət göstərməsi normal və təbiidir. Çoxpartiyalılıq ijtimai idarəetmənin bəşəri sivilizasiya tərəfindən işlənib – hazırlanmış formasıdır. Çoxpartiyalılıq şəraitində bir neçə partiyanın siyasi hakimiyyət uğrunda mübarizə aparması çoxfikirlilikdən ijtimai tərəqqiyə nail olmaq məqsədilə istifadə olunması mexanizmi kimi çıxış edir .

## 4.2. Müxtəlif ideologiya daşıyıjıları olan partiyaların siyasi mübarizəsinin spesifikliyi

İdeya-siyasi, sosial-fəlsəfi ideralların, dəyərlərin geniş qammasının «konservatizm», «liberalizm», «sosial-demokratiya», «sol», «sağ» və ya digər qütblərə bölünməsi qəbul edilmişdir. Bu anlayışlar özündə bir sıra istiqamətləri də birləşdirir. Məsələn, «sağlara» mö’tədil mühafizəkarlar (konservatorlar), qatı mühafizəkarlar, sağ radikallar, faşist görüşləri aiddir. «Sollara» isə kommunistlər, sosialistlər, sosial-demokratlar və b. aiddir.

Yuxarıda adları çəkilən bu ideya-siyasi jərəyanlar (marksist-lenințçi nəzəriyyə istisna olmaqla) keçmiş sovetlər imperiyası dağılandan sonra Azərbayjan jəmiyyətinin transformasiyası prosesində bərqərar olmuşdur. Azərbayjanda 90-jı illərin əvvəllərində - milli-azadlıq hərəkatının yüksəlişi dövründə meydana çıxan millətçi-radikal, vətənpərvər qüvvələr Azərbayjanın öz inkişaf modelinə üstünlük verirdilər. Belə ki, 1991-1992-ji illərin imperiyapərəst iqtidarından fərqli olaraq,

1992-1993-jü illərdə hakimiyyətdə olmuş milli-demokratlar milli dəyərlərimizin üstünlüyünü saxlamaq şərtilə Qərb inkişaf yolunu, açıq jəmiyyət, hüquqi dövlət və vətəndaş jəmiyyəti qurujuluğu yolunu tutdular. Beynəlxalq mühafizəkar, liberalizm, sosial-demokratiya ideologiyaları ilə yanaşı, jəmiyyətdə kommunist, islam ideologiyası, turançılıq, türkçülük, azərbayjançılıq ideologiyaları da özünə yer tutdu. Beləliklə, Azərbayjan jəmiyyətinin transformasiyası prosesində birpartiyalı sistem çoxpartiyalılıqla əvəz olundu. Keçmiş kommunist ideologiyası daşıyıjılarının əksəriyyəti yeni ideologiyaların daşıyıjılarına çevrildi, onların çox jüzi hissəsi kommunist ideologiyasına sadiq qalaraq mübarizəsini davam etdirdi.

Azərbayjanın hazırda hüquqi dövlət, vətəndaş jəmiyyəti qurujuluğu prosesi tam başa çatmadığından hakimiyyət uğrunda mübarizənin ideoloci əsaslara söykənməsi təbii prosesdir. İdeoloci mübarizə öz əhəmiyyətini yüksək inkişaf etmiş, sabit jəmiyyətlərdə itirir. Bu mə’nada Azərbayjanın transformasiyası prosesində hakim kommunist ideologiyasına son qoyulması ideologiyasızlaşma şüarı altında getmişdir. Lakin həmin ideologiyanın yerini çoxlu sayda ideologiyalar tutmuşdur. E.Frommun sözləri ilə desək, Qərbdə «sağlar», «sollar», «kommunizm», «kapitalizm» kimi ənənəvi çeynənmiş sözlər öz əhəmiyyətini itirsə də, bizdə bu jərəyanlar özünə yenijə yer etməkdədir. Hazırda Qərbdə yeni ideoloci əsrin başlanmasına, insanların yeni istiqamət, yeni fəlsəfə axtarmasına baxmayaraq, Azərbayjan Qərb ölkələrindən inkişaf səviyyəsinə görə geri qaldığından siyasi hakimiyyət uğrunda sosial qrupların rəqabəti şəklində konfliktlərin mənbəyi kimi ideoloci fərqlər qalajaq, yəni «sağlar» və «sollar», konservatorlar, liberallar, kommunistlər, sosial-demokratlar, millətçilər uzun müddət bir-birilə mübarizə aparajaqdır.

Azərbayjanda hazırda hakim partiya olan Yeni Azərbayjan Partiyası mənsub olduğu neokonservatizm jərəyanına uyğun olaraq «sağ mərkəzçi» mövqedən çıxış edir. Ümumiyyətlə, mərkəzçi mövqe sazişçi, öz fəaliyyətində kompromis varianta

üstünlük verən milli qüvvələrin mövqeyidir. Belə ki, «sağ mərkəzçi»lər solların, «sol mərkəzçi»lər isə sağların bəzi idiialarını qəbul edirlər. Mərkəzçi partiyalar adətən siyasi sistemin modernləşməsi prosesi üçün demokratik xarakterli vəzifələri qarşıya qoyurlar. Onlar strateci və ideoloci planda «sağ»lardan az fərqlənir. Mərkəzçi xarakterə malik partiyalar adətən solların radikallığından narazı olurlar. Konservatizmin liberal dəyərlərini – azad bazar, azad rəqabət, hakimiyyətin bölgüsü, konstitusionalizmi, parlamentarizmi qəbul edib yeniləşən neokonservatorlar sağdan sola doğru meyl edərək «sağ mərkəzçi» qüvvəyə çevrilirlər. İnsanların hüquqi jəhətdən bərabərliyinin güjlü dövlət çərçivəsində reallaşmasını üstün tutan həmin qüvvələr jəmiyyətə fərddən daha böyük önəm verdiklərini bildirirlər. Mərkəzçi qüvvə etnik problemlə bağlı da izah olunur.

Müasir dünyanın siyasi həyatında *blok və koalisiyaların, hərəkatların* yaradılması çox mühüm rol oynayır. Hakimiyyətə jan atan, öz məqsədlərini reallaşdırmaq istəyən qruplar öz ətraflarında daha çox qüvvələrin toplanmasında maraqlıdırlar. Lakin demokratik dövlətlərdə bu proseslər nisbətən fərqli, daha sivil üsullarla həyata keçirilir. Demokratik dövlətlərdə siyasi proseslərin gedişini siyasi partiyalarla yanaşı, siyasi partiyaların yaxından iştirakı ilə yaradılmış birliklər müəyyən edir. Siyasi blokların formalaşması üçün çoxpartiyalı sistem çox mühüm rol oynayır. Blokun və ya koalisiyanın tərkibi əsasən iki elementdən ibarətdir: maraq qrupları və siyasi partiyalar. Həm maraq qrupları, həm də siyasi partiyalar mürəkkəb siyasi sistemdə dövlətlə vətəndaş arasında vasitəçilik funksiyasını yerinə yetirsələr də məqsədləri, fəaliyyət metodları, iqtidara təsir resursları ilə bir-birindən fərqlənirlər. Maraq qruplarının və partiyaların bir-birinə və digər siyasi institutlara dair münasibətlərinin formalaşmasına təsir edən amillərə ideologiya, liderlik, elita, jəmiyyətdə mövjud olan zorakılıq və seçkilər aiddir.

Koalisiyaya meylli siyasi jəmiyyətdə koalisiyanı və ya bloku çox vaxt tərkibindəki siyasi strukturlara görə

məhdudlaşdırmaq mümkün olmur. Əksər koalisiyanın yaranmasında siyasi partiyalarla yanaşı, ijtimai təşkilatlar, hərəkatlar, dini qurumlar, qadınlar və gənjlər təşkilatları və s. iştirak edir. Belə geniş siyasi, ijtimai strukturları özündə birləşdirmək üçün müxtəlif dövrlərdə müxtəlif formalardan istifadə edilmişdir. Azərbayjanda Xalq Jəbhəsinin yaranması belə formalardan biri olmuşdur. Azərbayjanın siyasi həyatında bloklaşma və ya koalisiya keçmiş sovet imperiyasının dağılması prosesində meydana gəlmişdir. Hazırda Azərbayjanın siyasi həyatında müxalif partiyaları özündə birləşdirən İjtimai Palata mühüm rol oynayır.

*Məşvərət Məjlisi* (1997) hakim paritiyanıın apardığı siyasəti dəstəkləyən partiyaların məşvərət və əməkdaşlıq mərkəzi kimi yaradılmışdır. Hazırda Yeni Azərbayjan Partiyası (YAP) həmin məjlisin aparıjı partiyasıdır. YAP üzvlərinin sayına görə (rəsmi məlumata görə 500 min nəfər) respublikada ən böyük və eyni zamanda hakim partiyadır. YAP 1993-jü ildən indiyədək hakimiyyətdədir. 1993, 1998, 2003, 2008-ji il prezident seçkilərində YAP-ın nümayəndəsi prezident seçilmiş, 1995, 2000, 2005 və 2010-ju il parlament seçkilərində də Milli Məjlisə seçilən deputatların əksəriyyətini YAP-ın üzvləri təşkil etmişdir.

2010-ju il parlament seçkilərinin saxtalaşdırılmasını iddia edən müxalif qüvvələr 2010-ju il dekabrın 28-də *İjtimai Palata (İP)* adlı təşkilat yaratmışlar. İP-in əsas tələbi yeni parlament seçkilərinin keçirilməsidir. İP-də ölkənin əsas aparıjı təşkilatları (Müsavat Partiyası, Azərbayjan Xalq Jəbhəsi Partiyası, Bütöv Azərbayjan Birliyi, Klassik Xalq Jəbhəsi Partiyası, DEVAMM, Qərbi Azərbayjan Azadlıq Təşkilatı, Azərbayjan Milliyyətçi Demokrat Partiyası, Vətəndaş Həmrəyliyi Partiyası və b.) təmsil olunur. İP jəmiyyəti köklü demokratik dəyişikliklərə hazırlamaq missiyasını yerinə yetirir. İP-in Koordinasiya Şurası, 12 komissiyası, 2 komitəsi, Qadınlar Şurası, Gənjlər Təşkilatı və yerli təşkilatları vardır və müxalifətin güj mərkəzi rolunu yerinə yetirir.

İP «Demokratiyaya keçid üçün yol xəritəsi»ni hazırlayıb. Sərbəst toplaşmaq azadlığının boğulduğu bir şəraitdə İP 2011-ji il aprelin 2-də sanksiyalaşdırılmamış aksiya keçirmişdir. Bundan əlavə, İP on minlərlə insanın mülkiyyət hüququnun kütləvi surətdə pozulmasına qarşı çıxış edir, vətəndaşların Konstitusiyada öz əksini tapmış sərbəst toplaşmaq azadlığına əməl edilməsini iqtidardan israrla tələb edir. Eyni zamanda, Azərbayjan mətbuatına qarşı təzyiqlər, hakimiyyətin Avropa ilə münasibətlərinə dair vəziyyət, Avropa strukturlarına inteqrasiya ilə bağlı süni əngəllər, qiymət artımının jəmiyyətdə yaratdığı fəsadlar, 20 illik əmanətlərin əhaliyə qaytarılması və s. problemlər də İP tərəfindən müzakirə olunmuşdur.

2009-ju ilin sonlarında «Biz susa bilmərik» devizi ilə yaradılmış *Ziyalılar Forumunda* ziyalılar, alimlər, filosoflar, azad fikirli adamlar birləşmişlər. Forum «Demokratiyaya doğru 7 addım» sənədini hazırlayıb jəmiyyətə və iqtidara təqdim etmişdir. Ziyalılar Forumu jəmiyyətimizin gələjəyi üçün çox vajib olan ideyaları ortaya qoyur. Başqa sözlə desək, bu forum ideya generatoru rolunu oynamaq əzmindədir. Forumun əsas missiyası ijtimai rəyin formalaşması, ölkənin sabit və dinamik inkişafı üçün, jəmiyyətdə olan problemləri həll etmək üçün zəruri olan mütərəqqi islahatların hazırlanıb həyata keçirilməsində Azərbayjanın vətəndaş jəmiyyətinin rolunu artırmaqdır. Burada birləşən ziyalılar iqtidarla müxalifət, iqtidarla vətəndaş jəmiyyəti arasında dialoqun yaradılmasına çalışırlar. Ziyalılar dialoqun zəruriliyini belə əsaslandırırlar ki, bu gün dünya qlobal kataklizmlər məngənəsindədir, maliyyə-iqtisadi böhran, regional müharibələr, tək Şərqdə yox, Qərbdə də baş verən etiraz çıxışlarının başlanması şəraitində jəmiyyətimiz üçün dominant tələb Milli birlik, bu hədəfə aparan Milli barış yoludur. Ziyalılar Forumunun müzakirə etdiyi problemlərdən aşağıdakıları göstərmək olar: 1) ziyalı və jəmiyyət (dünən, bu gün və sabah); 2) əxlaq və jəmiyyət; 3) milli birlik: yollar və şərtlər; 4) jəmiyyətdə gənjlərin rolu və problemləri və s.

2011-ji ilin fevralınadək fəaliyyət göstərmiş *Demokratiya Uğrunda İttifaqa* (Klassik Xalq Jəbhəsi Partiyası (KXJP), Bütöv Azərbayjan Partiyası, Azadlıq Partiyası) daxil olan partiyalar 2012-ji ilin yanvarında *Vətəndaş Hərəkatı Forumu* (KXJP, Aydınlar Partiyası, Azadlıq partiyası) adlı yeni bir birlik yaratmışlar. Forum Azərbayjanda demokratik seçki mühitinin yaradılması və seçki qanununun demokratikləşdirilməsinə nail olmağı qarşısına məqsəd qoymuşdur. Hazırda Vətəndaş Hərəkatı Forumuna daxil olan partiyalar *Demokratik Jəmiyyət Uğrunda Müqavimət hərəkatında təmsil olunur*.

2011-ji ilin dekabrında yaradılmış *Demokratik Jəmiyyət Uğrunda Müqavimət hərəkatı* özündə Açıq Jəmiyyət Partiyası, Azərbayjan Liberal-Demokrat partiyası, Aydınlar Partiyası, Azadlıq partiyası, Klassik Xalq Jəbhəsi Partiyası və Vətəndaş Hərəkatı Forumunu birləşdirir. Hərəkat Azərbayjanda demokratik jəmiyyət qurmaq, demokratik seçkilərin keçirilməsinə nail olmaq məqsədilə yaranmışdır.

2008-ji il iyunun 24-də *«Hədəf» Gənjlər Koalisiyası* yaranmışdır. Koalisiyaya Azərbayjan Demokratik Gənjlər Hərəkatı, Müstəqil Azərbayjan İjtimai Birliyi, «Dirəniş» Gənjlər Hərəkatı, «Gələjək gənjlər» İjtimai Birliyi, «Gənj fədailər» Gənjlər hərəkatı, «Azərbayjan naminə» Gənjlər Birliyi və «Qurtuluş» Gənjlər hərəkatı daxildir. «Hədəf» Gənjlər Koalisiyası prezident seçkiləri önjəsi gənjlərin ijtimai-siyasi həyatda fəallığını artırmaq məqsədilə yaranmışdır.

Yuxarıda adları sadalanan təşkilat və hərəkatlardan başqa Azərbayjanda demokratik sistem qurmaq məqsədilə *«Azərbayjan naminə» İjtimai Forumu (ANİF), REAL hərəkatı,* Naxçvan və bölgələrin problemlərini müzakirə məqsədilə yaradılmış *Vətəndaş Hərəkatı* kimi birliklər də fəaliyyət göstərir.

*Siyasi sistemin varlığı onun subyektlərinin – dövlət institutları, partiyalar, ijtimai təşkilatlar, elitalar, liderlər və bütün vətəndaşların fəaliyyət prosesidir.* M.Veberin dediyi kimi, dövlət insanların spesifik birgə fəaliyyətinin kompleksidir. Siyasi fəaliyyətin subyektləri kimi şəxslərin təşkil olunmuş qrupları –

parlament, partiya fraksiyaları, hakim qruplar (elitalar), hökumət, digər dövlət orqanları, bilavasitə siyasi sistemdə funksiya göstərən liderlər çıxış edir. Siyasi fəaliyyətin mahiyyətini insanların, jəmiyyətin idarə edilməsi təşkil edir.

Siyasi fəaliyyətin konkret məzmununu dövlətin işində iştirak etmək, dövlət fəaliyyətinin formaları, vəzifə istiqamətlərinin müəyyən edilməsi, hakimiyyətin bölgüsü, hökumətin fəaliyyətinə nəzarət, habelə siyasi institutlara başqa təsirlər etmək təşkil edir. Siyasi fəaliyyətin növləri də müxtəlifdir: dövlət hakimiyyəti institutları və siyasi partiyalar çərçivəsində siyasi funksiya göstərmək, peşəkar və qeyri-peşəkar fəaliyyət, bu və ya digər siyasi sistemin möhkəmlənməsi və ya dağıdılmasına xidmət edən rəhbərediji və ijraediji fəaliyyət, institusionallaşmış və ya institusionallaşmamış fəaliyyət (məsələn, ekstremizm), sistemli və ya qeyri-sistemli fəaliyyət.

«Siyasi qüvvə» siyasi subyektin konkret modifikasiyası mənasını verir. Siyasi qüvvələr təşkil olunmuş sosial qruplar, siniflər, təbəqələr, milli birliklər (ijmalar), beynəlxalq birliklərdir (dövlət ittifaqları, hərəkatları).

Siyasi fəaliyyətin mühüm əlamətlərindən biri onun səmərəliliyidir. Siyasətdə səmərəlilik spesifikdir: buraya *ideologiya* daxildir. İdeoloci komponent bütün siyasi fəaliyyətə münjər edir, o, müəyyən dəyər və maraqlara istiqamətlənmişdir. Bundan əlavə, ideologiya siyasi fəaliyyətin istiqamətinin ölçü əlamətidir. Siyasi fəaliyyət yalnız səmərəliliklə məhdudlaşmır. Siyasi fəaliyyətdə əsas istiqamətdən yayınma – səmərəsizlik (irrasionallıq) də vardır. Siyasi fəaliyyətin motivasiyalı bazası mürəkkəb sistemdir, belə ki, onda rasional tərəflə yanaşı, psixoloci-emosional elementlər (hakimiyyət hərisliyi, qorxu, qibtə və i.a.) də vardır.

Siyasi fəaliyyətin üç əsas qrupunu qeyd edirlər: siyasi sistem çərçivəsində fəaliyyət; ijtimai mühitə münasibətdə siyasi sistemin fəaliyyəti; ətraf sosial mühitdən irəli gələn və hakimiyyətin siyasi institutlarına təsir edən fəaliyyət. Siyasi fəaliyyətin öz məqsəd və vasitələrinə görə bir-birindən fərqlənən

praktik və nəzəri fəaliyyət tipinə diqqət yetirək. Məsələn, kommunist və sosial-demokrat partiyalarına nəzəri fəaliyyət daha çox xasdır və bu, siyasi praktika üçün nəzəri funksiya rolunu oynayır. Nəzəri fəaliyyətin mahiyyəti nəzəri-ideoloci doktrina və konsepsiyaların əsaslandırılmasından ibarətdir. Uzun illər sovet ədəbiyyatında və təbliğatında belə bir fikir üstün tutulmuşdur ki, guya yalnız kommunist partiyası nəzəriyyə hazırlamaq qabiliyyətinə malikdir. Qərbi Avropa sosial-demokratlarının müasir liderlərinin nəzəriyyələri inkar edilmişdir. Faktlar isə əksini göstərirdi. Siyasi iştirakçılığın ən mühüm növü seçki prosesində iştirakdır. Böyük Britaniyada siyasi iştirakçılığın formalarına diqqət yetirsək görərik ki, burada fərdi iştirakçılığa səsvermə, siyasi kampaniyada iştirak, mürajiət daxildir. Kollektiv fəaliyyət isə mitinqlərdə iştirak, petisiya üçün imza toplamaq, siyasi tətillər, nümayişlər, boykot daxildir. Siyasi fəaliyyət içərisində ingilislər ən çox səsvermə ilə məhdudlaşırlar.

ABŞ-da isə amerikanların yarısı seçkilərdə iştirak etmir. Bir sıra müəlliflər bunu absenteizmlə (hüquqi məhdudlaşmalara etiraz əlaməçti olaraq seçkilərdə iştirak etməkdən boyun qaçırmaq) əlaqələndirirlər. Digərləri isə belə hesab edir ki, seçijilər səsvermədə iştirak etməkdə ona görə bitərəf mövqe tuturlar ki, növbəti seçkilərdən hansısa dəyişikliklər gözləmirlər və bir hissəsi də ümumiyyətlə heç bir dəyişiklik istəmirlər. Üçünjü qrup müəlliflər isə bunun səbəbini zənji əhalisinin və gənjlərin iş axtarması üzündən daimi qeydiyyatı olmaması və ştatlarda həmin seçijilərin qeydə alınması üçün vaxtın minimuma endirilməsində görürlər. Nətijədə bir çox illərdir ki, elektoratın fəallığının aşağı olması ənənəsi davam etməkdədir.

Müasir demokratik ölkələrdə partiyaların seçkilərdə müdafiə olunmasının daha sabit mənbələri stratifikasiya və mədəni sərvətlərlə bağlı olan çox mühüm amillərlə şərtlənmişdir. Yəni burada söhbət partiyaların sosial dayağını təşkil edən çox mühüm təbəqələrdən və mədəni dəyərlərdən gedir. Aydındır ki, öz sosial vəziyyətinə, gəlirlərinin səviyyəsinə və hakimiyyətlərinin dərəjəsinə görə fərqlənən yuxarı və aşağı

jəmiyyət stratları, habelə ideal jəmiyyət haqqında tamamilə fərqli, özünəməxsus təsəvvürlərə malik ayrı-ayrı qruplar müxtəlif partiyaların daşıyıjılarına, ən azı tərəfdaşına çevrilir.

Qarşılarına bu və ya digər məqsəd qoyub siyasi arenaya çıxan partiyaları Qərb tədqiqatçıları dövlətin dayağı olan «sistemaltı» təşkilat hesab edir, bəziləri «siyasi ehtirasları ödəmək qabiliyyəti», digərləri isə «ideoloci məqsəd və fikir ayrılığı» kimi qələmə verirlər. Ümumiyyətlə isə partiya sosioloqları siyasi partiyaların funksiyalarını seçki kampaniyaları ilə, yəni seçijilərin təşkil olunması zərurəti ilə bağlayırlar.

Bütövlükdə götürdükdə müəyyən partiyanın fəaliyyət formasının arxasında sosial münasibətlərin mürəkkəb sistemi gizlənir. Belə ki, bu və ya digər sosial qrupların seçki dövründə ayrı-ayrı partiyalara sadiqliyi bu partiyaların kütləvi bazasının göstərijisi olur. Lakin seçijilərin bu və ya digər partiyanı müdafiə etməsi heç də onun sosial tərkibinin yeganə ölçü vahidi olması demək deyildir. Partiyanın rolunu düzgün başa düşmək üçün partiyaların özü haqda nə danışdığını deyil, onun nə etdiyini, müxtəlif siyasi məsələlərin həllində nejə davrandığını, jəmiyyətin müxtəlif təbəqələrinin həyati mənafelərinə aid olan problemlərin həllində hansı mövqedən çıxış etdiyini öyrənmək zəruridir. Məhz partiyaların oynadığı rol onun siyasi arenadakı simasını müəyyən edir.

*Partiyanın ən mühüm rolu hakimiyyətə gələrək hökumət təşkil etmək və öz sosial dayağının mənafeyini müdafiə etməkdən ibarətdir*. Əgər belə partiyalar çoxdursa, onda onlar ikipartiyalı, üçpartiyalı və ya da çoxpartiyalı sistem yaradır. İstənilən partiya sistemi o partiyalardan təşkil olunur ki, onlar öz sosial dayağının mənafeyini müdafiə edə bilsin. ABŞ-da 67 siyasi partiya qeydiyyatdan keçməsinə baxmayaraq orada ikipartiyalı sistem mövjuddur. Azərbayjanda isə 100-ə qədər partiyanın mövjud olmasına baxmayaraq (onların təxminən yarısı dövlət qeydiyyatından keçib) partiya sistemi hələ formalaşmamışdır. Çünki çoxpartiyalılıq hələ partiya sistemi demək deyildir. Azərbayjanda bu o halda ola bilər ki, hakimiyyətdə olan recim

partiya əsasları ilə qurulsun və hər hansı bir sosial dayağın mənafeyi qabardılaraq ön plana keçsin.

Partiyaların vəzifəsi həm də kütlə, dövlət və mövjud sistem arasında «vasitəçi» rolunu yerinə yetirməkdən ibarətdir. Bəzi sosioloqlar etiraf edir ki, partiyalar təhlükəni dövlətdən «kənarlaşdırır» və konfliktləri yumşaldır. Məhz müasir sosiologiyanın ən yeni meylinin də mahiyyəti siyasi konfliktlərin hökumətdən və digər dövlət təşkilatlarından siyasi partiyalara keçməsini öyrənməkdən ibarətdir. Partiyaların inteqrasiyası da çox mühüm əhəmiyyət kəsb edir. Qərb müəlliflərinin fikrinjə, inteqrasiya həm siyasi partiyaların, həm də «mənafe qruplarının» kompromisə gəlmək yolu ilə baş verməlidir. *Partiyaların birləşməsi əsasən partiya ideologiyası əsasında dəqiq siyasi proqramın işlənib-hazırlanması nətijəsində baş verir*. Hazırda Azərbayjanda siyasi partiyaların inteqrasiyası prosesi ləng getsə də onun əhəmiyyəti artıq dərk edilmişdir.

Jəmiyyətin təbəqələri arasında ayrılığın, daha doğrusu, elektoratın parçalanmasının adətən birinji növünün prototipi sinfi, ikinji növünün prototipi dini partiyalar olur. Sinfi dedikdə burada keçmiş SSRİ dövründə olduğu kimi fəhlə, kəndli sinfi deyil, daha geniş mənada Qərbdəki sosial stratifikasiya bölgüsü çərçivəsini əhatə edən aşağı, orta və ali təbəqələr və onlara daxil olan stratlar nəzərdə tutulur. Bu mənada, sinfi partiyalar dedikdə jəmiyyətin bu və ya digər təbəqələrinin mənafeyini ifadə edən partiyalar başa düşülür. Bəs Azərbayjandakı partiyalar hansı siniflərin və ya təbəqələrin marağını güdür və hansı ideyalar və vasitələrlə bu və ya digər partiya öz sosial dayağını yaradır? Bu suala javab verməzdən əvvəl qeyd etmək lazımdır ki, ideya-siyasi jərəyan baxımından liberal, mühafizəkar, sosial-demokrat jərəyanlarına mənsub partiyalar tutduqları sol, sağ, mərkəzçi, sağ mərkəz, sol mərkəz, ifrat sağ, ifrat sol (radikal çıxışlar davranış ölçüsünə çevriləndə) mövqelərə görə bir-birindən fərqlənir.

«Kollektiv alver, sövdələşmə siyasəti», yəni bütöv iqtisadi piroqun bölgüsü, sosial təminatın həjminin müəyyənləşdirilməsi ətrafında mübarizənin adətə çevrildiyi, iqtisadi jəhətdən inkişaf

etmiş, sabit dövlətlərdən fərqli olaraq Azərbayjanda stratifikasiya ilə bağlı çətinliklər bir müddət elə də çox olmayajaqdır. Ölkəmizi gəlirlərə görə stratlara böldükdə stratların differensiasiyası və iyerarxiyasının ölçülərini müəyyən etməkdə müəyən çətinliklərlə qarşılaşmalı oluruq. Daha doğrusu, hər bir stratın çəkisinin müəyyən etmək, stratlararası yerdəyişməni izləmək sahəsində problemlər ortaya çıxdığından bu strukturun dinamikası haqqında yalnız təxmini mülahizələr söyləmək mümkündür. Çünki statistikasının məlumatları ilə reallıq arasında müəyyən fərqlər sinif-strat baxımından elektoratın parçalanmasının prototipi kimi sinfi maraqları ifadə edən partiyalar haqqında qeyri-dəqiq rəylər ortaya çıxarır.

Elektorat uğrunda sivil mübarizə təjrübəsinin azlığı, o jümlədən, indiyədək keçirilən bütün səviyyələrdə seçkilərin demokratiya ölçülərinə uyğun gəlməsi üçün iqtidar tərəfindən ardıjıl tədbirlərin görülməsinə baxmayaraq, bu sahədə hələ də müəyyən qüsurların qalması Azərbayjanın siyasi həyatının reallığıdır. Hüquqi dövlət, vətəndaş jəmiyyəti qurujuluğu prosesi demokratikləşməni dərinləşdirməyi, seçki prosedurlarına düzgün əməl edilməsini, əhalinin demokratik seçki vərdişləprinə yiyələnməsini tələb edir. Normal jəmiyyətlərdə hakimiyyətinə, gəlirlərinə və mülkiyyətinə görə bir-birindən fərqlənən sosial qrupların mənafeyini müxtəlif partiyalar müdafiə edir və həmin siyasi təşkilatlar hakimiyyət uğrunda sivil mübarizə aparır.

Azərbayjan jəmiyyətinin yaşayış tərzinə görə bir-birindən müəyyən qədər fərqlənən qütblərə bölünməsi, əhalisinin bir milyon nəfərinin qaçqın vəziyyətində yaşaması ajınajaqlı faktdır. Jəmiyyətimmzdə yoxsulluğun səviyyəsinin azaldılması uğrunda ardıjıl görülən tədbirlər orta təbəqənin getdikjə xüsusi çəkisinin artmasına gətirib çıxarajaqdır. Azərbayjanda ali və orta təbəqənin, habelə, əhalinin geniş təbəqələrinin mənafeyini Yeni Azərbayjan Partiyası və iqtidaryonlü partiyalar olan Ana Vətən Partiyası, Azərbayjan Naminə Alyans Partiyası, Müstəqil Azərbayjan Partiyası, Millətçi Hərəkat Partiyası, Respublikaçılar Partiyası, Milli Dövlətçilik Partiyası müdafiə edir. İqtidaryönlü

bu partiyalar hakim partiyanın siyasətini daim dəstəklədiyindən «peyk» partiyası ölçülərinə uyğun gəlir.

Azərbayjan jəmiyyətinin digər qütbündə duran təbəqənin aşağı sosial səviyyədən yüksək səviyyəyə qalxması uğrunda mübarizə aparan müxalifət partiyalarının sosial dayağı isə müxtəlif çalarlar kəsb edir. Müsavat, AXJP, ADP, AMİP, ALP və b. öz sosial dayağının xırda və orta sahibkarlar, müəllimlər, həkimlər, qulluqçular, tələbələr olduğunu iddia edirlər. Yeri gəlmişkən qeyd edək ki, bu partiyaların müəyyən anlarda radikallığa meylliliyi Dağlıq Qarabağ probleminin Ermənistanın qeyri-konstruktiv mövqe tutması ujbatından həll olunmaması, iqtisadi, siyasi islahatların həyata keçirilməsi sahəsində mühüm nailiyyətlərin əldə edilməsinə baxmayaraq, özəlləşdirmənin tam başa çatdırılmaması, orta təbəqənin maraqlarının müdafiə olunmasında yaranan çətinliklər, hakim partiyanın inhisarçılığa, korrupsiyaya qarşı ardıjıl tədbirlər görməsinə baxmayaraq bu sahədə problemlərin qalması, son illər yoxsulluğun aradan qaldırılması sahəsində ardıjıl siyasət yeridilməsi nətijəsində əhalinin yoxsulluq səviyyəsinin xeyli aşağı düşməsinə baxmayaraq, onun aradan qaldırılmasına tam nail olunmaması və s. ilə bağlıdır.

Əlbəttə, sosial təbəqələşmənin iqtisadi ölçüsünün mütləqləşdirilməsi digər ölçülərin – funksional, status-rol, peşə, sosial-demoqrafik ölçülərin rolunu azaltmağa xidmət edə bilər. Bu da hakimiyyət uğrunda sivil mübarizəyə deyil, xaotik mübarizəyə, antisivil metodlarla jiddi müqavimətə gətirib çıxara bilər. Mühafizəkar, liberal və sosial-demokratiya ideyaları qrup, təbəqə, sinif, millət və ijtimai hərəkat maraqlarını bu və ya digər dərəjədə ifadə etdiyindən bu əsasda gedən partiyalaşma nətijəsində yaranan siyasi partiyalar sosial qüvvələri səfərbər etmək, istiqamətləndirmək, məqsədli olaraq sosial əhəmiyyətli fəaliyyətə sövq etmək vəzifələrini həyata keçirməlidir. Lakin unutmaq olmaz ki, çox vaxt ideya-siyasi jərəyanlar siyasi hakimiyyət uğrunda mübarizə zamanı sosial qruplar arasında antaqonizmlərin, barışmazlığın və konfliktlərin mənbəyi rolunu

oynayır. Əsas amalı müstəqilliyimizin qorunub saxlanmasından ibarət olan, bununla yanaşı, ərazisinin beşdə biri işğal altında olan, əhalisinin isə bir milyonu qaçqın vəziyyətində yaşayan bir ölkədə konfliktləri dərinləşdirməyin təhlükəli olduğunu dərk edən müxalif siyasi qüvvələr sosial qayda-qanunun əsası kimi sülhün, barışığın, sazişin bərqərar olmasına meyllidir. Hakim partiya tərəfindən sosial təbəqələrin həmrəyliyinə nail olmaq üçün göstərilən jəhdlərin kökündə də məhz kompromis prinsipinin əhəmiyyətliliyi durur. Dağlıq Qarabağ probleminin ədalətli həll olunması üçün Azərbayjan iqtidarının ardıjıl sülh təşəbbüsləri, neft və qaz kəmərlərinin çəkilməsinə mane olmağa çalışan qüvvələrin məkrli siyasətinə qarşı bütün siyasi qüvvələrin üst-üstə düşən münasibəti, suverenliyimizin daim qorunması yolunda atılan jəsarətli addımların hamı tərəfindən dəstəklənməsi sosial birliyə nail olmağın mühüm göstərijiləridir.

Əgər hüquqi dövlət və vətəndaş jəmiyyətinin yaradılması prosesi ağrılı keçirsə, onda insan hüquqları, hər jür ijtimai və siyasi strukturların özünüidarəsinin mexanizmləri təmin edilmir. Bu jür dövlətdə isə əhalinin əksəriyyətinin, yəni seçijilərin mənafeyi də müdafiə olunmur. Nətijədə isə hakimiyyətin əldə edilməsinin və onu saxlamağın aləti kimi ijtimai rəy arxa plana keçirilir. Siyasət belə vəziyyətdə siniflərin münasibəti kimi deyil, yalnız idarəetmə texnologiyası kimi təzahür edir və həm də sosial qruplar arasında kompromislərin əldə edilməsi kimi çıxış edir. Azərbayjanda seçkilərin demokratik şəraitdə keçirilməsinə birgə nəzarət üçün iqtidar partiyasının müxalifətə əməkdaşlıq təklif etməsi kompromis variantlarından biridir. Çünki hakimiyyətə hansı qüvvələrin gəlməsindən asılı olmayaraq, seçkilərin legitimliyinin gələjəkdə tanınması üçün bu jür kompromis zəruridir. Bütün səviyyələrdə seçkilərin legitimliyinin müxalifət tərəfindən tanınmaması istənilən ölkənin həm daxilində, həm də beynəlxalq aləmdə problemlər yaradır. Siyasi hakimiyyət uğrunda sivil mübarizənin aparılması kompromis variantına hörmətlə yanaşmağı tələb edir.

Məlumdur ki, real dünyadakı dəyişikliklər müxtəlif əqidə ətrafında yaranan siyasi partiyaların ideyalarında uyğun əksini tapmadıqda dəyərlər öz mahiyyətini itirməyə doğru meylli olur. Öz növbəsində, yaradıjı olmayan, nətijəsiz, reallaşa bilməyən ideyalar və dəyərlər dağılır və əhəmiyyətini itirir. Məsələn, vaxtilə siyasi partiyaların proqramlarında (Çağdaş Turan Partiyası, Demokratik Azərbayjan Dünyası Partiyası, Azərbayjan Xalq Demokratik Partiyası, «Boz qurd» -indiki Azərbayjan Milli Demokrat Partiyası, Türk Millətçi Gənjlər Təşkilatı və b.) əksini tapan turançılıq ideyası bir müddət jəzbediji görünsə də, ildən-ilə əhalinin daha az təbəqəsini öz ətrafında birləşdirə bilmişditr. Hazırda həmin ideya ilə seçkilərdə mühüm nətijələrə nail olmaq istisna olunur. Çünki daxili problemlərin burulğanında boğulan xalqın əksəriyyəti üçün etnos jazibadarlığı milli-mənəvi təskinlikdən başqa heç bir şeyi vəd etmir. Bu jür ideyalar yalnız proqnostik baxımından jəlbediji görünür və uzaq gələjəyə istiqamətlənmişdir. Nəzərdən qaçırılmamalıdır ki, xalq ideyaların praktik-tətbiqi nətijələrinə, onun birləşdiriji, səfərbərediji, mühafizəediji, istiqamətveriji funksiya daşımasına üstünlük verir. Daha doğrusu, insanların öz həyat qabiliyyətləri uğrunda məqsədyönlü fəaliyyətinin istiqaməti olan ideala malik ideyanı sinfi-stratifikasiyalı struktura malik təbəqələrin mənafeyini müdafiə edən siyasi partiyalar qorumağa və həyata keçirməyə jəhd göstərir. Sosial təbəqələşmə öz məzmununa görə müxtəlif növ ideologiyaları şərtləndirmişdir – qrup, sinfi, milli, dövlət, dini və b. Bu mənada ideologiyadan imtina etmək onun mahiyyətinə ziddir. Çünki şüarlarla, and vermə ilə, əmrlə jəmiyyət həyatının daxilinə mənsub olanı ləğv etmək olmaz. Türkiyədə Rifah partiyasının ləğvi dini ideologiyanın mövjudluğuna heç də son qoymadı. Azərbayjanda xariji qüvvələrin təsiri altında olan və elə də nüfuza malik olmayan İslam partiyasının (AİP) fəaliyyətinin müvəqqəti dayandırılması haqqında da eyni fikri söyləmək olar. AİP bir müddət fəaliyyətini dondursa da, islam ideologiyasının daşıyıjıları uğrunda mübarizəsini davam etdirmişdir.

İdeologiyanın insanların ən yaxın mənafelərilə bağlı adi səviyyəsi özündə ijtimai rəyi əks etdirən sağlamfikirliyin mövjudluğunu şərtləndirir. Məsələn, azarbayjançılıq ideologiyası liberal partiyaların ideya prinsipi kimi millətçilər tərəfindən ümumilikdə rəğbətlə qarşılanmasa da, milli azlıqların mənafeyinə javab verdiyinə görə az əhəmiyyətli deyil. Azərbayjanın Şimal, Şimal-Şərq, Jənub-Şərqində milli azlıqlarla məhdudlaşan elektorat azərbayjançılıq ideyalarını öz proqramına daxil edən və bu ideyanın həyata keçirilməsi uğrunda mübarizə aparan siyasi partiyaların potensial elektoratıdır.

Praktik, tətbiqi ideologiyada proqram komponentləri də vardır ki, (siyasi sənədlər, manifestlər, platformalar, çağırışlar, şüarlar və s.), bu da sosial qüvvələrin sosial-siyasi şəraitə konkret meylini formalaşdırır. 90-jı illərdə milli vətənpərvər və türksevər qüvvələrin «türkün türkdən başqa dostu yoxdur» kimi səmimi söylədikləri şüardan qərəzli istifadə edən bədxah, antitürk qüvvələr Azərbayjanda millii münaqişələr törətmək üçün bu şüarı başqa jür yozmuş və öz məkrli siyasətlərini həyata keçirmək üçün bu jür vəziyyətdən istifadə etmişlər. Göründyü kimi, ideologiyada elmilik və qeyri-elmilik, konstruktivlik və destruktivlik, tərəqqilik və mühafizəkarlıq təzahür etdiyindən o, ijtimai həyatda ya məhsuldar, müsbət rol, ya da neqativ rol oynayır. Bu da elektoratın bir qütbdə qazanılması, digər qütbdə itirilmsi ilə nətijələnir.

Əhalinin mühafizəkar və ya radikal təbəqəsini (mümkün elektoratı) öz tərəfinə çəkmək prosesində sinfi-strat maraqlarını ifadə edən siyasi partiyaların mübarizəsi strat-ideya çərçivəsinə sığmaya da bilər. Belə ki, əhalinin yoxsul hissəsini radikal çağırışlar və bəyanatlarla öz tərəfinə çəkmək jəhdləri uğursuz da nətijələnə bilər. Məsələn, dindar, yoxsul kəndli və ya ehtiyaj içində boğulan qaçqın mühafizəkar da ola bilər, radikal-solçu da. Habelə əhalinin yaşlı nəsli və ya həyatdan faktik olaraq bezmiş, ümidsizliyə qapılmış, haqq-ədalətin nə vaxtsa bərqərar olajağına gümanı qalmayan hissəsi passiv mühafizəkar ola bilər. Məhz bu jür mühafizəkar qüvvələr adətən seçkilərdə recimin

dəyişdirilməsində maraqlı olmadığından və s. səbəblər ujbatından iqtidarın potensial elektoratı rolunu oynaya bilər. Jins də fikir ayrılığının mənbəyi rolunu oynaya bilər. O ölkələrdə ki, əhalisinin yarısından çoxunu qadınlar təşkil edir, həmin ölkələrdə kişi əhalisi azlıq təşkil etdiyindən seçkilərdə elektoratın çox hissəsini zəruri olaraq qadınlar təşkil edir. Seçki zamanı adətən kənd qadınlarının passivliyini və seçki məntəqələrində səyyari xidmətin zəif təşkil olunduğunu nəzərə aldıqda məlum olur ki, jins üzrə elektorat uğrunda siyasi qüvvələr aktiv mübarizə aparmağa məjbur olur. Onu da nəzərdən qaçırmaq olmaz ki, kişilərə nisbətən qadınlar orta hesabla daha az təhsilli olduğundan modernləşdirmə mövqeyində duran partiyaları deyil, daha çox ənənəvi partiyaları müdafiə etməyə meyllidir. Bunu bir çox ölkələrdə seçki prosesini öyrənmək üçün aparılan sosioloci tədqiqatların nətijələri sübut edir.

Məlumdur ki, sağlar və sollara stratifikasiyalı bölgü daha qədim, daha varlı və daha sabit dövlətlər üçün xarakterikdir. Çünki həmin ölkələrdə əsasən Qərb ölkələrində seçki iştirakçılığının təjrübəsi əsrlərjə ölçülür. Məhz o jür ölkələrdə tarixin müəyyən anlarında gah sağların, gah da solların öz nüfuzunu artırmaqla hakimiyyətə gəlməsi dəfələrlə sınaqdan keçirilmişdir. Məsələn, sollar (sosializm ideologiyasına mənsub) XX əsrin əvvəllərində nüfuzlu qüvvəyə çevrilmiş, dünyanın əksər ölkəsində sosial-demokrat və sosialist partiyaları meydana gəlmişdir. Həmin ölkələrdən fərqli olaraq Azərbayjan kimi ölkələrdə isə partiya konflikti modern və ənənəvi elementlərə bölgü ilə bağlıdır. Lakin bu heç də o demək deyildir ki, inkişaf etməkdə olan ölkələrdə stratifikasiya sağlar və sollara bölgüyə gətirib çıxarmır. Əgər biz tarixə ekskurs etsək görərik ki, Asiya, Afrika və Latın Amerikasının keçən əsrin 50-60-jı illərində müstəmləkə zülmündən xilas olub, müstəqil inkişaf yoluna qədəm qoyduğu bir neçə ölkəsində kütləvi kommunist və sol sosialist partiyaları ən yoxsul təbəqələrə arxalanırdılar. Qeyd etmək lazımdır ki, modernləşmənin və ənənəvi inkişafın tərəfdarlarına bölgü nətijəsində sollar daha çox savadlı və

imtiyazlı təbəqələr tərəfindən – tələbələr, ordu zabitləri, mülki qulluqçular və inzibatçılar tərəfindən, yəni sol hərəkatı sürətli modernləşmə ilə bağlayan təbəqələr tərəfindən müdafiə olunur. Azərbayjan solları (AKP, AVKP, ASDP, ASP, ADSP) heç də əhalinin radikal təbəqələrinin, mövjud recimi dəyişdirməkdə maraqlı olan hissəsinin mənafeyini müdafiə edə bilmir. Hətta nə qədər paradoksal olsa belə, həmin partiyalar iqtidaryönlü partiyalara reveranslar edir, hakim recimin manipulyasiyalarına tolerant münasibət bəsləyir.

Azərbayjandan fərqli olaraq inkişaf etmiş ölkələrdə vəziyyətə diqqət yetirsək görərik ki, müxtəlif sosioloci tədqiqatlar bu ölkələrdə sol və mühafizəkar partiyalar arasında müəyyən əlaqələrin olduğunu təsdiq edir və bu bölgü stratifikasiya ölçülərinə uyğun gəlir. Daha liberal və sol partiyalar aşağı ijtimai statusa malik az imkanlılar, fəhlələr, yoxsul kəndlilər, kifayət qədər savadlı olmayanlar, habelə dini, irqi, etnik qruplar tərəfindən qeyri-proporsional olaraq geniş müdafiə olunur.

Müasir jəmiyyətin stratifikasiyalı sisteminin müxtəlif ölçülərində olan mürəkkəbliyin özü əhəmiyyətli dərəjədə mövjud, real nümunədən əl çəkmənin izahını tapmağa kömək edir. Bu və ya digər partiyanı müdafiə etməklə sinfi vəziyyətin istənilən mövjud göstərijisi arasında bərqərar olmuş münasibətlərdən əl çəkilməsi, həmin münasibətlərin rədd edilməsi, ondan yan keçilməsi siyasətdə bir amildir. Bu amil isə solların daim çoxluq əldə etməsinə mane olur. Həm də stratifikasiya sisteminin müxtəlif ölçülərində olan bir çox adamların vəziyyəti onları ziddiyyətli siyasi fəaliyyətə sövq edir. Belə ki, hakimiyyət dərəjəsinə görə yüksək vəziyyətdə olan adamlar qeyri-uyğun olaraq öz statusu və gəlirlərinə görə aşağı mövqedə ola bilər. Məsələn, ABŞ-da ali sinfə mühəndis mexaniklər, qəzet naşirləri, xüsusi sahə həkimləri, kollej müəllimləri, ali orta sinfə isə orta məktəb müəllimləri və b. daxildir. Onlar yeddi dərəjəli strat jədvəlində öz mövqeyinə və həyat səviyyəsinə görə 2-3-jü yerləri tuturlar. Müqayisə üçün götürsək həmin peşə sahibləri gəlirlərinə

görə aşağı mövqedə dururlar. Deməl, onlar iqtisadi şkalada aşağı, sosial-status şkalasında yüksək yer tutur. Bir çox tədqiqatlar göstərir ki, adamlar uyğun olmayan sosial vəziyyətdə olanda iki bir-birinə əks status öz fəaliyyətindən fərqli olan reaksiya törədə bilər, müəyyən hallarda isə həyat üçün daha ekstremist reaksiya meydana gələ bilər.  Bu mənada, kənd və şəhərin orta məktəb müəllimləri, əlavə gəlir mənbələrinə malik olmayan tibb işçilərinin əksəriyyəti, sırf əmək haqqı ilə dolanan mühəndislər, mexaniklər, alimlər, mədəniyyət işçiləri, işsizlər sosial vəziyyətlərini yaxşılaşdırmaq ümidi ilə müxalif qüvvələrin potensial elektoratıdır.

Güman etmək olar ki, stratifikasiyanın bir-birinə zidd ranqlarındakı insanların ümumi miqdarı bütövlükdə solların deyil, daha çox sağların müdafiəsi üçün təminatdır.  Belə ki, insanlar daim özünün qiymətləndirilməsini maksimallaşdırmağa, öz «status hissini» qaldırmağa, şərəf və ləyaqət hisslərinə ölümjül zərbələri zəiflətməyə jəhd göstərirlər.  Tamamilə təbiidir ki, ətraf gerçəkliyin özdərkini elə təşkil etməyə jəhd göstərirlər ki, daha yüksək statusa olan iddialarını mümkün qədər çox maksimallaşdıra bilsinlər. Məsələn, yüksək peşə vəziyyətinə çatmış insan aşağı statusa malik təşkilatın üzvlüyündən çıxaraq daha mötəbər təşkilata keçir, hətta bu zaman məkanja yerini dəyişərək ümumiyyətlə ali sosial sinfin davranış şablonunu mənimsəyir.

Bir sıra ölkələrdə iqtisadi vəziyyətini yaxşılaşdırmaq məqsədilə ziyalılar ordusunun kommersiya fəaliyyətini üstün tutması, vəzifəsini mühafizə edib saxlamaq üçün məmurlar ordusunun bürokratik aparata hədsiz sadiqliyi vəzifə pilləkanında irəliləmək arzusuna xidmət edən jəhdlərin iqtidaryönlü partiyalara doğru meyllənmə ilə nətijələnir. Həmin ölkələrdə hakimiyyətdə olan partiyanın sıralarının  konyuktur qüvvələr hesabına genişlənməsi recimin namizədinin elektoratının xüsusi çəkisini artırmağa xidmət edir.  Aydındır ki, istənilən seçki ərəfəsində stratifikasiya şkalasının müxtəlif vəziyyətlərində bərqərar edilmiş  oxşar olmayan aspektlər tərəfindən diqtə edilən

davranış norması seçimi qarşısında qalan şəxs çox güman ki, daha yüksək vəziyyətə uyğun olan normaları seçməyə üstünlük verir. Seçim qarşısında qalanda insanlar özlərini daha az imtiyazlılar arasında deyil, daha çox imtiyaza malik adamların arasında görməyə meylli olurlar. Siyasi jəhətdən bu, insanlarda daha çox mühafizəkar olmağa təzyiq mənasını verir. Əlbəttə, stratifikasiyaya birbaşa aid olmayan çox mühüm amillər də vardır ki, bunlar seçijilərin davranışına mühüm dərəjədə təsir göstərir. Bu və ya digər dəyərlərdən tutmuş kütləvi informasiya vasitələri və kommunikasiya sistemlərinədək bu amillər çox müxtəlifdir.

Siyasi partiyalarla yanaşı, siyasətdə «təzyiq» qruplarının analizi də çox mühüm əhəmiyyət kəsb edir. «Mənafe qrupları» nəzəriyyəsinin banisi A.Bentli göstərir ki, partiya fərdlə dövlət orqanları arasında yeganə vəsilə deyil, buraya mənafe qruplarını ifadə edən digər təşkilatlar da aiddir. Məsələn, ABŞ-da «təzyiq» qrupu dedikdə müəyyən məqsədlə dövlət orqanlarına təsir göstərən qrup və ya təşkilat başa düşülür. Buraya sahibkarlıq təşkilatları, həmkarlar ittifaqları, həjminə görə siyasi partiyalardan kiçik olan müxtəlif növ siyasi birliklər, dini təşkilatlar, müxtəlif könüllü jəmiyyətlər, etnik qruplar, fermerlər, biznesmenlər, imkanlı şəxslər və yoxsul təbəqələr, hərbçilər aiddir. Bu qruplardan ən effektlisi inhisarları birləşdirən təşkilatlardır. Məhz bu təşkilatlar dövlət aparatı üzərində kifayət qədər nəzarət etmək imkanlarına malikdir və dövlətin daxili, xariji siyasətinə təsir edə bilir. Sahibkar təşkilatları da siyasi partiya kimi dövlət və inhisarlar arasında əlaqə formalarından biridir. İ. Lethem hətta dövlətin özünü də «təzyiq qrupu» hesab edirdi. Bir jəhəti də qeyd etmək lazımdır ki, «təzyiq qrupları» siyasi partiya olmadığından siyasi hakimiyyəti əldə etməyə iddia irəli sürə bilmir, lakin siyasi partiyalara dəstək verərək ondan faydalanır. İllər ötdükjə konkret şəraitdən, ölkənin inkişafından asılı olaraq bu və ya digər «mənafe qrupları»nın təsir etmək imkanları da dəyişilir.

Siyasət aləmində bu və ya digər partiya tutduğu mövqeyinə görə «sol», «sağ» və «mərkəzçi» partiya adlanır. Hər bir

partiyanın özü də daxili strukturuna görə uyğun mövqelərə ayrılır. Məsələn, «sağ»ların özləri «sağ»mərkəzsi, ifrat «sağ», «sağ» radikal, «yeni sağlar» kimi daxili qütblərə bölünür. Bu anlayışlar Qərb ijtimai birliyində özünə XIX əsrdə yer etmişdir. Həmin görüşlər arasında ayrı-ayrı kəsişmə nöqtələri olsa da, onlar bir-birindən öz proqram məqsədləri və bu məqsədlərə nail olmaq metodlarına görə fərqlənirlər.

Adətən «sağ»ları mühafizəkarlar adlandırırlar. Hələ Böyük Fransa inqilabının (1789-1794) gedişində Qanunveriji məjlisdə – Konventdə tutduqları yerə uyğun olaraq məjlisin sağ tərəfində oturan felyanları «sağ» qüvvələr adlandırırdılar. Felyanlar respublika quruluşunu qəbul etmək istəmir, konstitusiyalı monarxiya recimini qoruyub saxlamağa, yəni onu mühafizə etməyə (mühafizəkarlıq-konservatizm sözu bu mövqeni əks etdirmək üçün işlədilir), möhkəmləndirməyə çağırırdılar. Beləliklə, ideya-siyasi jərəyan kimi mühafizəkarlığın tarixi «köhnə qaydaların» əsaslarına meydan oxuyan Böyük Fransa inqilabından başlayır. Konventdə sol tərəfdə oturan inqilabçı yakobinçiləri isə «sol» qüvvələr adlandırırdılar. Robespyerin rəhbərlik etdiyi yakobinçilər feodal-mütləqiyyət quruluşunu dəyişdirməyə, Fransada respublika quruluşunun bərqərar olmasına çağırıdılar. Hər iki tərəf arasında kompromis, sazişçi mövqeni tutan qüvvələr isə «mərkəzçi» adlandırılırdılar.

Vaxtilə imperiya reciminin qatı düşməni olan siyasi qüvvələrin əksəriyyəti AXJ-nin tərkibində solçu mövqedən çıxış edir, kommunist recimini devirmək üçün kəskin mübarizə aparırdılar. Kommunist recimınə son qoyulduqdan sonra müstəqil inkişaf yoluna qədəm qoymuş Azərbayjan respublikasının demokratik yolla inkişafı əksər partiyaların proqram məqsədi olmuş, respublikamızın müstəqilliyinin qorunub saxlanmasını üstün tutduqlarına görə konkret tarixi şəraitdən asılı olaraq onların mövqelərində dəyişiklik olmuş və «sağ» partiyalara çevrilmişlər.

Qeyd etmək lazımdır ki, «sağ» partiyalar öz siyasi mübarizə tarixinə və mübarizə taktikasına görə bir-birindən

müəyyən dərəjədə həm də fərqlidirlər. Məsələn, Müsavat partiyası indiyədək bir proqram xarakterli bəyannamə (1912) və dörd proqram (1917, 1936, 1992, 1997) qəbul etməsinə baxmayaraq, prinsiplərində dəyişiklik az olmuşdur. Bu partiya istiqlalçılıq, millətçilik, dövlətçilik, hürriyyətçilik, milli tənasüdçülük (həmrəylik) kimi əsas prinsiplərinə indi də sadiq olduğunu bəyan etmişdir. XX əsrin sonlarında olduğu kimi, elə həmin əsrin birinji rübündə də partiyanın mövqeyində dəyişiklik soldan sağa olmuşdur. Belə ki, Müsavat partiyası 1917-1918-ji illərdə sol mərkəzçi partiya olmasına baxmayaraq, illər keçdikjə mərkəzçi mövqeni itirmədən sağ mərkəzçi mövqeyə keçmiş və indinin özündə də «sağ mərkəzçi» partiya hesab olunur.

Mühafizəkarlıq nəzəriyyəsinə görə yeni dövlət qurumlarını qısa müddət ərzində süni surətdə yaratmaq mümkün olmadığından tarix boyu bərqərar olmuş dövlət institutlarını dağıtmaq məsuliyytsiz iş hesab olunur. Azərbayjanın spesifikliyi bir də onunla şərtlənir ki, ölkəmizin dövlətçilik tarixində bir neçə əsr fasiləyə yol verilmiş, 1918-1920-ji illərdə dövlətçiliyimizin qısa müddətli bərpasından sonra növbəti dəfə olaraq 70 il müstəqil idarəetmədən məhrum edilmişdir. 1991-ji ildə İstiqlal Aktını qəbul etdikdən sonra Azərbayjanda kommunist üsul-idarəsinin atributları ləğv edilmiş, yeni dövlət institutları yaradılmağa başlanmışdır. Məhz Azərbayjanın «sağ» mövqeli partiyaları da yeni yaradılmış müstəqil dövlətçiliyimizi, suverenliyimizi mühafizə edib saxlamaqda maraqlıdırlar ki, bu da çox təbiidir. Qeyd etmək lazımdır ki, Azərbayjanda fəaliyyət göstərən bütün siyasi təşkilatlar (imperiya və sosializm nostalgiyası ilə yaşayan kommunistlər, sosialistlər və b. nəzərə almasaq) bu mövqedədir. İstiqlalçılıq prinsipini əsas götürməklə bu siyasi qüvvələrin əksəriyyətinin əski müsavatçılıq irsinə sadiq olduqlarının şahidi oluruq.

«Sağ»ların azadlığa münasibəti də özünəməxsusdur. Konservatizm nəzəriyyəsinə görə jəmiyyətin məqsədi ümumi anarxiyaya, başıpozuqluğa gətirib çıxaran saxta, əsası olmayan azadlıqlar uydurmaqdan ibarət deyil, adət-ənənələrə əsaslanan

mövjud azadlığı qorumaqdan ibarətdir. Deməli, bu nəzəriyyəyə görə iyerarxik struktura əsaslanan jəmiyyət təbii və qanuni hesab olunur. Azərbayjanın «sağ» mövqeli partiyaları hakimiyyətdə sabitliyi və varisliyi qəbul etməklə yanaşı, öz proqramlarında hürriyyətçiliyə istiqlalçılığı tamamlayan prinsip kimi baxır və yəqin ki, «sağ» mövqenin xüsusiyyətinə uyğun olaraq insan hüquqları və azadlıqlarının qorunmasının təminatını təkmil hüquq mexanizminin yaradılmasında görürlər. Deməli, onlar bir daha totalitar recimə qayıtmamaq üçün atributları insan azadlıqları və hüquqları, hakimiyyətin bölgüsü və təkmil konstitusiyanın mövjudluğundan ibarət olan hüquqi dövlətin yaradılmasının zəruriliyini dərk edərək, Azərbayjan dövlətinin təkamül yolu ilə inkişafına daha çox üstünlük verirlər.

Azərbayjanda fəaliyyət göstərən konservativ partiyalarda qatı mühafizəkarlıq deyil, məhz sağ mərkəzçilik üstünlük təşkil edir. Həmin partiyaların proqramlarından çıxış edərək göstərmək olar ki, bu partiyalarda nə dini, nə faşist, nə də qatı mühafizəkarlıq əlamətləri deyil, mötədillik, mərkəzçilik və bəzilərində müəyyən radikallıq əlamətləri üstünlük təşkil edir. «Sağ» mərkəzçi partiyalar islahatlar yolu ilə jəmiyyətin təkmilləşməsini, konstitusion azadlıqların reallaşmasını, jəmiyyətin inkişafına mane olan neqativ halların–korrupsiyanın, rüşvətxorluğun, inhisarçılığın aradan qaldırılması, insan hüquq və azadlıqlarının daim qorunması uğrunda mübarizə aparırlar. Bəzi «sağ»ların radikallığı azad bazar münasibətlərini və azad rəqabəti əsaslandıran marketizm ideyasını, bu sahədə bürokratik əngəllərin qarşısının alınmasını, azad sahibkarlığın inkişafını tələb etmələrindədir.

İfrat «sağ»lar jəmiyyəti dəyişdirən, yeniləşdirən nəzəriyyələrə düşmən münasibət bəslədiyi halda, *liberal təfəkkür, yəni təkamül yolunu götürən mərkəzçi təfəkkür jəmiyyəti daim yenidən qurmağa jəhd göstərir*. Məhz jəmiyyəti təkamül yolu ilə dəyişdirmək istəyən mühafizəkarlar istər-istəməz jəmiyyəti dəyişdirməyin bu mövqeyini, yəni mərkəzçi mövqeyini götürərək sağdan mərkəzə doğru meyllənir və sağ mərkəzçi mövqedə qərar

tuturlar. «Sağ» mərkəzçiliyə həm də praqmatizm (praktik nətijələr), opportunizm (əməkdaşlıq) və sazişçilik xasdır.

«Sağ»ların sosial bazası o təbəqələr və qruaplardan ibarətdir ki, məhz onların sosial mövqeyini ijtimai-tarixi və sosial-iqtisadi inkişafın obyektiv meylləri təhlükə altına alır. Deməli, əsasən imkanlı sosial qruplar, iri sənayeçilər, iri mülk sahibləri, imkanlı sahibkarlar və b. mühafizəkarlığın sosial bazasını təşkil edir. Jəmiyyətdə əhalinin yaşayışı çətinləşdikjə və jəmiyyəti dəyişdirə biləjək yeni nəzəriyyələrin, ideyaların tətbiqi ləngidikjə imkanlı sosial qruplar həm demokratik qüvvələrin, həm də bütövlükdə əhalinin əksəriyyətinin təzyiqinə məruz qalır. Belə olan təqdirdə mühafizəkar qüvvələr ijtimai tərəqqiyə, yeniləşməyə müqavimət göstərən qorxulu qüvvəyə çevrilir.

Hansı ideya daşıyıjısı olmasından asılı olmayaraq bütün siyasi partiyaları və təşkilatları birləşdirən amillər dövlətçiliyimizin, müstəqilliyimizin, ərazi bütövlüyümüzün qorunması, Dağlıq Qarabağ probleminin ədalətli yolla həll edilməsi, işğal olunmuş torpaqlarımızın geri qaytarılması kimi müqəddəs amallar birləşdirir və müxalif qüvvələrin tolerantlığının kökündə də məhz bu amalların yüksək tutulması durur.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYATIN SİYAHISI

## Azərbayjan dilində


1. Abbasov A.F. Demokratiə: naliçnaə i doljnaə. Baku – 2005, 179 s.
2. Abbasov Ə. İdarəetmənin sinergetik fəlsəfəsi: yeni dialoq naminə. Bakı –2006, 211 s.
3. Abbasov Ə.F. Yeniləşən jəmiyyət. Müasir elmi paradiqma və idarəetmə (ümumnəzəri sinergetik təhlil). Bakı: «Elm», 1998, 54 s.
4. Abbasov Ə.F., Əsgərov İ. Keçid dövrü və yeni iqtisadi təfəkkür (sosial-fəlsəfi təhlil). Bakı: «Nafta-Press», 2001, 142 s.
5. Abbasov Ə.F., Rüstəmova A., İsmayılov D., Hajıyev H. İjtimai inkişaf: qnoseologiya və metodologiya problemləri. Bakı: «Adiloğlu», 2003, 158 s.
6. Abbasova Q., Hajıyev Z. Sosial fəlsəfə. Bakı: «Ayna Mətbu Evi», 2001, 505 s.
7. Azərbayjan jəmiyyəti transformasiya şəraitində. Bakı: «TS»,2001,158 s.
8. Azərbayjanın ijtimai-siyasi təşkilatları: Bakı: «Diplomat», 1998, 135 s.
9. Azərbayjan Respublikasının Konstitusiyası. Bakı: «Hüquq ədəbiyyatı», 2002, 82 s.
10. Azərbayjanda yeniləşmə prosesinin sosial-fəlsəfi problemləri (məqalələr toplusu). Bakı: «Elm», 1998, 95 s.
11. Jəbiyev R.M. Azərbayjanda bazar infrastrukturunun formalaşması və inkişafı. Bakı: AzTU-nun mətbəəsi, 2000, 234 s.
12. Jəmiyyət. İdeologiya. Təfəkkür (məqalələr toplusu). Bakı: «Bakı Universiteti», 2004, 201s.
13. Jəmiyyət keçid dövründə (tərtibçi-redaktor: Əzimova R.). Bakı: «Ziya-Nurlan», 2003, 139 s.

14. Jozef E. Stiqlitz. Globallaşma və onun doğurduğu narazılıqlar / İngilis dilindən tərjümə. Bakı: Xəzri Ekspress MMJ, 2004, 317 s.
15. Demokratiya: Gediləsi Uzun Bir Yol. Demokratiya və Antidemokratiya Antologiyası (Tərtib edəni H.Hajızadə). Bakı: «Əbilov, Zeynalov və oğulları», 2001, 445 s.
16. Dünya. Jəmiyyət. Fəlsəfə (məqalələr toplusu). Bakı: «Nafta press», 2004, 207 s.
17. Əfəndiyev M. Siyasi və hüquqi təlimlər tarixi. Bakı: «Bakı Universiteti», 2002, 612 s.
18. Əfəndiyev M. Siyasi elmin əsasları. Bakı: «Siyasət», 2004, 603 s.
19. Əfəndiyev M. Sosiologiya. Bakı: «Bakı Universiteti», 2009, 519 s.
20. Əfəndiyev M., Şirinov A. Sosiologiyanın nəzəri problemləri. Bakı: «Bakı Universiteti», 2001, 514 s.
21. Əhmədli J. Jəmiyyət, siyasət, ideologiya // Siyasi biliklərin əsasları. I Buraxılış. Bakı: «İnam» plüralizm məktəbi, 1997, 192 s.
22. Əliyev Q. Çağdaş demokratik proseslərin bəzi fəlsəfi problemləri. Bakı: «Təbib», 1997, 129 s.
23. Fəlsəfə və həyat. Elmi məqalələr toplusu. I buraxılış. Bakı: «Təknur», 2005, 245 s.
24. Firuz Mustafa. Qloballaşma və mədəniyyət. Bakı – 2011, 129 s.
25. Hüseynov T. Azərbayjanda bazar sisteminin iqtisadi problemləri (monoqrafiya). Bakı: Elm, 2004, 228 s.
26. Xəlilov S. Fəlsəfədən siyasətə. Bakı: «Azərbayjan Universiteti» nəşriyyatı, 1998, 340 s.
27. İbrahimli X. Politologiya. Bakı, Qanun, 2008, 226 s.
28. İdrak nəzəriyyəsi və elmin fəlsəfi problemləri (III buraxılış). Bakı: «Adiloğlu», 2004, 303 s.
29. İsmayılov D. Azərbayjanın transformasiya prosesində ideologiyalar: konservatizm, liberalizm, sosial-

demokratiya (monoqrafiya). Bakı: «Adil-oğlu», 2005, 344 s.
30. İsmayılov İ. Hüquqi dövlət: mülahizələr və təkliflər. Bakı: Qanun, 1997, 91 s.
31. Qloballaşma və Azərbayjan mədəniyyəti. II Respublika elmi-paraktiki konfransının materialları. Bakı, «Araz», 2004, 440 s.
32. Liberallaşma və leninçi irslər: Demokratik keçidlər haqqında müqayisəli perspektivlər (Beverli Krauford və Arend Lijfartın redaktorluğu ilə ) / İng. dil. tərj. ed. T. Əliyev. Bakı: «Şir» MMJ, 2005, 253 s.
33. Kərimov Ə. Demokratiya: bəşəriyyətin bu günü və gələjəyi. Bakı – 2009, 387 s.
34. Maykl Parenti. Seçilmişlər üçün demokratiya. Bakı – 2008, 512 s.
35. Musabəyov R., Musayeva Z. Siyasi liderlik. Bakı: «İnam» plürazizm mərkəzi, 1999, 28 s.
36. Mustafayev R. Azərbayjan dövlətçiliyi: özümüzü və dünyanı dərketmə yolunda. Bakı: Azərbayjan Dövlət Nəşriyyatı, 1995, 233 s.
37. Müasir elm və ijtimai praktika: fəlsəfi problemlər (məqalələr toplusu). Bakı: İİM, 2000, 64 s.
38. Politologiya (Ali məktəblər üçün dərslik). Bakı: «Təknur», 2005, 267 s.
39. Politologiya (Dərslik). Bakı, 2007, 270 s.
40. Politologiya (Dərslik). Bakı, 2008, 293 s.
41. Robert Dahl. Demokratiya haqqında. Bakı: Azərbayjan, 2004, 248 s.
42. Rüstəmov Y. Siyasi-hüquqi təlimlər tarixi (mühazirə kursu). Bakı: «Azər-bayjan Universiteti» nəşriyyatı, 2000, 318 s.
43. Rüstəmov Y. Fəlsəfənin əsasları (mühazirə kursu). Bakı: «Azərbayjan Universiteti» nəşriyyatı, 2004, 499 s.
44. Seçkidən seçkiyə. 1998-2003. Bakı: Azərbayjan Dövlət Statistika Komitə-si, 2003, 68 s.

45. Siyasi partiyaların blok və koalisiyalarının formalaşması. Bakı: «İnam» plüralizm mərkəzi, 1998, 31 s.
46. Sosial-siyasi problemlər. XIII buraxılış. Bakı: «Qismet», 2005, 520 s.
47. Sosiologiya (Ali məktəblər üçün dərslik), Bakı: «Təknur», 2005, 295 s.
48. Tağıyev Ə, İsmayılov D. İlk həqiqi liberal və müasir siyasi fəlsəfənin atası: Jon Lokk. Bakı-2009, 143 s.
49. Vəliyev İ., Hüseynov J. Azərbayjanın siyasi partiyaları və ijtimai təşkilatları. Bakı: «Azərbayjan Ensiklopediyası» Nəşriyyat-Poliqrafiya Birliyi, 1995, 96 s.
50. Vətəndaş jəmiyyətinə doğru: nəzəriyyə və reallıqlar. Bakı.: «Adiloğlu», 2001, 174 s.

## Türk dilində

51. Anthony Giddens. Üçünjü yol –Sosyal Demokrasinin Yeniden Dirilişi. Türkçesi Mehmet Özay. İstanbul, 2000, 174 s.
52. Atilla Yayla. Liberalizm. Ankara, 2000, 238 s.
53. Kazım Berzeg. Liberalizm Demokrasi Kapikulu Gelenegi, Ankara, 2000, 184 s.
54. Leslie Nolmes. Post kommunizm. Türkçesi: Yavuz Alogan. İstanbul, Maıvi Ada Yayınları, 2000, 648 s.

## **Rus dilində**

55. Aristotelğ. Politika, Soçineniə v 4-x t. T.4, M.: Mıslğ, 1983, 830 s.
56. Aron R. Demokratiə i totalitarizm / Per. s. fr. M.: Tekst, 1993, 303 s.
57. Beyme K. Partii // Politoloqiə vçera i seqodnə. Vıp. Çetvertıy. M., Politizdat, 1992, s. 50-103.

58. Bell D. Qrəduhee postindustrialğnoe obhestvo: Opıt soüialğnoqo proqnozirovaniə / Per. s anql. Pod red. V.L.İnozemüeva M.: 1999, 956 s.
59. Bell D. Mətej protiv sovremennosti // Soüioloqiçeskie issledovaniə, 1989, № 5, s. 107-114.
60. Benua L. İzbrannıe idei // Konservatizm v stranax Zapada. M.: Mıslğ, 1982, s. 197-211.
61. Berk G. Razmışleniə o revolöüii vo Franüii // Soüi-oloqiçeskie issledovaniə, 1991, № 6, s. 114-121.
62. Bjezinskiy Z. Bolğşoy proval. Aqoniə kommunizma. Kvitessenüiə: filosofskiy alğmanax. M.: Mıslğ, 1990, 298 s.
63. Bjezinskiy Z. Velikoe preobrazovanie // Demokratiə 1990-x. –speüialğnıy vıpusk jurnala «Qlobalğnıe problemı perexodnoqo perioda», 1993, № 6, s. 23-31.
64. Bjezinskiy Z. Permanentnaə çistka. Politika sovetskoqo tota-litarizma // SŞA: Gkonomika, Politika, İdeoloqiə, 1990, № 8, s. 63-70.
65. Bjezinskiy Z. Velikaə şaxmatnaə doska. Qospodstvo Ameriki i eqo qeostrateqiçeskie imperativı. M.: Mejdunar. Otnoşeniə, 2000, 256 s.
66. Brandt V. Demokratiçeskiy soüializm: Statği i reçi. M.: 1992, 656 s.
67. Burdğe P. Soüioloqiə politiki / Per. s fr. Sost., obh., red. i predisl. N.A.Şmatko. M.: Socio – Logos, 1993, 330 s.
68. Butenko A.P. Sovetskaə mnoqopartiynostğ: problema formirovaniə // Teoriə i praktika soüializma, 1991, № 4, s. 3-52.
69. Veber M. İzbrannıe proizvedeniə / Per. s nem. Sost., obh. red. i poslesl. Ö.N. Davıdova; Predisl. P. Qaydenko. M.: Proqress, 1990, 804 s.
70. Volkov A.M. Şveüiə: soüialğno-gkonomiçeskaə modelğ. M.: Mıslğ, 1991, 188 s.

71. Qadamer Q.-Q. İstina i metod: Osnovı filos. qermenevtiki / Per. s nem., obh. red. i avt. vstup. st. B.N. Bessonova. M.: Proqress, 1988, 699 s.
72. Qadjiev K.S. Konservatizm: sovremennıe interpretaüii. Nauçno-analitiçeskiy obzor. M.: İNİON, 1990, 50 s.
73. Qalkin A.A., Raxşmir P.Ö. Konservatizm v proşlom i nastoəhem: O soüial. Kornəx konservativ. Volnı / Otv. red. B.İ.Kovalğ; AN SSSR. M.: Nauka, 1992, 188 s .
74. Qasanov R. Formirovanie qrajdanskoqo obhestva v usloviəx transformaüii. Baku: BSU «Kitab aləmi», 2003. 271 s.
75. Qvardini R. Koneü Novoqo vremeni // Voprosı filosofii, 1990, № 4, s. 127-163.
76. Qlobalğnıe problemı i obşeçeloveçeskie üennosti / Per. s anql. İ fr. Sostaviteli L.İ. Vasilenko, V.E.Ermolaeva. M.: Proqress, 1990, 495 s.
77. Qobbs T. Leviafan ili materiə, forma i vlastğ qosudarstva üerkovnoqo i qrajdanskoqo. M.: Soügkqiz, 1936, 495 s.
78. Qordon L.A., Klopov G.V. Sovremennıe obhestvenno-politiçeskie preobrazovaniə v masştabe soüialğnoqo vremeni // Soüioloqiçeskie issledovaniə, 1998, № 1, s. 22-37.
79. Quqqenberqer B. Teoriə demokratii // Politiçeskie issledovaniə, 1991, № 4, s. 133-142.
80. Qumbolğdt V. fon. O predelax qosudarstvennoy deətelğnosti. M.: Proqress, 2003, 397 s.
81. Darendorf R. O buduhem partii // Politoloqiə vçera i seqodnə. M., 1990, s. 133-138.
82. Djon Qrey. Pominki po Prosveheniö: Politika i kulğtura na zakate sovremennosti / Per. s anql. L.E. Pereəslavüevoy, E.Rudniükoy, M.S. Fetisova i dr., pod obhey red. Q.V.Kamenskoy. M: Praksis, 2003. 368 s.
83. Diliqenskiy T.Q. Fenomen massı i massovıx dvijeniy: soüialğno-psixoloqiçeskie aspektı // Raboçiy klass i sovremennıy mir. 1987, №3, s.18-30;

84. «İz dekloraüii prinüipov Soüialistiçeskoqo İnternaüionala» // Kommunist, 1989, № 16, s.1-124.
85. İstəqin L.Q. İssledovaniə po totalitarizmu: v poiskax novoqo obosnovaniə konüepüii // Polis, 1997. № 2, s. 176-184.
86. Kamenskaə Q.V. Qenezis idey demokratii // Soüioloqiçeskie issledovaniə, 1994, № 2, s. 23-33.
87. Kant İ. Soç: V 6 t. T.6. (Pod obh. red. V.F.Asmusa i dr.). M.: Mıslğ, 1966, 743 s.
88. Keyns Dj.M. İzbrannıe proizvedeniə / Per. s. anql. M.: Nauka, 1993, 624 s.
89. Klassiçeskiy franüuzskiy liberalizm: Sbornik / Per. s fran-üuzskoqo M.M. Fedorovoy. M.: Rossiyskaə politiçeskaə gnüiklopediə (ROOSPGN), 592 s.
90. Konservatizm kak teçenie obhestvennoy mısli i faktor obhestvennoqo razvitiə. Materialı kruqloqo stola // Polis, 1995, № 4, s. 40-42.
91. Konstan B. «Prinüipax politiki, priqodnıx dlə vsəkoqo pravleniə» // Klassiçeskiy franüuzskiy liberalizm: Sbornik / Per. s franüuzskoqo M.M. Fedorovoy. Moskva, Rossiyskaə politiçeskaə gnüiklopediə (ROOSPGN), 2000, 592 s.
92. Konstan B. Ob uzurpaüii // O svobode : Antoloqiə zapadno-evropeyskoy klassiçeskoy liberalğnoy mısli. M.: Proqress-Tradiüiə, 2000, 696 s.
93. Kristol İ. Priznanie podlinnoqo, vozmojno edinstvennoqo kon-servatora, sçitaöheqo sebə takovım // SŞA: konservativnaə volna, M.: Proqress, 1984, 309 s.
94. Kristol İ., Şlezinqer A. Dvijetsə li Amerika vpravo? // SŞA: konservativnaə volna. Sbornik (Sost., per. s anql., st. k razdelam, primeç. A.V.Kortunova i dr.). M.: Proqress, 1984, 309 s.
95. Leypxart A. Demokratiə v mnoqosostavnıx obhestvax: sravnitelğnoe issledovanie / Per. s anql. Pod red. A.M.

Salmina, Q.V. Kamenskoy. M.: Aspekt Press, 1997. 287 s.
96. Liberalğnıy konservatizm: istoriə i sovremennostğ / Materialı Vserossiyskoy nauçno-praktiçeskoy konferenüii. M.: «Rossiyskaə politiçeskaə gnüiklopediə» (ROSSPGN), 2001, 384 s.
97. Lipset S. Politiçeskaə soüioloqiə. Amerikanskaə soüioloqiə: perspektivı, problemı, metodı. M.: Nauka, 1972, 392 s.
98. Lokk Dj. Dva traktata o pravlenii. Soçineniə. V 3 t., T.3. / Per. s anql. İ latin. Red. i sost., avt. Primeç. A.L.Subbotin. M.: Mıslğ, 1985, 668 s.
99. Manqeym K. İdeoloqiə i utopiə // Utopiə i utopiçeskie mışleniə. Antol. Zarubej. lit.: Per. s anql., nem., fr. i dr. əz. Sost., predisl., i obh. red. V.A.Çalikovoy. M.: Proqress, 1991, 404 s.
100. Manqeym K. Konservativnaə mıslğ // Soüioloqiçeskie issledova-niə, 1993, № 9, s. 127-139.
101. Maçkuv E. Preobrazovanie kommunistiçeskoqo totalitarizma i postkommunistiçeskaə sistemnaə transformaüiə: problemı, konüepüii, periodizaüiə // Polis, 2000, № 4, s. 38-58.
102. Medvedev V. Dramatiçeskie straniüı gkonomiçeskoy reformaüii. // Voprosı gkonomiki. 1995, № 6, s. 110-117.
103. Meduşevskiy A.N. Demokratiə i tiraniə v novoe i noveyşee vremə // Voprosı filosofii, 1993, № 10, s. 4-23.
104. Melğvilğ A.Ö. Soüialğnaə filosofiə sovremennoqo amerikanskoqo konservatizma. M.: Politizdat, 1980, 143 s.
105. Melğvilğ A. SŞA – sdviq vpravo? Konservatizm v ideyno-politiçeskoy jizni SŞA 80-x qodov (Otv. red. Ö.A.Zamoşkin; AN SSSR, İn-t SŞA i Kanadı) M.: Nauka, 1986, 214 s.

106. Melğvilğ A.Ö., Razloqov K.G. Kontrkulğtura i «novıy» konserva-tizm. M.: İskusstvo, 1981, 264 s.
107. Mizes L. fon. Liberalizm / Per. s anql. A.V.Kurəeva. M.: Soüium, Gkonomika, 2001, 239 s.
108. Millğ Dj. St. O svobode // Millğ Dj. St. Utilitarianizm. O svobo-de. 3-e izd. / Per. s anql. A.N.Nevedomskoqo, SPb., 1900, 426 s.
109. Milğton Dj. Arepoqitika // O svobode: Antoloqiə zapadno-evropeyskoy klassiçeskoy liberalğnoy mısli. M.: Proqress-Tradiüiə, 2000, 696 s.
110. Mixelğs R. Raboçie vojdi proletarskoqo proisxojdeniə // Dialoq, 1990, № 18, s. 53-56.
111. Monteskğe Ş. İzbrannıe proizvedeniə. Obhaə red. i vstupit. Statğə M.P.Baskina, M.: Qospolitizdat, 1955, 800 s.
112. Nesbitt Dj., Gburdin P. Çto nas jdet v 90-e qodı / Per. s anql. M.: Politizdat, 1992, 413 s.
113. O svobode: Antoloqiə zapadno-evropeyskoy klassi-çeskoy liberalğnoy mısli. M.: Proqress-Tradiüiə, 2000, 696 s.
114. Orlova N.Q. Protivoreçiə sovremennoy soüial-demokratii – vırajenie ee klassovoy suhnosti // Vestn. Mosk. Un-ta, Teoriə nauçnoqo kommunizma, 1980, № 4, s. 38-44.
115. Panğkov V. Gvolöüiə gkonomiçeskix vozzreniy soüial-demokratii // Mirovaə gkonomika i mejdunar. otnoşeniə, M.: 1981, № 6, s. 31-44;
116. Parenti M. Demokratiə dlə nemnoqix / Vstup. St. A.Manıkina. M.: Proqress, 1990, 501 s.
117. Parkinson S.N. Zakonı Parkinsona / Per. s anql. S.N.Parkinson. M.: Proqress, 1989, 446 s.
118. Peyn T. Prava çeloveka. Ç. I // Peyn T. İzbrannıe soçineniə. Pod red. prof. M.P.Baskina. Per. A.S.Boqomolova i dr. M.: 1959, 420 s.

119. Pelenskiy Ə. Sovremennıy konservatizm – gto liberalizm XIX veka // Filosofskaə i soüioloqiçeskaə mıslğ, 1990, № 11, s. 10-17.
120. Perequdov S. Sovremennıy konservatizm: Suhnostğ i obhestven-no-politiçeskaə rolğ // Kommunist, 1991, № 8, s. 87-97.
121. Platon. Dialoqi. Sost. A.Losev. M.: Mıslğ, 986, 605 s.
122. Politiçeskaə soüioloqiə: Uçebnik dlə vuzov / Pod red. Çl.-korr. RAN J.T.Tohhenko. M.: ÖNİTİ-DANA, 2002, 495 s.
123. Popper K. Otkrıtoe obhestvo i eqo vraqi. T. 1: Çarı Platona / Per. s. anql. Pod red V.N. Sadovskoqo. M.: Feniks, Mejdunarodnıy fond «Kulğturnaə iniüiativa», 1992, 448 s.
124. Popper K. Otkrıtoe obhestvo i eqo vraqi. T. 2: Vremə ljeprorokov: Qeqelğ, Marks i druqie orakulı / Per. s. anql. Pod red V.N. Sadovskoqo. M.: Feniks, Mejdunarodnıy fond «Kulğturnaə ini-üiativa», 1992, 528 s.
125. Prava çeloveka. Uçebnik dlə vuzov. Otvetstvennıy redaktor – çlen-korr. RAN, doktor öridiçeskix nauk E.A. Lukaşeva. M.: İzdatelğskaə qruppa NORMA – İNFRA, 1999, 673 s.
126. Puqaçev V.P. Politoloqiə: spravoçnik studenta. M.: OOO «İzda-telğstvo AST»; Filoloqiçeskoe obhestvo «SLOVO», 2001, 576 s.
127. Pustarnakov. Liberalğnıy konservatizm i liberalizm v Rossii XIX – naçala XX v.: razliçiə i sxodstva // Liberalğnıy konservatizm: istoriə i sovremennostğ. Materialı Vserossiyskoy nauçno-praktiçeskoy konferenüii. M.: «Rossiyskaə politiçeskaə gnüiklopediə» (ROOSPGN), 2001, 384 s.
128. Raqimov A.A., Qasanov R.M. Transformaüionnıe proüessı i problema naüionalğnoy bezopasnosti v

Azerbaydjane. Baku: İdatelğstvo Bakinskoqo Universiteta, 2003, 148 s.
129. Raxşmir P.Ö. Gvolöüiə konservatizma v Novoe i Noveyşee vremə // Novaə i Noveyşaə istoriə, 1990, № 1, s. 48-62.
130. Rzaev A.K. Obhestvenno-politiçeskie i pravovıe issledovaniə: İstoriə i sovremennostğ. Baku: Glm, 1997, 206 s.
131. Rormozer Q., Frenkin A. Novıy konservatizm: vızov dlə Rossiii. M.: Nauka, 1996, 543 s.
132. Rossiyskie konservatorı. M.: Nauka, 1997, 513 s.
133. Rossiter K. Konservatizm // SŞA: konservativnaə volna. Sbornik (Sost., per. s anql., st. k razdelam, primeç. A.V.Kortunova i dr.). M.: Proqress, 1984, 309 s.
134. Rossiə reqionov: transformaüiə politiçeskix rejimov. M.: 2000, Mıslğ, 348 s.
135. Russo J.J. Ob obhestvennom doqovore, ili prinüipe politiçes-koqo prava. Traktatı. M.: Nauka, 1969, 703 s.
136. Rutkeviç A. Çto takoe konservatizm? M. – SPb., 1999, 317 s.
137. Sartori Dj. Vertikalğnaə demokratiə // Politiçeskie issledovaniə, 1993, № 2, s. 80-89.
138. Serbinenko V.V. O perspektivax demokratii v Rossii // Soüioloqiçeskie issledovaniə, 1994, № 4, s. 17-29.
139. Siqal L. Sovestğ konservatora // Vek XX i mir. M.: Nauka, 1992, 469 s.
140. Smit A. İssledovanie o prirode i priçinax boqatstva narodov (Vstup. statğə i komment. V.S. Afanasğeva). M.: Soügkqiz, 1962, 684 s.
141. Smit A. Teoriə nravstvennıx çuvstv. M.: Mıslğ, 1997, 548 s.
142. Smit Gntoni D. Naüionalizm i modernizm: Kritiçeskiy obzor sovremennıx teoriy naüiy i naüionalizma / Per. s anql. A.V. Smirnova, Ö.M. Filippova, G.S. Zaqaşvili i dr. M.: Praksis, 2004, 464 s.

143. Sovremennıy konservatizm / (K.S.Qadjiev, S.P.Perequdov, V.A.Skororxodov i dr.; Otv. red. S.P.Perequdov, V.A.Skororxodov); Ros. AN, İn-t mirovoy gkonomiki i mejdunar. otnoşeniy. M.: Nauka, 1992, 262 s.
144. Soros Dj. Sovetskaə sistema: k otkrıtomu obhestvu / Per. T.V.Kuraşovoy. M.: Politizdat, 1991, 220 s.
145. Soüialğnoe rassloenie i soüialğnaə mobilğnostğ. M.: Nauka, 1999, 191 s.
146. Stupişin V. Qrajdanskoe obhestvo i demokratiçeskoe qosudarstvo // «Obhestvennıe nauki», 1990, № 1, s. 87-95.
147. Tokvilğ A.De. Demokratiə v Amerike / Per. s fr. Predisl. Q.Dj.Laski. M.: Proqress, 1992, 554 s.
148. Uznarodov P. Konservatizm i liberalizm v anqliyskoy politiçeskoy tradiüii // Liberalğnıy konservatizm: istoriə i sovremennostğ. Materialı Vserossiyskoy nauçno-praktiçeskoy konferenüii. M.: «Rossiyskaə politiçeskaə gnüiklopediə» (ROSSPGN), 2001, 384 s.
149. Federalist. Politiçeskie gsse A. Qamilğtona, Dj. Medisona i Dj. Djeə. M.: Politizdat, 1993, 477 s.
150. Frenkin A.A. Zapodnoqermanskie konservatorı: kto oni? M.: Mejdunar. otnoşeniə, 1990, 213 s.
151. Fukuəma F. Koneü istorii i posledniy çelovek / F. Fukuəma; Per. s anql. M.B. Levina. M.: OOO «İzda-telğstvo AST: ZAO NPP «Ermak»»», 2004, 588 s.
152. Xabermas Ö. Modern – nezaverşennıy proekt // Voprosı filoso-fii, 1992, № 4, s. 40-52.
153. Xaydeqqer M. Razqovor na proseloçnoy doroqe: İzbr. St. pozd. Perioda tvorçestva / Per. s nem. M.: Vısş. şk., 1991, 190 s.
154. Xayek F. Paqubnaə samonadeənnostğ: Ohibki soüializma / Pod red. U.U.Bertli. Per. s anql. E.Osipovoy.. M.: «Novosti», 1992, 304 s.
155. Xayek F. Doroqa k rabstvu. M.: Nauka, 1992, 309 s.

156. Xayek F. İndividualizm i gkonomiçeskiy porədok. M.:Po-litizdat, 2000, 354 s.
157. Xantinqton S. Stolknovenie üivilizaüiy / S. Xantinqton; Per. s. anql. T. Velimeeva, Ö.Novikova. M.: OOO «İzdatelğstvo AST», 2003, 603 s.
158. Xantinqton S. Neupravləemostğ demokratii? // Demokratiə 1990-x.–speüialğnıy vıpusk jurnala «Qlobalğnıe problemı perexodnoqo perioda», 1993, № 6, s. 20-22.
159. Xeffe O. Plöralizm i tolerantnostğ: k leqitimaüii v sovremennom mire // Filosofskie nauki, 1991, № 12, s. 3-9.
160. Xiqqins R. Sedğmoy vraq. Çeloveçeskiy faktor v qlobalğnom krizise // Qlobalğnıe problemı i obheçeloveçeskie üennosti: (sbornik): Per. s anql. İ fr. Sostaviteli L.İ.Vasilenko, V.E.Ermolaeva; Vvod. St. Ö.A.Şreydera. M.: Proqress, 1990, 495 s.
161. Çap Ə. Soüial-demokratiə i sovremennaə ideoloqiçeskaə borğba. – Nauç. Dokl. Vısş. Şkolı. Nauç. Kommunizm. M.: 1981, № 5, s. 111-116.
162. Şapiro İ. Demokratiə i qrajdanskoe obhestvo // Politiçeskie issledovaniə, 1992, № 4, s 43-50.
163. Şişkina V.İ., Şişkin S.N. Teoriə i praktika sovremennoy skandinavskoy soüial-demokratii. – M.: İzd-vo MQU, 1980, 287 s.
164. Şmaçkova T. V mire partiy // Politiçeskie issledovaniə, 1992, № 1-2, s.225- 233.
165. Şpenqler O. Zakat Evropı: Oçerki morfoloqii mirovoy istorii. T. 1. M.: OOO «Poppuri», 1998, 688 s.
166. Şpet L. Filosofiə liberalğnoqo konservatizma. Voprosı filosofii, 1988, № 10, s. 117-121.
167. Gyzenştadt Ş. Revolöüiə i preobrazovanie obhestv. Sravni-telğnoe izuçenie üivilizaüiy / Per. s anql. A.V. Qordona pod red. B.S. Erasova. Moskva: Aspekt Press, 1999, 416 s.

168. Gldern T., Arter D. Usloviə dostijeniə konsensusa // Politoloqiə vçera i seqodnə. M., 1990, s.154-163.
169. Öm D. Traktat o çeloveçeskoy prirode // Öm D. Soç. v 2-x t. T.2. Per. s anql. S.İ.Üereteli: Primeç. İ.S.Narskoqo. M.: Kanon, 1995, 416 s.

**Dilqəm İsmayılov**

**LİBERALİZM**

**Bakı - 2013**

Texniki redaktor:
**Azər RƏSULOV**

Kompyuter operatoru və dizayner:
**Vəfa MƏMMƏDOVA**

***Kitab «AFPoliqrAF» mətbəəsində çap olunmuşdur***

---

Yığılmağa verilmişdir: 05.12.2012
Çapa imzalanmışdır: 21.01.2013
Kağız formatı: 60x84 1/16
Həjmi: 15,5 ç.v.
Sayı: 300